# İslamda Uşaq Tərbiyəsinin Əsasları

Müəllif: Muhamməd ibn Əbu Bəkr əl-Hənbəli

Tərcümə: Vüsal Əliyev

Redaktor: Fatimə Dadaşzadə

İxtisas redaktorları: İntiqam Məmmədli, Nicat Quliyev

Bu kitab **Məmmədov Eldar Ağayar oğlunun** şəxsi hesabına nəşr edilmişdir.

Kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin 09.04.2018-ci il tarixli DK-385/K saylı qərarına əsasən nəşr olunmuşdur.

© Vüsal Əliyev, 2018

بسم الله الرحمن الرحيم

**Mərhəmətli və Rəhimli Allah`ın adı ilə.**

Sizə təqdim olunan bu kitab böyük alim Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəlinin "ət-Tuhfətu`l-Məvdud fi tərbiyəti`l-Məvlud" – "Uşaqların tərbiyəsində sevimli töhfə" adlı kitabının tərcüməsidir. Tərcümə zamanı qısa olsun deyə onun adını "İslamda uşaq tərbiyəsinin əsasları" olaraq qeyd etmişik.

Bu əsər Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəlinin ən dəyərli əsərlərindən biri olaraq tanınır. Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəlinin faydalı əsərləri ilə hər zaman İslam elmlərinin inkişafında öz misilsiz rolunu oynamışdır. Onun tam olaraq adı Əbu Abdullah Şəmsəddin Muhammməd ibn Əbu Bəkr əl-Hənbəli əd-Diməşqidir.

O, Şamın mərkəzi sayılan Dəməşq şəhərində hicri 691-ci ildə dünyaya gəlmiş 751-ci ildə elə oradaca vəfat etmişdir. (Bu tarix miladi təqvimlə 1292-1350-ci illərə təsadüf edir)

Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəli *rahiməhullah* ilk təhsilini Dəməşqdə məşhur İslam mədrəsəsinin rəhbəri, öz zamanının alimlərindən hesab edilən atasından almışdır. Bundan sonra isə o dövrünün böyük alimlərindən elm almışdır. Onun elm aldığı alimlərdən bir neçəsi aşağıdakılardır:

Şeyx İbn Abdu əd-Dəim. Dövrünün böyük mühəddislərindən hesab olunur.

Bədrə`d-Din İbn Cəmaə

İmam Hafiz əz-Zəhəbi

əl-Hakim; Şamın böyük qazilərindən olub.

əl-Məcd əl-Hərrani və digər böyük alimlər.

Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəli *rahiməhullah* isə özündən sonra İslami elmlərin inkşafına töhfə verən bir çox alimlərin müəllimi olmuş, bir çox dəyərli tələbələr yetişdirmişdir. Bunlara misal olaraq bir neçəsini göstərmək olar:

İmam hafiz İbn Kəsir; böyük təfsir və tarix alimi.

İmam İbn Rəcəb əl-Hənbəli.

Hafiz ibn Abdu`l-Hədi.

Bürhanə`d-Din ibn Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəli. Oğludur.

Feyruzabadi və başqaları.

Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəli, əsərlərində ən çox insanın psixologiyasına misilsiz təsir edən, dərin mənalı sözləri, özünə məxsus şərhləri və açıqlamaları ilə yaddaşlarda qalmaqdadır. O həm də ixtisasca həkim olduğu üçün əsərləri ilə insanlara necə təsir etməyin yolunu gözəl bilirdi.

Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəlinin əsərləri İslam əqidəsini, İslam hüququnu, əxlaq məsələlərini, təfsir, sira və s. mövzuları əhatə edir. Bəzən o əsərlərini araşdırma xarakterli olaraq yazmış bir mövzu ətrafında olan rəyləri toplamış və öz münasibətini bildirməmişdir.

Sizə təqdim olunan bu əsər uşaq tərbiyəsi ilə bağlı bütün mövzuları əhatə edir. Əsasən valideynlər üçün lazımlı olan bu dəyərli kitab uşağın ana bətnində olan vaxtından, keçdiyi mərhələlərdən, uşaq dünyaya gəldikdən sonra onunla bağlı hökmlərdən, uşağın tərbiyəsindən, valideynlərin üzərinə düşən haqlardan, gündəlik məsələlərdən və sair önəmli mövzulardan bəhs edir. Kitab haqqında ümumi məlumat, əsərdə keçən hədisləri təxric edən Şeyx Bəşir Muhəmməd Uyun tərəfindən

verildiyi üçün mən onun mövzu haqqındakı məlumatına bir o qədər də geniş yer verməyəcəm.

Kitabın hədislərini Şeyx Muhəmməd Uyun *rahiməhullah* təxric etmişdir. O, Şamın tanınmış tədqiqatçı alimlərindəndir. Bu kitabla yanaşı o, Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəlinin bir çox kitablarının, həmçinin digər kitabların hədislərini təxric etmişdir.

Kitabı tərcümə edərkən bəzi şeyləri ixtisarla verməyi uyğun gördüm. Buna misal olaraq, müəyyən bir hədisin raviləri haqqında olan rəyləri göstərə bilərəm. Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəli *rahiməhullah* bəzən bir hədisin səhihliyini və ya zəifliyini isbat etmək, həmçinin orada olan ravilərin hallarını bildirmək üçün uzun bir araşdırma qeyd etmişdir. Oxucular üçün onu ixtisar edərək, son nəticəni qeyd etdim. Bəzən isə bir məsələ haqqında onlarla oxşar rəylər qeyd edilmişdir. Onu ixtisar edərək müəllifin üstünlük verdiyi əsas rəyləri qeyd etdim. Bunun kitabdan daha da faydalı istifadə edilməsinə daha uyğun olduğunu düşündüm. Həmçinin bəzi terminlərin əslini saxlayaraq aşağıda izahını verdim. Həmin sözün tərcüməçiyə aid olduğunu bildirmək üçün qısa olaraq mötərizə içərisində (Tər.) yəni tərcüməçinin qeydi olaraq yazdım.

Allah`dan I istəyimiz odur ki, bu kitabı heç bir kəsin və heç bir şeyin fayda verməyəcəyi bir gündə bizim üçün lehimizə yazılan əməllərimizdən etsin.

**Vüsal Əliyev**

**10 Fevral 2018-ci il**

بسم الله الرحمن الرحيم

Həmd aləmlərin Rəbbi, ər-Rahmən (mərhəmətli) və ər-Rahim (rəhimli), qiyamət günün sahibi olan Allah`a məxsusdur. Biz yalnız Sənə ibadət edir və yalnız Səndən yardım diləyirik. Bizi doğru yola yönəlt. Nemət vermiş olduğun kəslərin yoluna, azmışların və qəzəbə düçar olmuşların yoluna yox.

Allah`ım İbrahimə və ailəsinə xeyir dua verdiyin kimi Muhəmmədə ρ və onun ailəsinə də xeyir dua ver. Allah`ım İbrahimə və ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə ρ və onun ailəsinə də aləmlərdə bərərkrət ver. Həqiqətən də Sən şükür və təriflərə layiq və şəni ucasan.

Bundan sonra isə onu qeyd edək ki, bu kitab böyük alim Muhəmməd ibn Əbu Bəkr əl-Hənbəlinin öz nəvəsinə və ondan sonra gələn bütün uşaqlara töhfə etdiyi bir hədiyyədir. Bu elə nadir bir töhfədir ki, orada dünya və axirət xeyirləri cəm edilmişdir. Kitabın müəllifi toplanması çətin olan müxtəlif fiqh və hədis kitablarında uşaqlarla bağlı hökmləri bir kitabda toplamış və bu əsəri ilə eyni mövzuda təkrar olunmaz bir əsər qoyub getmişdir. Bu əsəri ilə müəllif, həm də İslam fiqhinə böyük bir töhfə vermiş və İslam fiqhində bütün hökmlərini əhatə edən bir mövzu üzrə fiqh kitabı yazmaqla özündən sonra gözəl bir sünnət qoymuşdur.

Kitabın müəllifi yeni doğulan uşaqla bağlı bütün hökmləri – əqiq, ad qoyma, sünnət və hər gün qarşılaşdığımız uşağın sidiyinin, ağız suyunun və s. hökmlərini bir yerdə topladıqdan sonra uşağın tərbiyəsi ilə bağlı bölmələr qeyd etmiş və onları tərbiyə etməyin, aralarında ədalətli davranmağın vacibliyindən söz açmışdır.

Müəllif (Allah`ın rəhməti onun üzərinə olsun) kitabda yuxarıdakı hökmləri qeyd etdikdən sonra əsasən aşağıdakı mövzulardan bəhs etməkdədir:

1. Ananın südünün qarışıq olduğundan dolayı doğumun ilk iki günündə uşağa süd verməməsi haqqında

2. Uşaqların ilk üç ayda bədənlərinin zəif olması səbəbilə qucaqda daşınmaqdan çəkinilməsi haqqında

3. Uşaqların dişləri çıxana qədər qidalandırmada yalnız südlə kifayətlənmək haqqında

4. İlkin olaraq qidalandırmada tədriciliyə əməl etmək və ilk öncə yumşaq qidalardan başlanması və çətin həzm olan qidalardan çəkinmək haqqında

5. Uşaqların dişləri çıxdığı dönəmdən tam çıxana qədər bərk əşyaları ağızlarına aparmalarından və ya onları dişləməsindən qorumaq və onun dişlərə əyrilik və s. fəsadlar verməsi haqqında

6. Uşaqların ağlamasının və qışqırmasının valideynləri narahat etməməsini tövsiyə edərək əslində ağlamağın uşaqların bədən üzvlərinin inkişafına, bağırsaqlarının böyüməsi və sinəsinin genişlənməsinə faydalı olması haqqında

7. Uşaqları qorxudan hər bir şeydən qorunmasının, əgər ona qorxu üz verərsə, onun əksi ilə ona qorxunun unudulmasının lazım olması haqqında

8. Uşağın dişinin çıxdığı əsnada ona xüsusi qayğının göstərilməsi haqqında

9. Süd əmizdirən qadın uşağını süddən ayırmaq istədikdə onu mərhələlərlə etməsi, bunun üçün uşağı ona məşq etdir-

məklə alışdırması və  adət etdiyi şeydən birdən-birə ayırmaqla ona zərər verəcəyindən qorxulması haqqında

10. Uşaqların çoxlu yemək və içməklə mədələrinin doldurulmaması, onları doymayacaq qədər yedirməklə həzmlərinin yaxşılaşdırılmasına, bədənlərinin artıq yeməkdən qorunması və cisimlərinin düzgün inkşafına şərait yaradılması haqqında

11. Uşaqları vaxtından əvvəl yeriməyə sövq etməmək və bunun nəticəsində ayaqlarında zəiflik və qəbul etməməsi səbəbi ilə əyrilik və qüsurun yaranması haqqında

12. Uşaqları ehtiyac olduğu halda qusmasına, yatmasına, yeməsinə, içməsinə, asqırmasına və sidiyə çıxmasına qəti olaraq mane olmamaq və əks halda onun xəstəliyinə yol açması haqqında

13. Uşağın kiçik yaşlarından əxlaqına xüsusi diqqət yetirmək və onun kiçik ikən aldığı tərbiyə üzrə yetişməsi haqqında. (Bu, müəllifin kitabda bəhs etdiyi ən gözəl mövzudur)

14. Uşağın çox yeməkdən,çox içməkdən, çox yatmaqdan və qarışıq yerlərdən çəkindirilməsi haqqında

15. Uşaqlara kiçik yaşlarından hansı işlərə uyğundursa onu öyrətmək, onun hazır olmadığı və istəmədiyi işlərə məcbur etməmək və bunun boş əziyyətə səbəb olması haqqında

Bundan sonra isə müəllif həm böyüklər, həm də kiçiklər üçün faydalı olacaq bir bölməyə keçir və orada insanın doğulduğu gündən iki məkandan – cənnət və cəhənnəmdən birində qalacağı vaxta qədər keçdiyi mərhələlərdən danışır. Bu bölmədə müəllif Abdullah ibn Məsuddan ψ rəvayət olunan hədisdəki ruhun üfrülməsi məsələsini araşdıraraq insanı başqa bir

şeyə yönəlməyə ehtiyac buraxmayacaq şəkildə açıqlamalar vermiş və bütün qaranlıq məsələlərə aydınlıq gətirmişdir.

**Kitab üzərində olan çalışmalar:**

Bundan öncə böyük alləmə və fəzilətli şeyx Abdu`l-Qadir əl-Arnaut *rahiməhullah* bu kitabın birinci nəşrində onun hədislərinin ixracına xüsusi önəm vermiş, bu zaman o, qiymətli əz-Zahiriyyə nüsxəsindən istifadə etmişdi. Bununla yanaşı şeyx Abdu`l-Həkim Şərəfu`d-Din orada olan hədisləri təxric etmiş, bəzi anlaşılmazlıqlarını şərh etmişdir. Allah onu xeyirlə mükafatlandırsın.

**Mənim kitab üzərində gördüyüm işlər:**

Kitab üzərində gördüyüm iş yalnız Şeyx Abdu`l-Qadirin gördüyü işləri tamamlamaqdan ibarətdir. Kitabın təxricində tam arxayınlıq olsun deyə, onu əsl nüsxəsi ilə qarşılaşdırdım. Onun əsl nüsxəsi əz-Zahiriyyə kitabxanasında 7087 rəqəmi altında qeydiyyatdadır. O, 132 səhifədən ibarətdir. Bu kitab Əli əş-Şatibi kimi bir çox böyük hənbəli alimlərinin əlindən keçmişdir. Onun bu nüsxəsini Abdullah ibn Əli ibn Aydoğdu əl-Hənbəli adlı əslən türk olan alim yazmışdır. O, bu nüsxəni hicri təqvimi ilə 22 Ramazan 807 ci ildə yazıb bitirmişdir. Bu isə müəllifin ölümündən 56 il sonra baş vermişdir.

Kitabda hədislərin yerini oxucuya baxması asan olan şəkildə qeyd etdim.

Sonda isə Allah`dan I bizi xeyirlə mükafatlanan şəxslərdən etməyini, dünya və axirətdə zərərə uğrayaraq bədbəxt olanlardan etməməyini istəyirik. Həqiqətən də O, duaları eşidəndir. O, bizə yetər. O nə gözəl Vəkildir.

Amin, valhəmdu lilləhi Rabbil aləmin. Allah`ın I salamı və duaları yaradılmışların ən xeyirlisi və peyğəmbərlərin sonuncusu Muhəmmədə ρ, onun ailəsi və səhabələrin üzərinə olsun. Uca və Əzəmətli Allah`dan I başqa güc və qüvvət sahibi yoxdur.

Mənə bu işdə yardımçı olan dəyərli ustadım Həsən əs-Səməhiyə də Allah I xeyirli mükafat versin.

**Bəşir Muhəmməd Uyun**

**Dəməşq/əl-Fəyha**

**Hicri 1408-ci ilin Şaban ayı (miladi 1988)**

بسم الله الرحمن الرحيم

ər-Rahmən və ər-Rəhim olan Allah`ın I adı ilə başlayır və yalnız Ondan yardım diləyirəm. Uca, əl-Azim, əl-Həlim, əl-Kərim, əl-Ğafur və ər-Rahim olan Allah`a I həmd olsun.

Aləmlərin Rəbbi, rəhməti hər şeyi əhatə edən, axirətdə yalnız möminlərə rəhm edən, haqq-hesab gününün sahibi olan Allah`a I həmd olsun. O insanın ilkin yaradılışını palçıqdan etdi, sonra isə onun ilkin yaradılışını nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdi. Nütfədən baxanlara qara rəngdə görünən qan laxtası yaratdı, sonra isə onu ət parçasına çevirdi. Ət parçasından isə insanın quruluşunu formalaşdıran müxtəlif həcm və şəkillərdə sümüklər yaratdı. İnsanın, üzərində dura bilməsi üçün yaratdığı bu sümüklərin üzərini sanki bir geyim kimi ətlə örtdü. Bütün bunlardan sonra isə O, insanı yeni bir yaradılış formasında dünyaya gətirdi. Yeganə yaradan olan Allah I necə də Ucadır.

Qüdrəti hər şeyi əhatə edən, bütün işlərin yalnız Onun istəyi ilə baş verdiyi, yerlərin və göylərin mülkünə təklikdə sahib olan Allah I bütün eyiblərdən və nöqsan sifətlərdən münəzzəhdir (uzaqdır).

لِّلَّهِ مُلۡكُ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِۚ يَخۡلُقُ مَا يَشَآءُۚ يَهَبُ لِمَن يَشَآءُ إِنَٰثٗا وَيَهَبُ لِمَن يَشَآءُ ٱلذُّكُورَ

**O, istədiyini yaradır; kimə qız uşaqları, kimə də oğlan uşaqları bəxş edir.** (Şura 49) O ən Uca olan əl-Aliyy, əzəmət sahibi əl-Azim, qullarına qarşı həlim, yaratdıqlarına ikram

edən əl-Kərim, hər şeyi eşidən əs-Səmi, hər şeyi görən əl-Basir və hər şeyi bilən əl-Alim olan Allah`dır I.

هُوَ ٱلَّذِي يُصَوِّرُكُمۡ فِي ٱلۡأَرۡحَامِ كَيۡفَ يَشَآءُۚ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡعَزِيزُ ٱلۡحَكِيمُ ٦

**Bətnlərdə sizə istədiyi surəti verən Odur. Ondan başqa ilah yoxdur, Qüdrətlidir, Müdrikdir.** (Əli İmran 6)

Mən şahidlik edirəm ki, Allah`dan I başqa ibadətə layiq olan haqq məbud yoxdur. O təkdir, şəriki yoxdur. O elə bir ilahdır ki, nə Onun bir bənzəri, nə də bir oxşarı vardır. O müşriklərin Ona qoşduqları şəriklərdən Ucadır. O, yaratdıqları ilə eyni olmaqdan münəzzəhdir.

لَيۡسَ كَمِثۡلِهِۦ شَيۡءٞۖ وَهُوَ ٱلسَّمِيعُ ٱلۡبَصِيرُ ١١

**Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.** (Şura 11)

Həmçinin şahidlik edirəm ki, Muhəmməd ρ Onun qulu və elçisidir. O, Allah`ın yaratdıqlarının içərisində ən seçilmişi, vəhyinə ən əmin olanı, qullarına höccət olanıdır. Allah I onu aləmlərə rəhmət, bəşəriyyətə örnək, bütün qullarına öndər olaraq göndərdi. Onunla zəlalət hidayətə qovuşdu, onunla cəhalət elmə yönəldi, onunla bərəkətləndi, zəlil olan haqq əhli izzətləndi, mənəvi fəqirlikdən onunla zənginliklər hasil oldu. O öz risaləti ilə kor gözləri nura boyadı, haqqa kar olan qulaqları eşitməyə müvvəfəq etdi, qafil qəlbləri oyatdı. Ona verilən böyük əmanəti qorudu, ümmətinə nəsihətlər edərək, göstərişlər verərək şəriətin bütün əhkamlarını, İslam dininin hər bir qanununu təbliğ etdi. ər-Rahmən olan Allah`ın I

tərəfdarları onunla izzətləndi, şeytanın ordusu isə onun risaləti qarşısında zəlilliyin acısını daddı. Zamanın üzü parlamağa, zülmətlərin üzərinə nur doğmağa, tərəddüd içərisində şübhələrlə yolunu tapa bilməyənlər doğru yola yönəlməyə başladı. Allah`ın I, mələklərin, nəbilərin, rəsulların və bütün mömin qulların salamı və xeyir-duası onun üzərinə olsun.

Uca Allah I insan bu dünyaya gəlişindən, son mənzilə yola salınacağı günə qədər onun üzərində icra olunması lazım olan müxtəlif hökmlər təyin etmişdir. Ana bətnində 3 qatdan ibarət olan zülmət içərisində yaşayarkən onun üzərində qədərə bağlı olan hökmlərin icrası cərəyan edirdi. Artıq anasının bətnindən ayrıldıqdan sonra başqalarından asılı olmayan hökmlərin icrası dövrü sona çatdı və icrası vacib olan, əmrlərlə bağlı hökmlərin həyata keçirilməsi dövrü gəldi. Bu əmrlərin cavabdehi valideynlər, yaxud onun tərbiyəsindən və saxlanmasından məsul olan şəxslər idi. İlkin başlanğıcda Allah`ın I, uşağın böyüməsindən və öz ayaqları üstündə durmasından cavadeh olan şəxslər üzərində hökmləri vardır. Büluğ dövrünə çatdığı zaman isə artıq onun özünün icrasına mükəlləf olduğu hökmlər mövcuddur. Bununla qələmlər onun əməllərini yazmağa başlayır və vəziyyətindən asılı olaraq ona qarşı İslam əhlinin, yaxud küfr əhlinin müamiləsi edilir.

Bu yola ayaq basmaqla o, özünü ya səadət mənzilinə (Cənnətə), ya da bədbəxtlik məkanına (Cəhənnəmə) hazırlayır. Gecələr və gündüzlər anbaan onu əhlindən olması təqdir olunan yerə doğru aparır. Yaşının hər bir mərhələsi o mənzillər səbəbi ilə ötüb keçir, əməlləri isə onlardan birinin qazanılması üçün edilir. Artıq həyat gəzintisinin son mərhələsi bitməyə doğru

gedir və onun üçün hələ o yaranmadan öncə qədərilə tikilmiş qəbir evinə məskən salır. O mənzil onun üçün ya səadət, ya da əzab əziyyət mənzili olur. Burada artıq boynundan səfər yükünü yerə qoyur. Öz yurdunda məskunlaşaraq ya ədalət məkanında, ya da səadət evində qərartutur.

**Fəsil**

Kitabın yazılmasında əsas məqsədimiz dünyaya gəldikdən sonra yeni doğulan uşaqla bağlı olan şəri hökmləri açıqlamaqdır. Belə ki, kitabda hələ kiçik olduğu müddətcə əqiq və onun hökmləri, saçının qırxılması, adının qoyulması, xitan (sünnət) edilməsi, idrarı, qulağının deşilməsi, tərbiyə olunması və nütfə olduğu zamandan Cənnətdə və ya Cəhənnəmdə sakin olacağı zamana kimi keçirdiyi mərhələlər açıqlanmışdır. Kitab məna etibarı ilə bir çox lazımi məsələləri ehtiva etdiyi üçün çox faydalıdır. Bədii təfsiri bilinməsinə, şərh edilməsinə və ixtilaflarının cəm edilərək açıqlanmasına ehtiyac duyulan hədislər, fiqhi məsələlər və öyrənilməsinə çox böyük ehtiyac olan faydalı hikmətləri əhatə etməsi səbəbi ilə demək olar ki, bənzəri olmayan bir kitabdır. İnsanın yaşayışını və axirət əməllərini islah etməsi ilə onu oxuyan ondan zövq alar, nəzər yetirənin isə xoşuna gələr. Allah`ın I övlad bəxş etdiyi hər bir kəsin bu kitabın əhatə etdiyi mövzulara ehtiyacı vardır. Allah`dan I bunun üçün savab diləyir və doğru yolda mənə yardım etməsini istəyirəm. Həqiqətən O, əl-Kərim (bol xeyir bəxş edən) və əl-Cəvaddır (səxavəti bol olan). Mən bu kitabımı belə adlandırdım: “Uşaqların tərbiyəsi üçün sevimli töhfə”.

## BİRİNCİ BÖLÜM

### Övlad istəməyin müstəhəbliyi (bəyənilməsi)

Allah I buyurur:

فَٱلۡـَٰٔنَ بَٰشِرُوهُنَّ وَٱبۡتَغُواْ مَا كَتَبَ ٱللَّهُ لَكُمۡۚ

**“...Artıq bundan sonra onlara (zövcələrinizə) yaxınlaşın və Allah\`ın sizin üçün yazdığını tələb edin...”** (Bəqərə 187)

Ayənin təfsirində Şubə Hakəmin, o da Mücahidin belə dediyini rəvayət edir: **“Allah\`ın sizin üçün yazdığını tələb edin...”** ayəsində məqsəd övladdır”. Hakəm, İkrimə, Həsən əl-Bəsri, Suddi və Dahhak da ayəni eyni cür təfsir etmişdilər. Muhəmməd ibn Sad atasının belə dediyini rəvayət edir: “Mənə əmim, əmimə atam, atama da atası İbn Abbas τ ayəni təfsir edərək demişdir: “Burada nəzərdə tutulan övladdır”. İbn Zeyd burada nəzərdə tutulan şeyin cinsi münasibət olduğunu söyləmişdir. Qatadə bu ayəni “Allah\`ın I sizin üçün yazdığı rüsxətini arayın” kimi təfsir etmişdir. İbn Abbasdan ψ gələn başqa bir rəvayətdə isə ayədə nəzərdə tutulan mənanın “qədr gecəsi” olduğunu bildirilir.

Məsələyə tam kökündən baxsaq deyə bilərik ki, Allah I ümmət üçün asanlıq olsun deyə oruc gecələrində günəş doğana kimi qadınlarla cinsi münasibəti mübah qılmışdır. Bundan öncə isə bu, caiz deyildi və cima etmək istəyən şəxsə az qala qəlbinə başqa bir şey gələnə kimi şəhvət və məqsədinə yetişmək qalib gəlirdi.[1] Allah I bu ləzzətin içində Onun rizasını

---

[1] Müəllifin burada qeyd etmək istədiyi Bəqərə surəsinin 187-ci ayəsinin təfsiridir. İbn Kəsir *rahimahullah* ayənin təfsirində qeyd edir ki, İslamın ilk

tələb etməyin yolunu onlara doğru bir şəkildə göstərdi və yalnız şəhvətə görə cinsi münasibətdə olmayıb, əksinə onunla Allah`ın I onlar üçün yazdığı savabı qazanmağı öyrətdi. Belə ki, onlar bu əlaqə ilə Allah`dan I Ona heç bir şərik qoşmayan övladlar tələb edə, Allah`ın I onlar üçün rüxsət olaraq mübah etdiyi bir şeyi Onun hökmünə layiq şəkildə qəbul edərək Allah`ın I məhəbbətini qazana bilərdi. "Həqiqətən də Allah özünə qarşı asi olmaqdan xoşlanmadığı kimi, Onun rüxsətləri ilə əməl etməyi də sevir."[2] Onlar qədr gecəsində də eyni fəziləti istəməklə, cinsi münasibətdə olmaqla əmr olunmuşdular.

Sual yarana bilər ki, Allah`ın I qədr gecəsini müsəlmanlara bəxş etməsi və müsəlmanların Ramazan ayı boyunca bu gecəni axtarmağınının, qadınlarla cinsi münasibətdə olmaqla nə əlaqəsi vardır?! Burada, qadınlarla mübah edilən cinsi münasibətin müsəlmanlara min aydan daha xeyirli olan qədr gecəsini axtarmağa mane olmaması üçün bir nəsihət vardır. Sanki Allah I bununla bizə bildirir ki, "Qadınlarınızla oruc gecəsində ehtiyaclarınızı aradan qaldırın və bu sizin, Allah`ın I sizin üçün yazdığı və üstün tutduğu gecəni ihya etməyinizə mane olmasın". Allah I ən doğrusunu bilir.

dövrlərində oruclu olan şəxs iftar etdikdən sonra işa namazına qədər yeyə, içə, cinsi münasibətdə ola bilərdi. İşadan sonra isə bu qadağan idi. Bu müsəlmanlara çox məşəqqətli gəldi və Allah I onlar üçün bunu yüngülləşdirdi və oruc gecəsi olan bu qadağaları mübah etdi.

[2] Əhməd: 2/108, Təbərani: "əl-Əvsat". Albaninin də "İrva" kitabında 564 rəqəmi ilə söylədiyi kimi hədis səhihdir.

Ənəs τ rəvayət edir ki, "Allah Rəsulu ρ evlənməyi əmr etdi və tərki-dünya olmağı qəti şəkildə qadağan edərək dedi: "Sevilən və doğan qadınlarla evlənin ki, mən qiyamət günü sizin çoxluğunuzla digər peyğəmbərlərin qarşısında öyünüm".[3]

Məqil ibn Yasər rəvayət edir ki, "Bir kişi Allah Rəsulunun ρ yanına gələrək belə dedi: "Mən gözəl, göyçək bir qadına aşiq olmuşam. Ancaq o, uşaq dünyaya gətirmir. Onunla evlənə bilərəmmi?" Allah Rəsulu: ρ "xeyr" – deyə cavab verdi. Sonra o kişi ikinci dəfə gəldi. Allah Rəsulu ρ yenə ona bunu qadağan etdi. Üçüncü dəfə gəldiyi zaman isə belə buyurdu: "Uşaq dünyaya gətirən qadınlarla evlənin, mən sizin çoxluğunuzla öyünəcəm".[4]

Abdullah ibn Amr τ Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət edir: "Övlad anaları olan (övlad dünyaya gətirə bilən) qadınlarla evlənin, qiyamət günü mən sizinlə fəxr edəcəm".[5]

Aişə ɋ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: "Evlilik mənim sünnətimdəndir. Kim mənim sünnətimlə əməl etməzsə, məndən deyildir. Evlənin! Şübhəsiz ki, mən qi-

---

[3] Hədisi İmam Əhməd və Əbu Hatim "Səhih" Asərində rəvayət etmişdir. İbn Hibban səhih olduğunu demiş, Heysəmi həsən olduğuna hökm etmişdir. Hədis bir çox digər mənbələrdə də keçərək səhihliyini gücləndirir.
[4] Əbu Davud: 2050, Nəsai: 6/25-26. Hakim hədisin səhih olduğunu demiş, Zəhəbi də bunu təsdiqləmişdir.
[5] İmam Əhməd "əl-Musnəd": 3/ 172.

yamət günü sizin çoxluğunuzla digər ümmətlər qarşısında fəxr edəcəm".[6]

Həmmad ibn Sələmə Asimdən, o Əbu Salihdən, o da Əbu Hüreyrədan τ Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət etmişlər: "(Qiyamət günü) bir qulun dərəcəsi qaldırılacaq. O deyəcək: "Ey Rəbbim! Bunlar mənə hardandır?" (Allah I) deyəcək: "Bu, səndən sonra övladının sənin üçün bağışlanma diləməsi səbəbilədir".[7]

**Fəsil**

Övlad istəməyə təşviq edən hədislərdən biri də Müslimin "Səhih" kitabında Əbu Həssəndən rəvayət olunan hədisidir. O demişdir: "İki oğlum vəfat etdi. Mən Əbu Hüreyrəyə τ dedim: "Sən Peyğəmbərdən ρ elə bir hədis eşitmisənmi ki, onu bizə danışdığında nəfsimizə ölülərimiz haqqında bir rahatlıq gətirsin? O: "bəli" – dedi və rəvayət etməyə başladı: "Az yaşlı uşaqlarınız[8] cənnət səyyahlarıdır.[9] Onlardan biri öz atasını (və ya hər iki valideynini) qarşılayıb eynilə mənim sənin paltarından tutduğum kimi paltarının ətəyindən, ya da

---

[6] İbn Məcə: 1846. Busiri "Zəvaid"-də hədisin sənədindəki İsa ibn Meymun əl-Mədininin zəif olması üzərindəki ittifaqa əsaslanaraq hədisin zəif olduğunu deyib. Buna baxmayaraq hədisin səhihliyini göstərən başqa rəvayətlər də mövcuddur.

[7] İmam Əhməd: "əl-Musnəd": 2/509. Eyni məna ilə İbn Məcə: 3660. Busiri "Zəvaid"də isnadının səhih, ravilərinin isə siqa (inanılan yaxud etibarlı) olduğunu demişdir.

[8] Kiçik yaşda vəfat edən müsəlman uşaqları nəzərdə tutulur.

[9] Hədisidə keçən "dəamis" sözünün mənası istənilən evə daxil olan, hər işə qarışan mənasındadır. Dünyada ikən uşaq olduqlarından dolayı onlara bu qadağa olunmadığı üçün Cənnətdə də qada olmayacaqdır. ("Lisanu`l-Arab" izahlı lüğəti).

əllərindən tutacaq və Allah I onu və atasını (valideynini) Cənnətə daxil edənə kimi buraxmayacaq".[10]

İmam Əhməd demişdir: "Vəki Şubədən, Şubə Muaviyə ibn Qurradan, o isə atasından rəvayət etmişdir: "Bir kişi oğlu ilə birgə Peyğəmbərin ρ yanına gəldi. Peyğəmbər ρ ondan "Onu sevirsənmi?" deyə soruşdu. O dedi: "Ey Allah`ın Rəsulu! Mənim onu sevdiyim kimi Allah I da səni sevsin". Bir müddət Peyğəmbər ρ onu görə bilmədi. Peyğəmbər ρ həmin şəxsin oğlu haqqında: "Filankəsin oğlu nə oldu?" – deyə soruşdu. "Öldü, ey Allah`ın Rəsulu!" – deyə cavab verdilər. Peyğəmbər ρ uşağın atasına belə dedi: "Sənə açılan Cənnət qapılarının hər hansı birisinin qarşısına gəldiyin zaman övladını onun qarşısında dayanıb səni gözləyən görmək istəməzsənmi?" Başqa bir kişi dedi: "Bu yalnız ona mı məxsusdur, ey Allah`ın Rəsulu, yoxsa hər birimizə?" Peyğəmbər ρ buyurdu: "Xeyr, bu sizlərdən hər birinə aiddir".[11]

İbn Abbasdan τ belə dediyi rəvayət olunur: "Allah Rəsulunun ρ belə buyurduğunu eşitdim: "Ümmətimdən hər kim iki uşağını itirərsə, cənnətə daxil olar. Aişə τ soruşdu: "Atam-anam sənə fəda olsun, bəs bir uşağını itirərsə, onda necə?" O buyurdu: "Hər kimin bir övladı belə ölsə, eyni müvəffəqiyyəti qazanar". O yenə soruşdu: "Bəs ümmətindən itirdiyi bir kəsi olmayan necə?" Peyğəmbər ρ dedi: "Mən də (ölümümlə)

[10] Müslim: 2635. İmam Əhməd "əl-Musnəd": 2/477-510.
[11] İmam Əhməd "əl-Musnəd": 5/35. İsnadı səhihdir. Həmçinin Nəsai: 4/23.

ümmətimin bir itkisiyəm, mənim (ölümümə) bərabər olacaq bir müsibət yoxdur”.[12]

Buxari və Müslim Əbu Səid əl-Xudridən τ Allah Rəsulunun ρ qadınlara belə buyurduğunu rəvayət etmişdir: “Sizlərdən hər hansı bir qadının üç övladı olub, dünyasını dəyişərsə, həmin övladları onu Cəhənnəm atəşindən qoruyan pərdə olar”. Qadınlardan biri dedi: “Bəs ikisi ölsə necə?” Peyğəmbər ρ buyurdu: “İkisi də”.[13]

Müslim “Səhih” kitabında Əbu Hureyrədən τ də eyni hədisi rəvayət etmişdir. Həmçinin İbn Məsud və Əbu Bərzə Əl Əsləmi ψ də Allah Rəsulundan ρ bu hədisi rəvayət etmişlər.

Buxari və Müslimdə rəvayət olunan hədisdə Əbu Hüreyrə τ Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət etmişdir: “Həddi-büluğa çatmadan üç övladı vəfat edən hər bir müsəlmana Cəhənnəm atəşi ancaq yüngülcə toxunar”.[14]

Buxarinin “Səhih” kitabında da Ənəsdən τ Allah Rəsulunun ρ belə buyurduğu rəvayət olunur: “Müsəlmanlardan hər kimin həddi-büluğa çatmamış üç övladı vəfat edərsə, Allah I onu övladlarına mərhəmət olaraq Cənnətə daxil edər”.[15]

---

[12] İmam Əhməd “əl-Musnəd” : 1/335, Tirmizi: 1062. İsnadının həsən olduğu ehtimal olunur.
[13] Buxari: 101, Müslim: 2633, İmam Əhməd “əl-Musnəd”: 3/34 .
[14] Buxari: 1251, Müslim: 2632.
[15] Buxari: 1248, 1381.

Müslimin "Səhih" kitabında Əbu Hüreyrənin τ belə dediyi rəvayət olunur: "Bir qadın öz övladı ilə Peyğəmbərin ρ yanına gələrək: "Ey Allah`ın nəbisi! Bunun üçün Allah`a dua et. Mən üç övladımı dəfn etmişəm" – dedi. Peyğəmbər ρ soruşdu: "Üçünü dəfn etmisən?" Qadın: "Bəli" – deyə cavab verdi. Peyğəmbər ρ buyurdu: "Artıq sən Cəhənnəmin alovuna qarşı güclü bir hasarla himayə olunursan".[16]

Beləliklə, övlad elə bir nemətdir ki, valideynin ölümündən sonra yaşasa da, yaxud onlardan öncə ölsə də yenə hər ikisinə fayda verər.

Müslim öz "Səhih" kitabında Əbu Hüreyrədən τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət edir: "İnsan öldüyü zaman üç şey xaricində onun əməlləri kəsilər. Bu isə özündən sonra qoyub getdiyi daimi sədəqə,[17] başqalarının onunla yararlandığı faydalı elm[18] və onun üçün dua edəcək saleh bir övladdır".[19]

**Fəsil**

Allah`ın I

---

[16] Müslim: 2636.

[17] Burada nəzərdə tutulan hər zaman insanlara fayda verəcək bir işdən söhbət gedir ki, buna da misal olaraq məscid tikmək, yol çəkmək, su çəkmək və sair kimi əməlləri göstərə bilərik.
[18] Burada nəzərdə tutulan yazdığı kitablar, etdiyi faydalı kəşflər və sair kimi əməllərdir.
[19] Müslim: 1631.

وَإِنۡ خِفۡتُمۡ أَلَّا تُقۡسِطُواْ فِي ٱلۡيَتَٰمَىٰ فَٱنكِحُواْ مَا طَابَ لَكُم مِّنَ ٱلنِّسَآءِ مَثۡنَىٰ وَثُلَٰثَ وَرُبَٰعَۖ فَإِنۡ خِفۡتُمۡ أَلَّا تَعۡدِلُواْ فَوَٰحِدَةً أَوۡ مَا مَلَكَتۡ أَيۡمَٰنُكُمۡۚ ذَٰلِكَ أَدۡنَىٰٓ أَلَّا تَعُولُواْ ٣

**Yetim qızlara qarşı ədalətli olmayacağınızdan qorxursunuzsa, onda xoşunuza gələn (halal) qadınlardan ikisi, üçü və dördü ilə evlənin. Əgər (o qadınlarla) ədalətlə dolanmayacağınızdan qorxursunuzsa, onda (onlardan) biri ilə və yaxud sahib olduğunuz cariyələrlə (kifayətlənin). Bu, haqsızlıq etməməyə daha yaxındır.** (Nisə 3) ayəsinə gəldikdə isə İmam Şafii *rahimahullah* demişdir: “Ailənizi artırmaqla məsuliyyətinizi artırmayın və ayə də dəlildir ki, ailənin azlığı daha yaxşıdır”.

İmam Şafii *rahimahullahın* belə deməsinə baxmayaraq sələfdən və xələfdən olan təfsir alimlərinin əksəriyyəti bu görüşündə ona müxalif olmuşdurlar. Onlar ayənin mənasının əslində bu cür olduğunu qeyd etmişlər: “Bu, sizin zülm etməməyiniz və (əyilməməyinizə) ədalətsiz davranmamağınıza daha yaxındır”.

Orada işlənən sözün mənasına gəlincə isə insanın ədalətsiz davranıb, zülm etməyi “alə (عال), yəuulu (يعول), aulən (عولا)” kəlməsiylə bildirilir. Həmçinin fəraid elmində[20] “əl-avl” (العول) termini də mövcuddur[21] və pay sahiblərinin çoxalması mənasındadır. Bir şeyə ehtiyac duyması isə əələ (عال), yəiilu (يعيل), iylətən (عيلة) kəlmələri ilə ifadə edilir. Allah I buyurur:

---

[20] Mirasın şərii yolla bölünməsini öyrənən elm.

[21] “əl-Avl” varislərin çox olması ilə onlara düşəcək payın dəyərinin azalması anlamında işlənilir.

وَإِنۡ خِفۡتُمۡ عَيۡلَةٗ فَسَوۡفَ يُغۡنِيكُمُ ٱللَّهُ مِن فَضۡلِهِۦٓ إِن شَآءَۚ إِنَّ ٱللَّهَ عَلِيمٌ حَكِيمٞ ٢٨

**Əgər kasıblıqdan qorxursunuzsa, (bilin ki,) Allah istəsə, Öz lütfündən (bəxş etməklə) sizi varlandırar**. (Tövbə 28)

Şair demişdir:

ومايدري الفقير متى غناه...ومايدري الغني متى يعيل

"Kasıb necə bilsin ki, nə vaxt var əldə edəcək,

Varlı haradan bilsin ki, varı əldən gedəcək."

Yəni – nə vaxt kasıb və ehtiyac sahibi olacaq.

Övladın çoxalması sözünə gəlincə isə bu feillərdən heç biri ilə ifadə olunmur. Övladların çoxalması əa`lə, yuilu (يعيل أعال) feili ilə ifadə olunur. Məsələn "əalə`r-raculu" , "yuilu" kişinin övladı çoxaldı mənasındadır. Bu, dilçi alimlərin rəyidir. [22]

əl-Vahidi özünün "Bəsit" kitabında bütün təfsir alimləri və dilçilərin belə dediklərini nəql edir: "Təulu" kəlməsinin mənası (haqdan) meyl etmək və zülmkar davranmaqdır". Bununla yanaşı mərfu[23] hədisdə belə deyildiyi rəvayət olunur: "Peyğəmbər ρ ayənin açıqlaması haqqında dedi: "Yəni zülm etməyəsiniz".[24] Başqa bir rəvayətdə isə belə deyilir: "Haqdan meyl

[22] Müəllifin oxucuların nəzərinə çatdırmaq istədiyi orada işlənən sözün ailəni artırmaq deyil, zülm etməmək anlamında gəldiyini bildirməkdir. Bununla da bir qadınla evlənməyin üstünlüyü İmam Şafiinin dediyi kimi ailənin çoxluğundan deyil, zülm etmək ehtimalına bağlıdır.

[23] Mərfu hədis sənədi Peyğəmbərə ρ qədər gedib çıxan hədisdir.

[24] İbn Hibban "Səhih" kitabında 1730 rəqəmi ilə rəvayət etmişdir. İbn Kəsir İbn Əbu Hatimdən onun öz sözünü nəql edərək belə demişdir: "Atam dedi

etməyəsiniz". Bu həmçinin İbn Abbas, Həsən, Qatədə, Rabii, Suddi, Əbu Malik, İkrimə, Fərra, Zəccac, İbn Quteybə və İbnu`l-Ənbəri kimi alimlərin görüşüdür".

Baxmayaraq ki, İmam Şafii öz iddiasında Fərranın Kəsaidən etdiyi nəqlinə əsaslanmış mən deyirəm ki, həqiqətən də ayə bu mənaya dəlalət edir. Kəsai bəzi səhabələrin ayədəki sözün övladların artması mənasında işləndiyini demişdir. O həmçinin bunun ərəblərdən eşitdiyi əsl ədəbi dil olduğunu bildirmişdir. Ancaq bizim dediyimiz mənanı bir neçə yöndən dəstəkləyən səbəblər vardır.

Birincisi: Bu kəlmənin övladların artması mənasını verməsi iddiasını Kəsaidən başqa heç kim deməmişdir. Digər dilçilər bunun əksini söyləmişlər.

İkincisi: Birinci görüşün dəlili ğarib hədis[25] olsa da bu rəvayət Allah Rəsulundan ρ nəql olunmuşdur. Buna görə də o, racih[26] görüş olmağa daha uyğundur.

Üçüncüsü: Birinci görüş Aişə ɡ və İbn Abbasdan τ rəvayət olunmuş və təfsir alimlərindən də onların bu sözünə müxalif bir şey deyən olmamışdır. Hakim Əbu Abdullah demişdir: "Bizə görə səhabənin təfsiri mərfu hökmündədir".[27]

---

ki, bu hədisə mərfu deyilməsi doğru deyildir. Doğru olan bu hədisin Aişədən τ məvquf (Aişənin özünə nisbət edilən) olmasıdır".

[25] Ğarib hədis yalnız bir səhabədən (ravidən) rəvayət olunan hədisə deyilir.

[26] Racih görüş bir məsələ ətrafında bir neçə rəy olduğunda müəyyən əsaslarla üstünlük verilən rəydir

[27] Hakim səhabənin təfsirini mərfu yəni Peyğəmbərə ρ nisbət edilən söz hesab etmişdir. Bu xüsusən rəy (ictihad) qəbul etməyən ayələrin təfsirinə

Dördüncüsü: Doğan qadınlarla evlənməyə təşviq edən dəlillər və Peyğəmbərin ρ ümmətinin çoxluğu ilə qiyamət günü fəxr edəcəyini deməsi bu təfsiri (Şafiinin təfsirini) əsassız edir.

Beşincisi: Ayənin ümumi mövzusu onları, zülm və haqsızlıq etməkdən qorxduqları məsələlərdən başqa bir yönə istiqamətləndirmir. Allah I ayənin əvvəlində buyurur:

وَإِنۡ خِفۡتُمۡ أَلَّا تُقۡسِطُواْ فِي ٱلۡيَتَٰمَىٰ فَٱنكِحُواْ مَا طَابَ لَكُم مِّنَ ٱلنِّسَآءِ مَثۡنَىٰ وَثُلَٰثَ وَرُبَٰعَۖ

**"Yetim qızlara qarşı ədalətli olmayacağınızdan qorxursunuzsa, onda xoşunuza gələn (halal) qadınlardan ikisi, üçü və dördü ilə evlənin."** Ayənin bu hissəsində Allah I onlara yetimlərə zülm etməkdən xilas olmağın yolunu göstərir ki, bu da onların xoşlarına gələn həddi-büluğa yetişmiş qadınlarla evlənməkdir. Sonra da onların arasında ədalətli davrana bilməməkdən ortaya çıxacaq zülm və haqsızlıqdan xilas olmağın da yolunu göstərərək belə buyurur:

فَإِنۡ خِفۡتُمۡ أَلَّا تَعۡدِلُواْ فَوَٰحِدَةً أَوۡ مَا مَلَكَتۡ أَيۡمَٰنُكُمۡۚ ذَٰلِكَ أَدۡنَىٰٓ أَلَّا تَعُولُواْ ٣

**"Əgər (o qadınlarla) ədalətlə dolanmayacağınızdan qorxursunuzsa, onda (onlardan) biri ilə və yaxud sahib olduğunuz cariyələrlə (kifayətlənin). Bu, haqsızlıq etməməyə daha yaxındır."** Sonda da Allah I xəbər verərək bildirir ki, bir qadınla və sahib olunan cariyə ilə kifayətlənmək zülm və haqsız-

---

aiddir. Bəzi alimilər də bu görüşdə olmuşdur. Ancaq doğru olanı odur ki, səhabənin təfsiri məvqufdur, yəni səhabənin özünə aid olan sözdür.

lıq etməməyə daha yaxındır. Bu da ayədə açıq-aydın qəsd olunan fikirdir.[28]

Altıncısı: Allah`ın I "**Əgər (o qadınlarla) ədalətlə dolanmayacağınızdan qorxursunuzsa ....**" ifadəsiylə "**onda (onlardan) biri ilə və yaxud sahib olduğunuz cariyələrlə (kifayətlənin)...**" ifadəsinin (ikinci görüşlə) bir yerdə istifadə olunması mümkün deyil. Çünki, belə olduğu təqdirdə də övladın çoxalması halı istisna deyil. Bu səhv yanaşmadır. Buna diqqət edin!

Yeddincisi: Belə bir ifadənin onlara deyilməsi qəbul edilməzdir: "Əgər dörd nəfərin arasında ədalətli davranmamaqdan qorxsanız, o zaman istədiyiniz cariyələrdən yüz və daha çoxu ilə evlənin. Həqiqətən də bu övladınızın çoxalmaması üçün daha uyğundur".

Səkkizincisi: Allah`ın I "**Bu, haqsızlıq etməməyə daha yaxındır**" ifadəsi ayədə keçən hər iki hökm üçün illət (səbəb) təşkil edir. Bu isə öz növbəsində kişiləri yetimləri nikahlamaqdan çəkindirib həddi-büluğa çatan qadınlarla evlənməyə, dörd qadınla nikahlanmaqdan çəkindirib bir qadınla və ya sahib olduqları cariyələrlə nikahlanmağa təşviq etməkdir. Bu ayənin ailə sayının azlığı ilə açıqlanması isə doğru deyil.

Doqquzuncusu: Allah I ayədə "Kasıblamaqdan və ya möhtac vəziyyətə düşməkdən qorxursunuzsa" deyil "**Əgər (o qadınlarla) ədalətlə dolanmayacağınızdan qorxursunuzsa**" deyə buyurur. Əgər orada məqsəd ailənin azlığının üstünlüyünü bildirmək olsaydı, o zaman bu cür ifadə edilməsi daha uyğun olardı.

---

[28] Bu, görüşlər arasında ən güclü olanıdır.

Onuncusu: Allah I qadağan edilən hər hansısa bir hökmü bildirdiyi zaman onun qadağan edilməsini müəyyən bir illətə[29] bağlayır. Yaxud da bir şeyi mübah etdiyi zaman onun yoxluğunu da müəyyən bir səbəblə əlaqələndirir. Göstərilən illət isə hökmün əksi ilə qarşılıq təşkil etməlidir. Allah I yetimlərdən başqası ilə evlənməyin mübahlığını bildirməklə yanaşı, bundan başqa bir qadınla və yaxud sahib olduğu cariyələrlə kifayətlənməyin halallığını, bunun zülm etməmək üçün daha uyğun olmasına illət təyin edib. Bu da məlumdur ki, ailənin çoxalması bəyan edilən hökm ilə üst-üstə düşmür. O zaman ayəni təfsir edərkən bu cür (İmam Şafii kimi) səbəbə bağlamaq da doğru deyil.[30]

## İKİNCİ BÖLÜM

**Qız uşağının doğulmasına narazılıq etməyin (qəzəblənməyin) məkruhluğu**

**Allah I buyurur:**

لِّلَّهِ مُلۡكُ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِۚ يَخۡلُقُ مَا يَشَآءُۚ يَهَبُ لِمَن يَشَآءُ
إِنَٰثٗا وَيَهَبُ لِمَن يَشَآءُ ٱلذُّكُورَ ٤٩ أَوۡ يُزَوِّجُهُمۡ ذُكۡرَانٗا وَإِنَٰثٗاۖ
وَيَجۡعَلُ مَن يَشَآءُ عَقِيمًاۚ إِنَّهُۥ عَلِيمٞ قَدِيرٞ ٥٠

**Göylərdə və yerdə səltənət Allah`ındır. O, istədiyini yaradır; kimə qız uşaqları, kimə də oğlan uşaqları bəxş edir. Ya-**

[29] Şəriətlə qəbul oluna biləcək səbəb (tər.).

[30] Müəlllif qeyd etdiyi bu on cavabla İmam Şafii və onun rəyində olanlara təfsilatlı olaraq cavab verərək bir qadınla evlənməyin üstünlüyünün səbəbini ailə üzvlərinin çoxluğu ilə deyil, ədalətli olma prinsipi ilə əlaqələndirir.

**xud hər ikisindən – oğlan və qız uşaqları verir, istədiyini də sonsuz edir. Həqiqətən, O, Bilәndir, Qadirdir.** (Şura 49-50)

Allah I ərlə arvadın halını dörd yerə bölür ki, bu da yuxarıda qeyd olunmuşdur.[31] Daha sonra isə onlara təqdir etdiyi övladın Allah I tərəfindən göndərilən bir hədiyyə olduğunu bildirir. Allah`ın I ona bəxş etdiyi hədiyyədən razı qalmayaraq ondan üz çevirmək, Onun qəzəbinə səbəb olmaq üçün yetərlidir. Allah I ayədə ilk olaraq qız uşaqlarını qeyd etmişdir. Bəzi alimlər bunun səbəbini açıqlayarkən deyirlər ki, bu, qız uşaqlarına dəstək üçündür, çünki bəzi valideynlərə qız uşağını qəbul etmək ağır gəlir. Başqa bir qrup alimlər isə bunu "Allah I onları öncə zikr etməklə onu bildirir ki, qız uşağı övlad payının ən gözəlidir" kimi izah etmişlər. Ayənin ümumi mənasında isə Allah I valideynlərin istədiyini deyil məhz Öz istədiyini etdiyini bizlərə çatdırır. Çünki, valideynlər əksər hallarda oğlan uşağının doğulmasını istəyirlər. Həmçinin Allah I ayədə bizə xəbər verir ki, O, istədiyini yaradandır və Öz "istəyini" də ilkin olaraq zikr etmişdir.

Mənim görüşümə görə isə, burada başqa incə detallar da vardır. Allah I cahiliyyə dövrünün ərəbləri tərəfindən önəmsənməyən, hətta diri-diri basdırılan qız uşaqlarını üstün olaraq burada birinci zikr etmişdir. Yəni insanlara görə önəmli olmayan bir şey Allah I qatında daha vacibdir. Digər tərəfdən, Allah I "qızlar" ismini qeyri müəyyənlik halında, "oğlanlar"ı

[31] Ayədə qeyd olunan dörd hala işarə olunur. Yəni Allah I onlara ya oğlan , ya qız, ya hər ikisindən verər, ya da ovlad verməz.

isə ismin müəyyənlik halında zikr etmişdir. Bununla da Allah I övladın qız olmasını nöqsan sayanlar üçün onu ayənin əvvəlinə keçirtməklə qız uşaqlarına dəstəyini bildirmişdir. Oğlan uşaqlarının daha sonra qeyd olunmasını isə onları ismin müəyyənlik halında zikr etməklə aralarında olan bərabərliyi təmin etmişdir. Belə ki, ərəb dilində sözün ismin müəyyənlik halında istifadə olunması həmin məfhumun şəninin yüksəldilməsini ifadə edir. Allah I sanki bununla hər iki payı – oğlan və qızı – istədiyinə istədiyi şəkildə bəxş edər deyə buyurur. Allah I hər ikisini bir yerdə qeyd etdiyi zaman isə oğlan uşaqlarını əvvələ keçirmişdir. Bu isə öz növbəsində hər birinin haqqını özünə vermək üçündür. Həqiqətən də buradakı hikməti ən doğru bilən Allah`dır I.

Burada əsas məqsəd qız uşaqlarının dünyaya gəlməsinə qəzəblənməyi Allah`ın I tənqid etdiyini və bunun cahiliyyə dövrünün ərəblərinə aid olan bir xüsusiyyət olduğunu göstərməkdən ibarətdir. Allah I buyurur:

وَإِذَا بُشِّرَ أَحَدُهُم بِٱلۡأُنثَىٰ ظَلَّ وَجۡهُهُۥ مُسۡوَدّٗا وَهُوَ كَظِيمٞ ٥٨
يَتَوَٰرَىٰ مِنَ ٱلۡقَوۡمِ مِن سُوٓءِ مَا بُشِّرَ بِهِۦٓۚ أَيُمۡسِكُهُۥ عَلَىٰ هُونٍ أَمۡ
يَدُسُّهُۥ فِي ٱلتُّرَابِۗ أَلَا سَآءَ مَا يَحۡكُمُونَ ٥٩

**Onlardan birinə qızı olması ilə müjdə verildikdə hikkəsindən üzü qapqara qaralır. Verilən bəd xəbər ucbatından camaatdan gizlənir. (Bilmir nə etsin,) körpəni rüsvayçılıq içində saxlasınmı, yoxsa onu torpağa gömsünmü? Onların verdikləri qərar necə də pisdir!** (Nəhl 58, 59)

Başqa bir ayədə isə Allah I buyrur:

وَإِذَا بُشِّرَ أَحَدُهُم بِمَا ضَرَبَ لِلرَّحۡمَٰنِ مَثَلٗا ظَلَّ وَجۡهُهُۥ مُسۡوَدّٗا وَهُوَ كَظِيمٌ ١٧

**Onlardan birinə, Mərhəmətli (Allah`a) aid etdikləri (qız uşağı) ilə müjdə verilsə, qəzəbindən üzü qapqara qaralar.** (Zuxruf 17)

Həmin dövrdə bəzi rəyçilər bir kişinin halını bu cür yozmuşlar: “O deyir: “Üzüm sanki qapqaradır”. Biri ondan soruşur: “Sənin yoldaşın hamilədirmi?” O da “bəli” deyə cavab verir. Soruşan adam deyir: “Sənin qızın olacaq”.

Müslim “Səhih” əsərində Ənəs ibn Malikdən τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: “Kim iki qız uşağını həddi-büluğa çatana kimi böyüdüb boya-başa çatdırsa, qiyamət günü mən və o belə olarıq”. Bunu deyərkən o iki barmağını qoşalaşdırdı.[32]

Aişə ɡ anamızın belə dediyi rəvayət olunur: “Bir qadın iki qızı ilə birlikdə yanıma gəldi və məndən yeməyə bir şey istədi. Bu zaman isə məndə yalnız bir xurma var idi və mən xurmanı ona verdim. O da xurmanı alıb qızları arasında böldü. Özü isə ondan yemədi. Bundan sonra o, qızları ilə birlikdə çıxıb getdi. Az bir müddət sonra Peyğəmbər ρ içəri daxil oldu. Mən o qadının əhvalatını ona danışdım. Peyğəmbər ρ buyurdu: “Hər kim qız uşaqları səbəbilə bir sıxıntıya düşər və belə bir zamanda da onlara yaxşı baxarsa, bu uşaqlar onu Cəhənnəm

[32] Müslim: 2631, Tirmizi: 1917.

odundan qoruyan bir qalxan olar". Hədisi Müslim və İmam Əhməd rəvayət etmişlər.[33]

Həmçinin Əbu Səid əl-Xudrinin τ rəvayət etdiyi hədisdə Peyğəmbər ρ buyurmuşdur: "Kimin üç qızı və ya üç bacısı, ya da iki qızı və ya iki bacısı olarsa və onlara münasibətdə Allah`dan I qorxub, onlara yaxşılıq edərsə, o, Cənnətə daxil olar".[34]

əl-Humeydi başqa bir yolla Əbu Səiddən τ, o da Peyğəmbərdən ρ belə buyurduğunu rəvayət etmişdir: "Kimin üç qızı və ya üç bacısı, ya da iki qızı və ya iki bacısı olar, onlarla yaxşı davranar, onlara səbr edər və onların haqqında Allah`dan I qorxarsa, o, Cənnətə daxil olar".[35]

Əbu Hüreyrə τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişlər: "Kimin üç qızı olar, onları himayə edər və məşəqqətlərinə səbr edərsə o, Cənnətə daxil olar".[36]

Başqa bir rəvayətdə isə deyilir: "Bir nəfər dedi: "Ey Alla`hın Rəsulu, bəs iki qızı olsa necə?" Peyğəmbər ρ buyurdu: "İki qızı olsa da". O bir də soruşdu: "Bəs bir qızı olsa necə?". Peyğəmbər ρ: "Bir qızı da olsa" deyərək cavab verdi".[37]

---

[33] Buxari: 1418, Müslim: 2629, İmam Əhməd "əl-Musnəd" kitabı.
[34] "əl-Musnəd": 3/42.
[35] Hümeydi: 738, Əbu Davud: 5148, Tirmizi: 1913, Buxari "Ədəbu`l-Mufrad": 79, İbn Hibban: 2044.
[36] İmam Əhməd "əl-Musnəd": 2/29. Hədisin başqa şahidləri də var.
[37] İmam Əhməd "əl-Musnəd": 2/27. Hədisin sənədindəki ən-Nəhhas ibn Qahm zəif ravi hesab olunur.

Beyhaqi Avf ibn Malikə τ gedib çıxan sənədlə Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: "Kimin üç qızı olub evləndirənə və ya ölənə kimi onlara baxarsa, onlar həmin şəxs üçün Cəhənnəm atəşinə qarşı bir sipər olar".[38]

Avf ibn Malik əl-Əşcai τ Peyğəmbərin ρ belə buyurduğunu demişdir: "Üç qızı olub onları evləndirənə kimi və ya ölənə kimi baxan elə bir bəndə yoxdur ki, onlar Cəhənnəm atəşinə qarşı o kəs üçün sipər olmasınlar". Bu zaman bir qadın soruşdu: "Ey Allah\`ın Rəsulu, bəs iki qız necə?" O dedi: "İki qızı da".[39]

Avf ibn Malik τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir "Mən və yanaqları qızarıb qaralmış[40] qadın Cənnətdə beləyik". (başqa bir rəvayətdə "o orta və şəhadət barmaqlarını bir-birinə birləşdirdi" kimi nəql olunur ki, bu da yaxınlıq ifadə edir)".[41]

İbn Abbas τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: "İki qızı olub onlara yaxşılıq edən və onlarla gözəl yoldaşlıq edən elə bir müsəlman yoxdur ki,qızları onu Cənnətə daxil etməsin".[42]

---

[38] Hədisin sənədindəki ən-Nəhhas ibn Qahm zəif ravi hesab olunur.

[39] Hədisin sənədindəki ən-Nəhhas ibn Qahm zəif ravi hesab olunur.

[40] Yanağı qızarmış, yəni əri öldükdən sonra yetim qalan uşaqlarına baxması və onlara qayğı göstərməsi səbəbi ilə özünə baxmağa vaxt tapmayan və buna görə də dərisinin rəngi qaralan, zəif düşən qadın anlamındadır. (Lisənu\`l-Arab lüğəti)

[41] İmam Əhməd "əl-Musnəd": 2/335, Əbu Davud: 5149. Hədisin sənədində zəif ravi vardır.

[42] İbn Məcəədəb bölümündə: 3670 İbn Hibban hədisin səhih olduğunu demişdir. "Məvərid": 2043.

Abdu`r-Razzəq rəvayət edir ki, İbnu`l-Munkədir Peyğəmbərin ρ belə dediyini rəvayət etmişdir: "Hər kimin üç qızı və ya üç bacısı olsa və onlara qarşı yaxşı rəftar edib, onları yaxşı saxlayıb evləndirərsə Cənnətə daxil olar". "Bəs iki qızı olsa necə?" – deyə soruşdular. O dedi: "İkisi də olsa (Cənnətə daxil olar)". Bizə elə gəldi ki, onlar "Bəs bir qızı olsa necə?" deyə soruşsaydılar Peyğəmbər ρ yenə eyni cavabı verərdi". Bu hədis mürsəldir.[43]

Uqbə ibn Amir əl-Cuhəni Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: "Kimin üç qızı olub onlara səbr edər, onları yedizdirib, içizdirər və təzə paltarlardan geyindirərsə, o qızlar onun üçün Cəhənnəm atəşinə qarşı bir sipər olar".[44]

Allah I qadınlar haqqında buyurmuşdur:

وَعَاشِرُوهُنَّ بِٱلۡمَعۡرُوفِۚ فَإِن كَرِهۡتُمُوهُنَّ فَعَسَىٰٓ أَن تَكۡرَهُواْ شَيۡـٔٗا وَيَجۡعَلَ ٱللَّهُ فِيهِ خَيۡرٗا كَثِيرٗا ١٩

**Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun. (Nisə 19)**

Qız uşaqları da belədir. Belə ki, qız uşaqlarında bir qulun dünya və axirət həyatı üçün xeyir vardır. Onları xoşlamamağın çirkin bir şey olduğunu göstərmək üçün Allah`ın I qulu

---

[43] Mürsəl hədis tabinin səhabənin adını qeyd etmədən birbaşa Peyğəmbərdən ρ rəvayət etdiyi hədisdir.

[44] İmam Əhməd "əl-Musnəd": 4/154, Buxari "Ədəbu`l-Mufrad": 76, İbn Məcə: 3669. Hədisin raviləri etibarlı ravilərdir. Hədis səhihdir.

üçün qız uşağından razı olduğu və ona qız uşağı bəxş etdiyi halda qulun onu bəyənməməsini göstərmək yetərlidir.

Saleh ibn Əhməd deyir ki, atası qızı doğulduğunu bildiyi zaman ona belə demişdi: “Peyğəmbərlər də qızları çox olan atalar olmuşlar və sən artıq qız uşaqları (onların fəziləti) barədə bizə (şəriətdə) nələr deyildiyini bilirsən”.

Yaqub ibn Buxtan deyir ki, mənim yeddi qızım dünyaya gəldi. Hər dəfə qızım olanda Əhməd ibn Hənbəlin yanına gedərdim. O isə mənə deyərdi: “Ey Əbu Yusif! Peyğəmbərlər də qızları olan atalar olmuşlar”. Onun bu sözü kədərimi aparırdı.

## ÜÇÜNCÜ BÖLÜM

### Uşağı dünyaya gələn kəsi müjdələməyin və onu təbrik etməyin müstəhəb olması

Allah I İbrahimin υ qissəsini bizə bildirərkən buyurur:

وَلَقَدۡ جَآءَتۡ رُسُلُنَآ إِبۡرَٰهِيمَ بِٱلۡبُشۡرَىٰ قَالُواْ سَلَٰمٗاۖ قَالَ سَلَٰمٞۖ
فَمَا لَبِثَ أَن جَآءَ بِعِجۡلٍ حَنِيذٖ ٦٩ فَلَمَّا رَءَآ أَيۡدِيَهُمۡ لَا تَصِلُ
إِلَيۡهِ نَكِرَهُمۡ وَأَوۡجَسَ مِنۡهُمۡ خِيفَةٗۚ قَالُواْ لَا تَخَفۡ إِنَّآ أُرۡسِلۡنَآ إِلَىٰ
قَوۡمِ لُوطٖ ٧٠ وَٱمۡرَأَتُهُۥ قَآئِمَةٞ فَضَحِكَتۡ فَبَشَّرۡنَٰهَا بِإِسۡحَٰقَ وَمِن
وَرَآءِ إِسۡحَٰقَ يَعۡقُوبَ ٧١

**Elçilərimiz (mələklər) İbrahimə (İshaqın doğulacağı barədə) müjdə gətirib və: “Salam!”– dedilər. O da: “Salam!”– dedi və dərhal (gedib) qızardılmış bir buzov gətirdi. (İbrahim mələklərin) yeməyə əl vurmadıqlarını gördükdə onlar onun xoşuna gəlmədi və onların yanında canına qorxu düşdü. Onlar dedilər: “Qorxma! Həqiqətən, biz Lut qövmünə göndərilmişik”. Onun arvadı (pərdə arxasında) durmuşdu. O güldü. Biz onu İshaqla, (İshaqın) ardınca da Yaqubla müjdə-**

lədik. ( Hud 69-71)  Ardınca gələn başqa ayədə isə Uca Allah I buyurur:

فَلَمَّا ذَهَبَ عَنۡ إِبۡرَٰهِيمَ ٱلرَّوۡعُ وَجَآءَتۡهُ ٱلۡبُشۡرَىٰ يُجَٰدِلُنَا فِي قَوۡمِ لُوطٍ ٧٤

**"İbrahimdən qorxu çəkildikdə və ona müjdə gəldikdə Lut qövmü barəsində Bizimlə mübahisə etməyə başladı.** (Hud 74)

Həmçinin Uca Allah I digər surələrdə də övladın doğulması münasibəti ilə müjdələnməsi haqda ayələr nazil etmişdir:

فَبَشَّرۡنَٰهُ بِغُلَٰمٍ حَلِيمٍ ١٠١

"**Biz də onu həlim xasiyyətli bir oğlan uşağı ilə müjdələdik.**" (Saffat 101)

وَبَشَّرُوهُ بِغُلَٰمٍ عَلِيمٍ ٢٨

**"Ona elmli bir oğlan uşağı ilə müjdə verdilər".** (Zəriyət 28)

إِذۡ دَخَلُواْ عَلَيۡهِ فَقَالُواْ سَلَٰمًا قَالَ إِنَّا مِنكُمۡ وَجِلُونَ ٥٢ قَالُواْ لَا تَوۡجَلۡ إِنَّا نُبَشِّرُكَ بِغُلَٰمٍ عَلِيمٍ ٥٣ قَالَ أَبَشَّرۡتُمُونِي عَلَىٰٓ أَن مَّسَّنِيَ ٱلۡكِبَرُ فَبِمَ تُبَشِّرُونَ ٥٤ قَالُواْ بَشَّرۡنَٰكَ بِٱلۡحَقِّ فَلَا تَكُن مِّنَ ٱلۡقَٰنِطِينَ ٥٥ قَالَ وَمَن يَقۡنَطُ مِن رَّحۡمَةِ رَبِّهِۦٓ إِلَّا ٱلضَّآلُّونَ ٥٦

**"Onlara İbrahimin qonaqları barəsində də xəbər ver. O zaman onlar İbrahimin yanına daxil olub: "Salam!"– dedilər. (İbrahim): "Biz sizdən ehtiyat edirik!"– dedi. (Mələklər): "Qorxma! Həqiqətən, biz səni bilikli bir oğulla müjdələyirik!"– dedilər. (İbrahim) dedi: "Qocalıq məni haqladığı bir vaxtda mənə müjdə verirsiniz? Məni nə ilə müjdələyirsi-**

**niz?" Onlar dedilər: "Biz sənə həqiqətlə müjdə veririk. Sən ümidini üzənlərdən olma!" (İbrahim) dedi: "(Doğru yoldan) azanlardan başqa Rəbbinin mərhəmətindən kim ümidini üzər?"** (Hicr 52-56)

يَٰزَكَرِيَّآ إِنَّا نُبَشِّرُكَ بِغُلَٰمٍ ٱسۡمُهُۥ يَحۡيَىٰ لَمۡ نَجۡعَل لَّهُۥ مِن قَبۡلُ سَمِيّٗا ٧

**"(Ona belə vəhy olundu:) "Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı (ondan) öncə kimsəyə qoymamışıq!"** (Məryəm 7)

فَنَادَتۡهُ ٱلۡمَلَٰٓئِكَةُ وَهُوَ قَآئِمٞ يُصَلِّي فِي ٱلۡمِحۡرَابِ أَنَّ ٱللَّهَ يُبَشِّرُكَ بِيَحۡيَىٰ مُصَدِّقَۢا بِكَلِمَةٖ مِّنَ ٱللَّهِ وَسَيِّدٗا وَحَصُورٗا وَنَبِيّٗا مِّنَ ٱلصَّٰلِحِينَ ٣٩

**"O, mehrabda durub namaz qılarkən mələklər onu çağırdılar: "Allah səni, Allah tərəfindən olan Kəlməni təsdiq edən, (qövmünün) ağası, nəfsinə hakim və əməlisalehlərdən bir Peyğəmbər olacaq Yəhya ilə müjdələyir".** ( Əli-İmran 39)

Müjdələmək qulu sevindirən və onu fərəhləndirən bir şey olduğu üçün bir müsəlmanın öz müsəlman qardaşını sevindirməyə can atması və onu fərəhləndirəcək bir şeyi ona deməsi müstəhəbdir.

Peyğəmbər ρ doğulduğu zaman Suveybə də onun əmisi Əbu Ləhəbi müjdələyərək dedi: "Bu gecə Abdullahın bir oğlu oldu". Əbu Ləhəb də bu xəbərdən sevinərək onu qulluqdan azad etdi. Allah I da onun bu əməli qarşılığında ölümündən

sonra Cəhənnəmdə olsa belə ona içməsi üçün barmaqlarının arasından çıxan su verdi.[45]

Əgər birisi  müjdə vermək fürsətini əldən verərsə, o zaman qarşı tərəfi təbrik etməsi ona müstəhəb olur. Müjdə vermək və təbrik etmənin arasındakı fərqə gəldikdə isə müjdə insana onu

---

[45] Buxari: 5101. Urvə deyir ki, Suveybə Əbu Ləhəbin cariyəsi olmuşdur. Əbu Ləhəb onu qulluqdan azad etmişdi. O qadın, Peyğəmbəri ρ əmizdirmişdi. Əbu Ləhəb öldükdən sonra ailəsindən biri onu yuxusunda görüb soruşur: "Nə ilə qarşılaşdın?" Əbu Ləhəb dedi: "Sizdən sonra bu azad etdiyim cariyə səbəbilə hər həftənin birinci günü mənə su içizdirilir. Bundan başqa bir xeyir görmədim". Çünki Peyğəmbər ρ bu gündə doğulmuş və Suveybəidə Əbu Ləhəbi bu gündə müjdələməsi səbəbilə azad edilmişdi. "Fəth": 9/145-146.

Beyhəqi deyir: "Kafir olanların etdikləri xeyirli əməllərin batil olması barəsində rəvayət olunan hədislərin mənası budur ki, onlar heç vaxt Cəhənnəmdən qurtulub Cənnətə daxil olmayacaqlar. Etdikləri xeyir əməllərin qarşılığında isə küfrün cəzası istisna olmaqla günahlarının əzabının yüngülləşdirilməsi mümkündür".

Qurtubi deyir: "Əzabın yüngülləşdirilməsi, barəsində nas (ayə və ya hədis) olanlara şamil olunur".

İbnu`l-Munir "Haşiyə"-də demişdir: "Burada iki məsələ vardır. Birincisi qeyri mümkündür. Bu da kafirin küfrü ilə birlikdə itaət etməsinin mötəbər sayılması məsələsidir. Çünki itaətin şəriət baxımından sağlam bir niyyətlə həyata keçirilməsi şərtdir. Bu isə kafirdə yoxdur. İkincisi isə kafirin bəzi əməllərinin Allah`dan I bir fəzilət olaraq sabit olması məsələsidir ki, bunu da ağıl imkansız görməz. Bu cür olduğuna görə Əbu Ləhəbin Suveybəni azad etməsi Allah`a I düzgün və qəbul olunan bir yaxınlaşma şəkli deyil. Allah`ın I ona istədiyi halda Əbu Talibə etdiyi kimi  yaxşılıq etməsi mümkündür. Xeyirli iş görən kafir işlədiyi əməli səbəbi ilə Cəhənnəmdən qurtarıb Cənnətə düşməz. Qısa olaraq; Kafirin işlədiyi bu və s. kimi yaxşı əməllərin qarşılığı Allah I tərəfindən edilən bir ehsandır. Ən doğrusunu Allah I bilir.

sevindirən bir məlumatı xəbər vermək, təbrik isə xəbəri bilən bir insana onun üçün xeyirlə dua etməkdir. Məhz elə buna görədir ki, Allah I Kəb ibn Malikin[46] və yoldaşlarının tövbəsini qəbul etdiyini bildirən ayəni nazil edəndə bir nəfər onun yanına gələrək onu müjdələdi. O, məscidə daxil olanda isə insanlar gəlib onu təbrik etdilər.

Cahiliyyə dövründə evlənən tərəfləri "daim birgə yaşasınlar və çoxlu oğlanlara sahib olsunlar" deyərək təbrik edərdilər. Beləcə onlar insanı yalnız oğlan uşaqları üçün təbrik edərdilər.

Bir insanı yalnız oğlan uşağının və yaxud da yalnız qız uşağının dünyaya gəlməsi münasibətilə təbrik etmək doğru deyildir. Bunun əksinə hər ikisinin dünyaya gəlməsi münasibətilə təbrik etmək lazımdır. Əgər təbrik olunmayacaqsa da, heç birinin doğulması münasibətiylə təbrik olunmamalıdır. Bu cahiliyyə dövrünün ənənələrindən xilas olmağın bir yoludur. Çünki cahiliyyə dövründə əksər insanlar bir-birlərini oğlan uşaqları dünyaya gəldiyi zaman, qız uşaqları isə vəfat etdiyi zaman təbrik edərdilər.

Əbu Bəkr ibnu`l-Munzir "Əvsat" kitabında belə rəvayət edir: "Həsən əl-Bəsrinin yanına bir kişi gəldi və bu zaman onun yanında yeni oğlu dünyaya gəlmiş başqa bir kişi var idi. O kişi yeni övladı olana dedi: "Atlı qəhrəman səni təbrik edirəm". Həsən əl-Bəsri dedi: "Sən nə bilirsən ki, o, atlıdır, yoxsa uzunqulaqlı?" Həmin şəxs soruşdu: "Bəs necə deyək?" Həsən

---

[46] Kəb ibn Malik τ və iki yoldaşı olan Mirara ibn Rabia τ və Hilal ibn Umeyyə τ Təbuk döyüşündən geri qaldıqları üçün müsəlmanlar onları təcrid etmişdir. Ancaq bu günhalarından dolayı Allah I onların tövbəsini qəbul etdi və onları bağışladı. Tövbə surəsi 118-ci ayəyə bax. (Tər.)

əl-Bəsri dedi: “De ki, sənə bəxş edilən bu övlad xeyirli, bərəkətli olsun. Nemət bəxş edənə şükr edəsən. Allah I onu həddibüluğa çatdırsın. Onun yaxşılığı ilə ruzilənəsən!”[47] Ən doğrusunu Allah I bilir!

## DÖRDÜNCÜ BÖLÜM

### Yeni doğulan uşağın sağ qulağına azan, sol qulağına isə iqamə oxumağın müstəhəb olması

Bu mövzuya aid bir çox hədislər mövcuddur. Onlardan biri Əbu Rafinin Peyğəmbərdən ρ rəvayət etdiyi hədisdir. O deyir: “Fatimə g Həsəni τ dünyaya gətirdiyi zaman Peyğəmbərin ρ Həsən ibn Əlinin ψ qulağına azan oxuduğunu gördüm”. Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmişlər. Tirmizi hədisin səhih olduğunu söyləmişdir.[48]

İkinci hədis isə Beyhaqinin “əş-Şuəb” kitabında Həsən ibn Əli ψ vasitəsilə Peyğəmbərdən ρ rəvayət etdiyi hədisdir. Hədisdə deyilir: “Kimin övladı dünyaya gələndə onun sağ qu-

---

[47] Yeni uşağı dünyaya gələn üçün edilən dua belədir: “BərəkAllah`u ləkə fi`l-məvhubi ləkə, və şəkərtə`l-Vəhibə, və bələğa əşuddəhu, və ruziqtə birrahu”. Tərcüməsi yuxarıda verilmişdir. Ümumiyyətlə bu dua şəkli sənədlərlə həsən əl-Bəsriyə gedib çıxır. Sünnətdə yeni doğulan uşaq üçün edilən dua isə şəkil olaraq gəlməmiş yalnız uşaq üçün “bərəkət dilənmişdir” kimi keçməkdədir. Ona görə də alimlər Həsən əl-Bəsrinin bu duasının mənaca səhih olduğu və deyilməsinin müstəhəb olduğu qənaətindədirlər. Ancaq bununla yanaşı istənilən şəkildə bərəkət, xeyir-dua diləmək sünnətə uyğundur. (Tər.)

[48] Əbu Davud: 5105, Tirmizi: 1514. Hədisin sənədində Asim ibn Ubeydullah ibn Asim ibn Ömər ibn Xəttab vardır. Bəzi alimlərə görə o zəif ravi hesab olunur. Lakin hədisi başqa rəvayətlər gücləndirərək qəbul olunan edir.

lağına azan, sol qulağına da iqamə oxusa, Ummu Sibyan (şeytan) ondan uzaqlaşdırılar.[49]

Üçüncü hədis Beyhəqinin İbn Abbasa τ gedib çıxan sənədlə rəvayət etdiyi hədisdir ki, orada deyilir: "Peyğəmbər ρ Həsən ibn Əlinin ψ doğulduğu gün onun sağ qulağına azan, sol qulağına isə iqamə oxudu". Beyhəqi hər iki hədisin sənədində zəiflik olduğunu söyləmişdir.

Azan oxumağın hikmətinə gəlincə isə, doğrusunu Allah I bilir. Bəlkə də ilk olaraq insanın Rəbbinin böyüklük və əzəmətini əhatə edən kəlmələri eşitməsi ilə bağlıdır. Həmçinin bununla körpə insanın İslama girməsini təmin edən Kəlimeyi Şəhadəti eşidir. Dünyaya daxil olduğu zaman bu, onun üçün sanki İslamın şüarı olan təlqin rolunu oynayır. Bu bir növ insan dünyadan köçdüyü zaman ona tövhid kəliməsinin təlqin edilməsinə bənzəyir. İnkar edilməz həqiqətdir ki, o, bunu hiss etməsə belə azanın sözləri körpənin qəlbinə işləyərək ona öz təsirini göstərir. Azan oxumağın digər faydası isə onun səsindən şeytanın qaçmasıdır. Çünki, şeytan Allah`ın I təqdir etdiyi və istədiyi bir imtahan olaraq insan doğulduğu gündən onu öz tələsinə salması üçün pusquda durmuşdur. Belə olduqda isə şeytan insana musallat olduğu ilk gündən özünü zəif salan və qəzəbləndirən bir səsi eşidir.

Bunun başqa bir mənası yeni doğulan körpənin şeytanın dəvətindən əvvəl Allah`a I, İslam dininə və Rəbbinə ibadət

---

49 İbnu`s-Sünni "Əməlu`l-Yəvmi və`l-Leyləti": 623. Hədisin ravilərindən olan Yəhya ibn Əla və Mərvan ibn Salim əl-Ğifari zəif ravilərdir. Albani "əl-Əhədisu`d-Daifə": 321.

etməyə dəvət edilməsidir. Belə ki, Allah I insanı öncədən fitrət üzrə yaradır. Ancaq şeytan onu sonradan bu fitrətindən döndərir və azğınlığa yönləndirir. Uşağa azanının oxunmasında bir çox başqa hikmətlər də vardır.

## BEŞİNCİ BÖLÜM

### Uşağı mayalandırmağın müstəhəb olması

Buxari və Müslimdə Əbu Burdənin Əbu Musadan τ rəvayət etdiyi hədisdə belə deyilir: "Mənim oğlum dünyaya gəldi. Onu Peyğəmbərin ρ yanına gətirdim. Adını İbrahim qoydu. Daha sonra xurmanı ağzında çeynəyərək onun ağzına sürtdü". Buxarinin rəvayətində belə bir əlavə də var: "....və ona xeyir bərəkət üçün dua edib mənə verdi". Həmin uşaq Əbu Musanın τ ən böyük övladı idi.[50]

Buxari və Muslim Ənəs ibn Malikin τ belə dediyini rəvayət edirlər: "Əbu Talhanın oğlu xəstələnmişdi. Bir gün Əbu Talha evdə olmadığı zaman uşaq vəfat etdi. Zövcəsi Ummu Suleym uşağın öldüyünü görəndə onu yuyub kəfənlədi və evin bir tərəfinə qoydu. Əbu Talha evə gəldikdə uşağın necə olduğunu soruşdu? Ummu Suleym dedi: "O artıq sakitləşib, ümid edirəm ki, artıq rahatdır". Sonra o, ərinə axşam yeməyi verdi. Yeməyi yeyib qurtardıqdan sonra, qadın əri üçün bəzəndi və yatağa girib yaxınlıq etdilər. Bundan sonra qadın dedi: "Uşaq vəfat edib". Səhər Əbu Talha Peyğəmbərin ρ yanına gəldi və ona bunu xəbər verdi. Peyğəmbər ρ soruşdu: "Bu gecə zövcənlə birlikdə oldunmu?" O dedi: "Bəli". Peyğəmbər ρ

[50] Buxari: 5467, Müslim: 2145.

dedi: “Allah`ım! Onların hər ikisinə də bərəkət ver!” Bundan sonra Əbu Talhanın bir oğlan uşağı dünyaya gəldi. Əbu Talha mənə dedi ki, uşağı Peyğəmbərin ρ yanına aparıram və mən də yanına bir az xurma qoydum. Peyğəmbər ρ uşağı alıb soruşdu: “Onun yanında bir şey varmı?” “Bəli! Bir az xurma var” deyə cavab verdilər. Peyğəmbər ρ xurmanı götürüb ağzında çeynədi və sonra onu çıxardıb uşağın damağına sürtdü. Onun adını isə Abdullah qoydu”.[51]

Əsmadan ς rəvayət olunur ki, o Abdullah ibn Zubeyrə τ Məkkədə ikən hamilə qalmışdı. O dedi: “Mən hamilə olduğum vaxt hamiləliyin son ayında Məkkədən çıxıb Mədinəyə gəldim və Qubada qonaq qaldım. Qubada ikən orada övladımı dünyaya gətirdim. Sonra uşağı Peyğəmbərin ρ yanına gətirdim. O, uşağı qucağına alaraq xurma istədi. Sonra xurmanı çeynəyib onun ağzına qoydu. Beləcə onun qarnına ilk gedən şey Peyğəmbərin ρ ağız suyu oldu. Daha sonra isə uşağın damağına xurmanın şirəsini sürtərək ona bərəkət üçün dua etdi. O mühacirlərin Mədinəyə hicrətindən sonra İslamda ilk doğulan uşaq oldu. Hər kəs onun dünyaya gəlməsi xəbərinə çox sevinmişdi. Çünki, müsəlmanların barəsində insanlar belə deyirdilər: “Yəhudilər sizə cadu edib və sizin övladınız olmayacaq”.[52]

---

[51] Buxari: 1301, 5470, Müslim: 2144.

[52] Buxari: 3909, Müslim: 2146, Əhməd “Müsnəd”: 6/347. Hədisin mühacirlər haqqındakı hissəsi əlimizdəki hədis kitablarında yoxdur. Etimad olunan görüş odur ki, Abdullah ibn Zubeyr τ hicrətin birinci ilində doğulmuşdu. Mədinə xaricində mühacirlərin ilk dünyaya gələn uşağı isə Həbəşistanda dünyaya gələn Abdullah ibn Cəfər olmuşdur. Ənsara gəlincə isə onlardan

Xalləl Muhəmməd ibn Əlinin ona belə dediyini rəvayət etmişdir: "Əhməd ibn Hənbəlin zövcəsinin belə dediyini eşitdim: "Məni sancı tutduğu zaman yoldaşım (imam Əhməd) yatmışdı. Ona "Ey mövlam! Artıq ölürəm" deyə səsləndim. O, mən Səidi dünyaya gətirənə qədər "Allah I asanlaşdırsın", "Allah I sıxıntıdan qurtarsın" deyə dua edirdi. Uşaq dünyaya gəldikdən sonra o, ona xurma gətirməyimizi istədi. Evimizdə Məkkə xurması var idi. Mən Ummu Əliyə dedim ki, onu ağzında çeynə və sonra uşağın ağzına sürtərək qoy! O da belə etdi".

Ən doğrusunu bilən Allah`dır I!

ALTINCI BÖLÜM

**Əqiq[53] və onun hökmləri**

**Birinci fəsil**

**Əqiqin şərii əsaslarının bəyanı**

İmam Malik demişdir: "Bu əməl (əqiq) bizim aramızda ixtilaf olunmayan bir məsələdir".

Yəhya ibn Səid əl-Ənsari demişdir: "Oğlan və qız uşaqları üçün əqiq kəsməyi tərk etməyən insanlar gördüm".

İbnu`l-Munzir demişdir: "Bu məsələ (əqiq) Hicazda qədimdə də, indi də alimlər tərəfindən edilən bir əməldir. İmam Malik də əqiqin onların arasında ixtilaf edilməyən bir məsələ olduğunu demişdir. Əqiqi şəri bir əməl görənlərin arasında

---

hicrətdən sonra Mədinədə ilk doğulan uşaq Müslim ibn Müxəllədir. Onun Numan ibn Bəşir olduğu da deyilir.

[53] Yeni doğulan uşaq üçün qurban kəsmək

Abdullah ibn Abbas ψ, Abdullah ibn Ömər ψ və möminlərin anası Aişə ɡ də vardır. Bizə isə bunu Peyğəmbərin ρ qızı Fatimə, Bureydə əl-Əsləmi, Qasim ibn Muhəmməd, Urvə ibn Zubeyr, Əta ibn Əbu Rabah, Zühri və Əbu`z-Zənad rəvayət etmişlər. İmam Malik və Mədinə əhli, İmam Şafi və onun davamçıları, İmam Əhməd, İshaq ibn Rahaveyh, Əbu Səvr və bundan başqa Peyğəmbərin ρ sünnəti ilə əməl etməkdə məşhur olan bir çox elm əhli də bu məsələnin şərii əaslarının olduğunu qeyd etmişdir. Əgər bir şeyin sünnət olması sabitdirsə, o zaman onun sünnətdən olduğunu deмək vacib olur. Bundan üz çevirənin ona heç bir zərəri toxunmaz. Necə ki, Rəy əhli[54] əqiqin sünnət olduğunu inkar etmişdir. Bununla da onlar bu haqda Peyğəmbərdən ρ, onun səhabələrindən və tabiindən rəvayət olunan xəbərlərə müxalif olmuşlar".

## İkinci fəsil

**Əqiqi məkruh görənlərin əsaslandığı dəlillər isə belədir:** Onlar deyirlər: "Amr ibn Şueybin atasından, onun da babasından rəvayət etdiyinə görə, Peyğəmbərdən ρ əqiq barəsində soruşdular. O buyurdu: "Əqiqi sevmirəm".[55]

---

[54] Rəy əhli deyildikdə hənəfi məzhəbinin alimləri nəzərdə tutulur. Bu məzhəbin bir çox görüşləri rəylərə əsaslandığı üçün bu adla adlandırılmışdır. (Tər.)

[55] Burada nəzərdə tutulan sanki Peyğəmbərin ρ onun mahiyyətini deyil adını sevmədiyini söyləməsidir. Bunun həqiqətən də belə olması bir çox hədislərdə də açıqlanmışdır. Nəql olunan bu hədis İmam Əhmədin "əl-Musnəd" kitabında: 3/194 rəvayət etdiyi uzun hədisin bir parçasıdır. Hədisin isnadı yaxşıdır. İmam Əhməd həmçinin bunu "əl-Musnəd"də başqa yerlərdə də 2/182, 183 rəqəmlərilə nəql etmişdir. Əbu Davud da hədisi 2842

Onlar həmçinin Peyğəmbərin ρ əqiqi kitab əhlinin adətlərindən olduğu üçün sevmədiyini söyləmişlər. Belə ki, rəvayətə görə Peyğəmbər ρ öz səhabələrinə belə demişdir: "Yəhudilər oğlan uşaqları üçün əqiq kəsir, qız uşaqları üçün isə əqiq kəsmirlər". Bu hədisi Beyhaqi qeyd etmişdir.[56]

Əqiqin məkruh olduğunu deyənlər yenə də qeyd edirlər ki, bu eynilə cahiliyyə vaxtlarında kəsilən qurbanlar kimidir. İslam dini gəldikdən sonra belə qurbanları batil etmişdir. Atirə[57] və fəria[58] kimi qurban növlərini buna misal göstərmək olar. İmam Əhməd Əbu Rafidən τ rəvayət edir ki, "Həzrəti Fatimə ɡ oğlu Həsən ibn Əli ibn Əbu Talib ψ doğulduğu zaman onun üçün iki qoç kəsmək istədi. Allah Rəsulu ρ ona belə buyurdu: "Əqiq kəsmə! Başının tükünü qırxaraq onun çəkisinə

---

rəqəmi ilə "Qurbanlıqlar" bölümündə "Əqiq" başlığı ilə qeyd etmişdir. Hədisi həmçinin Nəsai: 7/145 "Əqiq" babında "Allah I əqiqi sevmir" ifadəsi ilə rəvayət etmişdir. İmam Əhməd isə hədisi belə rəvayət etmişdir: Peyğəmbərdən ρ əqiq barəsində soruşdular. O, belə dedi: "Allah I əqiqi sevmir". Sanki O, əqiq adlandırılmasını xoş qarşılamadı. Dedilər ki, "Ey Allah`ın Rəsulu! Biz səndən, ancaq bizlərdən birinin övladı dünyaya gələrsə, onun üçün kəsdiyimiz qurbanın barəsində soruşuruq". O buyurdu: "Sizlərdən hər kim öz övladının adına qurban kəsməyi sevirsə, bunu etsin. Oğlan üçün iki ədəd eyni qoyunu, qız üçün isə bir ədəd qoyun kəssin".

[56] Beyhaqi "Sünənu`l-Kubra": 9/302.

[57] Məkkə müşrikləri Rəcəb ayında öz məbudları üçün kəsdiyi qurban. (Tər.)

[58] Cahiliyyə dövründə müşriklər dəvənin ilk balasını bütlərə qurban olaraq kəsirdilər. (Tər.)

uyğun sədəqə ver”. Daha sonra Hüseyn τ doğulduğu zaman da o, eynilə belə etdi.[59]

### Üçüncü fəsil

### Əqiqin müstəhəb olduğunu bildirən dəlillər

Öncə qeyd edək ki, hədis əhli və fəqihlər hamısı, elm əhlinin əksəriyyəti (cumhur uləma) əqiqin Allah Rəsulunun ρ sünnətindən olduğunu söyləmişlər. Onlar buna dəlil olaraq Buxarinin “Səhih” kitabında Salman ibn Ammar əd-Dabbinin τ rəvayət etdiyi hədisi göstərmişlər. Peyğəmbər ρ buyurmuşdur: “Oğlan uşağı üçün əqiq vardır. Onun üçün qan axıdaraq, ondan əziyyəti uzaqlaşdırın”.[60]

Səmura τ Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət edir: “Dünyaya gələn hər bir körpə əqiqinin girovudur. Yeddinci günündə əqiqi kəsilir, adı qoyulur və saçı qırxılır”. Bu hədisi bütün “Sünən” sahibləri[61] rəvayət etmişlər. Tirmizi bu hədisin həsən səhih olduğunu söyləmişdir.

Aişə ς dedi. Allah Rəsulu ρ buyurmuşdur: “Oğlan uşağı üçün iki eyni qoyun, qız uşağı üçün isə bir qoyun (kəsilər)”. Hədisi İmam Əhməd və Tirmizi rəvayət etmişlər. Tirmizi hədisin səhih olduğunu demişdir.  Digər bir rəvayətdə isə belə deyilir: “Allah Rəsulu ρ bizə qız uşağı üçün bir, oğlan uşağı

---

[59] İmam Əhməd “əl-Musnəd”: 9/390, 392. Tirmizi “Qurbanlıqlar” bölümü “Əqiq üçün bir qoyun kəsilir” babı: 1019. Hədis həsəndir.

[60] Buxari: 5471, 5472 “Əqiq” bölməsi “Əqiq kəsərək oğlan uşağından əziyyətin uzaqlaşdırılması” babı. Əbu Davud: 2839, Tirmizi, Nəsai, İbn Məcə.

[61] Tirmizi, Nəsai, Əbu Davud, İbn Məcə.

üçün isə iki qoyun kəsməyimizi əmr etdi". Bu hədisi İmam Əhməd "əl-Musnəd"də rəvayət etmişdir.[62]

Ummu Karz əl-Kəbiyyə τ rəvayət edir: "Allah Rəsulundan ρ əqiq haqqında soruşdum. O buyurdu: "Oğlan uşağı üçün iki, qız uşağı üçün isə bir qoyun (kəsilir). Qurbanlığın erkək və ya dişi olmasının heç bir zərəri yoxdur".[63] Bu hədisi İmam Əhməd və Tirmizi rəvayət etmişlər. Tirmizi hədisin səhih olduğunu qeyd etmişdir.

Əbu Hüreyrə τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət edir: "Yəhudilər oğlan uşağı üçün əqiq kəsib, qız uşağı üçün kəsmirlər. Siz isə oğlan uşaqları üçün iki, qız uşaqları üçün bir qoyun kəsin!" Bu hədisi Beyhəqi öz hədis kitabında qeyd etmişdir.

İbn Abbas τ Allah Rəsulunun ρ Həsən və Hüseynin ψ hər biri üçün əqiq olaraq qoyun kəsdiyini söyləmişdir. Bunu İbn Abbasdan τ Əbu Davud və Nəsai rəvayət etmişlər. Nəsainin rəvayətində hər birinə ayrılıqda iki qoyun kəsdiyi bildirilir.[64]

Amr ibn Şuaybın atasından, onun da öz atasından rəvayət etdiyinə görə, Allah Rəsulu ρ yeni doğulan uşağa yeddinci günündə adının qoyulmasını və əqiqinin kəsilərək onun əziy-

---

62 Hədisi həmçinin Tirmizi, İbn Məcə, İbn Hibban da rəvayət etmişlər. Hədis səhihdir.

63 Alimlər qurbanlığın erkək olmasının daha da müstəhəb olduğunu söyləmişlər. (Tər.)

64 Əbu Davud "Qurbanlıqlar" bölməsi "Əqiq" babı: 2841, Nəsai: 7/166, "Qız uşağı üçün neçə əqiq kəsilir" babı. Hədisin isnadı səhihdir. Albani "əl-İrva": 1164.

yətdən xilas edilməsini əmr etmişdir. Tirmizi rəvayət etdiyi bu hədisin həsən qarib[65] olduğunu bildirib.

Bureydə əl-Əsləmidən rəvayət olunduğuna görə, o, belə demişdir: "Cahiliyyə dövründə bizlərdən birinin oğlu dünyaya gələrkən onun üçün bir qoyun kəsib, başını onun qanı ilə boyayardıq. Allah I bizə İslamı göndərdikdən sonra isə biz onun üçün bir qoyun kəsər, saçını qırxar və onu zəfəranla boyamağa başladıq. Hədisi Əbu Davud rəvayət etmişdir.[66]

İbn Münkədirin rəvayət etdiyinə görə Əbu Bəkrənin τ oğlu Abdu`r-Rahmən τ dünyaya gəldi. O, Basrada dünyaya gələn ilk körpə idi. Əbu Bəkrə τ onun üçün bir dəvə kəsib onu Bəsrə camaatına yemək üçün verdi. Bəziləri buna etiraz edəndə Əbu Bəkrə τ belə dedi: "Allah Rəsulu ρ oğlan uşağı üçün iki, qız uşağı üçün isə bir qoyun kəsməyi əmr etmişdir".

Səmura rəvəyət edir ki, Peyğəmbər ρ əqiq barəsində belə buyurmuşdur: "Hər bir oğlan uşağı öz əqiqi qarşılığında girovdur. Yeddinci günündə qurbanı kəsilər, saçı qırxılar, qanı axıdılır". Bundan sonra Səmura qanı tökülür sözünün açıqlamasında belə dedi: "Qurban kəsiləndən sonra yunundan bir parça götürülərək, şah damardakı qana bulaşdırılıb, uşağın başının qabaq hissəsinə sürtülür. Sanki başından ip kimi axıb tökülür. Sonra da uşağın başı yuyularaq saçı qırxılır". Əbu Davud "qanı axıdılar" sözünün hədisin ravilərindən olan Həmmam ibn Yahyanın sözü səhv eşitməsinin nəticəsində ol-

---

[65] Yəni bu hədisi mənaca dəstəkləyən digər hədislər də vardır. Qarib olması isə onun bu yolla yalnız bir ravidən rəvayət olunduğunu bildirir. (Tər.)
[66] Hədisin isnadı yaxşıdır.

duğunu, əslində isə başqa səhih rəvayətlə "Hər bir oğlan uşağı öz əqiqi qarşılığında girovdur, yeddinci günündə qurbanı kəsilər, saçı qırxılar və adı qoyular" variantının daha səhih olduğunu deyir.[67] Bu hədisi Əbu Davudun izah etdiyi tərzdə Tirmizi, Nisai, İbn Məcə də rəvayət etmişdir. Tirmizi hədisin həsən səhih olduğunu demişdir.

Yəhya ibn Həmzə deyir ki, Əta əl-Xorasanidən "Əqiqi qarşılığında girovdur" sözünün mənasını soruşdum. O dedi: "Yəni valideyn bunu etməzsə, övladının şəfaətindən məhrum edilir".

İshaq İbn Həni deyir ki, Əbu Abdullahdan[68] Peyğəmbərin ρ "Oğlan uşağı öz əqiqi qarşılığında girovdur" hədisi haqqında soruşdum. O dedi: "Bəli, oğlan uşağı üçün iki, qız üçün isə bir qoyunun əqiq olaraq kəsilməsi Peyğəmbərin ρ sünnətidir. Əqiqi kəsilmədiyi müddətcə isə o, sanki əqiqi ilə birgə həbs olunmuş kimidir".

Yaqub ibn Buxtan deyir ki, Əbu Abdullaha əqiq barəsində sual verildi. O dedi: "Bu məsələdə "Oğlan uşağı öz əqiqi qarşılığında girovdur" hədisindən onu kəsməyən üçün daha şiddətli bir təhdid olduğunu bilmirəm".

Hənbəl rəvayət edir ki, Əbu Abdullah demişdir: "İmkanı və gücü çatan şəxsin övladına əqiq kəsməməyini və ona dəvət etməməyini məkruh görürəm. Çünki, Peyğəmbər ρ buyur-

---

[67] Burada nəzərdə tutulan izah qurbanın qanının uşağın başına sürtülməsinin yanlış olmasıdır. Çünki bu cahiliyyə adətindəndir. Rəvayətdə gələn qanı tökülər sözü əslində adı qoyular sözünün yerini tutmuşdur. Ərəb dilində bu iki sözün tələffüzü oxşar olduğu üçün ravi onu səhv salaraq bu tərzdə rəvayət etmişdir. (Tər.)

[68] Əbu Abdullah İmam Əhmədin ləqəbidir. (Tər.)

muşdur: "Oğlan uşağı öz əqiqi qarşılığında girovdur". Qeyd olunan hədis bu məsələdə rəvayət olunan təhdid baxımından ən şiddətli hədisdir. Peyğəmbər ρ sadəcə bu qurban növünə əqiq deyilməsini xoşlamırdı. Qurban kəsməyə gəldikdə isə o, özü bunu etmişdir".

Əhməd ibn Qasim demişdir: "Əbu Abdullahdan əqiqin vacib olub-olmaması barəsində soruşdular. O dedi: "Vacib olduğunu bilmirəm, ancaq bu məsələdə ən şiddətli hökm "İnsan əqiqi qarşılığında girovdur" hədisidir". Başqa bir yerdə isə İmam Əhməd açıqlamasında "uşağın valideynlər üçün etdiyi şəfaətinin girovu olduğunu" demişdir.[69]

Hədisdə qeyd olunan "qanı axıdılar" ifadəsinə gəldikdə isə bunun üzərində ixtilaf olunmuşdur. Bu ifadəni Hümam Yəhyadan, o da Qatədədən rəvayət etmişdir. Qatədə bunu yuxarıda qeyd etdiyimiz kimi açıqlamışdır. Elm əhlinin əksəriyyəti bu məsələdə ona müxalif olmuş və bunun cahiliyyə əhlinin əməli olduğunu söyləmişdir". Zühri, Malik, Şafi, Əhməd və İshaq ibn Rahaveyh də bu görüşdə olmuşdur. İmam Əhməd demişdir: "Uşağın başının qana boyanmasını məkruh görürəm, bu bir cahiliyyə əməlidir".

İmam Əhmədin oğlu Abdullah demişdir: "Mən atamdan qurbanı kəsib onun qanını oğlan, yaxud da qız uşağının başına sürtmək haqqında soruşdum. O dedi: "Xeyr, qanı sürtülməz".

---

[69] Hafiz İbn Həcər əl-Əsqalani "Fəth"də: 9-594 demişdir: "əl-Xattabi insanların bu məsələdə ixtilaf etdiyini, bu haqda deyilən sözlərin ən yaxşısının isə Əhməd ibn Hənbəlin məzhəbi olduğunu qeyd etmişdir. O, bunun şəfaət haqqında olduğunu söyləmişdir. Onun bu sözü deməkdə məqsədi o idi ki, uşağın əqiqi kəsilmədiyi və onun uşaq vaxtında dünyasını dəyişdiyi təqdirdə həmin uşaq öz valideynlərinə qiyamət günündə şəfaət edə bilməyəcək.

Xallәl demişdir: "Abbas ibn Әhmәd mәnә xәbәr verdi ki, Әbu Abdullaha uşağın başının qana boyanması haqqında sual verildi. O dedi: "Bu, xoşәgәlmәz bir haldır. Heç şübhәsiz, bu, cahiliyyә әmәlidir". Sonra ondan Hәmmanın "qana boyanar" sözü haqqında soruşuldaqda onun bu sözünün yanlış olduğunu, әslindә rәvayәtdә keçәn sözün "adı qoyular" kimi olduğunu demişdir. Әhmәd ibn Haşim әl-Antaki Әhmәdin belә dediyini xәbәr verdi: "Hәmmam vә Sәid әqiq barәsindә ixtilaf etdilәr. Onlardan biri qanın axıdıldığını, digәri isә ad qoyulduğunu deyirdi". Әhmәddәn gәlәn başqa bir rәvayәtә görә isә qanının axıdılması (uşağın başına sürtülmәsi) sünnәtdir. Xәllal dedi: "Mәnә Usamә ibn İsam xәbәr verdi vә dedi ki, Hәnbәl Әbu Abdullahı: "Oğlan uşağının başına qan sürtülür" – deyәrkәn eşidib. Hәmçinin Әbu Abdullah bunun sünnәt olduğunu söylәyib". Ancaq ondan görüşlәrini rәvayәt edәn mәzhәbinin alimlәri hamılıqla isә bunun mәkruh olduğunu bildirmişlәr.

Xәllal İsmә ibn İsamın başqa bir dәfә isә ona belә dediyini rәvayәt etmişdir: "Hәnbәl bizә rәvayәt etdi ki, Әbu Abdullahı: "Oğlan uşağının başı qırxılır" – deyәrkәn eşitdim". Hәmçinin o, Әbu Abdullahın qan sürtmәyә mәkruh dediyini dә rәvayәt etmişdir. Onun qan sürtmәyә caiz demәsinә isә Sәmranın rәvayәtindәn başqa bir yerdә rast gәlmәk mümkün deyil".

İsmә ibn İsam Muhәmmәd ibnu`l-Hüseyn Fadlın ona belә dediyini rәvayәt etmişdir: "Әbu Abdullaha uşağın saçının qırxılması haqqında sual verdim. O: "bәli qırxılır" – deyә cavab verdi. Daha sonra başına qan sürtülmәsi haqqında soruşdum. O da: "Xeyr, bu cahiliyyә әmәllәrindәndir" – dedi. Mәn dә dedim ki, bәs Qatәdәnin Hәsәndәn rәvayәt etdiyi hәdis necә? O, orada uşağın başına qan sürtüldüyünü deyir. İmam Әhmәd cavabında dedi: "Hümama gәlincә o, qan sürtülәcәyini deyir.

Səid isə bunun əksinə ad qoyulduğunu deyir. Əsrəmin və İbn Əbu Urvənin rəvayətlərində də ad qoyulacağı deyilir. Mən qan sürtmə haqqında olan rəvayətin səhv olduğunu görürəm”.

İbn Məcə “Sünən” kitabında Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: “Oğlan uşağına görə əqiq kəsilir, ancaq (cahiliyyədə olduğu kimi) başına qan sürtülmür”.[70]

Aişə ɡ demişdir: “Cahiliyyə əhli əqiqin qanını pambığa batıraraq onu uşağın başına sürtürdülər. Peyğəmbər ρ bizə qan sürtməyin əvəzinə uşağa zəfəran ətiri sürtməyi əmr etdi”.[71]

İbn Munzir demişdir: “Peyğəmbərin ρ “ondan əziyyəti uzaqlaşdırın” dediyi sabit olmuşdur. Qan sürtmək elə özü ən böyük bir əziyyət verməkdir. Belə olduqda isə nəcis olan qanı uşağın başına sürtməklə ona əziyyət vermək caiz deyildir”.

## Dördüncü fəsil

### Əqiqi məkruh görənlərin dəlillərinə verilən rəddiyə

İmam Əhməd demişdir: “Əqiqi məkruh görənlərin bəziləri onu cahiliyyə əməllərindən hesab etmişlər. Bu, onların elmlərinin zəif olması və bu haqda mövcud xəbərləri bilmədiklərinə görədir. Peyğəmbər ρ Həsən və Hüseyn ψ üçün əqiq kəsmiş, səhabələr də onun kimi etmişdirlər. Əqiq Peyğəmbərdən ρ gələn bir sünnət olduğu halda onlar bunu cahiliyyə əməli hesab edirlər. Peyğəmbər ρ “Oğlan uşağı öz əqiqi qarşılığında

[70] İsnadı həsəndir. Mən isə bu hədisin mürsəl olduğunu düşünürəm.

[71] Beyhaqi “əs-Sunənu`l-Kubra”: 9/593. Hədisin isnadı yaxşıdır.

girovdur" demişdir. Bu hədisi Əbu Hüreyrə τ Peyğəmbərdən ρ rəvayət etmişdir və sənədi qəbul olunandır". Başqa bir rəvayətdə isə İmam Əhmədin belə dediyi bildirilir: "Əqiq barəsində Peyğəmbərdən ρ, səhabələrdən və tabiinlərdən rəvayət olunan bir çox hədis vardır. Bunlar isə əqiqin cahiliyyə əməli olduğunu deyirlər". Bu zaman imam onların bu sözünə təəccüb edərcəsinə gülümsədi".

əl-Meymuni demişdir: "Əbu Abdullaha dedim: "Əqiq barəsində şəriətdə sabit olan bir şey varmı?" O dedi: "Bəli. Vallahi, Peyğəmbərdən ρ bu haqda rəvayət olunan hədislər vardır. "Oğlan üçün iki, qız üçün bir qoyun kəsin" hədisi kimi". Dedim ki, bu hədislərə zidd olan başqa hədislər var, bəs onlara nə deyirsən? O Dedi: "o hədislər səhihlik baxımından bir şey deyillər". Amr ibn Şuaybın rəvayət etdiyi "Əqiqi sevmirəm" hədisinə gəlincə isə bu hədis əqiqin müstəhəb olmasının dəlillərindəndir. Bu hədisin başqa bir rəvayəti də var. Həmin rəvayətdə Peyğəmbərdən ρ əqiq barəsində soruşurlar. O isə "Mən əqiqləri sevmirəm" deyə cavab verir. Belə deməklə o sanki həmin qurbanın əqiq adlandırılmasından xoşu gəlmədiyini bildirib. Səhabələr "Ey Allah`ın Rəsulu! Biz səndən övladımız olduğu zaman kəsdiyimiz qurban barəsində soruşuruq" deyə soruşdular. O dedi: "Sizdən hər kim öz övladı üçün qurban kəsməyi sevirsə, oğlan uşağı üçün iki eyni[72] qoyun, qız

---

[72] Alimlər burada iki eyni qoyun sözünü iki yöndən şərh etmişdir. Bəzi alimlərə görə eyni deyildikdə yaş və həcm baxımından digərlərinə görə isə hərəsini başqa vaxtlarda deyil, hər ikisini də eyni vaxtda kəsilməsi nəzərdə tutulur. Bir müsəlmanın ehtiyat babından hər iki şərti də yerinə yetirməsi daha yaxşıdır. Yəni həm kəsilən qurbanların yaşca həcmcə eyni olması, həm də eyni vaxtda kəsilməsi kimi. (Tər.)

üçün isə bir qoyun kəssin". Əbu Rafinin hədisinə gəlincə isə o, səhih deyildir".[73]

İmam Əhməd əqiqin müstəhəbliyinə ziddiyyət təşkil edən hədisləri zəif hesab edərək onları ciddi qəbul etmmiş və Peyğəmbərin ρ Həsən və Hüseyn ψ üçün qurban kəsməsi ilə bağlı hədislərin kifayət qədər çox olduğunu bildirmişdir.

İbn Abbas τ Peyğəmbərin ρ Həsən və Hüseynin ψ hər biri üçün bir qoç kəsdiyini rəvayət etmişdir. Bu hədisi Əbu Davud nəql etmişdir. Ənəsin τ rəvayətinə görə isə Peyğəmbər ρ Həsən və Hüseyn ψ üçün iki qoç kəsmişdir.[74]

Aişə ɡ rəvayət edir ki, Peyğəmbər ρ dünyaya gəldiklərinin yeddinci günündə Həsən və Hüseyn ψ üçün əqiq kəsdi. Əgər Peyğəmbərin ρ Fatiməyə ɡ dediyi "ona əqiq kəsmə" sözü səhihdirsə, bu yenə də əqiqin məkruh olduğunu göstərməz. Çünki Peyğəmbər ρ qızının əvəzinə əqiq kəsməyi öz üzərinə almaq və onun üzərindən əziyyəti qaldırmaq istəmişdir. Əksinə, o özü Həsən və Hüseyn ψ üçün əqiq kəsmişdir.

## Beşinci fəsil

### "Əqiq" sözünün mənşəyi və bu sözlə adlandırılmasının səbəbi

Əbu Amr demişdir: "Əbu Ubeydin Əsmaidən və digərlərindən rəvayət etdiyinə görə, "Əqiq" yeni doğulan uşağın ba-

---

[73] Bu hədis digər oxşar rəvayətləri ilə birgə həsən dərəcəsindədir.
[74] Beyhaqi "əs-Sunənu`l-Kubra": 9/299. Digər rəvayətlərlə birgə hədis həsən dərəcəsinə çatır.

şında olan tüklərə deyilir. Uşaq üçün kəsilən qoyun ona görə əqiq adlanmışdır ki, uşağın saçının qırxılması qurbanın kəsildiyi tarixə təsadüf edir. Məhz elə ona görə də, Peyğəmbər ρ "Ondan əziyyəti uzaqlaşdırın" – demişdir. Yəni başındakı tükü qırxmaqla onu əziyyətdən xilas edin".

Əbu Übeyd demişdir: "Bir şey başqa bir şeyə bağlı olduqda və ya biri digərinin var olma səbəbi ilə əlaqələndikdə ərəblər onların hər ikisini də eyni isimlə adlandırırdılar. Başdakı tük əqiq adlandırıldığı üçün uşaq üçün kəsilən qurban da əqiq adlandırılmışdır. Yeni doğulan heyvan balarının da, təzə dünyaya göz açan körpələrin də üzərində olan tükə əqiq deyilir".

İbn Ruqa öz şeirində ulağı vəsf edərkən belə demişdir:

"Düşdü bətnində olan , o doğdu.

Süddən ayrılandan sonra əqiqini (tükünü) tökərək ot yeməyə başladı."

Əbu Übeyd demişdi: "Əqiqə" və "iqqə" sözləri insan və ulağın tükü üçün istifadə olunur. Bu iki sinifdən başqa bir şey üçün istifadə olunduğuna rast gəlinməyib". İmam Əhməd Əbu Übeydin əqiqə verdiyi bu açıqlamanı, həmçinin onun Əsmaidən və digərlərindən rəvayət etdiyi fərziyələri qəbul etməyərək belə demişdir: "Əqiq kəlməsi ancaq kəsmək anlamındadır. Əbu Übeyin dediklərinin əsası yoxdur". Əbu Amr demişdir: "Son zamanda yaşayan alimlərin bəziləri Əhməd ibn Hənbəlin bu barədə söylədiyi sözə etimad edirlər. Belə ki, İmam Əhmədin bu barədə dediyi söz ərəb dilində də məşhurdur. Çünki ərəb dilində "kəsmək, qoparmaq" sözləri "əqqa" feili ilə ifadə olunur". Aşağıda qeyd edəcəyimiz şer də İmam Əhmədin sözünü gücləndirir:

“O şəhərdə gənclər mənim boyunbağımı qopardılar (əqqa). Halbuki, o torpağa ilk dəfə idi ayaq basırdım”.

Əbu Amr İmam Əhmədin əqiq haqqında dediklərinin Əbu Ubeydin görüşündən daha doğru olduğunu demişdir. Ancaq bu söz ərəb dilində hər iki mənada işləndiyi üçün iki görüşün də əsası vardır. Ən doğrusunu bilən isə Allah`dır I.

Peyğəmbərin ρ hədisdə keçən “Əqiqi sevmirəm” sözünə gəldikdə isə buradakı əsas məqsəd bu adın qəlbə xoş gəlmədiyini açıqlamaqdan ibarətdir. Belə ki, Peyğəmbər ρ hər zaman çirkin bir adı yaxşısı ilə əvəz edərdi. O, həmçinin pis ad olan yerdə dayanmaz, çirkin adı olan iki dağın arasından keçməzdi. O, xoş adları və gözəl şəkildə yozumu sevərdi.

İmam Malik “əl-Muvatta” kitabında rəvayət edir ki, Peyğəmbər ρ dişi dəvəni göstərərək soruşdu: “Bunu kim sağa bilər?” Bir nəfər ayağa qalxdı. Peyğəmbər ρ ondan: “Adın nədir?” – deyə soruşdu. O dedi: “Murra” (acı). Peyğəmbər ρ ona dedi: “Otur”. Daha sonra bir də: “Bunu kim sağa bilər?” – deyə soruşdu. Bu dəfə başqa bir nəfər ayağa qalxdı. Peyğəmbər ρ onun adını soruşdu. O da: “Hərb” (müharibə) – deyə cavab verdi. Peyğəmbər ρ ondan da oturmağını istədi. Peyğəmbər ρ üçüncü dəfə: “Bunu kim sağa bilər?” – deyə soruşdu. Bu dəfə də bir nəfər ayağa qalxdı. Peyğəmbər ρ ondan da adını soruşanda o adının Yəiş (yaşayır) olduğunu dedi. Peyğəmbər ρ onun dəvəni sağmasına icazə verdi[75]. Əbu Ömər

[75] İmam Malik “əl-Muvatta”: 2/973. Hədis mürsəl hədisdir.

bunun, adın uğurlu-uğursuz olmasına görə deyil, gözəl yozum ifadə etməsi ilə bağlı olduğunu demişdir.

Mən burada başqa bir hikmətin də olduğunu düşünürəm. Belə ki, adla adlandırılan məfhumun arasında əlaqə və bağlılıq vardır ki, bunlar da çox az hallarda biri-biri ilə ziddiyyət təşkil edir. Sözlər mənaların qəlibləri olduğu kimi, adlar da adlandırılan varlıqların aynasıdır.

Bir şairin dediyi kimi: "Əgər gözlərin baxsa, mənası özünə uyğun olmayan çox az ad görər".

Çirkinliyin simadaxili pisliyin əlaməti olduğu kimi adın çirkin olması da adlandırılan şeyin çirkinliyinin göstəricisidir. Ən doğrusunu Allah I bilir.

İmam Malikin rəvayət etdiyinə görə, Ömər ibn Xəttab τ bir kişiyə belə dedi: "Sənin adın nədir?" O dedi: "Cəmrə" (köz parçası). Ömər τ soruşdu: "Kimin oğlusan?" O dedi: "Şihabın (alovun) oğluyam". Ömər τ: "Kimlərdənsən?" – deyə soruşdu. "Hərqadan" (yanğın adlı qəbilədən) – deyə cavab verdi. Ömər τ: "Evin haradadır?" – deyə soruşdu. O dedi: "Harratu`n-Narda" (odun istiliyi adlı yer). Ömər τ: "Hansıdır?" – deyə soruşdu. O dedi: "Alovlu olanı". Ömər τ dedi: "Ailənə yetiş! Onlar artıq yandılar". Sonra Ömər ibn Xəttabın τ dediyi kimi də oldu.[76]

İbn Əbu Xaysəmə Bureydənin τ belə dediyini rəvayət etmişdir: "Allah Rəsulu ρ heç bir halda uğursuzluğu qəbul et-

---

[76] İmam Malik "əl-Muvatta": 2/973. Hədisin sənədi tam deyil.

məzdi. Bureydə τ öz qəbiləsi olan Bəni Əsləmdən yetmiş nəfər atlı ilə gecə vaxtı Peyğəmbərlə ρ qarşılaşdılar. Peyğəmbər ρ ondan soruşdu: "Sən kimsən?" O dedi: "Mən Bureydəyəm" (Sərin, az soyuq deməkdir). Peyğəmbər ρ Əbu Bəkr τ tərəfə dönüb belə dedi: "Ey Əbu Bəkr! İşlərimiz sərinlədi və düzəldi". Daha sonra soruşdu: "Kimlərdənsən?" Bureydə τ dedi: "Əsləm (daha sağlam deməkdir) qəbiləsindən". Peyğəmbər ρ Əbu Bəkrə τ dedi: "Artıq salamatıq". Peyğəmbər ρ daha sonra soruşdu: "Hansı qolundan?". Bureydə τ dedi: "Səhmdən" (ox deməkdir) Peyğəmbər ρ dedi: "Oxun yaydan çıxdı".[77]

Peyğəmbər ρ Hüdeybiyyədə qarşıdan gələn və adının mənası asan olan Suheyl ibn Amrı görəndə belə demişdi: "İşiniz asanlaşdı".[78]

Peyğəmbər ρ başqa bir səfərində iki dağın arasından keçərkən onların adını soruşdu. Ona deyiləndə ki, bu dağların adı "Muxzin" (rəzil ) və "Fadih"-dir (rüsvayçılıq) yolunu dəyişərək onların arasından keçmədi.[79]

Həmçinin Allah Rəsulunun ρ Asiyə (üsyan edən, asi) adını "Cəmilə" (gözəl, qəşəng) adı ilə, Əsrəm (qatı, sərt) adını Züraə (yumşaq, həlim) adı ilə dəyişdirdiyi rəvayət olunmuşdur.[80]

---

[77] əz-Zərqani "Şərhu`l-Məvahib": 1/405. Ravilərindən biri hədisi götürülməyən ravidir.

[78] Buxari: 2731, 2732, İmam Əhməd "əl-Musnəd": 4/330.

[79] Bu hədisin sənədinə heç bir hədis kitabında rast gəlinməyib.

[80] Müslim, Buxari "Ədəbu`l-Mufrad", Əbu Davud, Tirmizi, İmam Əhməd.

Əbu Davud "Sünən" kitabında Peyğəmbərin ρ Asi, Aziz, Atlə, Şeytan, Hikəm, Ğirab və Şihab adlarını dəyişdirdiyini bildirmişdir. O, bu adları dəyişərək Şihabı Hişam, Hərbi Əsləm, Muztacini Munbəis, Afranı Xadira, Şuəbu`d-Dəlaləni Şuəbu`l-Hudə, Bənu`z-Zinəti isə Bənu`r-Rüşd adlandırmışdı.[81]

Bunun dini mövzular arasında çox önəmli yeri var. Buradan belə bir nəticə çıxarmaq olar ki, insan ağlının çirkin qəbul edib, nəfsin xoşlamadığı adları gözəl adlarla əvəz etmək lazımdır. Peyğəmbər ρ bu məsələyə çox ciddi yanaşmışdır. Məhz buna görə də o, əqiq kəlməsini xoş qarşılamayaraq "Allah I əqiqi sevmir" demişdi. Daha sonra isə müsəlmanlara "Kimin övladı dünyaya gəldiyi zaman, onun üçün qurban kəsmək istəyirsə, kəssin" demişdi.[82]

## Altıncı fəsil

### Kəsilən qurbanı "əqiq" adlandırmaq məkruhdurmu?

Bu məsələdə ixtilaf vardır. Alimlərdən bir qrupu bu qurbanın "əqiq" adlandırılmasının məkruh olduğu görüşünü mənimsəmiş, dəlil olaraq isə Allah Rəsulunun ρ "Əqiqi sevmirəm" hədisini göstərmişlər. Onların fikrincə, uşaq üçün kəsilən qurbanı Peyğəmbərin ρ sevmədiyi bir adla adlandırmaq olmaz. Bu fikirdə olan alimlər həmin qurbana hədisin tələbinə uyğun "əqiq" deyil "nəsikə"[83] deyilməsini vacib hesab edirlər.

---

[81] Əbu Davud: 4956, "Əhadisu`s-Sahihə": 208, 215.

[82] Buradan belə nəticəyə gəlirik ki, adın düşərli düşərsiz olmasına görə deyil məhz insanlar yaxşı adlarla adlansın deyə Allah Rəsulu ρ insanları buna sövq etmişdir. (Tər.)

[83] Qurban sözünün sinonimi.

Alimlərdən ikinci bir qrup isə kəsilən qurbanın "əqiq" adlandırılmasının mübah olduğunu söyləmişlər. Belə düşünən alimlər isə Səmranın rəvayət etdiyi "Hər oğlan uşağı öz əqiqi qarşılığında girovdur" və Salman ibn Amirin rəvayət etdiyi "Hər oğlan uşağı ilə birlikdə onun əqiqi vardır" hədislərinə əsaslanmışlar. "Əqiq" sözünün Peyğəmbər ρ tərəfindən bu iki hədisdə istifadə olunması kəsilən qurbanın əqiq adlandırılmasının məkruh olmadığına dəlalət edir.

Əbu Amr demişdir: "Bu dəlillər onun bu adla adlandırılmasının məkruh olduğunu göstərir. Buna baxmayaraq, bütün bölgələrdə olan fəqihlər onu "nəsikə" deyil, məhz əqiq kimi göstərmişlər". O həmçinin demişdir: "Malikin bu barədəki hədisi bunun məkruh olduğunu göstərmir. Bu hədislərin hər ikisində sanki Peyğəmbər ρ bu adla adlandırmağı xoş qarşılamayıb. O buyurmuşdur: "Kim övladı üçün qurban kəsmək istəyərsə, kəssin".

Mənim fikrimcə, bu ixtilaf alimlər arasında "işa" namazının "atma"[84] adlandırlmasında olunan ixtilaf kimidir. Bu barədə İmam Əhməddən iki rəvayət gəlmişdir. "Qurban" sözünün "əqiq" sözü ilə, "işa" sözünün isə "atma" sözü ilə əvəz edilməsinin məkruhluğunu iki mövzuda təhqiq etmişik. Ümumi nəticə ondan ibarətdir ki, şəri termin başqa bir sözlə əvəz edilməməlidir, ancaq bəzən müəyyən məqsədlə digər bir sözlə ifadə etməkdə problem yoxdur. Çünki bəzi hədislərdə biz bu kimi hallara rast gəlmişik. Müvəffəqiyyət yalnız Allah`dandır I.

[84] Cahiliyyə dövründə ərəblər gecənin ilk 3/1 nə atma vaxtı deyirdilər. Ona görə də bəzi alimlər işa namazının vaxtını atma adlandırmağı məkruh görüblər.

## Yeddinci fəsil

### Əqiqin vacib yaxud müstəhəb olması barədə alimlərin görüşləri və əsaslandıqları dəlillər

İbn Munzir demişdir: "Əqiqin vacib olub-olmaması barədə ixtilaf vardır. Bir qrup alim onu Peyğəmbərin ρ əmri olduğu üçün vacib hesab edirlər. Çünki onun əmri əməlin vacib olmasını ifadə edir.

Bizə Həsən əl-Bəsridən rəvayət olunduğuna görə ondan uşaqlığında əqiq kəsilməmiş bir kişinin halı haqqında soruşdular. O dedi: "Özü özü üçün kəssin". Bununla yanaşı Həsən qız uşağı üçün əqiq kəsilməsini caiz görmürdü. Bureydənin τ belə dediyi rəvayət edilir: "İnsanlar qiyamət günündə beş vaxt namazdan dolayı hesaba çəkiləcəkləri kimi eynən əqiqdən də hesaba çəkiləcəklər".

İshaq ibn Rahuveyhi demişdir: "Bizə ibn Bureydənin atasından rəvayət gəlib ki, "İnsanlar qiyamət günündə beş vaxt namazdan dolayı hesaba çəkiləcəkləri kimi eynilə əqiqdən də hesaba çəkiləcəklər". İbn Bureydəyə dedim ki, əqiq nədir? O dedi: "Müsəlmanın doğulan uşağı üçün kəsilməsi vacib olan qurbanın adıdır".

Əbu`z-Zinad demişdir: "Əqiq müsəlmanların tərk edilməsini məkruh gördükləri işlərindəndir". Həmçinin o qeyd etdi ki, Həsən əl-Bəsridən rəvayət olunduğuna görə, o demişdir: "Oğlan uşağı üçün yeddinci günündə əqiq kəsmək vacibdir".

Əbu Amr demişdir: "Alimlərin əqiqin vacib olması haqqında ixtilaflarına gəldikdə isə Zahirilər əqiqin fərz olaraq vacibliyi görüşündədirlər. Bu, Davud və digərlərinin də görüşüdür. Onlar deyirlər: "Allah Rəsulu ρ bunu həm əmr etmiş, həm də

özü kəsmişdir". O buyurmuşdur: "Oğlan uşağı öz əqiqi qarşılığında girovdur". "Hər doğulan oğlan uşağı ilə birlikdə onun əqiqi vardır". "Qız üçün bir, oğlan üçün isə iki əqiq qurbanı kəsilir". Bureydə əl-Əsləmi onun vacibliyini namazla eyni tutmuşdur. Həsən əl-Bəsri isə əqiqin oğlan uşağı üçün yeddinci günündə kəsilməsini vacib görmüşdür. Ona görə də əqiq kəsilməyibsə, uşaq böyüdüyü zaman özünə əqiq kəsməsi lazımdır.

Leys ibn Səd demişdir: "Yeni doğulan uşaq üçün yeddinci gününə qədər istənilən gündə əqiq kəsilir. Əgər onun üçün yeddi günündə əqiqini kəsə bilməzlərsə, bundan sonra kəsmələrində bir qüsur yoxdur. Yeddi günündən sonra onun üçün əqiqin kəsilməsi vacib deyildir". Leys ibn Səd əqiqin ilk yeddi gündə kəsilməsini vacib olaraq qəbul edirdi. İmam Malik isə deyirdi: "Əqiq əməl edilməsi vacib olan bir sünnətdir". Bu, həmçinin Şafiinin, Əhməd ibn Hənbəlin, İshaqın, Əbu Səvrin, Təbəri və Əbu Amrın görüşüdür".

Qeyd etmək istərdim ki, maliki məzhəbinin alimlərinə görə vacib sünnətin mənası müstəhəbliyi sabit olan və tərk edilməsi məkruh olan anlamındadır. Onlar bunu edilməsi vacib olan sünnətlərdən hesab edirlər. Buna görə də deyirlər: "Cümə günü qüsl etmək vacib sünnətdir. Qurban bayramı günü qurban kəsmək vacib sünnətdir. Əqiq də onlar kimi vacib sünnətlərdəndir". İmam Əhmədin məzhəbində olan alimlər əqiqin vacibliyi barəsində ondan iki rəvayət nəql ediblər. Bununla yanaşı İmam Əhməddən əqiqin vacib olduğunu ifadə edən açıq-aydın bir söz yoxdur. Biz onun görüşlərini qeyd edəcəyik. Xalləl "əl-Cami" adlı əsərində yazmışdır: "İmam Əhməd əqiqin müstəhəb olduğunu, vacib olmadığını bildirmişdir". Süleyman ibn Əşas bizə xəbər verərək dedi: "Eşitdim ki, Əbu Ab-

dullaha əqiqin nə olması barədə sual verildi. O dedi: “Qurban kəsməkdir. O, əqiqin saçın qırxılması olduğu görüşünü inkar etdi”.

Mənə Muhəmməd ibn Hüseyn xəbər verərək dedi ki, Fadl onlara belə rəvayət etmişdir: “Əbu Abdullaha “Əqiq kəsmək vacibdirmi?” deyə sual verdim. O dedi: “Xeyr. Lakin kimin əqiq kəsməkdən xoşu gəlirsə kəssin”. Yenə “Sən əqiqi vacib görürsənmi?” deyə soruşdum. Dedi ki, xeyr. Sonra da Əhməd ibn Qasimdən Əbu Abdullaha “əqiq vacibdirmi?” deyə soruşulan sualı qeyd etdi. O dedi: “Bilmirəm. Amma vacib olduğunu da demirəm”. Sonra isə belə dedi: “Bu barədə ən şiddətli təhdid “İnsan əqiqi müqabilində girovdur” hədisidir”.

əl-Əsrəm demişdir: “Əbu Abdullaha dedim: “Əqiq vacibdirmi?” O “xeyr” deyə cavab verdi. Bu barədə rəvayət olunan ən şiddətli təhdid “Oğlan uşağı öz əqiqi qarşılığında girovdur” hədisidir”. Hənbəl demişdir: “Əbu Abdullah dedi ki: “Mən imkanı və qüdrəti olan kəsin övladı üçün əqiq kəsməyi tərk etməsini sevmirəm. Çünki Peyğəmbər ρ buyurmuşdur: “Oğlan uşağı öz əqiqi qarşılığında girovdur”. Bu isə əqiq barəsində rəvayət edilən ən şiddətli hədisdir”.

əl-Haris demişdir: “Mən Əbu Abdullaha əqiq barəsində sual verdim: “İstər kasıb, istərsə də zəngin olsun o, övladı doğulan hər bir kəsə vacibdirmi?” Əbu Abdullah dedi: “Həsən Səmradan, o da Peyğəmbərdən ρ belə buyurduğunu rəvayət etmişdir: “Hər doğulan oğlan uşağı yeddinci gününə kimi qurbanı kəsilib, saçı qırxılana qədər öz əqiqi müqabilində girovdur”. Bu, Peyğəmbərin ρ sünnətidir və mən sənin bu sün-

nəti yaşatmağını və yaymağını istərdim. Bu işdə Allah I sənə yardım edər".

İshaq ibn İbrahim demişdir: "Əbu Abdullahdan Peyğəmbərin ρ "Oğlan uşağı öz əqiqi müqabilində girovdur" hədisinin mənasını soruşdum. O dedi: "Bəli, Peyğəmbərin ρ sünnətidir ki, oğlan uşağı üçün iki, qız uşağı üçün isə bir qoyun qurban kəsilsin. Əqiqi kəsilmədiyi halda isə uşaq əqiqi kəsilənə qədər sanki öz əqiqinə həbs edilmişdir".

Cəfər ibn Muhəmməd demişdir: "Əbu Abdullahdan soruşuldu ki, "əgər bir şəxsin əqiq kəsməyə imkanı olmazsa, o zaman nə etsin?". O dedi: "Elə olduqda onun üzərinə bir şey düşməz". əl-Haris demişdir: "Əbu Abdullahdan əqiq barəsində "Əgər şəxsin onu kəsməyə imkanı olmazsa, o zaman nə etsin?" – deyə soruşdular. O dedi: "Əgər sünnəti yaşatmaq üçün borc alıb bunu edərsə, ümid edirəm ki, Allah I ona bu borcunu qaytarmağına yardım edər".

əs-Salih demişdir: "Atama (İmam Əhmədə) dedim ki, bir insanın övladı dünyaya gəlir və onun əqiq kəsməyə imkanı yoxdursa, sən onun borc alıb övladı üçün əqiq kəsməsinimi, yoxsa imkanı olana qədər bunu təxirə salmasınımı üstün görürsən?". O dedi: "Əqiq barəsində eşitdiyim ən şiddətli hədis Həsənin Səmradan, onun da Peyğəmbərdən ρ rəvayət etdiyi "Hər oğlan uşağı öz əqiqi müqabilində girovdur" hədisidir. Mən ümid edirəm ki, əgər borc alıb kəsərsə, Allah I ona borcunu qaytarmağı tezləşdirər. Çünki o, Peyğəmbərin ρ sünnətlərindən bir sünnəti yaşadaraq, onun buyurduğuna tabe olmuşdur".

Göründüyü kimi, bu, İmam Əhməddən əqiq mövzusu ilə bağlı rəvayət olunan görüşləridir. Bununla yanaşı, onun məzhəbində olan alimlər bu məsələdə daha da təfsilata gedərək üç müxtəlif yöndən yanaşaraq "vaciblik" anlayışını açıqlayıblar. Bunlardan birincisi, əqiqin uşağın malı üzərinəmi, yoxsa atasının üzərinəmi vacibdir. İkincisi, oğlan uşağına bir yoxsa iki qoyun kəsmək vacibdir. Üçüncüsü isə əgər atası övladı üçün əqiq kəsməzsə uşağın üzərindən vaciblik düşürmü, yoxsa həddi-büluğa çatandan sonra özünün əqiqi kəsməsi vacib olurmu.

Birinci məsələdə onun hökmünü iki yöndən izah ediblər. Birincisi, əqiqi kəsmək atanın üzərinə vacibdir və bu İmam Əhməddən nəql edilmişdir. İsmail ibn Səid demişdir: "İmam Əhməddən atası onun üçün əqiq kəsməyən kişi haqqında "o kişi sonradan öz yerinə əqiq kəsərmi?", deyə soruşdum. O dedi: "Bu, atanın üzərinə vacibdir".

İkincisi isə uşağın malı üzərinə vacibdir görüşüdür. "Əqiq atanın üzərinə vacibdir" deyənin dəlili öncədən də qeyd olunduğu kimi, atanın onu kəsməklə əmr olunmasıdır. Əqiq kəsməyin uşağın malı üzərinə vacib olduğu görüşündə olanların dəlilləri isə "Oğlan uşağı öz əqiqi qarşılığında girovdur" hədisidir. Bu, hər iki qrupun dəlil olaraq irəli sürdüyü hədisdir.

Əqiqi vacib görənlər onun vacib olmasına bu hədisi dəlil olaraq göstərirlər: "Oğlan üçün iki, qız üçün isə bir qoyun kəsilir". Onlar deyirlər ki, bu hədis əqiqin vacib olduğunu göstərir. Çünki məna budur ki, qız üçün bir, oğlan üçün iki qoyun kifayətdir. Həmçinin Buxarinin Salman ibn Amirdən rəvayət etdiyi hədisi də dəlil olaraq irəli sürürlər. Həmin hədis belədir: "Oğlan uşağı ilə birlikdə onun əqiqi vardır. Onun əvə-

zində qan axıdın və ondan əziyyəti uzaqlaşdırın". Bu, iki yöndən əqiqin vacib olduğunu göstərir. Birincisi, sözügedən hədis əqiq kəsmək haqqında məlumat vermək mənasında deyildir. Burada məqsəd onu kəsməyin vacib olduğunu bildirməkdir. Bundan sonra isə Peyğəmbər ρ onlara uşaqda olan əziyyətin qurban qanının axıdılması ilə uzaqlaşdırılmasını əmr etdi və dedi: "...onun qarşılığında qan axıdın".

Onlar həmçinin qeyd edirlər ki, Amr ibn Şuaybın atasından, onun da babasından rəvayət etdiyi hədis də əqiqin vacib olmasına dəlildir. Hədis belədir: "Allah Rəsulu ρ yeni doğulan uşağın yeddinci günündə adının qoyulmasını, ondan əziyyətin uzaqlaşdırılmasını və əqiqinin kəsilməsini əmr etdi".

Tirmizi Yusuf ibn Mahikdən rəvayət edir ki, onlar Abdu`r-Rahmanın qızı Hafsanın yanına getdilər və ondan əqiq barəsində soruşdular. O da onlara, Aişənin ɡ ona belə dediyini xəbər verdi: "Allah Rəsulu ρ onlara oğlan üçün iki, qız üçün isə bir qoyun kəsməyi əmr etmişdir". Tirmizi bu hədisin həsən səhih olduğunu bildirir.

Əbu Bəkr ibn Əbu Şeybə demişdir: "Abdu`r-Rahmanın qızı Hafsa Aişədən ɡ belə dediyini rəvayət edir: "Allah Rəsulu ρ bizə oğlan üçün iki, qız üçün isə bir qoyun kəsməyi əmr etdi".[85] Əbu Bəkr demişdir: "Bizə Peyğəmbərin ρ belə buyurduğu rəvayət olunub: "Oğlan üçün əqiq kəsilir. Başına isə qan sürtülmür". Onlar bu hədisin əqiq kəsmək üçün əmr ifadə etdiyini bildirmişlər. Əbu Bəkr həmçinin demişdir: "Muhəm-

---

[85] İsnadı həsəndir.

məd ibn İbrahim bir sərçə ilə olsa belə əqiq kəsməyi əmr edərdi".[86]

Əqiq kəsməyi müstəhəb hesab edənlər deyirlər: "Əgər əqiq kəsmək vacib olsaydı, o zaman dində hər kəs tərəfindən bilinməsi zəruri olan hökmlərdən olardı və hamı bunu bilərdi. Allah Rəsulu ρ da bunun vacibliyini bütün ümmətə dəlil göstərib bilməzlik üzrünün tam aradan qalxacağı bir şəkildə buyurardı. Bunu ümumi və kifayət edəcək tərzdə açıq-aşkar bəyan edərdi. Əksinə, Peyğəmbər ρ onu bu işi görmək istəyənin imkanlarına buraxaraq belə buyurmuşdu: "Yeni övladı dünyaya gələn şəxs onun üçün əqiq kəsmək istəyərsə, kəssin". Onun özünün isə buna əməl etməsi əqiqin vacib olduğuna yox, ancaq müstəhəb olduğuna dəlalət edər.

Əbu Davudun Amr bin Şueybdən rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbərdən ρ əqiq barəsində soruşdular. Cavabında o, "uququ" sevmədiyini buyurdu. Sanki Peyğəmbərin ρ bu addan xoşu gəlməmişdi. Sonra isə buyurdu: "Hər kimin övladı doğular və onun üçün əqiq kəsmək istərsə, kəssin. Oğlan üçün iki eyni, qız üçün isə bir qoyun kəssin". Bu hədis mürsəl hədisidir.

## Səkkizinci fəsil

### Əqiq kəsməyin müstəhəb olduğu vaxt

Əbu Davud "əl-Məsəil" adlı kitabında demişdir: "Əbu Abdullahın belə dediyini eşitdim: "Əqiq uşağın doğumunun

[86] Bu söz əqiqin vacibliyini bildirmək üçün mübaləğə ifadə edir. Çünki sərçədən əqiq kəsilməsi caiz deyildir. Əqiq yalnız qurban kəsilməsi caiz olan heyvanlardan kəsilə bilər. (Tər.)

yeddinci günündə kəsilir". Saleh ibn Əhməd demişdir: "Atam əqiqin yeddinci gündə kəsildiyini deyib, kəsə bilməsə, on dördüncü gündə, əgər bu gündə də alınmazsa o zaman iyirmi birinci günündə kəsilir" .

əl-Meymuni demişdir: "Əbu Abdullahdan əqiqin nə vaxt kəsiləcəyini soruşdum. O dedi: "Aişənin G görüşünə görə yeddinci, on dördüncü və ya iyirmi birinci günündə kəsilir".

Əbu Talib demişdir: "İmam Əhməd dedi ki, əqiq iyirmi birinci günə kimi kəsilir. Bunun dəlili öncədən qeyd olunan Səmra hədisidir. "Oğlan uşaqı öz əqiqi qarşılığında girovdur. Yeddinci günündə kəsilir və adı qoyulur". Tirmizi hədisin səhih olduğunu söyləmişdir".

Abdullah ibn Vəhb demişdir: "Abdu`r-Rahmanın qızı Amra Aişənin G belə dediyini rəvayət edir: "Allah Rəsulu ρ Həsən və Hüseyn ψ üçün yeddinci günündə əqiq kəsib, adlarını qoydu və onların başları üzərindən əziyyətin uzaqlaşdırılmasını əmr etdi".[87]

Əbu Bəkr ibn Munzir demişdir: "Amr ibn Şuayb atasından, o da babasından rəvayət edir ki, "Allah Rəsulu ρ bizə uşağın doğumunun yeddinci günündə adının qoyulmasını və əqiqinin kəsilərək ondan əziyyətin uzaqlaşdırılmasını əmr etdi".

Elm əhlinin çoxu bu görüşdədir. Biz isə onların bizə gəlib çatan sözlərini nəql edirik. Bu barədə rəvayət olunan ən üstün nəql əl-Meymuninin rəvayətində İmam Əhmədin də nəql etdiyi kimi möminlərin anası Aişənin G sözüdür. Həmçinin Həsən

[87] İbn Hibban "əl-Məvərid": 1056, Hakim: 4/237, Beyhaqi "əl Kubra": 9/299. Hədis səhihdir.

əl-Bəsrinin və Qatədənin görüşü də budur ki, əqiq uşağın dünyaya gəlməsinin yeddinci günündə kəsilir. Əbu Amr demişdir: "Həsən əl-Bəsrinin bu görüşünə görə, əqiq vacibdir və oğlan uşağı üçün doğumunun yeddinci günündə kəsilir. Əgər onun əqiqi kəsilməzsə, o zaman həddi-büluğa çatandan sonra özü öz yerinə əqiqini kəsər". Leys ibn Səd demişdir: "Uşağın əqiqi yeddinci günündə kəsilir. Əgər yeddinci gündə əqiqini kəsə bilməsələr, bundan sonra hər hansı bir zamanda kəsmələrində bir problem yoxdur. Yeddinci günündən sonra isə onun üçün əqiq kəsmək vacib deyil". Əbu Amr demişdir: "Leys əqiqin ilk yeddi gündə kəsilməsinin vacib olduğu görüşündə idi". Əta demişdir: "Əgər əqiqi yeddinci gündə kəsərlərsə, mən də onun yeddinci gündə kəsilməsini xoşlayıram". Həmçinin Əhməd, Şafii, İshaq da bu görüşdədirlər. İmam Malik ilk yeddinci günə ikinci bir vaxt əlavə etməmişdir. İbn Vəhb demişdir: "Əqiqin ilk həftədən üçüncü həftəyə kimi kəsilməsində bir problem yoxdur". Bu, həmçinin Aişə ﵂, Əta, Əhməd və İshaqın görüşüdür.

İmam Malik demişdir: "Əqiqin kəsildiyi gün uşağın doğulduğu gündən hesablanmır. Ancaq gecə, sübhdən öncə doğularsa həmin vaxtdan hesablanır".

Zahirən görünən, bunu yeddinci günə məxsus etməyin müstəhəb olduğudur. Yoxsa dördüncü, səkkizinci və yaxud onuncu gündə və ya ondan sonra kəsməkdə heç bir problem yoxdur. Nə vaxt kəsilərsə, icazəlidir. Əsas olan qurbanın bişirildiyi və yeyildiyi günün deyil, kəsildiyi günün hesablanmasıdır.

## Doqquzuncu fəsil

**Əqiq qurbanını kəsməyin, onun əvəzinə məbləğcə daha çox olsa belə sədəqə verməkdən daha üstün olmasının bəyanı**

əl-Xəlləl demişdir: "Əqiqin müstəhəbliyi və sədəqədən daha fəzilətli olması" babı.

Bizə Süleyman ibn əl-Əşas xəbər verib dedi: "Əbu Abdullaha əqiq barəsində belə sual verildiyini eşitdim: "Onu kəsməkmi sənin üçün daha sevimlidir, yoxsa pulunun kasıblara paylanmasımı?". O dedi: "Əqiq kəsmək daha üstündür". Həmçinin Harisin rəvayətində qeyd olunur ki, "İmam Əhməddən borc alınaraq kəsilən əqiq barəsində soruşuldu. O dedi: "Ümid edirəm ki, sünnəti yaşatdığına görə Allah I ona borcunu qaytarmaqda yardım edər".

İmam Əhmədin oğlu Saleh ondan soruşdu: "Bir insanın övladı dünyaya gəlir və onun əqiq kəsməyə imkanı yoxdur. Onun borc alıb övadı üçün əqiq kəsməsimi üstündür, yoxsa imkanı olana qədər bunu təxirə salmasımı?". O dedi: "Əqiq barəsində eşitdiyim ən şiddətli hədis Həsənin Səmradan onun da Peyğəmbərdən ρ rəvayət etdiyi "Hər oğlan uşağı öz əqiqi müqabilində girovdur" hədisidir. Mən ümid edirəm ki, əgər borc alıb kəsərsə, Allah I onun borcunu qaytarmağını tezləşdirər. Çünki, o, Peyğəmbərin ρ sünnətlərindən birini yaşadaraq, onun gətirdiyinə tabe olmuşdur". Çünki, bu, Allah`ın I uşağın valideynləri üzərində Onun nemətinin xatırlanması səbəbilə sünnət olan bir qurbanlıqdır. Onda Allah I tərəfindən İsmailin υ xilas olması üçün fidyə olaraq göndərdiyi və onun

əvəzində kəsilən qoçun kəsilməsi anının yaşadılması kimi mükəmməl bir sirr də vardır. Bu İsmaildən υ sonra da onun övladları üçün insanların öz uşaqlarına bir fidyə kimi əməl etdikləri sünnət oldu. İnkar edilməz bir həqiqətdir ki, bu, uşağın doğulmasından sonra onun şeytandan qorunmasında da rol oynayan bir səbəbdir. Necə ki, cinsi əlaqədən öncə Allah`ın I adının zikr edilməsi onun ana bətninə yerləşməsi əsnasında şeytandan qoruyur. Buna görə də, şeytanın tələsinə düşənlər istisna olmaqla, çox az valideyn övladı üçün əqiq kəsməyi tərk edir. Şəriətdə olan sirlər isə bu hikmətlərdən daha da böyükdür. Kəsilən qurbanın sayında fərqlilik olsa belə, doğru olan görüş odur ki, əqiq həm oğlan uşağı, həm də qız uşağı üçün kəsilir. Əhli kitaba gəldiddə isə, onlara görə qız uşağı üçün əqiq kəsilmir. Əqiq ancaq oğlana məxsusdur. Sələfdən bəziləri də buna oxşar görüş bəyan etmişlər. Əbu Bəkr ibn Munzir demişdir: "Bu mövzuda üç görüş vardır və bunları Həsən və Qatədə demişdir. Onların hər ikisi də qız üçün əqiqin kəsilməyəcəyi görüşündə idilər. Bu zəif bir görüşdür və ona meyl edilməz. Bundan sonrakı fəsildə də görüləcəyi kimi sünnətdə olan dəlillər bir çox yöndən buna müxalifdir. Öz yerinə görə qurban kəsmək onun əvəzinə pul sədəqə verməkdən məbləğcə çox olsa belə, daha üstündür. Məqsəd qurbanın kəsilib, qanın axıdılmasıdır. Çünki qurban kəsmək Allah`ın I da buyurduğu kimi namazla birlikdə zikr olunan bir ibadətdir. Allah I buyurur:

فَصَلِّ لِرَبِّكَ وَٱنْحَرْ ٢

"Sən də Rəbbin üçün namaz qıl və qurban kəs!". (Kövsər 2)

قُلۡ إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحۡيَايَ وَمَمَاتِي لِلَّهِ رَبِّ ٱلۡعَٰلَمِينَ ١٦٢

“**De: Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür**”. (Ənam 162) Hər bir ümmətin özünün namaz və qurban ibadəti vardır ki, onların yeri heç bir şeylə əvəz olunmaz. Buna görə də bu ibadətin müqabilində bol miqdarda sədəqə versə belə onun yerinə keçməz. Ən doğrusunu Allah I bilir.

**Onuncu fəsil**

**Oğlan və qız uşaqları üçün kəsilən qurbanın sayı və mövcud ixtilafların qeyd olunması**

Burada iki məsələ vardır. Birinci məsələ odur ki, əqiq oğlan uşağı üçün sünnət olduğu kimi qız uşağı üçün də sünnətdir. Bu, elm əhlinin, sahabələrin, tabiinin və onlardan sonra gələnlərin, ümumilikdə cumhurun görüşüdür. İbn Munzirin Həsən və Qatədədən rəvayət etdiyi görüş öncədən qeyd olundu. Onlar qız uşağı üçün əqiqin kəsilməyəcəyi görüşündə idilər. Bəlkə də onlar bu məsələdə Peyğəmbərin ρ “Oğlan uşağı ilə birlikdə onun əqiqi vardır” sözünü əsas alıblar. Bu hədisi Həsən və Qatədə Səmradan rəvayət ediblər. Hədisdə keçən “Ğuləm” sözü qız xaricində, ancaq oğlan üçün istifadə olunan bir sözdür. Lakin bu görüş Ummu Kərzin rəvayət etdiyi hədislə rədd edilir. O, Allah Rəsuludan ρ əqiq haqqında soruşdu və belə cavab aldı: “Oğlan üçün iki, qız üçün bir qoyun kəsilir. Erkək və ya dişi olması sizə heç bir zərər verməz”. Bu, səhih bir hədisdir. Onu Tirmizi və başqaları səhih hesab ediblər. Həmçinin Aişənin ɡ rəvayət etdiyi hədis də həmin görüşü

rədd edir. “Allah Rəsulu ρ bizə oğlan üçün iki, qız üçün isə bir qoyun əqiq kəsməyi əmr etdi”. Bunu İbn Əbu Şeybə rəvayət etmişdir. İsnadı öncədən qeyd olunub.

Əbu Asim demişdir: “Əbu Hüreyrənin τ rəvayət etdiyinə görə Peyğəmbər ρ belə buyurmuşdur: “Yəhudilər oğlan üçün əqiq kəsib, qız üçün isə kəsmirlər. Siz oğlan üçün iki, qız üçün isə bir qoyun əqiq kəsin”. Hədisi Beyhaqi rəvayət etmişdir.

İmam Malik demişdir: “Oğlan və qız uşaqlarının hər biri üçün yalnız bir qoyun qurban kəsilir. Oğlan da, qız da bu məsələdə eynidirlər. O, bu görüşünə Əbu Davudun “Sünən” əsərində İbn Abbasın rəvayət etdiyi hədisi dəlil gətirib. İbn Abbas τ Allah Rəsulunun ρ Həsən və Hüseynin ψ hər biri üçün bir qoyun kəsdiyini demişdir”.

Əbu Ömər demişdir: “Cəfər ibn Muhəmməd atasından Fatimənin Həsən və Hüseynin ψ hər biri üçün bir qoyun kəsdiyini rəvayət etmişdir. O, həmçinin demişdir: “Abdullah ibn Ömər τ də doğulan oğlan və qız uşaqlarının hər biri üçün bir qoyun kəsərdi. Allah I onların hamısından razı olsun. Əbu Cəfər Muhəmməd ibn Əli ibn Həsən də Malikin görüşü ilə eyni görüşdədirlər”.

Əbu Ömər demişdir: “İbn Abbas τ, Aişə ρ və hədis əhlindən bir qrup oğlan üçün iki, qız üçün isə bir qoyun kəsildiyini demişlər”. Sonra isə o, Ummu Kərz hədisinin bir qismini və Amr ibn Şuaybın atasından, onun da babasının Peyğəmbərdən ρ mərfu olaraq rəvayət etdiyi hədisi nəql etmişdir. “Hər

kim övladı üçün qurban kəsmək istəyərsə, kəssin. Oğlan üçün iki, qız üçün isə bir qoyun kəssin".

Oğlan və qız üçün kəsilən qurbanların sayı barəsindəki hədislərdə heç bir ziddiyət yoxdur. Həmçinin İbn Abbasın τ Həsən və Hüseyn ψ üçün kəsilən əqiq hədisi ilə digəri arasında da ziddiyyət yoxdur. Çünki, onun hədisi iki rəvayətlə nəql olunmuşdur. Birincisi, Peyğəmbər ρ onların hər ikisi üçün ayrı ayrılıqda bir qoyun kəsdi. İkincisi isə budur ki, Peyğəmbər ρ onların hər ikisi üçün iki qoyun kəsdi. Bəlkə də ravi bununla "onların hər biri üçün iki qoyun kəsdi" mənasını qəsd etmiş və "iki qoyun kəsdi" sözü ilə kifayətlənmişdir. Daha sonra isə "bir qoyun, bir qoyun kəsdi" mənasında rəvayət etmişdir. Həmçinin anaları da onlar üçün iki qoyun kəsmişdir. Bu iki hədis bu cür rəvayət olunmuşdur. İki qoyun birinci olaraq Peyğəmbər ρ tərəfindən, ikinci dəfə də Fatimə ϑ tərəfindən kəsildiyinə görə zahirdə bir-birinə zidd görünən hədislərin arası eyni məna üzərində birləşmiş olur. Bu, şəri bir qaydadır.

Allah I kişi ilə qadın arasında üstünlük fərqi qoymuşdur. Miras hüququnda qadını üçdə bir, kişini isə üçdə iki paya sahib etmişdir. Bu, həmçinin diyətlərdə[88], şahidliklərdə, kölə azad etməkdə və əqiqdə də belədir.

Əbu Umamə τ demişdir: "Peyğəmbər ρ buyurmuşdur: "Hər hansı müsəlman bir kişi, müsəlman olan bir kişi köləni azad edərsə, bu onun Cəhənnəmdən qurtulması qarşılığında

[88] Diyət İslam hüququna əsasən, öldürülən şəxs qarşılığında onun ailəsinə qan bahası olaraq maddi cəza ödəməkdir. (Tər.)

fidyəsi olar. Onun (kölənin) hər bir üzvü onun bir üzvü üçün oddan qorunmasına qarşılıq olar. Hər hansı müsəlman bir kişi, müsəlman olan iki kölə qadın azad edərsə, bunlar onun üçün Cəhənnəmdən qurtulması qarşılığında fidyə olar. Həmin qadınların hər bir üzvü onun bədən üzvlərinin oddan qorunmasına qarşılıq olar". Hədisi Tirmizi rəvayət edib və onu səhih qiymətləndirir.

İmam Əhməd "əl-Musnəd" kitabında Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: "Hər hansı bir kişi müsəlman bir kişi kölə azad edərsə, bu onun üçün Cəhənnəmdən qurtulması qarşılığında bir fidyə olar. Onun (kölənin) bədən üzvlərindən hər biri onu azad edən şəxsin hər bir bədən üzvünün Cəhənnəm odundan qorunmasına qarşılıq olar. Hər hansı müsəlman bir qadın müsəlman bir qadın kölə azad edərsə, onun hər bir üzvü azad edənin üzvləri üçün oddan qorunmağa qarşılıq olar". Bunu Əbu Davud "Sünən"də rəvayət edir. Beləliklə də, əgər bu sünnət olmasaydı belə, əqiq kəsməkdə kişinin qadına olan üstünlüyü ortaya çıxmış olardı. Əqiq kəsməkdə kişinin qadın üzərində olan üstünlüyünü səhih sünnət dəstəklədiyi halda isə, bu daha da aydın olur.

## On birinci fəsil

### Əqiq kəsməkdə məqsəd, onun hikmət və faydaları

əl-Xalləl "əl-Camii" əsərinin "Əqiq kəsməkdə məqsəd və sünnəti diriltmək üçün xələfdən nə umulur?" babında bunları qeyd edir: "Haris Əbu Abdullaha dedi ki, əgər bir şəxsin əqiq kəsməyə imkanı olmazsa, onda bəs nə etsin?" O dedi: "Əgər borc alıb kəsərsə, ümid edirəm ki, Allah I ona borcunu qaytarmaqda yardımçı olar. Beləcə sünnəti yaşadar". Salehin atasından etdiyi rəvayətdə isə "mən ümid edirəm ki, əgər borc

alıb əqiq kəsərsə, Allah I ona borcunu tezliklə qaytarması üçün yardım edər" deyilir. O, Allah Rəsulunun ρ sünnətlərindən bir sünnəti yaşatdı və onun gətirdiklərinə tabe oldu".

Onun faydalarından biri də doğulan körpənin dünyaya gəldiyi ilk vaxtda Allah`a I yaxınlaşmaq üçün kəsilən qurban olmasıdır. Övladın valideyni üçün etdiyi dua, kəsdiyi qurban və etdiyi həcdən və s. faydalandığı kimi doğulan uşaq bundan ən son həddə qədər faydalanır.

Həmçinin onun faydalarından biri də əqiqin uşağı ona girov olmaqdan qurtarmasıdır. Çünki, o, əqiqi qarşılığında girovdur. İmam Əhməd demişdir: "Bunun mənası uşağın valideyninə şəfaət etməsinə qarşı girov olması deməkdir". Əta ibn Rabaha görə hədisin mənası uşağın öz əqiqinin kəsilməsi qarşılığında girov olmasıdır. Əqiqi kəsilməzsə, övlad valideyninə şəfaət etməkdən məhrum edilir".

Əqiq Allah`ın I İsmayıla υ qurtulması müqabilində bir qoç fidyə etdiyi kimi, övladın girovdan qurtulması üçün sərf edilən bir fidyənin bənzəridir. Cahiliyyə dövründə də insanlar ona əməl edər və elə əqiq də adlandırardılar. Kəsilən əqiqin qanını isə uşağın başına sürtərdilər. Allah Rəsulu ρ isə qurban kəsilməsini təqrir etməklə yanaşı, onun "uquq" adlandırılmasını və uşağın başının onun qanı ilə boyanmasını ləğv etdi və buyurdu: "Mən uququ sevmirəm", "Uşağın başı qanla boyanmasın". Həmçinin Allah Rəsulu ρ uşaq üçün kəsilən heyvanın qurbanlıq niyyəti ilə kəsilməsini əmr etmişdir: "Kim övladı üçün qurban kəsmək istəyərsə, kəssin".

Peyğəmbər ρ əqiqi qurbanlıq ibadəti ilə hikmət baxımından eyniləşdirdi. Allah`ın I İsmayıla υ fəda olsun deyə göndərdiyi qoçu Özünə yaxınlaşdıran bir ibadət etdiyi kimi, qurban da uşağın yerinə Allah I üçün fəda edilən bir ibadət növüdür. Allah`ın I şəriətində olan hikmətindəndir ki, O, əqiqi uşağın gözəl tərzdə böyüməsinə, sağlam qalmasına, yaşadığı uzun ömür içərisində şeytandan qorunmasına səbəb etmişdir. Bununla yanaşı əqiq onun hər bir üzvünün oddan qorunmasına qarşı olan bir fidyədir. Ona görə də qurbana aid olan hökmlərin əqiqə də nisbət edilməsi müstəhəbdir.

Əbu Talib demişdir: "Əbu Abdullahdan: "İnsan əqiq kəsmək istədiyi zaman nə deyir?" – deyə soruşdum. O dedi: "Bismilləh" deyərək qurban niyyəti ilə kəsir və belə deyir: "Bu, filanın oğlu filanın əqiqidir". Ona görə də kəsim əsnasında "Allahummə minkə va ləkə" (Allah`ım, Səndəndir və Sənin üçündür) deyir. Sədəqə qurbanında müstəhəb olan qurbanın ətinin bölünərək paylanması, övladın adına kəsilməsi kimi şeylər əqiq qurbanında da müstəhəbdir. Kəsilən əqiqdə Allah`a I yaxınlaşmaq, şükr etmək, fidyə etmək, sədəqə vermək, sevincli anlarda yemək, yedizdirmək və evlənməyin ən uca qayəsi olan Allah`ın I verdiyi övlad nemətinə qarşı şükrün izharı vardır. Övlad nemətinin hasil ola bilməsi üçün "nikah" əsnasında yemək, yedizdirmək şəriətdən olduğu halda ən son qayə olan övladın doğulması münasibətilə eyni şeyləri etmək daha üstün və daha uyğundur.

Haqqında danışılan qurbanlığın şəri hökmünü və şəklini qeyd etdik. Şəriətimizin bizlərə yeni doğulan uşaq haqqında təqdim etdiyi bu hökm qəlblərə necə də gözəl və necə də şirin

təsir bağışlayır. Bu mərasimdə olan əsas qayə fərəh və sevincin izhar edilməsi, İslam şəriətinin tələblərinin həyata keçirilməsi və Muhammədin ρ digər ümmətlər arasında çoxluğu ilə öyündüyü Allah`a I ibadət edib, onun düşmənlərinə bir sipər olan müsəlmanın doğulmasıdır.

Peyğəmbər ρ əqiqi təqrir edib, onu ümmətinə buyurub: "Oğlan uşağı onun qarşılığında girovdur" – deyə bizləri xəbərdar etmişdir. O, müsəlmanlara uşağın başına kəsilən qurbanın qanından bir şey sürtməyi qadağan edərək, onlara uşağın başına zəfərandan bir şey sürtməyi sünnət olaraq təyin etmişdir. Çünki, onlar cahiliyyə zamanında ondan bərəkət umaraq uşağın başına əqiqin qanını sürtürdülər. Qurbanın qanı onlara görə mübarək bir şey idi. Hətta onlar öz ilahlarını təzim və hörmət əlaməti olaraq bu qan ilə boyayırdılar. Bu əməldə müşriklərə bənzəmə əlaməti olduğuna görə ümmətə onu tərk etmək əmr olundu. Bunun qarşılığında isə valideynlər övladlar və kasıblar üçün ən faydalı olan uşağın başının qırxılaraq onun tükü ağırlığında qızıl və ya gümüş sədəqə verməlidirlər.

Peyğəmbər ρ onlara uşağın başını nəcis olan və çirkin qoxulu qanın əvəzində xoş ətirli və gözəl rəngli zəfəranla boyamağı sünnət olaraq buyurdu. Zəfəran ondan daha xoş və rəng olaraq da ən gözəl olandır. Başının qırxılması isə ondan əziyyətin uzaqlaşdırılması, güclü və möhkəm tüklərin bitməsi üçün zəif və solğun tüklərin təmizlənməsinə vəsilə oldu. Bu, baş üçün çox faydalıdır. Bununla yanaşı həmin əməldə uşaq üçün yüngülləşmə də vardır. Həmçinin rahat nəfəs ala bilməsi, asan və rahat bir şəkildə başın dərisinin hava ilə təmas etməsi və uşağın gözünün, qoxu alma və eşitmə qabiliyyətlərinin güclənməsi kimi faydaları da vardır. Oğlan uşağı üçün kəsilən qurbanın

mirasda, diyətdə və şəhadətdə olduğu kimi, onun şərəfinin və qız uşağından Allah`ın I onu üstün qıldığının bir göstəricisi olaraq iki qoyun olması şəridir. Həmçinin bu iki qoyunun bir-birinə eynilə tay olması da şəriətə uyğundur. Əbu Davudun rəvayətində İmam Əhməd söyləyir: "İki eyni və yaxud bir-birinə yaxın". Meymuninin rəvayətində isə deyilir: "İki bir-biri ilə eyni". Bundan başqa Cəfər ibn Harisin rəvayətində isə "Biri digərinə bənzəyən" qoyunların kəsilməsi əmr olunub. Çünki, iki qoyundan hər biri bədəl və fidyədir. İki qoyun cins və yaşda bir biri ilə eyni olurlar. Onların hər ikisi də bir qoyun kimi olur. Bunun mənası odur ki, nə qədər bir qoyun qurban kəsməklə fidyə gerçəkləşmiş olsa da, yaxşı olar ki, bu, kamil və tam olsun. Bu iki qurbanlıq qoyunun biri digərindən müəyyən sifətləri ilə üstün olarsa, o birini heçə saymaq və digərini diqqətə almamaq ehtimalı ola bilər. Fidyə bir tək qoyunla hasil olduğuna görə ikincisi məqsəd olmaqdan çıxıb sanki bir tamamlamadır. Bu şübhəni də aradan qaldırmaq üçün iki qoyunun biri-birinə tay olması əmr olunub. Burada kəsilən qurbanın səhih olması üçün əqiqin eyib və nöqsanlardan təmizlənməsinə dair bir açıqlama vardır. Həmçinin bunda övladın girov olmaqdan qurtulması kimi əsas fayda mövcuddur.

Çünki o, Peyğəmbərin ρ buyurduğu kimi öz əqiqi qarşılığında girovdur. "Həbs edilmə" və "girov olma" sözlərinin mənası üzərində isə ixtilaf edilmişdir. Bir qrup deyir ki, burada övlad valideynlərinə şəfaət etməməyə qarşı girov və məhbusdur. Əta belə demiş və İmam Əhməd də ona tabe olmuşdur. Məlumdur ki, bu, nəzəri bir şeydir. Övladın ataya şəfaəti onun atası olması əksindən daha üstün deyildir. Onun üçün şəfaəti yoxdur. Digər qohum-əqrabalar da belədir. Allah I buyurur:

يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱتَّقُواْ رَبَّكُمۡ وَٱخۡشَوۡاْ يَوۡمٗا لَّا يَجۡزِي وَالِدٌ عَن
وَلَدِهِۦ وَلَا مَوۡلُودٌ هُوَ جَازٍ عَن وَالِدِهِۦ شَيۡـًٔاۚ إِنَّ وَعۡدَ ٱللَّهِ حَقّٞۖ فَلَا
تَغُرَّنَّكُمُ ٱلۡحَيَوٰةُ ٱلدُّنۡيَا وَلَا يَغُرَّنَّكُم بِٱللَّهِ ٱلۡغَرُورُ ٣٣

**Ey insanlar! Rəbbinizdən qorxun. Valideynin övlada, övladın da valideynə heç bir fayda verə bilməyəcəyi gündən çəkinin. Həqiqətən, Allah`ın vədi bir həqiqətdir. Qoy bu fani dünya sizi çaşdırmasın, hiyləgər şeytan da sizi Allah`ın əzabından arxayınlaşdırıb tovlamasın.** (Loğman 33)

وَٱتَّقُواْ يَوۡمٗا لَّا تَجۡزِي نَفۡسٌ عَن نَّفۡسٖ شَيۡـٔٗا وَلَا يُقۡبَلُ مِنۡهَا
شَفَٰعَةٞ وَلَا يُؤۡخَذُ مِنۡهَا عَدۡلٞ وَلَا هُمۡ يُنصَرُونَ ٤٨

**Qorxun o gündən ki, o vaxt heç kəs heç kəsə fayda verə bilməyəcək, heç kəsdən şəfaət qəbul olunmayacaq, heç kəsdən bir fidyə alınmayacaq və günahkarlara kömək göstərilməyəcəkdir.** (Bəqərə 48)

يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَنفِقُواْ مِمَّا رَزَقۡنَٰكُم مِّن قَبۡلِ أَن يَأۡتِيَ يَوۡمٞ
لَّا بَيۡعٞ فِيهِ وَلَا خُلَّةٞ وَلَا شَفَٰعَةٞۗ وَٱلۡكَٰفِرُونَ هُمُ ٱلظَّٰلِمُونَ

**Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin olmayacağı gün gəlməmişdən öncə sizə verdiyimiz ruzidən Allah yolunda xərcləyin! Kafirlər isə zalımdırlar.** (Bəqərə 254)

Belə olduğuna görə də qiyamət günündə heç kəs heç kəsə şəfaət etməyəcək. Ancaq, Allah`ın I istəyib, razı qaldığı kəslər istisnadırlar. Allah`ın I şəfaət etmək üçün izni isə şəfaət edilənin tövhidinə və ixlasına, şəfaət edənin isə Allah I qatındakı dərəcəsinə bağlıdır. Yoxsa şəfaət haqqı qohumluğa, öv-

ladlığa və atalığa bağlı olan bir şey deyildir. Allah I qatında şəfaətçilərin Seyyidi və ən üstünü Muhəmməd ρ öz əmisinə, bibisinə və qızına belə demişdi: "Mən sizi Allah`ın I əzabına qarşı heç bir şeylə qoruya bilmərəm". Başqa bir rəvayətdə isə Peyğəmbər ρ "Allah`dan I sizin üçün heç bir qoruma haqqına sahib deyiləm"[89] deyə buyurur. Rəbbinin qarşısında səcdə edib, şəfaət etmə səlahiyyətini dua edərək istəyəcəyi "Şəfaətu`l-Uzma" (Böyük Şəfaət) hədisində isə belə buyurur: "Mənə onları Cəhənnəmdən qurtarıb Cənnətə daxil etməyim üçün məhdud səlahiyyət verildi".[90] Onun şəfaət etməsi də məhdud bir həddədir. Allah I şəfaət olunanların sayını da məhdudlaşdırmışdır. Bu say Peyğəmbərin ρ şəfaət etdiyi kəslərin sayından artıq olmayacaq.

Bununla yanaşı hansı dəlilə əsasən deyilmişdir ki, övlad öz valideyninə şəfaət edəcəkdir?! Onun üçün əqiq kəsməyəndə isə övladının şəfaətindən məhrum ediləcəkdir?! Başqasına şəfaət etməyən üçün o, girovdur deyilməsi doğru deyil. Hətta hədisin ifadəsində də buna dəlalət edən bir şey mövcud deyildir. Allah I qulun girov olmasını onun öz əməlinə bağlı olduğunu xəbər verir. Allah I buyurur:

كُلُّ نَفۡسِۢ بِمَا كَسَبَتۡ رَهِينَةٌ ٣٨

**"Hər bir kəs qazandığının girovuna çevrilir."** (Mudəssir 38)

---

[89] Buxari: 4771, Müslim: 204, Tirmizi, Nəsai, Əhməd "əl-Musnəd". Əbu Hüreyrənin τ rəvayəti ilə

[90] Buxari: 4416, Müslim: 193 və başqa hədis kitablarında nəql olunur.

أُوْلَٰٓئِكَ ٱلَّذِينَ أُبۡسِلُواْ بِمَا كَسَبُواْۖ

**“Onlar qazandıqları günahlara görə məhvə məhkum olanlardır.”** (Ənam 70)

Girov “məhbus” mənasındadır. Bu ya öz əməli, ya da başqasının əməlinə görə olur. Başqası üçün şəfaət edə bilməyənə gəldikdə isə ona “mütləq şəkildə girovdur” deyilməz. Əksinə o şəxs öz əməlinə görə girov ola bilər. Bunun, onun özündən qaynaqlanan bir səbəbdən olması önəmli deyildir. Əksinə, bu, bəzən onun öz əməli, bəzən də başqasının əməli ilə baş verir. Allah I övlad üçün qurban kəsməyi girov olmaqdan və dünyaya gələrkən onunla əlaqədar olan şeytandan qurtarma və onun zərərini məhv etmək səbəbi qılmışdır. Əqiq onun şeytanın həbsindən və zindan əsarətindən xilas olub qurtulması üçün fidyə olmuşdur. Şeytan ona dönüş yeri olan axirət yurdu üçün xeyirli əməllər işləyib səy göstərməsinə maneədir. Sanki o, şeytanın öz tabeçiləri və dostları üçün hazırladığı bıçaqla kəsilmək üçün həbs edilmişdir. Şeytan Rəbbinə and içərək Adəmin U soyundan gələnlərin çox az bir qismi istisna olmaqla kökünü yox edib, azdıracağına dair and içmişdir. Övlad dünyaya gəldiyi zamandan etibarən şeytan tələsərək onun düşmənlərini həmin uşağa qarşı toplayıb, ona zərər vermək və onu öz əsarəti altında saxlamaq üçün təşviq edir. Şeytan dostları və tərəfdarlarından daha çox özü buna qarşı hərisdir. Bu səbəbdən də doğulanların çoxu sonradan onun tərəfdarları və əsgərlərinə çevrilir. Allah I buyurur:

وَشَارِكۡهُمۡ فِي ٱلۡأَمۡوَٰلِ وَٱلۡأَوۡلَٰدِ وَعِدۡهُمۡۚ

**....mallarına və övladlarına şərik ol, onlara vədlər ver.** (İsra 64)

Başqa bir ayədə isə Allah I buyurur:

وَلَقَدۡ صَدَّقَ عَلَيۡهِمۡ إِبۡلِيسُ ظَنَّهُۥ

**İblisin onlar barəsindəki ehtimalı doğru çıxdı.** (Səbə 20)

Yeni doğulan uşaq girov olmanın buxovunda ikən Allah I valideynlərə onun üçün kəsilib fidyə olsun deyə qurbanı uşağın girovluqdan qurtulmasına görə şəriətə daxil etdi.

Əgər onun üçün qurban kəsilməzsə, girov olaraq qalacaqdır. Buna görə də Peyğəmbər ρ buyurur: "Oğlan uşağı əqiqi qarşılığında girovdur. Onun üçün qan axıdın və ondan əziyyəti uzaqlaşdırın". Beləcə onu girov olmaqdan xilas edəcək qanın axıdılmasını əmr etdi. Əgər girov olmaq valideynlərlə bağlı bir şey olsaydı o zaman Peyğəmbər ρ "Övladlarınızın şəfaətinin sizə çatması üçün, özünüz üçün qan axıdın" deyə buyurardı. Ancaq Peyğəmbər ρ zahiri əziyyətin ondan uzaqlaşdırılmasını və onun girov olmasıyla da batini əziyyəti təmizləyən qanın axıdılmasını əmr etmişdir. Buradan da məlum olur ki, girovda məqsəd övladın zahiri və batini əziyyətdən qurtulmasıdır. Allah I və Rəsulu ρ daha doğrusunu bilir.

## On ikinci fəsil

### Əqiq qurbanının ətinin bişirilməsinin çiy olaraq paylanmasından üstün olması

əl-Xalləl özünün "əl-Cami" kitabının "Əqiq kəsən üçün müstəhəb olan əməllər" babında yazır: "Mənə Abdulmalik əl-Meymuni xəbər verdi ki, o, Əbu Abdullahdan "Əqiq bişirilərmi?" deyə soruşdu və "Bəli" cavabını aldı.

Mənə həmçinin Muhəmməd ibn Əli Əsrəm Əbu Abdullahın əqiq barəsində belə dediyini xəbər verdi: "Onun əti sümükləri qırılmadan, başqa bir şeylə də qarışdırılmadan bişirilir".

Mənə Əbu Davud xəbər verdi ki, o, Əbu Abdullaha: "Əqiq bişirilirmi?" – deyə sual verdi. Əbu Abdullah isə ona: "Bəli" – deyə cavab verdi. Daha sonra o: "İnsanlara bişirmək çətin gələrsə necə?" – deyə soruşdu. O isə: "Buna səbr edərlər" – deyə cavab verdi.

Mənə Muhəmməd ibn Huseyn Fadl ibn Ziyadın onlara belə dediyini xəbər vermişdi: "Əbu Abdullaha əqiq barəsində "Əqiq su və duzla bişirilirmi?" – deyə sual verildi. O dedi: "Bu, müstəhəbdir". Daha sonra soruşdular: "Əgər başqa bir şeylə bişirilsə, onda necə?". O dedi: "Bunda heç bir zərər yoxdur".

Bu ona görədir ki, o bişirildiyi zaman kasıb adamlar və qonşulara bir yemək ziyafəti olacaqdır. Bu əməl də yaxşılığı artırmaq və Allah`ın I verdiyi nemətə şükrün göstəricisidir. Bu zaman qonşular, uşaqlar, kasıblar ondan dadaraq nuşi canlıqla yeyirlər. Hər kimə yemək üçün bişmiş ət pay olaraq verilsə, bu, daha gözəldir. Onun sevinci və fərəhi qarşı tərəf üçün çiy ətdən daha çoxdur. Bu, həmçinin şükranlığın ifadəsi və onun gerçəkləşməsinin yoludur. Bununla yanaşı adət halına salınmış və müxtəlif münasibətlərlə bir çox yemək bişirmə mərasimləri vardır. Onların adları aşağıdakı kimidir.

1. Gələn qonaqlar üçün hazırlanan yemək

2. Dəvət edilən şəxslərə hazırlanan yemək

3. Ziyarətçilər üçün hazırlanan yemək

4. Toy üçün hazırlanan yemək

5. Yeni doğulan uşaq səbəbi ilə hazırlanan yemək

6. Uşağın doğumunun yeddinci günündə onun saçının kəsilməsi ilə hazırlanan yemək

7. Uşaq sünnət edilərkən hazırlanan yemək

8. Müəyyən bir sevincli hadisə ilə bağlı toplananlara hazırlanan yemək

9. Birinin səfərdən qayıtması səbəbi ilə hazırlanan yemək

10. Müəyyən inşaat işini bitirmə səbəbi ilə hazırlanan yemək.

Yuxarıda qeyd olunan mərasimlər üçün yemək hazırlamaq, həmin münasibətlər səbəbilə əti çiy olaraq paylamaqdan daha üstündür.

## On üçüncü fəsil

### Əqiq qurbanlığının sümüklərinin sındırılmasının məkruh olması

əl-Xalləl özünün "əl-Cami" kitabının "Əqiqin sümüyünü qırmaq və onu tikələrə ayırmağın məkruh olması babı"nda yazır: "Mənə Abdulmalik ibn əl-Humeyd Əbu Abdullahın əqiq haqqında belə deyərkən eşitdiyini xəbər verdi: "Sümüyü sındırılmır, lakin hər bir sümüyü oynağından qoparılır. Sümüklərindən heç bir şey sındırılmır".

Abdullah ibn Əhməd xəbər verir ki, atasından: "Əqiq qurbanı ilə necə rəftar edilir?" – deyə soruşdu. Atası isə cavabında: "Sümükləri sındırılmadan üzvləri parçalanır" – dedi. Daha sonra o, Salehdən, Hənbəldən, Fadl ibn Ziyaddan, Əbu`l-Harisdən və Əbu Talibdən Əbu Abdullahın əqiq barəsində

belə dediyini rəvayət etmişdir: “Əti sümüyündən ayrılaraq çıxarılır və sümükləri sındırılmır, sonra da tikələrə bölünərək heç bir şeylə qarışdırılmadan duz və su ilə bişirilir”.

Əbu Davudun “Mərasil” kitabında Cəfər ibn Muhəmməddən onun da atasından rəvayət etdiyinə görə, Peyğəmbər ρ Fatimənin ς Həsən və Hüseyn ψ üçün kəsdiyi əqiq barəsində belə buyurmuşdur: “Ondan qabda pay göndərin. Yeyin və yedizdirin. Sümüyünü qırmayın!”.[91]

Beyhaqi Ummu Kərzdən Peyğəmbərin ρ belə buyurduğunu rəvayət edir: “Oğlan uşağı üçün iki bir birinə bənzər, qız üçün isə bir qoyun kəsilir”.

Rəvayətə əsasən, Əta belə deyərdi: “Əqiqin əti hissələrə bölünərək sümüyü qırılmadan parçalanır”. Zənn edirəm ki, o, bişirilir də demişdir. Bunu İbn Cüreyc Ətadan rəvayət etmişdir. O dedi: “Üzvləri parçalanaraq bölünür, su və duzla bişirilərək qonşulara paylanır”.

Bu barədə Cabir ibn Abdullahın sözünü İbn Munzir Ətadan, o Əbu Kərzdən, o Ummu Kərzdən, o isə Aişədən ς rəvayət etmişdir. O ikisi söylədilər ki, Abdu`r-Rahman ibn Əbu Bəkrin ψ ailəsindən bir qadın belə dedi: “Abdu`r-Rahmanın τ zövcəsi doğduğu zaman biz bir dəvə kəsdik. Aişə ς dedi: “Xeyr, əksinə, sünnət olan iki bir-birinə bənzər qoyunun kəsilməsidir. Oğlan uşağı üçün bu ikisi, qız üçün isə bir qoyun kəsilir və onun sümüyü sındırılmır. Həm özün yeyərsən, həm yedizdirərsən, həm də paylayarsan. Bu, uşağın doğumunun

---

[91] Beyhəqi “Sünənu`l-Kubra”: 9/302. İsnadı kəsikdir tam deyil. Lakin Beyhəqiyə görə onun əvvəlinin bənzər rəvayəti vardır. İrəlidə gələcəkdir.

yeddinci günündə olur. Əgər edə bilməzsənsə, o zaman on dördüncü günündə, onu da edə bilməzsənsə, iyirmi birinci günündə edə bilərsən”.[92]

İbnu`l-Munzir İmam Şafiinin belə dediyini nəql etmişdir: “Əqiq vacib sünnətdir. Qurbanlıq heyvanda olduğu kimi əqiqdə də heyvanın eyibli və nöqsanlı olmamasına diqqət etmək lazımdır. Onun əti və dərisi satılmaz, sümüyü sındırılmaz. Ondan həm ailə üzvləri yeyər, həm də pay verilər. Uşağın başına isə onun qanından heç bir şey sürtülməz”. Əbu Ömər demişdir: “Malikin görüşü də eynilə Şafiinin görüşü kimidir. Ancaq Şafiidən fərqli olaraq o, belə demişdir: “Onun sümüyü sıdırılır və bişirilərək qonşulara yedizdirilir. Toy yeməyində olduğu kimi onu yemək üçün insanlar dəvət edilmir”.

İbn Şihab demişdir: “Sümüyünün sındırılmasında heç bir problem yoxdur. Bu, Malikin görüşüdür”.

Sümüyünün sındırılması görüşündə olanlar bildirirlər ki, buna mane olacaq səhih bir dəlil yoxdur. Həmçinin məkruh olduğuna dair sünnətdən bir sübut da yoxdur ki, ona istinad etmək vacib olsun. İnsanların adəti də sümüyün qırılması yönündədir. Bunda onu rahat yeməyin və tam bir faydanın hasil olması məsləhəti vardır. Buna mane ola biləcək hər hansı bir məsləhət isə yoxdur. Sümüyü sındırmağı məkruh görənlər isə bizim səhabə və tabiindən qeyd etdiyimiz əsərlərə və Əbu Davudun rəvayət etdiyi “mürsəl” hədisə əsaslanırlar. Həmçinin bunun bir neçə yöndən hikmətini də qeyd etmişlər.

---

[92] Tirmizi demişdir: “Elm əhli buna görə əməl edir. Onlar uşaq üçün yeddinci günündə əqiq kəsilməsini müstəhəb qəbul ediblər. Olmazsa da on dördüncü, bu da olmazsa, iyirmi birinci günündə kəsilməsi bəyənilən əməldir.

Buradakı birinci hikmət bu yeməyin şərəf və önəmini göstərməkdir. Çünki, qonaqlara təqdim edilir, qonşulara pay verilir və kasıb olanlar yedizdirilir. Müstəhəbdir ki, tikələrə bölünsün və hər bir tikə də özü özlüyündə tam olsun. Sümüyündən heç bir şey qırılmasın, üzvündən heç bir şey də qüsurlu olmasın. Heç bir şübhə yoxdur ki, belə etməyin əhəmiyyəti onun comərdlik və əliaçıqlıq göstəricisi olmasıdır.

İkinci hikmət budur ki, hədiyyə dəyərli olduqda adi görünməz. Hədiyyə edilən şəxsin nəzərində gözəl mövqeyə yüksələr. Bu, həmçinin hədiyyəni verənin də kübarlığını və üstünlüyünü göstərən bir hal olar. Eləcə də burada uşağın özünün də dəyərinə, şərəf və ucalığına qarşı gözəl bir zənn yaranar.

Üçüncü hikmət isə budur ki, fidyə olduğu üçün qurban kəsilən malın sümüklərinin sındırılmaması sanki uşağın bədən üzvlərinin sağlam olması baxımından da xoş bir davranış kimi qarşılanır. Çünki, sümük sındırılarsa, fidyə də tam olmaz. Sümüyü sındırmağı məkruh sayanlara görə bunun səbəbi onun əqiq adlandırılmasına qayıdır. Yəni bu, əqiq deyilməsini məkruh sayanlarda olduğu kimi bəyənilməyən bir əməldir. Ən doğrusunu isə Allah I bilir.

## On dördüncü fəsil

### Əqiq qurbanının kəsim yaşı

əl-Xalləl özünün "əl-Cami" kitabının "İnsan üçün əqiqdə müstəhəb olan şey" babında yazır: "Bundan sonra o, Əbu Talibin bununla bağlı məsələlərini qeyd etmişdir. O, Əbu Abdullaha əqiq haqqında belə sual verdi: "Əqiq üçün bir dişi qoyun və böyük həcmli quzu yetərlidirmi?". Cavabında o dedi: "Erkək daha xeyirlidir". Digər bir rəvayətdə isə "Erkəyi və dişisi də eynidir" deyə bildirilir. Əgər dişi bir qoyun olarsa, bunda heç

bir problem yoxdur. Dedim ki: "Bəs quzu necə?". O dedi: "Yaşlı olması daha xeyirlidir". Peyğəmbər ρ buyurmuşdur: "Kimin övladı doğularsa, qurban kəsmək istəsə, kəssin". Burada dəlil budur ki, qurbanda keçərli olan şərtlər əqiqdə də eynidir. Yəni qurban bayramında kəsilən də, həcdə kəsilən qurbanlıq da eynidir. Bir sözlə, əqiqin hökmü istər vacib, istərsə də müstəhəb olsun paylamaqda, yeməkdə, yaşda, Allah`a I yaxınlaşmaqda qurbanın hökmü ilə eynidir. Çünki, o, tam və mükəmməl bir şəkildə məşru qılınmışdır. Buna görə də oğlan üçün iki bir birinə bənzər, biri digərindən üstün olmayan qoyun məşrudur. Onların yaşının əmr olunmuş qurbanlıq üçün kəsilən heyvanlarla eyni olması lazımdır. Buna görə də bütün hökmlərdə əqiq, qurbana aid hökmlərə tabedir.

Əbu Amr ibn Abdu`l-Bərr demişdir: "Alimlər icma etmişlər ki, qurbanlıq üçün kəsilməsi icazəli olan səkkiz sinif heyvan cütündən başqa əqiqdə digər şeyləri kəsmək caiz deyildir. Bu icmaya sözü şaz sayılan və xilaf hesab edilməyəndən başqa kimsə müxalif olmamışdır. İmam Malikin "əl-Muvatta" kitabında Rabi ibn Abdu`r-Rahmandan, onun da Muhəmməd ibn İbrahim ət-Teymidən rəvayət etdiyi "Atamı belə deyərkən eşitdim: "Bir sərçə olsa belə əqiq kəsmək müstəhəbdir" görüşünə gəlincə isə bu, mübaliğə və yaxud minimum həddi göstərmək üçün söylənmiş bir sözdür. Bu rəvayət Allah Rəsulunun ρ Ömərə τ olan "Onu bir dirhəmə belə sənə satsa, götürmə!"[93] sözünə bənzəyir. Həmçinin cariyə haqqındakı "Əgər zina edərsə, bir ip qarşılığında olsa belə onu satın"[94] sözü də buna misal ola bilər.

---

[93] Buxari: 1490, Müslim: 1621, Əbu Davud, Tirmizi, Nisai.

[94] Buxari: 2152, Müslim: 1703, Əbu Davud.

İmam Malik demişdir: "Əqiq qurbanı bayram qurbanı ilə eyni dərəcədədir. Onun gözünün kor olması, çox arıq olması, şikəst və xəstə olması caiz deyildir. Əqiqin ətindən və dərisindən bir şey satılmaz, sümüyü sındırılmaz. Kəsənin ailə üzvləri də ondan yeyər, həm də ondan sədəqə olaraq pay verərlər".

## On beşinci fəsil

### Əqiq qurbanında ortaqlığın doğru olmaması

Bir əqiq yalnız bir insan üçün kəsilə bilər. Bu, əqiqin həcdə və qurbanlıq bayramında kəsilən qurbanlığa müxalif olan tərəfidir.

əl-Xalləl özünün "əl-Cami" əsərinin "Yeddi nəfərin adından dəvə kəsməyin hökmü" babında yazır: "Mənə Abdu`l-Malik ibn Abdu`l-Humeyd xəbər verdi ki, o, "Əbu Abdullahdan "Əqiq üçün dəvə kəsilirmi?" deyə soruşub. O isə deyib: "O dəvə kəsmişdir, elə deyilmi?". O isə: "Əqiq münasibəti ilə yeddi nəfər adından dəvə kəsilə bilərmi?" – deyə soruşub. Əbu Abdullah: "Bu barədə bir şey eşitməmişəm" – deyə cavab verib". Abdu`l-Malik ibn Abdu`l-Humeyd deyir: "Mən onun heç vaxt əqiqdə yeddi nəfərin bir dəvə kəsməsinə icazə verdiyini görmədim".

Mənim fikrimcə, əqiq qurbanının mənası övlad üçün fidyə olduğuna görə bu fidyənin tam olması üçün axıdılan qanın da bir nəfər adından tam olması məşrudur. Həmçinin əgər bunda ortaqlıq səhih olsaydı belə, övlad üçün axıdılan qandan məqsəd hasil olmazdı. Heç şübhəsiz ki, axıdılan qanın savabı, ancaq bir nəfər üçün keçərlidir. Digər övladlar üçün isə ancaq ətin paylanması savabı qala bilər. Əqiqdə məqsəd övlad üçün qan axıtmaqdır. Bunun mənası eynilə qurbanlıqdakı ortaqlıqda olduğu kimi əcrin tam olması deməkdir. Bundan fərqli ola-

raq qurbanlıqda Peyğəmbərin ρ sünnəti, tabe olmaq üçün daha haqlı və daha üstündür. O isə qurbanlıqda ortaq olmağı məşru qılmış, əqiqdə isə oğlan üçün iki müstəqil qan axıtmağı əmr etmişdir. Oğlan üçün kəsilən iki qoyunu isə bir inək yaxud da bir dəvə əvəz etməz. Ən doğrusunu bilən isə şübhəsiz ki, Allah`dır I.

**On altıncı fəsil**

**Əqiq qurbanı üçün qoyunun əvəzinə dəvə, inək kimi heyvanları kəsmək məşrudur (şəriətlə icazəlidir), yoxsa yox?**

Bu məsələ ətrafında fəqihlər ixtilaf etmişlər. "Əqiqdə qoyunun yerinə başqa bir şey kəsmək keçərlidirmi?" sualına müxtəlif cavablar verilir. İbn Munzir demişdir: "Əqiqdə qoyundan başqa bir şeyin kəsilməsində ixtilaf vardır". Ənəs ibn Malikdən τ rəvayət olunub ki, o, öz övladı üçün dəvə kəsərdi. Əbu Bəkrə τ də öz oğlu Abdu`r-Rahman τ üçün dəvə kəsdi və onu Bəsrə camaatına yedizdirdi. Sonra Həsəndən τ belə dediyini rəvayət etdi: "Ənəs ibn Malik τ öz övladı üçün dəvə kəsərdi. Sonra Yəhya ibn Yəhyanın bu haqda olan hədisini qeyd etdi. Əbu Bəkrənin oğlu Abdu`r-Rahman ψ doğuldu. O, Bəsrədə doğulan ilk uşaq idi. O oğlu üçün dəvə kəsdi və Bəsrə camaatına yedizdirdi. Onlardan bəziləri bunu inkar etdilər". Sonra o, qeyd etdi: "Allah Rəsulu ρ oğlan üçün iki, qız üçün isə bir qoyun kəsməyi əmr etmişdir. Bundan başqa bir şey kəsmək caiz deyildir".

Yusuf ibn Məhikdən rəvayət etdik ki, o, Munzir ibn Zubeyrin oğlu dünyaya gələndə İbn Əbu Muleykə ilə birlikdə

Abdu`r-Rahman ibn Əbu Bəkrin qızı Hafsanın ɡ yanına daxil oldu. Ona: "dəvə kəsmirsənmi?", dedi. O dedi: "Bundan Allah`a sığınıram. Bibim deyirdi ki, oğlan üçün iki, qız üçün isə bir qoyun kəsilir".[95] İmam Malik demişdir: "Əqiq qurbanında qoyun kəsmək mənə inək və dəvə kəsməkdən daha xoşdur. Qurban bayramı üçün isə inək və dəvə kəsmək mənə qoyun kəsməkdən daha xoşdur".

İbnu`l-Munzir demişdir: "Ola bilsin ki, inək və dəvənin əqiq üçün uyğun olduğunu deyənlər Peyğəmbərin ρ bu sözünə arxalanırlar: "Oğlan ilə birlikdə onun əqiqi vardır. Onun üçün qan axıdın". Burada o nəyin qanının axıdılmasını isə dəməmişdir. Bu xəbərin zahirinə görə övlad üçün nə kəsilərsə, yetərlidir". O həmçinin demişdir: "Belə deyilməsi də caizdir ki, bu hədis ümumi mənalıdır. Peyğəmbərin ρ "Oğlan üçün iki, qız üçün isə bir qoyun kəsilir" sözü isə təfsilatı ilə qeyd olunub. Təfsilatlı bir sözü götürmək isə ümumi anlamda işlənən sözü götürməkdən daha uyğundur".

## On yeddinci fəsil

## Əqiq qurbanının ətinin sərf olunmasının açıqlanması

əl-Xəllal özünün "əl-Cami" kitabının "Əqiqin paylanacağı və hədiyyə ediləcəyi yerlər" babında yazır: "Bizə Abdullah ibn Əhməd atasının belə dediyini xəbər verdi: "Əqiq yeyilir və ondan hədiyyə verilir". Həmçinin bizə İsmə ibn İsam Hənbəlin ona belə dediyini xəbər vermişdir: "O, Əbu Abdullaha əqiqlə necə rəftar edilməsi ilə bağlı sual verdi. O isə: "Necə istəyirsən" – deyə cavab verdi. Hənbəl demişdir: "İbn Sirin belə deyərdi: "İstədiyini et". Ona deyildi: "Onu kəsənin ailəsi on-

---

[95] Beyhaqi "Sünən": 9/301. Hədis səhihdir.

dan yeyərmi?". O dedi: "Bəli, ancaq hamısını yeməz. Həm yeyər, həm də yedizdirər". Həmçinin o Əsrəmin də rəvayətində eyni sözü demişdir.

İmam Əhməd Əbu Harisin və oğlu Salehin rəvayətində demişdir: "Həm özü yeyər, həm də qonşularına yedizdirər". Oğlu Abdullah dedi: "Əqiq necə bölünür?" O dedi: "Necə istəyirsənsə, o cür".

əl-Meymuni demişdir: "Əbu Abdullahdan: "Əqiqdən sahibi yeyə bilərmi?" – deyə soruşdum. O dedi: "Bəli, ondan yeyilir". Ona: "Nə qədəri yeyilər?" – deyə sual verdim. Cavabında: "Bilmirəm, ancaq qurbanlığa gəldikdə isə, o barədə İbn Məsud və İbn Ömərin ψ hədisi vardır", dedi. Sonra mənə dedi ki, əqiqdən yeyilir. Bu barədə: "adi qurbanlığa bənzəyirmi?" – deyə soruşdum. O dedi: "Bəli, ondan yeyilir".

əl-Meymuni Əbu Abdullahın belə söylədiyini demişdir: "Qurbanın üçdə biri qonşulara hədiyyə edilir". "Qonşuların kasıb olanlarınamı?" – deyə soruşdum. O dedi: "Bəli, qonşuların kasıb olanlarına". Mən soruşdum: "Əqiq də onunla eyni hökmdədirmi?". O dedi: "Bəli, kim onu qurbana bənzədərsə haqdan uzaq deyil".

əl-Xalləl demişdir: "Bizə Muhəmməd ibn Əli və Əsrəm xəbər verdi ki, Əbu Abdullaha əqiq barəsində: "qurbanlıqda olduğu kimi ondan bir şey saxlanılarmı?" – deyə sual veriləndə o: "bilmirəm" – deyə cavab verdi.

Mənsur bizə Cəfərin onlara belə rəvayət etdiyini xəbər verdi: "Əbu Abdullaha əqiq barəsində: "Ondan uşağı doğuzduran qadına pay verilirmi?" – deyə sual verildiyini eşitdim. Cavabında o: "bəli", dedi. Mənə Abdu`l-Malik xəbər verdi ki, o, Əbu Abdullahın belə dediyini eşidib: "Ondan uşağı doğuz-

duran qadına pay verilir”. Rəvayət olunur ki, Peyğəmbər ρ Hüseyn τ üçün əqiq kəsəndə onun ətindən uşağı doğuzduran qadına da pay göndərmişdi.

əl-Xalləl demişdir: “Cəfər ibn Muhəmməd dedi ki, Peyğəmbər ρ onlara əqiqin bir budunu uşağı doğuzduran qadına göndərməyi əmr etmişdir”.

əl-Beyhəqinin Cəfər ibn Muhəmməddən τ, onun atasından, onun da babasından, babasının isə Əlidən τ rəvayət etdiyinə görə, Allah Rəsulu ρ Fatiməyə ϑ əmr edərək belə dedi: “Hüseynin τ saçını çək və onun ağırlığında gümüşdən sədəqə ver. Uşağı doğuzduran qadına isə əqiqin bir budunu göndər”. Humeydi Hüseyn ibn Zeyddən, o Cəfər ibn Muhəmməddən, o da atasından Əlinin τ uşağı doğuzduran qadına əqiqin bir budunu göndərdiyini rəvayət etmişlər.[96]

Alimlər toy yeməyində olduğu kimi bunda da insanların yeməyə dəvət edilməsi və yaxud da dəvət edilmədən sadəcə pay göndərilməsi məsələsində ixtilaf ediblər. Əbu Amr ibn Abdu`l-Bərr bu barədə demişdir: “İmam Malikin sözü budur ki, onun sümükləri sındırılaraq, ondan qonşulara yedizdirilir. Toy yeməyində olduğu kimi insanlar dəvət edilmir”. Ancaq mən İmam Malikdən savayı bunu (əqiqdən qonaqlıq verilməsini) məkruh görən başqa birisini tanımıram. Ən doğrusunu Allah I bilir.

## On səkkizinci fəsil

[96] Beyhəqi “Sünən”: 9/304. Hədis həsəndir.

**Əqiq və qurbanlığın bir yerdə kəsilməsinin hökmü**

əl-Xalləl "Qurbanlığın əqiqi əvəz etməsi haqqında olunan rəvayətlər babı"-da qeyd edir: "Bizə Abdu`l-Malik əl-Meymuni xəbər verdi ki, o, Əbu Abdullahdan: "Uşaq üçün əqiqin əvəzində qurban kəsmək olarmı?" – deyə soruşub. Cavabında isə Əbu Abdullah bilmədiyini deyib və belə davam edib: "Bunun caizliyi haqqında bir neçə nəfər görüş bildirib". Mən: "Onlar tabiindən olanlardır?" – deyə soruşdum. O: "bəli", dedi. Abdu`l-Malik başqa bir yerdə bizə dedi ki, Əbu Abdullah tabiinin bir çoxundan belə rəvayət etmişdir: "Əgər qurban bayramı günündə qurban kəsilərsə, əqiqin yerinə keçər". Bundan başqa İsmə ibn İsam bizə Hənbəldən xəbər verdi ki, Əbu Abdullah demişdir: "Ümid edirəm ki, əqiq kəsməyən şəxs üçün qurban bayramında qurban kəsməsi inşəAllah əqiqi əvəz edər".

İsmə ibn İsam başqa bir yerdə Hənbəl vasitəsi ilə bizə xəbər verdi ki, Əbu Abdullah demişdir: "Əgər uşaq üçün qurban kəsilərsə, bu əqiqin yerinə keçər. Bir gün Əbu Abdullahın bir qurbanlıq aldığını, onu övladı və ailəsi adına kəsdiyini gördüm. Bu zaman onun oğlu Abdullah kiçik idi. Düşünürəm ki, o bununla əqiqi və qurbanı bir yerdə cəm etdi. Əti payladı və ondan özü də yedi".

Bizə Abdullah ibn Əhməd xəbər verərək dedi: "Atamdan qurban bayramı günü əqiq kəsilməsinin hökmü barədə soruşdum ki, bu həm qurbanlıq və həm də əqiq olacaqmı? O dedi: "Bu, sənin onu adlandırmağına bağlı olaraq ya əqiq, ya da qurbanlıq olacaq".

Beləliklə də Əbu Abdullahın bu məsələdə üç görüşünün olduğu məlum olur. Birinci görüşə görə, bir qurban hər ikisinin yerinə keçər. Onun ikinci görüşü kəsilən qurbanın yalnız

birinin yerinə keçməsidir. Əbu Abdullahın üçüncü görüşü isə bu haqda susub bir şey deməməsidir.

Birinin digərinin yerinə keçməməsinin səbəbi budur ki, hər ikisinin kəsilmə səbəbi müxtəlifdir. Bir səbəblə kəsilən heyvan isə digərini əvəz etməz.

Birinin digərini əvəz edə biləcəyi görüşünə gəldikdə isə onun səbəbi budur ki, bir qurban kəsməklə məqsəd hasil olur. Övlad üçün qurban kəsmək əqiq kəsmək kimi məşrudur. Əgər müsəlman qurban kəsdiyi zaman həm əqiq, həm də qurban olsun deyə niyyət edərsə, bu, hər ikisinin yerinə keçər. Bu eynilə məsciddə salam namazı ilə iki rükətli sünnət namazını eyni niyyətlə qıldığında biri digərini əvəz etdiyi kimidir. Yaxud da təvafdan sonra fərz və ya sünnət namazı qılmasının iki rükət təvaf namazının yerinə keçməsi kimidir. Eyni zamanda həm təməttu[97], həm də qıran[98] həcci edən şəxs də qurbanlıq üçün bir qoyun kəsərsə, bu, hər ikisini əvəz edər. Ən doğrusunu Allah I bilir.

## On doqquzuncu fəsil

### Valideynləri əqiqini kəsməyən övladın büluğa çatdığı zaman özü üçün əqiq kəsməsinin hökmü

əl-Xalləl "Kiçik olduğu zaman əqiqi kəsilməyən kəsin böyüyəndən sonra öz yerinə əqiq kəsməsinin müstəhəb olması" babında yazır: "Bundan sonra isə o, İsmail ibn Səid əş-Şancinin rəvayətlərini qeyd edərək dedi: "İmam Əhməddən atası

---

[97] Ümrə ilə birgə edilən həcc. Bu zaman ümrə edilib ehramdan çıxmaq, sonra yenidən həcc üçün ehrama girmək onun tələblərindəndir.

[98] Həccin digər bir növünün adı. Həcci bu şəkildə edən şəxs ümrə üçün ehrama girdikdən sonra, həccə qədər ehramdan çıxması caiz deyildir. (Tər.)

onun üçün əqiq kəsməyən adam barəsində soruşdum. O bildirdi ki, əqiq əsasən, atanın üzərinə vacib olan əməldir".

əl-Meymuni dedi: "Əbu Abdullahdan uşaq vaxtı əqiqi kəsilməyən birinin böyüyəndə onu kəsib kəsməməsi barədə soruşdum. O, uşaq böyüyəndən sonra onun üçün əqiq kəsilməsinə dair bir rəvayət danışdı və onu zəif hesab etdiyini bildirdi. Mən hesab edirəm ki, o, uşaq vaxtı əqiqi kəsilməyənin böyüyəndə özünə əqiq kəsməsini müstəhəb görürdü. Çünki, o, bu əməli məkruh görmədiyini demişdi".

Mənə Abdu`l-Malik xəbər verdi ki, o, Əbu Abdullahdan: "Uşaq böyüyəndən sonra ona əqiq kəsilirmi?" – deyə soruşduğu zaman bu barədə bir şey eşitmədiyini dedi. Sonra yenə soruşdum: "Əgər onun atasının vəziyyəti ağır olub, sonradan işləri düzəlibsə və bundan sonra o, oğluna əqiq kəsmək istəyərsə necə? O dedi: "Bilmirəm və nə də böyük üçün əqiq kəsilməsi barəsində bir dəlil eşitməmişəm. Ancaq kim bunu edərsə, bu, gözəl bir əməldir (müstəhəbdir). Bununla yanaşı elm əhlindən elələri də vardır ki, bunu (böyüdükdən sonra belə imkan olduğunda əqiq kəsməyi) vacib bilir".

əl-Xallal Abu`l-Müsənnə əl-Ənbərinin Əbu Davud yoluyla belə xəbər verdiyini deyir: "Eşitdim ki, Əbu Abdullah Abdullah ibn Müsənnədən o, Sümamədən, o da Ənəs vasitəsi ilə Heysəm ibn Cəmilin ψ hədisini rəvayət edərək deyir ki, Peyğəmbər ρ özü üçün əqiq kəsmişdir".[99]

---

[99] Abdu`r-Razzəq "əl-Musannəf": 7960. Heysəmi "əl-Məcmə": 4/59-də demişdir: "Bunu Bəzzar və Tabərani "əl-Əvsat"da rəvayət etmşdilər. Heysəm ibn Cəmili çıxmaq şərtilə Tabəraninnin hədisindəki ravilər, səhihdirlər. O, isə siqa (etibarlı) ravidir.

İmam Əhməd demişdir: “Abdullah ibn Muhərrar Qatədədən o da Ənəsdən τ rəvyət edib ki, Peyğəmbər ρ özü üçün əqiq kəsdi. Bu, münkər hədisdir”. O, Abdullah ibn Muhərrarı zəif ravi hesab edirdi.

əl-Xalləl qeyd edir: “Abdullah ibn Müsənnəyə Ənəsin τ ailəsindən bir kişi rəvayət edib ki, Peyğəmbər ρ ona peyğəmbərlik veriləndən sonra özü üçün əqiq kəsmişdir”.

Abdu`r-Razzəqın “əl-Musannəf” kitabında bizə Abdullah ibn Muharrar Qatədədən, o da Ənəsdən τ rəvayət edir ki, Peyğəmbər ρ ona peyğəmbərlik veriləndən sonra özü üçün əqiq kəsmişdir. Abdu`r-Razzəq həmçinin bildirir ki, İbn Muhərrarı ancaq bu hədisinə görə mətruk[100] hesab ediblər.

## İyirminci fəsil

### Əqiq qurbanının dərisinin və içalatının hökmü

əl-Xalləl Abdu`l-Malik əl-Meymuninin ona belə xəbər verdiyini bildirir: “Əbu Abdullaha bir nəfər əqiq haqqında sual verdi: “Onun dərisi, başı və içalatı satılır, yoxsa sədəqə verilir?”. Cavabında o: “sədəqə verilir”, dedi.

Abdullah ibn Əhməd demişdir: “Rəvayət olunduğuna görə, Həsən əl-Bəsri qurbanlıq və əqiqin dərisinin onun hazır olmasına əziyyət çəkənlər üçün verilməsinin məkruh olduğunu demişdir”. Hesab edirəm ki, bu, o mənaya gəlir ki, əqiqi və ya qurbanı kəsən və bişirən kəsə onun qarşılığında zəhmət haqqı olaraq onlardan (əqiq və qurbanlıqdan) bir şey vermək məkruhdur.

---

[100] Rəvayət etdiyi hədisi qəbul olunmayan.

Hənbəlin rəvayətində öncədən də qeyd olunduğu kimi onunla istədiyin kimi davrandığı, Abdullahın rəvayətində isə istənildiyi kimi paylandığı qeyd olunub.

Abdullah ibn Həmədan "ər-Riayə" adlı əsərində yazır ki, əqiqin dərisinin, qarnının və başının satılaraq onun qiyməti miqdarında pulun sədəqə verilməsi caizdir. Bəziləri bildirirlər ki, onu satmaq haramdır. Başqa bir qrup alimə görə isə, qurbanlığın hökmü əqiq üçün də keçərlidir. Bununla da bu barədə iki görüş rəvayət edilmiş olur ki, onların arasındakı fərq açıqdır.

Mən isə hesab edirəm ki, əl-Meymuninin qeyd etdiyi açıqlama həm onun dediyi şəkildə, həm də bunun əksi kimi ola bilər. Yəni, ancaq sədəqə olaraq yuxarıda sadalananların özü verilir, satılıb pulu verilmir. Ancaq diqqət etsək görərik ki, satılıb pulunun sədəqə verilməsi haqqında da açıq bir görüş mövcuddur.

Cəfər ibn Muhəmmədin rəvayətində ondan qurbanlıqda kəsilən inəyin dərisi barəsində soruşulduqda o belə cavab verdi: "İbn Ömərdən τ rəvayət edilir ki, onu satıb pulunu sədəqə vermək lazımdır". Ancaq bu, qoyunun dərisinə aid deyil. Çünki, ondan kimsə namaz xalçası düzəldə bilər. İnəyin dərisindən isə evdə istifadə etmək olmur. Buna əsasən də o demişdir ki, inəyin dərisini satıb pulunu sədəqə vermək olar.

əl-Xalləl Abdu`l-Malik ibn Abdu`l-Humeydin belə xəbər verdiyini deyir: "Əbu Abdullah demişdir ki, İbn Ömər ψ inəyin dərisini satdı və onun pulunu sədəqə verdi. Çünki, dəvə və inəyin dərisindən evdə üzərində oturmaq və digər məqsədlər üçün istifadə etmək olmur. Buna görə də ancaq satılır və

pulu sədəqə olaraq verilir. Qoyunun dərisini isə bir çox məqsədlərlə evdə istifadə etmək mümkündür".

əl-Əsram bildirir ki, Əbu Abdullah ibn Ömərin ψ bu barədə olan görüşünü belə açıqlayır: "O, inəyin dərisinin satılaraq pulunun sədəqə verilməsini buyururdu. Sanki, İbn Ömər ψ onun qiymətinin daha baha olması səbəbi ilə bu görüşdə idi".

Əbu`l-Haris deyir ki, Əbu Abdullahdan qurban kəsildiyi zaman inəyin dərisinin hökmünü soruşdular. Cavabında o: "İbn Ömərdən ψ rəvayət olunur ki, o, bunu satıb, pulunu sədəqə verərdi", dedi.

İshaq ibn Mənsur Əbu Abdullahdan qurbanların dərisi barədə soruşduqda o dedi: "Ondan istifadə olunmaq üçün sədəqə verilir". Bu zaman soruşdum ki, onu satıb pulunu sədəqə verə bilərikmi? O cavab verdi: "Bəli, bu haqda İbn Ömərin ψ hədisi vardır".

əl-Mərvəzi demişdir: "Əbu Abdullahın məzhəbi budur ki, qurbanların dərisi satılmır, o sədəqə olaraq verilir". O, buna Peyğəmbərin ρ hədisini dəlil gətirmişdir. Peyğəmbər ρ onun dərisinin və çulunun sədəqə verilməsini əmr etdi. Hənbəlin rəvayətinə görə isə, üstündə oturmaq üçün qurbanın dərisini götürməkdə bir problem yoxdur. Həmçinin satmağa yalnız bir halda icazə verilir ki, onun pulu ilə sədəqə verilsin. O bildirib ki, qurbanın dərisindən özün üçün istifadə etmək olmaz. Çünki ondan: "bir kimsə onu özünə götürüb istifadə edə bilərmi?" – deyə soruşanda demişdi: "əgər vacib olan və ya nəzir olan qurbandırsa, yaxud onların bənzərində olan bir işdirsə, onun dərisi satılır və pulu sədəqə olaraq verilir. Ancaq əgər nafilə

olaraq kəsilən qurbandırsa, həmin şəxs istəsə, onun dərisindən evində istifadə edə bilər”.

Cəfər ibn Muhəmmədin rəvayətində deyilir ki, qurbanın dərisi sədəqə verilə və ya sahibinin evində istifadə edilə bilər, ancaq onu satmaq olmaz.

Əbu Harisin rəvayətində isə bildirilir ki, o, sədəqə edilər və ya xam dəri kimi, yaxud da üzərində namaz qılmaq üçün istifadə edilə bilər. İbn Mənsurun rəvayətinə gəldikdə isə burada qeyd edilir ki, qurbanın dərisi sədəqə verilər, istifadə edilə bilər ancaq onu satmaq caiz deyil.

əl-Meymuninin rəvayətinə görə satılmaz, ancaq sədəqə verilə bilər. Ondan “Onu satıb pulunu sədəqə vermək olarmı?” deyə soruşdular. O dedi: “Xeyr, necə var elə də sədəqə verilər”.

Əhməd ibn əl-Qasim demişdir: “Əbu Abdullah deyir ki, qurbanın dərisinin qiymətinin ələk və yaxud evdə istifadə olunan bir şeyin qiyməti qədər olması müstəhəbdir. O, qəssaba verilməz”.

Əbu Talib Əbu Abdullahdan qurbanların dərisi barəsində soruşmuş, o isə belə cavab vermişddir: “Şəbi və İbrahim deyərdilər ki, onu ələk, xəlbir qarşılığında satmaq olmaz”. “Bəs onlarla qarşılıqlı dəyişilə bilərmi?” – deyə soruşanda Əbu Abdullah: “Bəli, bir şərtlə ki, onu ancaq Allah I üçün hədiyyə edəcək, satıb özünə götürməyəcək.[101] Çünki Peyğəmbər ρ Əli-

---

[101] Burada nəzərdə tutulan dərinin satılaraq onun pulu ilə müəyyən ev əşyası alınıb sədəqə verilməsi, yaxud pulun özünün sədəqə verilməsidir ki, bu da müstəhəb hesab olunur. Yəni satmaq o halda caizdir ki, onun pulu istənilən şəkildə sədəqə verilsin. (Tər.)

yə τ çulları və dəriləri sədəqə verməyi əmr etmişdi. Həmçinin kəsənə ondan bir şey hədiyyə edilməz və onu satıb sədəqə verməzlər. İbn Ömər τ onu kasıblara göndərərdi, onlar da özləri üçün satardılar", dedi. "Onu üç dirhəmə satıb, üç kasıba versəm necə?" sualına isə o, belə cavab vermişdir: "İbn Ömər τ onları toplayıb, özlərinə verdi".[102]

Məsruq və Əlqəmə dərini namaz xalçası və yaxud da bir ev əşyası kimi istifadə edərdi. Bu, insanın evində istifadə edəcəyi ən sərfəli şeydir.

Hərb demişdir: "İmam Əhməddən soruşdum: "Birisi qurbanın dərisini aşılayaraq qiyməti qədərində sədəqə verib, onu özünə saxlasa bu caizdirmi?". O dedi: "Qurbanın dərisini sataraq onun pulunu ödəməsində bir problem yoxdur".

əl-Xalləl "İnəyin dərisinin satılıb, pulunun sədəqə verilməsinin müstəhəbliyi" babında yazır: "Mənə Mənsur ibn Vəlid Cəfər ibn Muhəmməddən xəbər verdi ki, Əbu Abdullahdan "inəyin dərisi ilə nə edilir?" – deyə soruşdular. O dedi: "Rəvayətə görə, İbn Ömər ψ deyir ki, onu satıb pulunu sədəqə verin. Ancaq bu, qoyunun dərisinə aid deyil.[103] Çünki, ondan namaz xalçası kimi istifadə edilir. İnəyin dərisindən isə evdə istifadə etmək olmur. İnəyin dərisini satmaq və pulunu sədəqə vermək caizdir".

---

102 Burada nəzərdə tutulur ki, əgər sədəqə verdiyin kəs özü bunu sata biləcəksə ona dəri olaraq verməyin daha yaxşıdır.

103 Yaşadığımız zamanda qoyunun dərisindən də bir o qədər istifadə olunmadığı üçün müasir alimlər onu da satıb pulunu sədəqə verməkdə heç bir problem görmürlər. (Tər.)

Əbu Haris bildirir ki, Əbu Abdullahdan qurban edilən inəyin dərisi barəsində soruşulduqda o, dedi: "İbn Ömərdən ψ rəvayət edildiyinə görə, o deyib ki, satılır və sədəqə verilir".

Muhənna demişdir: "Əbu Abdullahdan bir inək alıb, onu qurban kəsən adam haqqında soruşdum. Dedim ki, onun dərisini iyirmi və ya daha artıq dirhəmə satır və həmin dərinin puluna kəsmək üçün başqa bir qurbanlıq alır. Buna münasibətin nədir? O dedi: "Rəvayət olunduğuna görə, İbn Ömər ψ bu cür etmişdir".

İshaq ibn Mənsur demişdir: "Əbu Abdullahdan: "qurbanların dəriləri ilə nə edilir?" – deyə soruşdum. O dedi: "Ondan istifadə edilir, sədəqə verilir, yaxud da satılır və pulu sədəqə olaraq təqdim edilir". Mən soruşdum: "Onu sataraq pulunu sədəqə vermək də olarmı?". O dedi: "Bəli, bu barədə İbn Ömərin hədisi vardır".

Beləliklə yuxarıda qeyd olunanlar İmam Əhmədin əqiq və qurbanlıq heyvanların dəriləri ilə davranış barəsində rəvayət olunan görüşləridir. Gördündüyü kimi, istər vacib, istərsə də müstəhəb qurban olsun onun dərisinin satılaraq və ya olduğu kimi sədəqə verilməsinin caizliyində fərq yoxdur. Ən doğrusunu Allah I bilir.

## İyirmi birinci fəsil

### Əqiq qurbanı kəsilərkən nə deyilir?

İbn Munzir "Əqiqi kəsilən uşağın əqiq kəsilən əsnada adının qeyd olunması" haqqında deyir: "Aişədən ɡ belə dediyi rəvayət olunur: "Peyğəmbər ρ buyurdu: "Onun (əqiqi kəsilən şəxsin) adını qeyd edərək kəsin və "Bismilləh, Allahummə

ləkə va ileykə" – Allah`ım Sənin üçündür və Sənədir". Bu, "filankəsin"əqiqidir" – deyin.

İbn Munzir demişdir: "Bunu etmək müstəhəbdir. Ancaq bir kəs əqiq kəsməyi niyyət edib kəsilən şəxsin adını qeyd etməzsə, Allah`ın izni ilə kəsdiyi əqiq yenə də səhihdir".

əl-Xəllal "Əqiq kəsildiyi zaman nə deyilir?" babında deyir: "Əbu Talib Əbu Abdullahdan "birisi əqiq kəsmək istədiyi zaman nə deməlidir?" – deyə soruşdu. O cavab verdi: "Qurbanda niyyət etdiyi kimi niyyət edərək kəsir və deyir: "Bismilləh" – bu filankəsin oğlu filanın əqiqidir". Bu məsələdə görünən odur ki, o, başqası üçün həcc edən insanın onun yerinə ehrama girərək təlbiyə söyləməsində niyyət və sözü bir arada cəm etdiyi kimi, burada da niyyəti və tələffüzü bir arada cəm etmişdir. Həmçinin həcdə də belə deyilir: "Ləbbeykə Allah`ım! Bu filanın adınadır, yaxud ehrama girməyim filankəs üçündür".

Buradan çıxan nəticə odur ki, müsəlman əməlin savabını hədiyyə etdiyi zaman həmin adamın adına niyyət edir: "Allah`ım! Bu filankəsin adınadır və yaxud da bunun savabını filankəsə ehsan et!". Bəzilərinə görə, yaxşı olar ki, insan niyyəti şərtə bağlasın və desin: "Allah`ım! Əgər Sən bu əməli məndən qəbul buyurdunsa, o zaman savabını filankəsə ehsan et!". Çünki o, bu əməlin ondan qəbul olunub olunmadığını bilmir. Ancaq buna heç bir ehtiyac yoxdur. Çünki, hədis bu görüşü rədd edir. Peyğəmbər ρ Şubrumə üçün təlbiyə gətirən şəxsi eşitdiyi zaman ona "Allah`ım! Əgər ehramımı qəbul etdinsə, onun savabını Şubruməyə ver" deməsini əmr etmədi. Nə də öz yaxınlarından biri adına həcc etməyi soruşan kəs üçün də belə bir şey əmr etmədi. Heç bir hədisdə də belə bir hala rast gəlinmir. Onun yolu tabe olunmağa ən uyğun olan yoldur. Bununla yanaşı, sələfdən də heç kimin başqası adına

hədiyyə, qurban və yaxud əqiq kəsən şəxs üçün belə bir şərt qoşması bizə xəbər verilməmişdir. Əksinə onlardan nəql olunan budur: "Allah`ım! Bu filanın oğlu filan adınadır". Bu isə dəlil olaraq kifayət edir. Allahın I rizası ancaq onun qəbul edəcəyi əməllə qazanılır. Hədiyyə edənin bunu şərt qoşub-qoşmaması fərq etməz. Ən doğrusunu Allah I bilir.

## İyirmi ikinci fəsil

### Əqiq kəsməyi ilk həftələr üçün xüsusiləşdirməyin hökmü

Burada yeddinci gün ilə bağlı dörd məsələ vardır; uşağın əqiqi, saçının qırxılması, adının qoyulması və sünnət edilməsi. Əqiqin kəsilməsi və saçının qırxılmasının ilk yeddinci günündə edilməsi ittifaqla müstəhəb sayılır. Lakin yeddi günündə adının qoyulub, sünnət edilməsi məsələsində alimlər arasında ixtilaf vardır. Bu haqda, inşəAllah qarşıda danışacağıq. Yeddinci günündə əqiqinin kəsilməsi ilə bağlı dəlillər və onun hikməti öncədən qeyd olundu. Ən doğrusunu Allah I bilir. Uşaq dünyaya gəldiyi zaman onun sağ qalacağı və ya tələf olacağında tərəddüd ola bilər. Həmçinin uşağın şəklinin və xilqətinin sağlamlığına, həyat qabiliyyətinin olmasını təsdiq edəcək bir dəlil olacağı zamana kimi onun dünyada qalacağı yaxud dünyasını dəyişəcəyi də bilinmir. Bu müddətin miqdarı da ilk həftənin günləridir. İl ayların dövriyyəsindən meydana gəldiyi kimi, həftə də gündəlik dövriyyə məcmusunun nəticəsidir.

Bu, Allah I göylərin və yerin yaradıldığı gündən təqdir etdiyi zamandır. Uca Allah I aləmin yaradılmasını altı günə tamamladı. O, günlərdən hər birinə də həmin günlərə xas bir

ad qoydu. Həmçinin, günlərdən hər birini məxluqatından bir sinfi yaratmaqla xüsusiləşdirdi və məxluqatın yaradılışının tamamlanıb, bir araya toplandığı gün etdi. O gün xilqətin bir yerə cəm olması və möminlərin bayramıdır. Həmin gündə möminlər Allah`a I ibadət, Onu zikr etmək, Ona həmd etmək, Onu təsbih etmək üçün bir yerə toplaşırlar. Dünya işlərindən ayrılaraq Ona şükr etmək, Onun qulluğunda dayanmaq üçün bir araya gəlirlər. Onlar bu gündə yaradılışın başlanğıcından sonuna qədər olacaq hadisələri xatırlayırlar. Həmin gün Uca Rəbbin Öz ərşinə yüksəldiyi gündür. Həmin gün Allah`ın I atamız Adəmi yaradıb, onu Cənnətdə sakin etdiyi və yenə Cənnətdən çıxardığı gündür. Həmin gündə dünyanın sonu çatacaq və qiyamət qopacaqdır. O gündə Allah I yaratdıqlarını hesaba çəkəcək və Cənnət əhlini öz mənzillərinə, Cəhənnəm əhlini də öz yurdlarına daxil edəcəkdir.

Bütün bunları qeyd etməkdə məqsəd odur ki, bu günlər insan ömrünün ilk pillələridir və doğulan körpə bu günləri tamamlayarsa, ikinci mərtəbə olan aylara daxil olur. Bu mərtəbəni də tamamlayandan sonra, üçüncü mərtəbə olan illərə keçir. Bu günlərdən azalan miqdar yaradılmaşlar üçün təxirə salınmazdır. Nə qədər artarsa, o təkrarlanar və həmin günlərin sayında keçən ismin zikr olunmasına qayıdar. Altı gün məxluqatın yaradılmasının tamamlandığı son nöqtədir. Uşaq üçün edilən əməllər də altıncı günün bitməsi ilə birgə həyata keçirilir. Doğulan uşağın adı, ondan əziyyətin uzaqlaşdırılması, fidyəsinin verilərək girovluqdan qurtarılması kimi əməllər yeddinci gündə yerinə yetirilir. Bu Allah`ın I həftənin yeddinci

gününü insanlara bayram günü təyin etməsinə bənzəyir.[104]. İnsanlar həmin gündə (cümə günü) bir araya toplaşıb camaat şəklində (cümə namazı qılaraq) Onu zikr edib, Ona şükr edirlər. Allah`ın I onlara bəxş etdiyi nemətinə və Allah`ın I bundan öncəki günlərdə belə özlərini yaradılmışların digərlərindən üstün etməsinə görə sevinirlər.

Həqiqətən də Allah`ın I hikməti qulun halının hər yeddi gündə dəyişməsi və bir haldan digər hala keçməsi yönündə cərəyan edər. Yeddi gün onun dəyişmə mərhələlərindən bir mərhələ və təbəqələrindən bir təbəqədir. Məhz buna görədir ki, sən mütləq olaraq xəstə olan kəsin onun xəstələnməsinin yeddinci günündə əhvalının dəyişdiyini müşahidə edirsən. Onun ya güclənib sağalmağa, ya da zəifləyib şiddətlənməyə doğru olduğunu məhz həmin gün daha dəqiq bilirsən. Allah`ın I hikmətindəndir ki, O, öz qulları üçün həftənin hər yeddi günündən bir gününü Özünə yönələrək, qarşısında boyun büküb Ona dua etmələri üçün həmin günü şərii olaraq təyin etmişdir. Bu, onların dünya və axirət həyatlarında xoşbəxt olmaları,üzərlərindən şərlərin sovuşub dəf olması üçün ən böyük səbəblərdən biridir. Şəriətində və yaratdıqlarında hikməti ağıl və idrakları nura qərq edən Allah I hər cürə nöqsandan münəzzəhdir.

## YEDDİNCİ BÖLÜM

### Uşağın saçının qırxılması və onun çəkisi qədərində sədəqə verilməsi

[104] İslami təqvimlə həftənin yeddinci günü deyildikdə cümə günü nəzərdə tutulur. Çünki, həftənin ilk günü şənbə günü ilə başlayır. (Tər.)

Əbu Amr iBn Abdu`l-Bərr demişdir: “Əqiqi kəsildiyi zaman uşağın başının qırxılmasına gəldkdə isə alimlər bu əməli müstəhəb hesab edirlər. Peyğəmbərdən ρ əqiqlə bağlı nəql olunan bir hədisdə deyilir: “(Uşağın) saçı qırxılır və adı qoyulur”.

əl-Xalləl “əl-Cami” əsərinin “Uşağın saçının qırxılması və onun ağırlığında sədəqə verilməsi” bölməsində yazır: **“**Saleh rəvayət edir ki, onun atası (İmam Əhməd) belə demişdir: “Doğulduğunun yeddinci günündə uşağın saçının qırxılması müstəhəbdir”.

Həsən τ rəvayət edir ki, Peyğəmbər ρ demişdir: “Uşağın saçının qırxılması lazımdır”.

Salman ibn Amir τ Peyğəmbərin ρ belə buyurduğunu nəql etmişdir: “Ondan əziyyəti uzaqlaşdırın”.

Həsən əl-Basridən Peyğəmbərin ρ “ondan əziyyəti uzaqlaşdırın” sözünün mənası haqqında soruşulduğu zaman o belə dedi: “Yəni uşağın saçını qırxın”.

Hənbəl dedi: “Əbu Abdullahın belə dediyini eşitdim: “Uşağın saçı qırxılmalıdır”.

əl-Fadl ibn Ziyad demişdir: “Əbu Abdullahdan “Uşağın saçı qırxılmalıdırmı?” – deyə soruşdum. O dedi: “Bəli, amma əqiqin qanından sürtülmür. Çünki bu, cahiliyyə əməlindəndir”.

Saleh bin Əhməd atasının belə dediyini nəql etmişdir: “Fatimə ς Həsən və Hüseynin ψ saçlarını qırxdı və tüklərinin çəkisi qədərində pul sədəqə verdi”.

Hənbəl bildirir ki, Əbu Abdullahı belə deyərkən eşidib: "Uşağın başının tükü çəkisində sədəqə verməkdə bir problem yoxdur".

İmam Malik "əl-Muvatta" kitabında Cəfər ibn Muhəmməd və atasından belə rəvayət edir: "Fatimə ﴾ Həsənin, Hüseynin ψ, Zeynəbin və Ummu Gülsümün ﴾ saçlarının tükünü ölçərək onun ağırlığı miqdarında gümüşdən sədəqə verdi".[105]

Həmçinin, adını çəkdiyimiz kitabda Muhəmməd ibn Əli ibn Hüseynin belə dediyi rəvayət olunur: "Peyğəmbərin ρ qızı Fatimə Həsən və Hüseynin ψ başlarının tükünü ölçərək onun ağırlığı nisbətində gümüşdən sədəqə verdi".

Ənəs ibn Malikdən τ rəvayət edilir ki, "Allah Rəsulu ρ Həsən və Hüseynin ψ dünyaya gəldikləri yeddinci günündə onların saçlarını qırxmağı və çəkisi miqdarındakı gümüşü sədəqə verməyi əmr etmişdir".

Abdu`r-Razzəq Muhəmməd ibn Əlidən rəvayət edərək demişdir: "Allah Rəsulunun ρ qızı Fatimənin ﴾ dünyaya gətirdiyi elə bir övladı yox idi ki, onun saçının qırxılmasını və ağırlığı qədərində sədəqə verilməsini əmr etmiş olmasın".[106]

Əbu Amr demişdir: "Əta deyir ki, uşağın əqiqi kəsilmədən öncə onun saçı qırxılır". Hesab edirəm ki, o, belə deməklə sanki bunun həcc əhkamlarından ayırd edilməsini və ona bənzəməməsini nəzərdə tutmuşdur. Ən doğrusunu Allah I bilir! Həcdə olan üçün isə, sünnət olan qurban kəsməyi başı qırx-

---

105 "əl-Muvatta": 2/501. Hədis mürsəl hədisdir.

106 "əl-Musannəf": 7973.

maqdan önə keçirməkdir. Ətadan başqa kiminsə bu görüşdə olduğunu eşitməmişəm.

Əli τ rəvayət edir ki,Allah Rəsulu ρ Həsən τ üçün bir qoyun kəsdi və buyurdu: "Ey Fatimə! Onun saçını qırx və ağırlığı qədərində gümüşü sədəqə ver". Biz onun tükünün çəkisini ölçdük və o, bir dirhəm  və ya onun bir neçə hissəsinə bərabər oldu.[107]

Beyhaqi İbn Aqil vasitəsi ilə nəql edir ki, Həsən τ doğulduğu zaman anası onun üçün iri bir qoçu əqiq olaraq kəsmək istədi. Peyğəmbər ρ gələrək belə dedi: "Onun üçün heç bir şey kəsmə! Sadəcə başının tükünü qırx, Allah I yolunda yolda qalmış bir yolçuya, yaxud digərinə (sədəqə əhlinə) onun ağırlığı nisbətində sədəqə ver".[108] Növbəti ildə isə Hüseyn τ doğuldu. Fatimə ﻍ yenə də eyni hərəkəti etdi. Beyhaqi demişdir: "Əgər hədis səhihdirsə, sanki Peyğəmbər ρ qızı Fatimənin ﻍ əvəzinə əqiq kəsməyi öz öhdəsinə götürmüşdür". Bunu öncədən rəvayət edərək haqqında məlumat vermişdik.

**Fəsil**

Saçın bir hissəsini qırxaraq digər hissəsini saxlamaq məsələsi də bu mövzu ilə əlaqəlidir. Buxari və Muslimdə İbn Ömərin τ belə dediyi rəvayət olunur: "Allah Rəsulu ρ uşağın saçını yarımçıq qırxmağı qadağan etdi".[109]

---

[107] Tirmizi. Sənədi qopuqdur. Ancaq digər bənzər  hədislər onu gücləndirir.
[108] əl- Beyhaqi "Sunənu`l-Kubra": 9/304, İmam Əhməd: 6/390.
[109] Buxari: 5920-5921, Müslim: 2120.

Saçın yarımçıq qırxılması onun bir hissəsinin qırxılıb, digər bir hissəsinin saxlanılması deməkdir.

Şeyximiz bu haqda belə demişdir: "Bu, Allah I və Rəsulunun ρ nizam-intizama olan məhəbbətindən dolayıdır. Çünki, o, insanın şərəfinə dəyər verərək bunu əmr etmiş və saçının bir hissəsinin qırxılıb, digər hissəsinin isə tərk edilməsini qadağan etmişdir. Bu, həm də ona görədir ki, bunu etmək başın bir hissəsinin tüklə örtülü, bir hissəsinin isə qırxılması ilə başa zülüm verməkdir. Bunun bir bənzəri də Peyğəmbərin ρ yarı günəş, yarı kölgə olan yerdə, günəşlə kölgənin arasında oturmağı qadağan etməsidir. Çünki, bu, bədənin bir hissəsinə zülm etmək anlamına gəlir.[110] Bu, həmçinin Peyğəmbərin ρ insanlara tək bir ayaqqabı ilə yeriməyi qadağan etməsi ilə eyni hökmdədir. Belə ki, ya hər iki ayağında ayaqabı olacaq, ya da hər iki ayağın ilə də ayaqyalın yeriyəcəksən. Saçın bir hissəsinin qırxılıb, bir hissəsinin olduğu kimi saxlanılmasının dörd şəkli vardır:

Birincisi saçın bir az orasından, bir az da burasından qırxmaq. Bu, səmada olan seyrək buludların formasından götürülmüşdür.

İkincisi, saçın ortasını qırxıb, kənarlarını olduğu kimi saxlamaq. Bəzi kilsə xidmətçiləri işləyən xristianlar da belə edirlər.

Üçüncüsü, kənarlarını qırxaraq ortasını saxlamaq. Bəzi dilənçi və səfillərin etdiyi kimi.

---

[110] İmam Əhməd "əl-Musnəd": 3/413, Hakim "əl-Mustədrək": 4/271. Hədisin isnadı səhihdir. Hədisin mətni isə belədir: "Peyğəmbər ρ yarı gün ilə yarı kölgə arasında oturmağı qadağan etdi və buyurdu: "Bu şeytanın məclisidir".

Dördüncüsü saçın qabağını qırxıb, arxasını saxlamaq.

Bunların hamısı şəriətdə qadağan edilmiş saç formalarıdır. Ən doğrusunu Allah I bilir.

## SƏKKİZİNCİ BÖLÜM

### Uşağa ad verməyin vaxtı və hökmləri

### Birinci fəsil

### Uşağa ad verməyin vaxtı

əl-Xalləl özünün "əl-Cami" kitabının "Uşağa ad verməyin vaxtı" hissəsində yazır: "Mənə Abdu`l-Malik ibn Həmid xəbər verib dedi: "Biz aramızda uşağın adının nə vaxt qoyulması ilə bağlı söhbət edirdik. Bu zaman Əbu Abdullah bizə dedi: "Ənəsdən τ rəvayət edilən hədisə görə, uşağın adı doğumunun üçüncü günü qoyulur. Səmranın rəvayət etdiyi hədisdə isə doğumunun yeddinci günündə ad verildiyi bildirilir. Bu da uşağa adın ən azı yeddinci gündə qoyulmasını lazım edir".

Cəfər ibn Muhəmməd mənə Yəqub ibn Buxtanın onlara belə dediyini xəbər verdi: "Əbu Abdullah demişdir: "Uşağa ad Ənəsin τ hədisinə əsasən onun doğumunun üçüncü günündə, Səmranın hədisinə əsasən isə yeddinci günündə verilir".

Saleh deyir ki, onun atası İmam Əhməd uşağın adının yeddinci gündə qoyulmasını müstəhəb sayardı. O, bunu Səmranın hədisini rəvayət edərək əsaslandırdı.

İbnu`l-Munzir özünün "əl-Əvsat" kitabında "Uşağın adının onun doğumunun yeddinci günündə qoyulması" bölümündə yazır: "Peyğəmbərdən ρ nəql olunan hədisdə o, uşağın adının

onun doğumunun yeddinci günündə qoyulmasını əmr etmişdir. Biz Abdullah ibn Amrın hədisində onun isnadını bildirdik". Hesab edirəm ki, burada İbnu`l-Munzir Əbu İshaqın Amr bin Şuaybdan, onun atasından, onun da babasından rəvayət etdiyi hədisi nəzərdə tutur. Öncədən də qeyd olunduğu kimi Allah Rəsulu ρ uşağın anadan olmasının yeddinci günündə adının qoyulmasını, əqiqinin kəsilərək ondan əziyyətin uzaqlaşdırılmasını əmr etmişdir.

Beyhaqi "əs-Sünən" kitabının "Doğulduğu zaman uşağa ad qoyulması" babında yazır: "Bu, yeddinci günündə adının qoyulacağını bildirən ən səhih hədisdir. Ənəsdən τ rəvayət olunduğuna görə, o, belə demişdir: "Abdullah ibn əbu Talha τ dünyaya gəldiyi zaman onu Allah Rəsulunun ρ yanına apardım. Bu zaman Allah Rəsulu ρ dəvəsini onun dərisinə qətran sürtərək müalicə edirdi. O, məndən soruşdu: "Səndə xurma varmı?". Mən: "Bəli, vardır", deyib, bir neçə xurmanı ona verdim. O, xurmanı ağzında çeynədi sonra isə onu uşağın ağzına qoydu. Uşaq xurmaları dili ilə yalamağa başladı. Peyğəmbər ρ buyurdu: "Xurma ənsarın sevimli meyvəsidir". Bu hədisi Buxari və Muslim özlərinin "Səhih" kitablarında Ənəs ibn Malik τ yolu ilə rəvayət ediblər.

Əbu Musadan τ rəvayət olunduğuna görə o, belə demişdir: "Oğlum dünyaya gəldiyin zaman onu Peyğəmbərin ρ yanına gətirdim. Peyğəmbər ρ onun adını İbrahim qoydu və xurmanı ağzında əzib körpənin ağzına qoyaraq onu mayalandırdı".[111]

---

[111] Beyhaqi " Əs-Sunən",Buxari (2191),Müslim (2149) .

Buxari və Müslimin[112] Səhl ibn Sad əs-Sədidən rəvayət etdiyi hədisdə o, onun belə dediyi bildirilir: "əl-Munzir ibn Əbu Üseyd τ doğulduğu zaman onu Allah Rəsulunun ρ yanına gətirdilər. Peyğəmbər ρ onu dizlərinin üstünə qoydu. Əbu Üseyd oturmuşdu. Peyğəmbər ρ əli ilə nə isə iş görürdü. Əbu Üseyd τ əmr etdi və uşağı Peyğəmbərin ρ qucağından götürdülər. Peyğəmbər ρ buyurdu: "Uşaq haradadır?" Əbu Üseyd τ dedi: "Ey Allah`ın elçisi! Onu apardıq. Peyğəmbər ρ onun adının nə olduğunu soruşdu. O: "filandır" – deyə qoyduğu adı dedi. Peyğəmbər ρ buyurdu: "Xeyr, onun adı Munzirdir".

Müslimin "Səhih" kitabında Ənəsdən τ rəvayət olunduğuna görə Allah Rəsulu ρ belə buyurmuşdur: "Bu gecə mənim bir oğlum dünyaya gəldi. Onu atamın adı ilə "İbrahim" – deyə adlandırdım". Hədisin qalan qismini onun ölümü hadisəsində rəvayət etmişdir.[113]

Əbu Amr ibn Abdu`l-Bərr "əl-İstiab" kitabında belə yazır: "Allah Rəsulunun ρ oğlu İbrahimi Qibti əsilli zövcəsi olan Mariya hicrətin səkkizinci ilində Zü`l-Hiccə ayında dünyaya gətirmişdir".

əz-Zübeyr dedi ki, Ummu İbrahim uşaq dünyaya gətirdi və yeddinci günündə onun üçün bir qoç kəsdi. Uşağın başını Əbu Hind qırxdı və tükü ağırlığında gümüşü kasıblara sədəqə verdi. Uşağın tüklərini yerə basdırdı. Həmin gündə də ona ad

---

[112]Buxari və Müslimin "səhih" kitabları
[113] Müslim: 2315, Əbu Davud: 3126.

qoydu. əz-Zübeyrin dediyinə görə, onlar uşağın adını doğumunun yeddinci günündə qoymuşdular. Ancaq, mərfu olan hədis onun sözündən daha səhih və daha üstündür.

Bundan sonra o, Ənəsin τ hədisini qeyd etdi: "Onu (İbrahimi) Allah Rəsulunun ρ xidmətçisi Səlma doğuzdurdu və əri Əbu Rafinin yanına gedərək ona Mariyanın bir oğlan dünyaya gətirdiyini xəbər verdi. Əbu Rafi Allah Rəsulunun ρ yanına gələrək onu müjdələdi. Allah Rəsulu ρ da ona bir kölə hədiyyə etdi".

Mənim fikrimə görə, Məryəm və İbrahimin haqqında olan hədislərdə aşağıdakı fiqhi faydalar vardır:

Birinci: Hədiyyə qəbul etməyin müstəhəb olması

İkinci: Əhli-kitabın hədiyyəsini qəbul etməyin caiz olması

Üçüncü: Kölənin hədiyyə olaraq qəbul edilməsinin caiz olması

Dördüncü: Cariyə ilə evlənməyin caiz olması

Beşinci: Uşağı olan kəsi onun doğulması münasibəti ilə müjdələmək

Altıncı: Müjdə gətirənə hədiyyə verməyin müstəhəb olması

Yeddinci: Övlad üçün əqiq kəsmək

Səkkizinci: Əqiqin, yeddinci gündə kəsilməsi

Doqquzuncu: Saçının qırxılması

Onuncu: Saçının çəkisi ağırlığında gümüşün qiyməti nisbətində pul sədəqə vermək

On birinci: Qırxılan tükləri ayaq altına atmayaraq torpağa basdırmaq

On iki: Doğulduğu gündə uşağa ad qoymaq

On üç: Uşağın əmizdirilməsini və tərbiyəsini anasından başqasına həvalə etməyin caiz olması

On dörd: Atanın övladını ziyarət etməsi.

Belə ki, Peyğəmbər ρ oğlunun ağrı çəkdiyini eşidəndə onu ziyarət etmək üçün uşağın baxıcısı dəmirçi Əbu Seyfin evinə getdi. Yanına gələrək onu bağrına basdı. Bu zaman uşaq artıq can verirdi. Peyğəmbər ρ göz yaşı axıdaraq dedi: "Göz ağlayır, qəlb üzülür, ancaq biz Rəbbimizin razı qalacağı sözdən başqa bir şey söyləmirik. Ey İbrahim! Həqiqətən də biz sənin ayrılığına çox kədərlənirik".[114]

On beşinci: Ölən üçün göz yaşı axıdaraq ağlamağın caiz olması. "Fudeyl ibn İyadın fəzilətləri ilə bağlı edilən rəvayətdə deyilir ki, o, oğlu Əli öldüyü gün gülmüşdür. Ondan bunun səbəbi soruşulmuş və o belə demişdir: "Heç şübhəsiz Allah I Öz qəza-qədəri ilə hökm etdi. Mən də Onun hökmünə razı olmaq istədim". Ancaq bu məsələdə Allah Rəsulunun ρ etdiyi daha mükəmməl və daha üstündür. Çünki o Uca Rəbibinin hökmünə riza ilə körpəyə mərhəmətin arasını bir yerdə cəm etmişdir. Səd ibn Ubadə τ ondan "Bu nədir, ey Allah`ın Rəsulu, sən də ağlayırsan?" – deyə soruşduqa o cavab verdi: "Bu, bir rəhmətdir. Allah I qullarından yalnız mərhəmətli olanlara

[114] Buxari: 1303, Müslim: 2315, Əbu Davud: 3126.

rəhm edər”.[115] Fudeylə isə bu iki şeyi eyni anda etmək çətin gəldi. Rəbbin hökmünə riza ilə övlada mərhəmətdən dolayı ağlamağı birlikdə bacarmadı. Bu şeyximizin ondan eşitdiyim cavabıdır.

On altıncı: Ölü üçün kədərlənməyin caiz olması. Bu, Uca Rəbbin razı qalmayacağı söz və əməl həddinə çıxmadıqca və yaxud da Allah`ın I razı qalacağı söz və əməli tərk etmədikcə savabdan heç bir şey azaltmaz.

On yeddinci: Uşağı yumaq (qüsl etmək). Əbu Ömər τ və başqaları deyirlər ki, İbrahimin süd anası Əbu Seyfin zövcəsi olan Ummu Burdə uşağı yudu və məzarına kimi onu kiçik bir döşəyin üstündə daşıdı.

On səkkizinci: Uşaq üçün cənazə namazı qılmaq. Əbu Ömər τ demişdir: “Allah Rəsulu ρ onun üçün cənazə namazı qılaraq, o əsnada dörd dəfə təkbir gətirdi. Bu elm əhlinin əksəriyyətinin görüşüdür və doğru olan da elə budur.

əş-Şəbi də demişdir: “Peyğəmbərin ρ oğlu İbrahim on altı aylığında vəfat etdi. Peyğəmbər ρ onun üçün cənazə namazı qıldı”. İbn İshaqın Abdullah ibn Əbu Bəkrdən τ, onun da Aişədən τ rəvayət etdiyinə görə, Allah Rəsulu ρ oğlu İbrahimi dəfn etdi və üzərinə namaz qılmadı. O dedi ki, bu səhih görüş deyil. Çünki sələfdən və xələfdən bizə çatan miras və məşhur olan əmələ görə elm əhlinin əksəriyyəti uşaqlar üçün cənazə namazı qılmağın üzərində icma ediblər. Onların heç birinin bundan başqa bir görüşü olduğunu bilmirəm. Ancaq

[115] Buxari: 1283, Müslim: 923, Nəsai, İmam Əhməd “əl-Musnəd”.

Səmura ibn Cundəb istisnadır. O dedi: “Ola bilsin ki, Aişənin ɡ rəvayət etdiyi “Allah Rəsulu ρ onun üzərinə namaz qılmadı” hədisinin mənası odur ki, yəni camaatla birgə qılmadı və səhabələrə əmr etdi, özü isə cənazə namazında hazır olmadığı halda onlar namazı qıldılar. Əgər belə olarsa, o zaman bu rəvayət əksər alimlərin üzərində birləşdikləri “namaz qılınır” görüşünə müxalif olmaz. Bu ən üstün açıqlamadır.[116]

Digərləri isə belə deyirlər: “Allah Rəsulunun ρ onun üzərinə namaz qılmasına mane olan şey günəşin tutulması hadisəsi və küsuf namazı idi. İbrahimin vəfat etdiyi gün günəş tutulmuşdu. Peyğəmbər ρ küsuf namazı qılmaqla məşğul idi. İnsanlar dedilər: “Günəş İbrahim vəfat etdiyinə görə tutuldu”. Peyğəmbər ρ küsuf namazı üçün xütbə verərək belə buyurdu: “Heç şübhəsiz, günəş və ay Allah`ın I ayələrindən iki ayədir. Onlar kimsənin nə ölməsi, nə də yaşamasına görə tutulmazlar. Lakin Allah I onların vasitəsilə öz qullarını xəbərdar edərək qorxudur”.[117]

Əbu Davud özünün “əs-Sünən” kitabının “Uşaq üzərinə cənazə namazı qılmaq” babında yazır: “Sonra isə o, Aişədən ɡ belə dediyini rəvayət edir: “Peyğəmbərin ρ oğlu İbrahim on

---

[116] Üsul qaydasına əsasən əgər səhabələrdən biri Allah Rəsulunun ρ bir əməlini isbat edən, digəri isə həmin əməli inkar edən rəvayət edərsə o zaman isbat edən səhabənin rəvayəti götürülür. Çünki inkar edən səhabə Allah Rəsulunun ρ bu feilini görməyə bilər. Yaxud da ona bu haqda xəbər çatmaya bilər. (Tər)

[117] Müslim: 904, Əbu Davud, Nəsai.

səkkiz aylıq ikən vəfat etdi. Peyğəmbər ρ onun üzərinə namaz qılmadı".[118] Bundan sonra o, həmin babda əl-Bəhiydən belə dediyini rəvayət edir: "Peyğəmbərin ρ oğlu İbrahim vəfat etdiyi zaman Allah Rəsulu ρ əl-Məqaid[119] adlı yerdə onun üçün namaz qıldı". Bu hədis mürsəldir. Hədisin ravisi əl-Bəhiyy Əbu Muhəmməd Adullah ibn Yəsardır. O, Musab ibn Zubeyrin xidmətçisi olub və tabiindəndir.

Bundan sonra Əbu Davud Əta ibn Rabahdan rəvayət edir ki, Peyğəmbər ρ oğlu İbrahim yetmiş günlük ikən vəfat etdiyi zaman onun üçün cənazə namazı qıldı. Bu hədis də mürsəldir. O, İbrahimin yaşının miqdarında səhvə yol vermişdir. Ən doğrusunu Allah I bilir.

Beyhaqi demişdir: "Bu xəbərlər hər nə qədər mürsəl olsalar da, onlar məvsul xəbərlərə (yəni səhabələrdən rəvayət olunan) bənzəyir və bir-birini qüvvətləndirirlər. Bu xəbərlər həmçinin Allah Rəsulunun ρ, oğlu İbrahimin üzərinə namaz qıldığını isbat edir. Beləliklə bu görüş "o, oğlu üzərinə namaz qılmadı" sözünü rəvayət edənin rəvayətindən daha üstündür. Səhabəyə bağlandığına işarə edən hədis Bəra ibn Azibin τ hədisidir. O demişdir: "Allah Rəsulu ρ oğlu İbrahim üçün cənazə namazı qıldı. O, on altı aylıq ikən vəfat etmişdi. Bu zaman Allah Rəsulu ρ buyurdu: "Həqiqətən də, Cənnətdə onun süd əmmə vax-

---

[118] Əbu Davud: 3187. İsnadı həsəndir.

[119] əl-Məqaid alimlərin görüşünə əsasən, Osmanın τ evinin yanındakı dükanların oturacaq yerləri olan yerin adıdır. Bəzi alimlər isə məscidin yanında olan insanların oturması üçün nəzərdə tutulan yerin adı olduğunu deyirlər. (Tər)

tını tamamlayacaq bir süd anası vardır. O siddiqdir". Bu hədis sabit deyildir. Çünki, Cabir əl-Cufinin rəvayətindəndir və onunla dəlil gətirilməz. Lakin bu hədis Bəhyin, Ətanın və Şəbinin rəvayət etdiyi mürsəl hədisləri gücləndirir.

Bəziləri deyirlər ki, İbrahimin cənazə namazının qılınması ancaq Allah Rəsulunun ρ onun atası olması və buna görə də onun buna ehtiyacı olmaması səbəbilə tərk edilmişdir. Onların fikrincə bu, şəhidlər üçün şəhidlikləri səbəbilə namazın tərk edilməsinə bənzəyir. Ancaq bu, sözlərin ən çirkini və elmdən ən uzaq olanıdır. Allah I bütün peyğəmbərlər və siddiqlər üçün cənazə namazını məşru qılmışdır. Səhabələr də Peyğəmbər ρ üçün cənazə namazı qılmışdır. Şəhidin üzərinə namaz qılınmamasının səbəbi isə budur ki, namaz qüsl veriləndən sonra qılınır, şəhid isə bilindiyi kimi qüsl edilmir.[120]

İyirminci:[121] İbrahim vəfat etdiyi gün günəş tutulmuşdu. İnsanlar günəşin İbrahimin vəfat etdiyinə görə tutulduğunu dedilər. Peyğəmbər ρ xütbə verdi və buyurdu: "Heç şübhəsiz günəş və ay Allah`ın I ayələrindən iki ayədir. Nə bir kəsin ölümü, nə də yaşamasına görə tutulmazlar. Lakin Allah I onların vasitəsilə öz qullarını qorxudur". Burada İbrahimin Muhərrəm ayının sonu vəfat etdiyini deyənlərə rədiyyə vardır. Heç şübhəsiz, Allah I təyin etdiyi qanunauyğunluğa əsasən, günəş ancaq qəməri ayının son gecəsi tutulur. Ay da

---

[120] Şeyx Albani "Əhkəmu`l-Cənaiz" kitabında yazır: "Lakin bu, şəhid üçün cənazə namazı qılmağın məşru olmasına mane deyildir. Çünki şəhidlər üçün namaz qılınmasına dair çoxlu hədislər vardır".

[121] Əsərin əslində və çapda on doqquzuncu düşmüşdür.

ancaq on dördüncü gecədə tutulur. Həmçinin Allah I təyin etdiyi qanunauyğunluğa əsasən hilalın doğması ayın əvvəlində, bədrlənməsi ayın ortasında və yoxa çıxması da ayın sonundadır.

İyirmi birinci: Peyğəmbər ρ xəbər verdi ki, onun üçün Cənnətdə süd əmmə vaxtını tamamlayacaq bir süd anası vardır. Bu, Allah`ın I səadət əhlindən olan qulları üçün öləndən sonra bu dünyada olan nöqsanlarını kamilləşdirəcəyinə dəlildir. Bu barədə bir çox səhabələrdən rəvayətlər vardır ki, onları burada qeyd etmək yersiz olardı. Hətta, deyilmişdir ki, hər kim elm tələb edərkən ölərsə, o istədiyini ölümündən sonra kamil olaraq əldə edəcəkdir. Həmçinin Quran öyrənməyə başlayıb onu bitirmədən ölən də belədir. Ən doğrusunu isə Allah I bilir.

İyirmi ikinci: Peyğəmbər ρ qibtilərə (Misirin yerli əhalisi) qarşı xeyirxah davranmağı tövsiyə etmiş və demişdir: "Onlarla aramızda zimmət və qohumluq əlaqələri vardır".[122] Çünki, iki möhtərəm xəlilin İbrahim ρ və Muhəmmədin ρ cariyələri; Hacər və Mariya qibtilərdən idi. Hacərə gəlincə o, ərəblərin atası sayılan İsmayılın ρ anası olmuşdur. Qohumluq əlaqələri bu mənadadır. Zimmət isə Peyğəmbərin ρ cariyəsi Mariya və ondan doğulan İbrahimə görədir. Qibtilər vəfasızlıq etmədikləri müddət ərzində onları qorumaq müsəlmanların üzərinə vacib edilmiş bir zimmətdir. Ən doğrusunu bilən Allah`dır I.

[122] Müslim: 2543, Əhməd: 5/173.

Buxari "Səhih" kitabında Suddidən belə dediyini rəvayət etmişdir: "Ənəs ibn Malikdən τ: "Peyğəmbərin ρ oğlu neçə yaşına kimi yaşadı?" – deyə soruşdum. O dedi: "İbrahim beşik dönəmində idi. Əgər yaşasaydı, peyğəmbər olardı. Lakin o zamana qalmadı. Çünki Peyğəmbərimiz ρ peyğəmbərlərin sonuncusudur".[123]

İsa bin Yunus İbn Əbu Xaliddən belə dediyini rəvayət edir: "Mən İbn Əbu Əufədən τ: "Sən Peyğəmbərin ρ oğlunu görmüşdünmü?" – deyə soruşdum. O dedi: "O, körpə ikən vəfat etdi. Əgər qədərdə Muhəmməddən ρ sonra peyğəmbər olması təqdir olunsaydı, o yaşayardı. Ancaq Muhəmməddən ρ sonra peyğəmbər olmayacaq".[124]

İbn Abdu`l-Bərr demişdir: "Mən bilmirəm bu nə məna kəsb edir? Nuhun υ peyğəmbər olmasına baxmayaraq, onun övladı peyğəmbər olmamışdır. Peyğəmbər olmayan birinin övladının peyğəmbər olması mümkündür. Həmçinin peyğəmbər olan birinin övladının peyğəmbər olmaması da mümkündür. Əgər hər bir peyğəmbərin övladı peyğəmbər olsa idi, o zaman dünyada hər kəs peyğəmbər olardı. Çünki, hər bir kəs Adəmin υ, sonra isə Nuhun υ övladlarının törəmələridir. Mən isə Adəmin υ övladlarından yalnız Şis[125] υ

---

[123] Müəllifin qeyd etdiyi kimi bu rəvayət Buxaridə mövcud deyil. Əksinə bu, Əhmədin Süddi yoluyla İbn Məndədən etdiyi rəvayətdir. Ancaq bu səhih hədisdir. Onu Hafiz "Fəthu`l-Bəridə": 1/579 rəvayət edərək səhih olduğunu demişdir.

[124] Buxari: 6194.

[125] Quran`i Kərimdə və səhih sünnətdə Şisin adına rast gəlinməmişdir.

adlı oğlunun peyğəmbər olduğunu bilirəm. Allah I daha doğrusunu biləndir.

Bu fəsil uşağın adının qoyulacağı vaxtın nə zaman olması ilə bağlı müxtəlif görüşlərlə əlaqəlidir. Biz mövzudan kənara çıxaraq müxtəlif faydalara toxunduq. İndi isə, mövzunun əsl məqsədinə keçirik və bildiririk ki, insana ad qoymağın həqiqəti mövcud məfhumun adlandırılmasıdır. Çünki o, var olandan sonra adı olmazsa, onun tanınması gerçəkləşməyəcəkdir. Ona görə də, dünyaya gəldiyi gün adının qoyulub tanıdılması icazəlidir. Həmçinin bunu üç günə kimi, yaxud əqiqinin kəsiləcəyi günə kimi, yaxud da bundan öncə və ya sonraya təxirə salmaq da caizdir. Bu məsələdə çoxlu seçimlər vardır.

## İkinci fəsil

### Adlardan müstəhəb və məkruh olanlar

Əbu Dərda τ Allah Rəsulunun ρ belə dediyini rəvayət edir: “Sizlər qiyamət günündə öz adlarınız və atalarınızın adları ilə çağırılacaqsınız. Elə isə adlarınızı gözəlləşdirin”.[126]

İbn Ömər τ Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət etmişdir: “Adlarınızdan ən çox Allah`a I sevimli olanı Abdullah və Abdu`r-Rahman adlarıdır”. Bu hədisi Müslim “Səhih” kitabında nəql etmişdir.

Cabirdən τ belə dediyi rəvayət olunmuşdur: “Bizlərdən birinin oğlu dünyaya gəldi. O, oğlunun adını Qasım qoydu.

---

[126] Əbu Davud: 4948, Əhməd: 5/194, Darimi: 2697, İbn Hibban: 1944. Hədis munqati (sənədi qopuq) hədisdir. Albani “Təxricu`l-Kəlam” kitabında isnadının zəif olduğunu yazır. Kim hədisin həsən olduğunu deyirsə o yanlışa yol vermişdir.

Biz də ona dedik ki, biz səni nə bu kunyə ilə çağıracaq, nə də bu adla hörmət qoyacağıq. O da bunu Peyğəmbərə ρ xəbər verdi. Peyğəmbər ρ buyurdu: "Oğlunun adı Abdu`r-Rahmandır".[127]

Əbu Vəhb Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət edir: "(Övladlarınıza) peyğəmbərlərin adlarını qoyun. Adların Allah`a I ən sevimli olanı Abdullah və Abdu`r-Rahmandır. Ən doğru olanı Haris və Həmmamdır. Ən çirkin olanı isə Hərb və Murradır (acı)".[128]

Əbu Muhəmməd ibn Hazm demişdir: "Alimlər Abdullah, Abdu`r-Rahman və.s. adlar kimi Allah`ın I adına nisbət edilərək qoyulan adların ən yaxşı adlar olması üzərində ittifaq ediblər. Onlar Allah`a I ən sevimli olan adlar üzərində ixtilaf etmişlər. Onların əksəriyyəti deyirlər ki, adların Allah`a ən sevimli olanı Abdullah və Abdu`r-Rahman adlarıdır". Səid ibn Müseyyib demişdir: "Allah`a I ən sevimli gələn adlar peyğəmbərlərin adlarıdır". Səhih hədis isə Allah I üçün ən sevimli

---

[127] Buxari: 3114, 3115, Müslim: 2133, Tirmizi, Əbu Davud, Əhməd.

[128] Buxari "Ədəbu`l-Mufrad": 814, Əhməd: 4/445, Əbu Davud: 4950. Sənədində Aqil ibn Şəbib vardır və o, məchul ravidir. Lakin onun bəzi rəvayətlərini öncədən qeyd olunan İbn Ömər τ hədisi və Müslimin 1235 rəqəmlə mərfu olaraq Muğira ibn Şubədən rəvayət etdiyi "Onlar özlərindən öncəki peyğəmbərlərinin və salehlərin adlarını qoyardılar" hədisi dəstəkləyir. Bunu, həmçinin Buxari "Ədəbu`l-Mufrad" kitabında Yusuf ibn Abdullah ibn Salamdan rəvayət etmişdir. O demişdir: "Peyğəmbər ρ mənim adımı Yusif qoydu...". Hafiz "Fəthu`l-Bəri": 1/578 kitabında demişdir: "Bu hədisin isnadı səhihdir".

olan adların Abdullah və Abdu`r-Rahman adları olduğunu göstərir.

**Fəsil**

Adların məkruh və haram olanına gəldikdə isə Əbu Muhəmməd ibn Hazm bu barədə belə demişdir: "Allah`dan I başqasına qul olmağı ifadə edən bütün adların qoyulmasının haram olması üzərində alimlər ittifaq ediblər. Məsələn: Abdu`l-Uzza (Uzza adlı bütün qulu), Abdu Hubel (Hubel adlı bütün qulu), Abdu Amr (Amrın qulu), Abdu`l-Kəbə (Kəbənin qulu) və s. Burada Abdu`l-Mutallib adı istisnadır". Əbu Muhəmməd ibn Hazmın sözü burada bitmişdir.

Abdu`l-Əli, Abdu`l-Hüseyn, Abdu`l-Kəbə adlarını qoymaq da halal deyildir.

İbn Əbu Şeybə Hani ibn Şureyhin belə dediyini söyləmişdir: "Peyğəmbərin ρ yanına bir qövmün nümayəndələri gəlmişdilər. Peyğəmbər ρ onlardan birinin adının Abdu`l-Həcər olduğunu eşitmişdi və ondan soruşdu: "Sənin adın nədir?". O, dedi: "Abdu`l-Həcər" (daşın qulu). Allah Rəsulu ρ buyurdu: "Sən sadəcə Abdullahsan (Allahın qulusan)".

Əgər "Alimlər Allah`dan I başqasına qul olmağı ifadə edən adın qoyulmasının haram olması üzərində necə ittifaq ediblər?" – deyə sual olunsa, o zaman Peyğəmbərdən ρ səhih olaraq rəvayət edilən bu hədisi cavab olaraq demək yerinə düşərdi: "Abdu`d-Dinar (dinarın qulu) xüsrana uğradı, Abdu`d-Dirhəm (dirhəmin qulu) xüsrana uğradı, Abdu`l-Xamisa

(xamisa gözəl paltar növüdür) xüsrana uğradı, Abdu`l-Qatifə (gözəl paltarın qulu) xüsrana uğradı”.[129]

Allah Rəsulundan ρ səhih olaraq rəvayət edilən başqa bir hədisdə isə belə deyilir: “Bu yalan deyil ki, mən bir peyğəmbərəm. Mən Abdu`l-Muttallibin oğluyam”.[130]

O, səhabələrinin arasında oturduğu zaman yanlarına bir kişi gəldi və dedi: “Sizdən hansınız Abdu`l-Muttalibdir?”. Səhabələr Peyğəmbərə ρ işarə edib: “odur” – dedilər.

Yuxarıda qeyd olunanların cavabı belədir: “Abu`d-Dinar xüsrana uğradı” deyəndə Peyğəmbər ρ bununla adı deyil, Uca Rəbbinə ibadət etmək yerinə, dinara və dirhəmə qulluq etməyə razı olan kəsi vəsf edərək ona bəddua etmək istəmişdir. O, bu hədisdə qiymətləri və paltarları qeyd etmişdir. Çünki onların hər ikisi də zahiri və batini gözəlliyin göstəricisidirlər.

Allah Rəsulunun ρ “Mən Abdu`l-Muttalibin oğluyam” sözünə gəldikdə isə o, belə deməklə adın bu isimlə qoyulmasının doğruluğunu bildirməmişdir. Əksinə bu sadəcə adı həmin isimlə qoyulanın öz adıyla başqalarından fərqləndirməyi tanıtmaq baxımındandır. Bir şeyi tanıdan zaman bu cür xəbər vermək haram deyildir. Əbu Muhəmməd ibn Hazmın bunu xüsusi olaraq Abdu`l-Muttalib adı ilə istisna edərək xüsusiləşdirməsinin heç bir dəlili yoxdur. Çünki səhabələr Bəni Abdu`ş-Şəms (günəş qulunun oğulları) və Bəni Abdu`d-Dər (evin qulunun oğulları) qəbilələrini onlara verilmiş adlarıyla çağırırdılar. Peyğəmbər ρ isə bunu qadağan etməmişdi. Buradan da məlum olur ki, bu adları xəbər vermək və tanıtmaq

---

[129] Buxari: 2886, 2887), İbn Məcə: 4135.
[130] Buxari: 2864, Müslim: 1776.

yönündən istifadə etmək caiz, ancaq onu başqalarına ad olaraq qoymaq isə icazəli deyildir.

**Fəsil**

Haram olan adlar; Məliku`l-Muluk (padşahların padşahı), Sultanu`s-Salətin (sultanların sultanı), Şahə`n-Şah (şahların şahı) kimi adlardır. Buxari və Müslim Əbu Hüreyrədən τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişlər: "Allah I qatında adların ən çirkini Məliku`l-Əmlək adlanan kişinin adıdır". Muslimin rəvayətində isə hədis belədir: "Qiyamət günündə insanların Allah I qatında ən çox qəzəb ediləni və ən çirkini Maliku`l-Əmlək adlanan kəsdir. Allah`dan I başqa Məlik (haqq olan mülkiyyət, hakimiyyət sahibi) yoxdur".

Bəzi alimlər deyirlər: "Bu hədisdən o məna da hasil olur ki, qazilərin qazisi, hakimlərin hakimi kimi adlar da məkruh olan adlardırlar. Çünki hakimlərin hakimi həqiqətdə Allah`dır I. Fəzilət sahibi bir qrup alim qazilərin qazisi, hakimləri hakimi adlarını Allah I və Rəsulunun ρ padşahların padşahı adından qəzəblənməsinə qiyas edərək mütləq şəkildə söyləməkdən çəkinərdilər".

Həmçinin birini insanların ağası, hər kəsin ağası və ya Adəm övladının ağası kimi adlarla adlandırmaq da haramdır. Bu, Allah Rəsulundan ρ başqa heç kəsə aid ola bilməz. Yalnız o, Adəm övladının ağasıdır. Ondan başqasına mütləq olaraq bu adı vermək halal deyildir.

**Fəsil**

Məkruh olan adlar; Müslim Səmura ibn Cundəbdən τ Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət etmişdir: "Oğluna Yəsar (uğurlu), Rabəh (qazanc), Nəcəh (uğur) və Əfləh (çox qurtulan) adlarını qoyma. Sən "o oradadırmı" – deyə çağırsan o, orada olmaz və birisi "xeyr, yoxdur", deyəcək. Bu adlar dörddür. Qətiyyən mənim saydığım sayı aşmayın". Bu axırıncı cümlə Allah Rəsulunun ρ kəlamı deyil. Hədisi rəvayət edənin sözüdür.

Əbu Davudun "Sünən" kitabında Cabir ibn Abdullahın τ belə dediyi rəvayət edilir: "Peyğəmbər ρ Yəla, Bərəkət, Əfləh, Yəsar, Nafii və.s adları qadağan etmək istədi. Sonra onun bu adlara bir şey demədiyini gördüm. O, bu adlara qadağa qoymadan vəfat etdi. Ondan sonra Ömər də bunları qadağan etmək istəsə də bunu etmədi".[131]

Cabir Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət etmişdir: "İnşəAllah əgər yaşasam, ümmətimə Nəfii (fayda verən), Əfləh və Bərəkət adlarını qoymağı qadağan edəcəm". Şubə deyir: "Onun Nəfii adını deyib-demədiyini bilmədim".[132]

İbn Məcə "Sünən" kitabında Ömər bin Xəttabdan τ Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət etmişdir: "İnşəAllah əgər yaşasam, ümmətimə Rabəh, Nəcih, Əfləh və Yəsar adlarını qadağa edəcəm".[133]

---

[131] Müəllifin qeyd etdiyi kimi, bu hədis Əbu Davudun "Sünən" kitabında yox, Müslimin "Səhih" əsərində "Ədəb" bölümündə "Çirkin adları qoymağın məkruh olması" babında 2137 rəqəmilə nəql olunur.

[132] Əbu Davud: 4960.

[133] İbn Məcə: 3735. Müəllif hədisi mənaca rəvayət edib. Hədis həsəndir.

Bu adların mənası ilə bağlı bildirirəm ki, Peyğəmbərin ρ Mübarək, Müflih (qurtuluş tapan), Xeyir, Sürur (sevinc), Nemət və s. kimi adları qoymağı məkruh saymasının səbəbi onların mənasıdır. Çünki o insanı çağırarkən, "Xeyir sənin yanındadırmı?", "sənin yanında Sürur (sevinc) varmı?" və ya "Nemət sənin yanındadırmı?" – deyə səslənirsən. Bu suallara cavab olaraq "xeyir, yoxdur" deyilməsi məna baxımından qəlbə mənfi təsir etdiyi üçün xoş görülmür. Beləliklə də çirkin mənanı ifadə edən baba daxil olur.

Hədisdə nəql olunduğuna görə, "O, Bərranın (yaxşılıq sahibi) yanından çıxdı" deyilməsi məkruhdur. Çünki burada qadağanı vacib edən başqa bir məna vardır. O da insanın özünü o cür olmadığı halda sanki mübarək və günahlardan uzaq biri kimi təmizə çıxarmasıdır. Əbu Davudun da rəvayət etdiyinə görə, Allah Rəsulu ρ "Bərra" adını qadağan edərək belə buyurdu: "Özünüzü təmizə çıxartmayın. Allah I sizlərdən kimin Birr əhli (yaxşılıq əhli) olduğunu daha yaxşı bilir".[134]

İbn Məcə "Sünən" kitabında Əbu Hüreyrədən τ rəvayət edir: "Zeynəbin əsl adı Bərra idi. İnsanlar dedilər ki, o adı ilə özünü təmizə çıxarır. Allah Rəsulu da ρ ona Zeynəb adını verdi".

**Fəsil**

Qoyulması haram olan adlardan bir qismi də şeytanların adlarıdır. Məsələn Xinzəb, Vəlhən, əl-Valhən, əl-Əvar və əl-Əcda kimi adlar buna misal ola bilər.

---

[134] Əbu Davud: 4953, Müslim: 2142.

əş-Şəbinin Məsruqun belə dediyini rəvayət etmişdir: “Ömər ibn Xəttab τ ilə qarşılaşdım. O, məndən “Sən kimsən?” deyə soruşdu. Mən “Məsruq ibn əl-Əcdayam” dedim. Bu zaman Ömər τ dedi: “Allah Rəsulundan ρ əl-Əcdanın şeytan olduğunu eşitdim”.[135]

İbn Məcənin “Sünən”, Əbu Abdullahın “əl-Musnəd” kitabına etdiyi əlavələrə görə, Übey ibn Kəbin τ Peyğəmbərdən ρ rəvayət etdiyi hədisdə o, belə buyurmuşdur: “Dəstəmaz alarkən vəsvəsə verən ayrıca bir şeytan vardır. Ona “Vəlhən” deyilir. Suyun vəsvəsələrindən qorunun!”.

Osman ibn Əbu`l-As τ namazda olan vəsvəsələrdən Allah Rəsuluna ρ şikayət etdi. Allah Rəsulu ρ buyurdu: “Bu, “Xinzəb” adlı şeytandandır”.[136]

Əbu Bəkr ibn Əbu Şeybə demişdir: “Humeyd ibn Abdu`r-Rahman Hişamdan, o da atasından rəvayət etdi ki, bir kişinin adı Hübab idi. Allah Rəsulu ρ ona Abdullah adını verdi və buyurdu: “Hübab şeytandır”.[137]

**Fəsil**

Qoyulması haram olan adlardan bir qismi də zorbalıqları və zülmkarlıqları ilə tanınan insanların adlarıdır. “Firon, Qarun, Haman, Vəlid və s. kimi adları buna misal göstərmək olar. Abdu`r-Razzəq “əl-Cami” kitabında belə rəvayət edir: “Bir kişi öz oğlunun adını “Vəlid” qoymaq istədi. Allah Rəsu-

---

[135] İbn Məcə,Əbu Davud.

[136]Müslim (2203)

[137] əl-Cami: 19849.

lu ρ bunu ona qadağan edərək dedi: “Adı “Vəlid” olan bir adam olacaq. O ümmətimə Fironun öz qövmünə etdiyini edəcəkdir”.[138]

**Fəsil**

Cəbrayıl (Cibriil), Mikayıl (Mikəil) və İsrafil kimi mələk adlarını insanlara qoymaq isə məkruhdur.

Əşhəb demişdir: “İmam Malikdən “Cəbrayıl” adının qoyulması barəsində soruşuldu. O, bunu məkruh görərək onu xoşlamadı”.

Qazi İyad demişdir: “Bəzi alimlər mələklərin adlarını qoymağın caiz olması yönündə fikir bildiriblər. Bu, Haris ibn Miskinin görüşüdür”. Həmçinin, o qeyd etmişdir ki, İmam Malik “Cəbrayıl” və “Yasin” adlarını qoymağı məkruh, bunlardan başqasını isə mübah sayırdı.

Abdu`r-Razzəq “əl-Cami” kitabında Məmardan belə dediyini nəql edir: “Hammad ibn Süleymandan adı “Cəbrayıl” və “Mikayıl” olan şəxslər barəsində soruşdum. O, bildirdi ki, belə ad qoymaqda bir xəta yoxdur”.

Buxari “Tarix” kitabında Abdullah ibn Cərradın τ belə dediyini yazır: “Muzeynə qəbiləsindən bir kişi ilə birlikdə Allah Rəsulunun ρ yanına getdik. O dedi: “Ey Allah`ın Rəsulu! Mənim bir övladım oldu. Ona ad vermək üçün adların hansı ən xeyirlisidir? Allah Rəsulu ρ buyurdu: “Heç şübhəsiz, sizin üçün adların ən xeyirlisi Haris və Həmmam adlarıdır. Ab-

---

[138] əl-Əvzai demişdir: “Bəziləri elə hesab edirdilər ki, o adam Vəlid ibn Abdu`l-Malikdir. Sonra biz gördük ki, o Vəlid ibn Yeziddir. İnsanlar ona qarşı çıxıb öldürdükləri zaman fitnə ümmətin üzərindən sovuşdu.

dullah və Abdu`r-Rahman da çox gözəl adlardır. Peyğəmbərlərin adları ilə adlar qoyun. Lakin mələklərin adları ilə adlar qoymayın". Həmin şəxs dedi: "Bəs sənin adını qoymaq necə?". O buyurdu: "Mənim adımı da qoyun. Ancaq mənim kunyəmi (Əbu`l-Qasim) özünüzə kunyə seçməyin!". Beyhaqi demişdir: "Buxari başqa yerdə etdiyi rəvayətdə deyir ki, hədisin sənədində illət vardır".

**Fəsil**

Adların içərisində elə adlar da vardır ki, onların qoyulması uyğun olmamaqla yanaşı, həm də insanın nəfsi onu xoş qarşılamır. Hərb, Murra (acı), Kəlb (it), Həyya (ilan) və s. adlar buna misal ola bilər.

İmam Malikin "əl-Muvatta" kitabında nəql etdiyi rəvayət öncədən qeyd olunmuşdu. Allah Rəsulu ρ dişi dəvəni göstərərək buyurdu: "Bunu kim sağa bilər?" Bir nəfər ayağa qalxdı. Peyğəmbər ρ ondan "Adın nədir?" – deyə soruşdu. O dedi: Mürra (acı). Peyğəmbər ρ ona: "otur", dedi. Daha sonra bir də "Bunu kim sağa bilər?" – deyə soruşdu. Bu dəfə başqa bir nəfər ayağa qalxdı. Peyğəmbər ρ onun adını soruşdu. O da: "Hərb" (müharibə) – deyə cavab verdi. Peyğəmbər ρ ondan da oturmağını istədi. Peyğəmbər ρ üçüncü dəfə "Bunu kim sağa bilər?" deyə soruşdu. Bu dəfə də bir nəfər ayağa qalxdı. Peyğəmbər ρ ondan da adını soruşanda o adının "Yəiş" (yaşayır) olduğunu dedi. Peyğəmbər ρ onun dəvəni sağmasına icazə verdi".

Peyğəmbərin ρ şəxslər, məkanlar, qəbilələr və dağlar ilə bağlı çirkin mənalı adlardan qəti olaraq xoşu gəlməzdi. Hətta o, səfərlərinin birində iki dağın arasından keçəndə "bu iki dağın adı nədir?" deyə soruşdu. Cavabında ona deyildi ki, onların adı rəzalət və zillət deməkdir. Peyğəmbər ρ yolunu dəyişərək onların arasından keçmədi. O, buna çox ciddi bir şəkildə diqqət yetirərdi. Hər kim sünnətə diqqətini yönəldərsə, adlarla onların mənalarının bir bağlantısı olduğunu görəcəkdir. Sanki adlar mənalarından törəyiblər. Bunun bir örnəyi olaraq Allah Rəsulunun ρ bu sözünə diqqət yetirək: "Allah I Ğifar (bağışlanma) qəbiləsini bağışlasın. Allah I Əsləm (salamatlıq) qəbiləsinə əmin-amanlıq versin! Usayyə (asi olan) qəbiləsi isə Allah`a I asi olmuşdur".[139] O, Hüdeybiyyə sülhü günü Süheyl (asan) ibn Amr τ gələndə də belə demişdi: "İşiniz asanlaşsın".

Allah Rəsulu ρ Bureydədən τ adının mənasının nə olduğunu soruşdu. O: "Bureydə" (sərin, soyuq) – deyə cavab verdiyi zaman Əbu Bəkrə τ belə dedi: "Ey Əbu Bəkr! İşimiz sərinlədi". Sonra ondan: "Sən kimlərdənsən?" – deyə soruşdu. O: "Əsləm qəbiləsindən" – deyə cavab verdi. Allah Rəsulu ρ Əbu Bəkrə τ buyurdu: "Əmin-amanlığa qovuşduq". Sonra "hansı qolundansan?" – deyə soruşdu. O dedi: "Səhmdən (ox anlamında)". Bu zaman o buyurdu: "Sənin oxun çıxdı".

Əbu Amr özünün "İstizkər" kitabında zikr etdiyinə görə öz yozumlarında bu metoda edibar edərək belə yazır: "Yuxuda

[139] Buxari: 2/542, Müslim: 2518.

sanki, biz Uqbə ibn Rafinin evindəymişik kimi gördüm. Bizə İbn Tabın xurmalarından bir xurma gətirildi. Mən bunu gözəl aqibətin və izzətin bu dünyada bizim olacağına və dinimizin təmizliyinə yorumladım".[140]

Adların onların verildikləri məfhumlar üzərindəki təsirini bilmək istəyiriksə, o zaman Səid ibn Musəyyəbin atasından, onun da babasından rəvayət etdiyi bu hədisə diqqət edək: "O, belə demişdi: "Mən Peyğəmbərin ρ yanına getdim. O, məndən: "Adın nədir?" – deyə soruşdu. Mən: "adım Hüzndür", dedim. O: "Sənin adın Səhldir (yumşaq)" buyurdu. Atamın mənə qoyduğu adı dəyişməyəcəyimi bildirdim. Səid ibn Müseyyib dedi ki, bu sərtlik hələ də bizim aramızda davam edir". Bunu Buxari və Əbu Davud rəvayət etmişlər. Burada hüzn sərt olan mənasındadır. Buna görədir ki, "sərt torpaq" və "yumşaq torpaq" sözləri hüzn və səhl kəlmələri ilə ifadə edilmişdir.

Həmçinin İmam Malik "əl-Muvatta" kitabında Yəhya ibn Səiddən nəql etdiyi rəvayətə də diqqət yetirək; Ömər ibn Xəttab τ bir kişidən: "Sənin adın nədir?" – deyə soruşdu. Kişi "Cəmrə" (köz parçası) – deyə cavab verdi. Ömər τ soruşdu: "Kimin oğlusan?". O dedi: "Şihabın (alovun) oğluyam". Ömər τ: "Kimlərdənsən?" deyə soruşdu. Həmin şəxs: "Hərqadan" (yanğın adlı qəbilədən) – deyə cavab verdi. Ömər τ "Evin haradadır?" – deyə soruşdu. O: "Harratu`n-Nər"də (odun istiliyi adlı yer), dedi. Ömər τ: "Hansıdır?" deyə soruşdu. O dedi:

---

140 Əhməd "əl-Musnəd": 3/213-286, Müslim: 2270.

“Alovlu olanı”. Ömər τ dedi: “Ailənə yetiş! Onlar artıq yandılar”. Sonra Ömər ibn Xəttabın τ dediyi kimi də oldu.

Bu rəvayətləri anlamaq bəziləri üçün bir qədər çətin gəlir. Ancaq onlar Allah`a I həmd olsun elə də çətin deyillər. Səbəbləri yaradan bu uyğunluqlar və səbəblər həmin mənanın təsirinə toplanmış və hadisənin gerçəkləşməsi adın çəkilməsinə bağlanmışdır. Adın təsir etmə səbəbini isə insanın onu dili ilə söyləyəcəyi zamana kimi təxirə salmışdır. Hər kim onu dili ilə söyləyərsə, adın mənası ilə onun təsir etdiyi şey bir arada tamamlanaraq həyata keçir. Bu mövzuda kimin dərin bir anlayışı varsa, o, ən yüksək səviyyədə bundan faydalanar. Çünki bəla onun tələffüz edilərək dilə gətirilməsi səbəbinə də bağlı ola bilər. Əbu Ömər Peyğəmbərin ρ belə buyurduğunu nəql edir: “Bəla danışığa da bağlı ola bilər”.[141]

Sözlə hasil olan bəlaya misallardan biri də Peyğəmbərin ρ ziyarətinə getdiyi zavallı qocanın sözünə bağlı olan hadisədir. Allah Rəsulu ρ onu ziyarət etdiyin zaman onun hərarətinin qalxdığını görüb buyurdu: “Heç bir eybi yoxdur. Günahlarından təmizlikdir inşəAllah I”.[142] O, dedi: “Əksinə bu, ixtiyar

---

[141] Xatib əl-Bağdadi “Tarix” əsərində bundan daha uzun bir mətnlə Əbu Dərdadan rəvayət etmişdir. (7/389). Hədisin tam mətni belədir: “Həqiqətən də bəlanın gəlməsi danışmağa bağlıdır. Bir qul, “Vallahi mən bunu əbədiyyən etməyəcəm” dediyi zaman həmin şəxs o günahı işləyənə kimi şeytan bütün işlərini buraxır. Həmin əməli ona sevdirərək onu günaha sövq edir”. Bu hədisin sənədində Abdu`l-Malik ibn Harun ibn Əntərə vardır. Hədis alimlərinin bəziləri onu yalançı, bəziləri zəif, bəziləri isə hədis uyduran kimi tanıyır. Ona görə də yuxarıda qeyd olunan hədisi uydurma adlandırlar.

[142] Xəstəni yoluxanda edilən duanın ərəbcə tələffüzü belədir “Lə bəsə tahurun inşəAllah” (Tər.).

çağında olan qocanın bədənində od kimi yanan bir qızdırmadır ki, onu qəbirə aparsın". Allah Rəsulu ρ buyurdu: "Bəli, o zaman elə olsun".[143]

Bu hədisdə bizim üçün və həmiçinin digərləri üçün də bir ibrət vardır. Biz bu sözləri sanki dənizdə bir damcı kimi görürük. Muəmməl adlı şair demişdir:

"Gözləri ona baxdığı zaman Muəmməl eşqdən xəstə düşdü.

Kaş ki, Muəmməlin gözləri heç yaradılmayaydı".

Çox keçmədiki, onun gözləri kor oldu.

İbn Vəhbin "əl-Cəmi" kitabında rəvayət etdiyinə görə, Allah Rəsulunun ρ yanına bir oğlan uşağı gətirildi. O: "Bunun adını nə qoydunuz?" – deyə soruşdu. Dedilər ki: "Səib" (tərk edilmiş, itmiş). Allah Rəsulu ρ buyurdu: "Onu Səib adlandırmayın, lakin ona Abdullah adını verin!". Ravi deyir ki, onun adını Səib qoydular. Ağlı başından itənə kimi o dünyadan köçmədi. Beləcə o, adın məntiqi mənasını qoruyaraq Allah`ın I yardımı ilə qul üçün gözəl adları seçdi.

Həmçinin, Peyğəmbər ρ "Kim bir şeyi arzulayarsa, onun yaxşısını diləsin" – deyə əmr etmiş və demişdir: "Həqiqətən də sizlərdən biriniz etdiyi arzu-istəkdən özü üçün nə təqdir edildiyini bilməz". Yəni onun üçün təqdir edildiyi o deməkdir ki, insanın arzuladığı dilək həmin istəyinin hamısının və yaxud da bir qisminin gerçəkləşməsinə səbəbdir. Bizə arzu edənlərin arzularının hamısına və ya bir qisminə çatdıqlarına

[143] Buxari: 3616, Nəsai: 1039.

dair xəbərlər də gəlib çatmışdır. Əbu Bəkr əs-Sıddiq τ bunu aşağıdakı beytdə bu cür ifadə etmişdir:

“Dilini qoru ki, elə bir şey deyib onunla bəlaya düşərsən,

Həqiqətən də danışıq müsibətlərə bir səbəb qılınmışdır.”

“Qoru dilini söz deyib düşmə bəlaya

Çünki bəla bağlıdır bir danışmaya”.

Hüseyn τ və yoldaşları “Kərbəla”ya çatdıqları zaman o, bu yerin adı haqda soruşdu. Ona buranın adı “Kərbala”dır dedilər. O dedi: “Kərb” (dərd, qəm) və “Bəla”.

Həlimə, Abdu`l-Muttalibin yanına gəlib Allah Rəsulunun ρ süd anası olmaq istədiyini söylədiyi zaman Abdu`l-Muttalib ondan: “Sən kimsən?” – deyə soruşdu. O dedi: “Bəni Səddən bir qadınam”. “Adın nədir?” – deyə soruşanda qadın “Həlimə” – deyə cavab verdi. O zaman Abdu`l-Muttalib belə dedi: “Bəh-bəh. Səd (xoşbəxt) və Həlimə (yumşaq, həlim). Bu iki adlar dostdurlar. Zamanın zənginliyi onlardadır”.

İbn Abbas τ rəvayət edir ki: “Rum kralı Peyğəmbərin ρ yanına bir elçi göndərdi və “Bax gör o, harada oturub, yanında kim var və kürəyinin arasına diqqət et” – deyə tapşırıqlar verdi. İbn Abbas τ deyir ki, həmin şəxs gələndə Allah Rəsulu ρ hündür bir yerdə əyləşib ayaqlarını suyun içinə salladığını və sağ tərəfində də Əbu Bəkrin τ oturduğunu gördü. Peyğəmbər ρ onu gördükdə belə dedi: “Yaxınlaş və sənə əmr edilənlərə bax!”. O, Peyğəmbərin ρ kürəyində iki çiyin arasındakı olan “Peyğəmbərlik möhürünə” baxdı. Sonra da kralının yanına

qayıdaraq olanları xəbər verərək belə dedi: “Əshabı onu uca tutur və ona qarşı bir kral kimi davranırlar”. O adam Peyğəmbərin ρ hündürdə əyləşməsini “ucalığa və yüksəkliyə”, suyu isə “həyata” yozdu.

Əvanə ibn Hakəm deyir ki, Abdullah ibn Zübeyr τ insanları özünə beyət etməyə çağırdığı zaman Abdullah ibn Muti beyət etmək üçün ayağa qalxdı: “Abdullah ibn Zübeyr τ onun əlini tutdu. O, Übeydullah ibn Əli ibn Əbu Talibə “Qalx və beyət et!” dedi. Bu zaman Übeydullah dedi: “Ey Musab, qalx və beyət et!”. O da qalxaraq beyət etdi. Bunu görən insanlar dedilər: “İbn Muti beyət etməyi rədd etdi və Musaba beyət etdi. Bununla o, işlərində çətinlik tapacaq”.

Sələmə ibn Muharib deyir: “Həccac “Qürrə” deyilən yerə çatdı. Abdu`r-Rahman ibn Əşas isə “Cəmacim” (qarmaqarışıqlıq) deyilən yerə gəldi. Bu zaman Həccac dedi: “İş mənim əlimdə (mənim xeyirimə) tamamlandı. Onun işi dolaşığa düşdü. And olsun Allah`a I ki, onu öldürəcəm”.

Bu,çox faydalı bir mövzudur. Biz onu ən uyğun bir şəkildə açıqlamağa çalışdıq. Burada məqsəd isə çirkin və sevilən adları qeyd etmək idi.

**Fəsil**

İnsana qoyulması qadağan olunmuş adlardan bir qismi də Uca Rəbbin I adlarıdır. Əhəd, Saməd, Xaliq, Raziq və.s kimi Allah`a xas olan adları insanlara qoymaq caiz deyildir. Həmçinin, kralların da “Qahir” (qəhr edən), “Zahir” (zahir olan), “Cəbbar” (istədiyini zorla etdirən), “Mütəkəbbir” (təkəbbür

sahibi), “Əvvəl” (ilk olan), “Axir” (axır olan), “Batin”, “Alləmu`l-Ğuyub” (qeybləri bilən) adlandırılması caiz deyildir.

Əbu Davud “Sünən” kitabında Haninin τ belə dediyini rəvayət edir: “O, öz qövmü ilə birlikdə təmsilçi qismində Mədinəyə Allah Rəsulunun ρ yanına gələndə Allah Rəsulu ρ qövmünün onu Əbu`l-Həkəm kunyəsilə çağırdıqlarını eşitdi. Onu çağıraraq belə dedi: “Hakim Allah`dır I və hökm etmək Ona məxsusdur. Onlar səni nə üçün Əbu`l-Hakəm deyə çağırırlar?” O, cavabında belə dedi: “Qövmüm bir şeyin üzərində ixtilafa düşdükləri zaman mənim yanıma gəlirlər və mən onların arasında hökm verirəm. Hər iki tərəf də mənim verdiyim hökmə razı olurlar”. Allah Rəsulu ρ buyurdu: “Bu nə gözəldir! Sənin övladdan nəyin var?”. O dedi: “Mənim Şureyh, Məsləmə və Abdullah adında üç oğlum var”. Allah Rəsulu ρ soruşdu: “Onların ən böyüyü kimdir?” O cavab verdi: “Şureyhdir”. Allah Rəsulu ρ buyurdu: “Elə isə sən Əbu Şureyhsən”. Başqa bir hədisdə Allah Rəsulu ρ belə buyurmuşdur: “Allah`ı ən çox qəzəbləndirən adam “padşahlar padşahı” (krallar kralı) adı ilə adlandırılan adamdır”.

Əbu Davud Muttarif ibn Abdullah ibn Şuxeyrdən belə dediyini rəvayət edir: “Atam dedi: “Bəni Amir qəbiləsinin nümayəndələri ilə birlikdə Allah Rəsulunun ρ yanına getdim. Biz ona “Sən bizim ağamızsan” dedik. Allah Rəsulu ρ buyurdu: “Seyyid Allah`dır”. Biz: “Sən bizim fəzilətcə ən fəzilətlimiz və ən üstün olanımızsan” dedik. O buyurdu: “Bu sözünüzü söyləyin və yaxud da bu sözünüzün bəzisini söyləyin, ancaq

bir qismini də tərk edin ki, şeytan sizi bəzi sözlərinizlə öz yoluna sürükləməsin".[144]

Yuxarıda o cür deməsi Peyğəmbərin ρ bu sözünə zidd deyildir: "Mən Adəm övladının seyyidiyəm (ağasıyam)".[145] Çünki, bu Allah`ın I ona insanlar arasında bəxş etdiyi bir ağalıq, onların üzərində olan üstünlük və şərəfdir. Uca Rəbbin ağalıqla vəsf olunmasına gəlincə isə bu, yalnız Allah`a I xas, mütləq mənada istifadə edilən bir vəsfdir. Yəni bütün məxluqatın ağası Onun hüzürunda toplanacaqları və Onun əmrini yerinə yetirdikləri, Onun "ol" sözündən yarandıqları əl-Məlik olan Allah`dır I. Mələklər, insanlar və cinlər Uca Allah`ın I yaratdıqları və mülküdür. Buna görə də, Allah I bir göz qırpımının zamanı qədər də olsa, onlara möhtac deyildir. Onların bütün diləkləri və ehtiyacları bir tək Onadır. Beləliklə də həqiqətdə "Ağa" olan yalnız Odur.

Əli ibn Əbu Talha İbn Abbasın τ "Allahu`s-Saməd" (İxlas 2) ayəsinin təfsirində belə dediyini rəvayət edir: "Saməd sözünün mənası ağalığı mükəmməl olan bir ağa mənasındadır". Bunun məqsədi isə odur ki, heç kimə Allah`ın I Özünə xas olan isimlərini ad olaraq vermək caiz deyildir".

Ancaq həm Allah`a I, həm də başqaları ilə əlaqəli eyni adlara gəldikdə isə, o adların mənasını insanlara da ad olaraq vermək caizdir. Buna Səmi (eşidən), Bəsir (görən), Rauf (şəfqətli), Rəhim (rəhimli) kimi adlar aiddir. Lakin bu adlar

---

[144] Əbu Davud: 4900. Sənədi səhihdir.
[145] Müslim: 2278, Əbu Davud: 4673.

mütləq mənada Uca Rəbbə xas olduğu kimi, başqasına da mütləq olaraq qoyulması icazəli deyildir.[146]

**Fəsil**

Quranın ayələri və onun surələrinin adları ilə ad qoymaq da qadağan olunmuş adlar qismindəndir. Məsələn, Ta hə (Taha), Yə sin (Yasin), Həm mim (Həmim) və s. kimi adları buna misal göstrmək olar. əl-Süheyli nəql edir ki, İmam Malik "Yəsin" adını qoymağın məkruh olduğunu bildirmişdir. Ancaq, avam olanların dediyi "Yəsin və Taha Peyğəmbərin ρ adlarındandır" sözünə gəlincə, bu, doğru deyildir. Buna nə səhih, nə həsən, nə də mürsəl bir hədisdə rast gəlinməmişdir. Həmçinin səhabədən də bu barədə bir əsər qeyd olunmamışdır. Bu hərflər sadəcə əlif, ləm, mim və ha, mim vəs. hərflər kimi olan hərfdirlər.

**Fəsil**

Alimlər peyğəmbərlərin adlarının qoyulmasının məkruh olub-olmaması barəsində ixtilaf etmişlər. Bu məsələdə iki görüş vardır.

---

[146]Allahın I adları içərisində mənaları sadəcə Allaha I məxsus olan adlar insanlara qoyula bilməz. Məsələn Rahmən adının mənası rəhməti çox olan və rəhməti hər şeyi əhatə edən deməkdir. Təbii ki, insan bu sifətə sahib olmadığı üçün o adı insana vermək icazəli deyildir. Ancaq Rəhim adına gəlincə onun mənası rəhimli deməkdir. İnsan da Allahın I ona verdiyi rəhmət səbəbi ilə rəhimli ola bildiyi üçün bu adı ona vermək icazəlidir. Ancaq "mütləq məna ilə bu adı vermək olmaz" sözünə gəlincə yəni Allahın I rəhməti mütləq və kamil , insanın rəhməti isə naqis və asılı olan bir rəhmətdir kimi düşünülməlidir. (Tər.)

Bir görüşə görə, o, məkruh deyildir. Bu görüş əksəriyyətin görüşüdür və doğru olanı da budur.

İkinci görüşə görə isə bu, məkruhdur.

Əbu Bəkr ibn Əbu Şeybə kitabının "Qoyulması məkruh olan adlar" babında belə yazır: "Əbu`l-Aliyədən nəql olunduğuna görə, o, demişdir: "Siz belə etməklə şər bir əməl işləyirsiniz. Övladlarınıza peyğəmbərlərin adlarını qoyub sonra da onları lənətləyirsiniz". Bundan daha açıq rəvayət isə Əbu`l Qasim əs-Süheylinin özünün "ər-Ravd" kitabında rəvayət etdiyi görüşdür. O deyir: "Peyğəmbərlərin adlarının qoymağın məkruh olması Ömər ibn Xəttabın τ məzhəbidir".

Fikrimizcə, bu görüşdə olanların məqsədi qəzəb və s. kimi hallarda bu adları təhqirdən və çirkin xitablardan qorumaqdır. Səid ibn Müsəyyib demişdir: "Allah`a I ən sevimli olan adlar peyğəmbərlərin adlarıdır".

İbn Əbu Xeysəmənin "Tarix" kitabında nəql edildiyinə görə, Talhanın τ on uşağı var idi. Onlardan hər birinin adı peyğəmbər adı idi. Zübeyrin τ də on uşağı var idi. Onların hamısının adı isə şəhid adları idi. Talha ona "Mən övladlarıma peyğəmbərlərin adını qoyduğum halda sən öz övladlarına şəhidlərinmi adını qoyursan?" dedi. Zübeyr τ ona belə cavab verdi: "Bununla mən arzu edirəm ki, mənim övladlarım da şəhid olsunlar. Ancaq sən övladlarının peyğəmbər olmalarını arzu edə bilməzsən".

Müslimin kitabında rəvayət edildiyinə görə, Əbu Musa τ demişdir: "Mənim bir oğlum dünyaya gəldi. Onu Peyğəmbə-

rin ρ yanına gətirdim. Adını İbrahim qoydu. Daha sonra xurmanı ağzında çeynəyərək onun ağzına sürtdü".

Buxari öz kitabında "Peyğəmbərlərin adları ilə adlandırılan kəs" adlı babda belə rəvayət edir: "Bizə İbn Eymən, İbn Bəşir İsmayıldan belə dediyini rəvayət etdilər: "İbn Əbu Əvfaya dedim ki, sən Peyğəmbərin ρ oğlu İbrahimi görmüsən, o, kiçik yaşında ikən vəfat etdi. Əgər Muhəmməddən ρ sonra bir peyğəmbər göndərilməsi təqdir edilsəydi, o zaman onun oğlu yaşayardı. Lakin, ondan sonra heç bir peyğəmbər yoxdur". Sonra isə əl-Bəranın τ hədisini qeyd edir: "əl-Bəra τ demişdir: "İbrahim vəfat etdikdə Peyğəmbər ρ buyurdu: "Şübhəsiz ki, Cənnətdə onun üçün bir süd anası vardır".

Müslimdə "peyğəmbərlərin və salehlərin adlarını qoymaq" babında o, bu hədisi qeyd etmişdir: "Muğirə ibn Şubə dedi: "Nəcrana gəldiyim zaman məndən belə soruşdular: "Siz "Ey Harunun qızı" (Məryəm 28) deyə ayə oxuyursunuz. Halbuki, Musa υ İsadan υ bu və bu qədər öncə yaşamışdır". Allah Rəsulunun ρ yanına gəldiyim zaman ondan bu haqda soruşdum. O dedi: "Onlar özlərindən öncəki peyğəmbərlərin və salehlərin adlarını qoyurdular".

## Üçüncü fəsil

## Müəyyən lazımı səbəbə görə adı başqa bir adla dəyişmək

İbn Ömərdən τ rəvayət olunduğuna görə, Peyğəmbər ρ Asiyənin[147] (üsyankar) adını dəyişərək ona belə dedi: "Sən Cəmiləsən".[148]

Buxari kitabında Əbu Hüreyrədən τ rəvayət edir ki, Zeynəbin τ əsl adı Bərra idi. İnsanlar dedilər ki, o adı ilə özünü təmizə çıxarır. Allah Rəsulu ρ da ona Zeynəb adını verdi.

Əbu Davudun Səid ibn Musəyyibdən, onun atasından, onun da babasından rəvayət etdiyinə görə, Peyğəmbər ρ: "Sənin adın nədir?" – deyə sual verdi. O: "Huzn"dur (sərt) dedi. Peyğəmbər ρ buyurdu: "Sən Səhlsən" (yumşaq). O isə belə dedi: "Yox, Səhl (yumşaq adam) ayaq altı olur və alçaldılır". Səid deyir ki, artıq bundan sonra bizə sərtlik üz verəcəyini düşündüm".

Buxari və Müslimdə rəvayət olunur ki, əl-Munzir ibn Əbu Üseyd τ dünyaya gəldiyi zaman onu Allah Rəsulunun ρ yanına gətirdilər. Peyğəmbər ρ onu dizlərinin üstünə qoydu. Əbu Üseyd τ oturmuşdu. Peyğəmbər ρ əliylə bir şeylə məşğul idi. Əbu Üseyd τ əmr etdi və uşağı Peyğəmbərin ρ qucağından götürdülər. Peyğəmbər ρ buyurdu: "Uşaq haradadır?" Əbu Üseyd τ dedi: "Ey Allah`ın Elçisi ρ onu apardıq".

---

147 Bu Fironun zövcəsi Asiyanın adından fərqlənir. Söz ayn hərfi ilə başladığı üçün asi qadın deməkdir. Əlif hərfi ilə başlayan ad isə Fironun yoldaşının adıdır. Fironun yoldaşı kamil 4 qadından biridir. Salehə qadın olduğu üçün onun da adını qoymaq müstəhəbdir. (Tər.)
148 Müslim: 2139.

Peyğəmbər ρ onun adının nə olduğunu soruşdu. O: “filankəsdir” – deyə cavab verdi. Peyğəmbər ρ buyurdu: “Xeyr, onun adı Munzirdir”.

Əbu Davudun “Sünən” kitabında Usamə ibn Əxdəridən τ nəql etdiyinə görə, Allah Rəsulunun ρ yanına gələn adamların arasında “Əsram” (zay edilmiş əkin yeri) adlı bir kişi var idi. Allah Rəsulu ρ ondan: “Adın nədir?” – deyə soruşdu. O cavab verdi: “Adım Əsramdır”. Peyğəmbər ρ buyurdu: “Əksinə, sən Zürasan” (toxum əkilmiş əkin yeri).[149]

Əbu Davud bildirir: “Allah Rəsulu ρ Asi, Əziz, Utlə, Şeytan, Hikəm, Ğurab, Şihəb adlarını dəyişdirdi. O, Hubbab adını Haşim, Hərb adını Silm, Mutdaci adını Munbəis adları ilə əvəz etdi. Həmçinin əl-Afra ( yanmış, heçnə bitirməyən torpaq) adlı yeri Xadra (yaşıl torpaq) adı ilə, “Azmış xalq” adlı qəbiləni, “Hidayət olunmuş xalq” adı ilə, “Bənu zinyə” qəbiləsinin adını “Bənu ruşdə” (doğru nigahla doğulanlar) adı ilə dəyişdirmişdir. Əbu Davud, həmçinin qeyd edir ki, müxtəsər olsun deyə rəvayətlərin sənədlərini qeyd etmədim”.

Beyhaqin “əs-Sünən” kitabında Abdullah ibn Harisin belə dediyini rəvayət edir: “Mənim sahibim qəribə bir şəkildə vəfat etdi. Mən, Abdullah ibn Ömər τ və Abdullah ibn Amr ibn As τ onun qəbrinin yanında idik. Mənim adım “As” idi. İbn Ömərlə, İbn Amrın ψ da adları “As” idi. Allah Rəsulu ρ bizə belə buyurdu: “Qəbirə enin və onu basdırın. Siz hamınız Abdullahsınız”. Biz qəbirə endik və qardaşımızı dəfn etdik. Qə-

---

[149] Əbu Davud: 4953. İsnadı səhihdir.

birdən çıxdığımız zaman artıq adlarımız dəyişdirilmişdi".[150] Bu hədisin isnadı əl-Leysə çatmaqla yaxşıdır. Ancaq rəvayətdə olanları anlaya bilmədim. Çünki, Abdullah ibn Ömər və Abdullah ibn Amrın ψ adları "As" deyə bilinmir.

İbn Əbu Şeybə "əl-Musannəf" kitabında Şəbinin belə dediyini rəvayət etmişdir: "Qureyşlilərin arasından adları "As" olan kəslərdən İslamı Mutidən başqa heç kim qəbul etməmişdir. Onun adı öncədən "As" (üsyankar) idi. Sonra Allah Rəsulu ρ onu "Muti" (itaətkar) olaraq adlandırmışdı".[151]

Əbu Bəkr ibnu`l-Munzir demişdir: "Əlidən τ rəvayət olunduğuna görə, o belə demişdir: "Həsən τ dünyaya gəldiyi zaman mən onun adını "Hərb" qoydum. Peyğəmbər ρ gəldi və buyurdu: "Oğlumu mənə göstərin! Onun adını nə qoydunuz?" Biz onun adını "Hərb" qoyduğumuzu dedik. O buyurdu: "Əksinə, o, Həsəndir τ". Hüseyn τ dünyaya gələndə də onun adını "Hərb" qoydum. Peyğəmbər ρ gəldi və buyurdu: "Oğlumu mənə göstərin! Onun adını nə qoydunuz?". Biz dedik ki, onun adı "Hərb"dir. O, belə buyurdu: "Əksinə, o Hüseyndir τ". Üçüncü övladım dünyaya gəldiyi zaman onun da adını "Hərb" qoydum. Peyğəmbər ρ gəldi və buyurdu: "Oğlumu mənə göstərin! Onun adını nə qoydunuz?" Biz dedik ki, onun adı "Hərb"dir. O, buyurdu: "Əksinə, o Muhsindir". Sonra belə buyurdu: "Həqiqətən, mən onları Harunun

---

150 Hədisin isnadı səhihdir.

151 Hədis mürsəldir. Şəbi tabiindir.

övladlarının adları – Şəbbar, Şəbir, Muşəbbir ilə adlandırdım”.[152]

İbn Əbu Şeybə “əl-Musannəf” kitabında Xeysəmədən belə dediyini rəvayət edir: “Cahiliyyə dövründə mənim atamın adı “Əziz” idi. Allah Rəsulu ρ ona “Abdu`r-Rahman” adını verdi”.[153]

Buxari “Ədəbu`l-Mufrad” kitabında İbn Abdu`r-Rahman ibn Səid əl-Məxzumidən rəvayət edir ki, onun adı “əs-Sarm” (budanmış) idi. Sonra Allah Rəsulu ρ ona “Səid” (xoşbəxt) adını verdi.

Muslimin qızı Raita atasından belə dediyini rəvayət edir: “Allah Rəsulu ρ ilə birlikdə “Huneyn” döyüşünə qatıldım. O məndən “Sənin adın nədir?” – deyə soruşdu. Mən adımın “Ğurab” olduğunu dedim O buyurdu: “Əksinə, sən Muslimsən”.[154]

**Fəsil**

Adın dəyişdirilməsinə onun çirkinliyi yaxud məkruhluğu səbəb olduğu kimi, həm də ad gözəl olsa belə onu müəyyən bir məsləhət üçün dəyişmək də lazım gəlir. “Bərra” adının özünü təmizliyə çıxarmağa səbəb olmasın deyə “Zeynəb” adı ilə dəyişdirilməsini buna misal göstərmək olar. Hədisdə qeyd olunduğu kimi “Bərranın yanından çıxdı”, yaxud “Bərranın yanında idin” deyildiyində o, “xeyr” deyə cavab verməsin deyə bu dəyişiklik olmuşdur.

---

[152] İmam Əhməd “əl-Musnəd”. İsnadı səhihdir.

[153] Hədisi rəvayət edən ravilər siqadır (inanılan ravilərdir).

[154] Buxari “Ədəbu`l-Mufrad”: 824, Əbu Davud: 4956. Hakim hədisin səhih olduğunu demiş, Zəhəbi də bununla razılaşmışdır.

## Fəsil

Peyğəmbər ρ Mədinənin adını dəyişmişdi. Öncədən oranın adı "Yəsrib" idi və o, oranın adını dəyişərək "Tabə" qoydu. Buxari və Müslimdə rəvayət olunduğuna görə, Əbu Hümeyd τ demişdir: "Biz Allah Rəsulu ilə ρ birlikdə Təbukdan qayıdarkən Mədinəyə gəlib çatdıq. O, buyurdu: "Bura Tabədir".[155]

Müslim Cabir ibn Səmuradan belə dediyini rəvayət edir: "Allah Rəsulunun ρ belə buyurduğunu eşitdim: "Həqiqətən də Allah I Mədinəni "Tabə" adlandırmışdır".

Mədinəyə "Yəsrib" demək şiddətli bir şəkildə məkruhdur. Allah I ancaq münafiqlərin dilindən ona "Yəsrib" deyildiyini bizə xəbər vermişdir. Allah I buyurur:

وَإِذۡ يَقُولُ ٱلۡمُنَٰفِقُونَ وَٱلَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٞ مَّا وَعَدَنَا ٱللَّهُ
وَرَسُولُهُۥٓ إِلَّا غُرُورٗا ١٢ وَإِذۡ قَالَت طَّآئِفَةٞ مِّنۡهُمۡ يَٰٓأَهۡلَ يَثۡرِبَ
لَا مُقَامَ لَكُمۡ فَٱرۡجِعُواْۚ وَيَسۡتَـٔۡذِنُ فَرِيقٞ مِّنۡهُمُ ٱلنَّبِيَّ يَقُولُونَ إِنَّ
بُيُوتَنَا عَوۡرَةٞ وَمَا هِيَ بِعَوۡرَةٍۖ إِن يُرِيدُونَ إِلَّا فِرَارٗا ١٣

**"O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: "Allah və Onun Elçisi bizə ancaq yalan vədə vermişdir" deyirdilər. Onlardan bir dəstə demişdi: "Ey Yəsrib əhli! Siz müqavimət göstərə bilməyəcəksiniz. Geri qayıdın!". İçərilərindən bir qismi isə: "Evlərimiz nəzarətsiz qalıb" deyərək Peyğəmbərdən izin istəyirdilər. Halbuki, evləri nəzarətsiz**

[155] Buxari: 1481, Müslim: 1392.

**deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər”.** (Əhzab 12-13)

Nəsainin “Sünən” kitabında Əbu Hüreyrənin τ belə dediyi rəvayət olunur: “Allah Rəsulu ρ belə buyurduğunu eşitdim: “Mənə başqa şəhərləri üstələyən bir şəhərə hicrət etmək əmr olundu. Ona Yəsrib deyirlər, ancaq o “Mədinədir”. Körük dəmirin pasını tökdüyü kimi, Mədinə də pis adamları özündən uzaqlaşdırır”.[156]

## Dördüncü fəsil

### Uşağa “Əbu Filan” deyə kunyə qoymağın caiz olması

Buxari və Müslim Ənəs ibn Malikdən τ belə dediyini rəvayət etmişdir: “Peyğəmbər ρ əxlaq baxımından insanların ən üstünü idi. Mənim “Əbu Umeyr” deyilən bir qardaşım var idi. Peyğəmbər ρ gələndə ona belə deyərdi: “Ey Əbu Umeyr! Nə etdi ən-Nuğeyr (kiçik bülbül)?”. O, bu bülbül ilə oynayırdı”. Ravi deyir: “Zənn edirəm ki, o uşaq süddən yeni kəsilmişdi”.[157]

Ənəsin τ övladı olmamışdan öncə ona Əbu Həmzə kunyəsi verilmişdi. Əbu Hüreyrə τ də eyni kunyə ilə adlanmışdır. Həmin vaxt hələ onun övladı yox idi. Peyğəmbər ρ Aişəyə ﻟ Ummu Abdullah kunyəsini götürməyə izin vermişdi. Bu, Abdullah ibn Zubeyrin τ adıdır. O isə Aişənin ﻟ bacısı olan Əsma bint Əbu Bəkrin ψ oğludur. Səhih olan da budur. Yoxsa

---

[156] Bu hədisi, həmçinin Buxari: 1871 və Müslim: 1382 də rəvayət etmişlər.
[157] Buxari: 6129, Müslim: 2150, Əhməd “əl-Musnəd”, Əbu Davud, Tirmizi.

Aişənin ℊ Peyğəmbərdən ρ hamilə olub uşaq düşürdüyünü ifadə edən və Peyğəmbərin ρ də onu "Abdullah" adlandırıb, Aişəyə ℊ də bu kunyəni verməsi haqqında olan hədis səhih deyildir.

Övladları olan bir insanın övladlarının adından başqa bir ad ilə kunyə götürməsi də caizdir. Əbu Bəkrin τ "Bəkr" adında oğlu yox idi. Həmçinin nə Ömərin τ "Hafs" adında, nə də Əbu Zərin τ "Zər" adında oğlu yox idi. Xalidin τ də "Süleyman" adlı bir oğlu yox idi. Ona da "Əbu Süleyman" deyə kunyə verilmişdi. Əbu Sələmə τ də belə idi. Bu kimi hallar sayıla biləcəyindən də çoxdur. Kunyə almağın caiz olması üçün övlada sahib olmaq və bu uşağın adı ilə kunyə götürmək şərt deyildir. Ən doğrusunu isə Allah I bilir. Kunyə götürmək onu götürən şəxs üçün bir hörmət və ona ehtiramın əlamətidir. Şair demişdir:

"Ona hörmət olsun deyə kunyəsi ilə səsləyirəm.

Heç bir zaman da mən ona pis bir ləqəb verməzəm."

**Beşinci fəsil**

**Uşağa ad vermək ananın deyil, atanın haqqıdır**

Bu, insanlar arasında üzərində heç bir ixtilaf edilməyən məsələdir. Əgər valideynlər uşağa ad qoymaq barədə mübahisə etsələr, o zaman bu haqq atanındır. Öncədən qeyd olunan hədislərin hamısı da buna dəlalət edir. Bu ona görədir ki, övlad anasının deyil, atasının adı ilə çağrılır. Ona "Filanın oğlu filandır" deyilir. Allah I buyurur:

ٱدۡعُوهُمۡ لِأٓبَآئِهِمۡ هُوَ أَقۡسَطُ عِندَ ٱللَّهِۚ

**Onları öz atalarının adları ilə çağırın. Bu Allah qatında da ədalətlidir.** (Əhzab 5)

Uşaq azad yaxud kölə olmasında anasına, soy və adında isə atasına tabe olur. Ad vermək soy və mənsubiyyətin bildirilməsidir. Dinində isə o, valideynlərindən dini ən xeyirli olana tabe olur. Uşağın təlim-tərbiyəsi və əqiqinin kəsilməsi anaya deyil, ataya aiddir. Peyğəmbər ρ buyurmuşdur: "Bu gecə mənim bir oğlum dünyaya gəldi. Mən onu atamın adı ilə "İbrahim" deyə adlandırdım". Kişinin öz oğluna ad qoyması, onun köləsinə ad verməsi kimidir.

## Altıncı fəsil

### Ad, kunyə və ləqəb arasında olan fərqlər

Bunların üçü də tanınan şəxsin tanıdılmasında müştərək olsalar da, başqa bir şeyə görə fərqlənirlər. Ad ilə ya tərif etmə, ya da qınama (alçaltma) anlaşılır, yaxud da bu ikisindən heç biri başa düşülmür. Əgər deyildiyi zaman ondan qınama (alçaltma) başa düşülərsə, o zaman bu, ləqəb olur. Ləqəblər çox vaxt zəmm etmə (alçaltma) əsnasında işlədilir. Uca Allah I buyurur:

وَلَا تَنَابَزُواْ بِٱلۡأَلۡقَٰبِۖ

**Bir-birinizi pis ləqəblərlə çağırmayın...** (Hucurat 11)

İnsanı onun xoşlamadığı bir ləqəblə çağırmağın haram olmasında ixtilaf yoxdur. Fərq etməz istər o şey onda olsun, istərsə də olmasın. Ancaq bu ləqəblə tanınarsa və məşhur olarsa, o zaman keçmişdəki və müasir alimlərin dilində bu adların istifadə olunması zəruriyyət yaradır. əl-Əamaş (gözü tutulan),

əl-Əştər (göz qapağının gözü örtməsi ilə gözü görməyən), əl-Əsam (kar), əl-Əarac (topal) və s. kimi adlar buna misal ola bilər.

Əbu Davud özünün "əl-Məsəil" kitabında yazır: "Eşitdim ki, Əhməd ibn Hənbələ ləqəbi olan və o ləqəblə tanınan, bu cür çağrıldığı zaman isə acığı tutmayan bir kişi haqqında sual verdilər. O dedi: "Kor (Əamaş) Süleyman, Uzun Humeyd deyilmirmi?". Belə deməklə sanki, o,bunda bir problem görmürdü.

Əbu Davud deyir: "İmam Əhmədə bu haqda başqa bir dəfə də sual verdim. O, buna rüsxət verdi".

Fikrimizcə, İmam Əhməd Əamaş (kor) deyilməsini məkruh görürdü. Fudeyl demişdir: "Onun Süleyman dediyini iddia edirlər. Bu, istər tərif mənasında, istərsə də zəmm etmə mənasında olsun, fərq etmir".

Əgər adın qarşısında "Əbu" və "Ummu" sözləri varsa, bu zaman o kunyə olur – Əbu Filan və Ummu Filan. Bu cür olmadıqda isə artıq ad olur. Məsələn Zeyd və Amr kimi. Ərəblərin bildiyi və istifadə etdiyi müraciət formaları bu cür olmuşdur. Ancaq "İzzu`d-Din", "İzzu`d-Dövlə" və s. kimi adlara gəldikdə isə ərəblərə bu kimi adlar tanış deyildi. Bu, onların dilinə qeyri-ərəblər (əcəmlər) tərəfindən gətirilmişdir.

## Yeddinci fəsil

**Peyğəmbərimizin ρ adını qoymağın, onun kunyəsini götürməyin və yaxud ayrı-ayrılıqda və birlikdə onlardan istifadə etməyin hökmü**

Buxari və Müslimdə Əbu Hüreyrədən τ belə dediyi rəvayət olunur: "Əbu`l-Qasim ρ buyurmuşdur: "Mənim adımı qoyun. Ancaq kunyəmi götürməyin!".

Buxari kitabında Peyğəmbərin ρ "Mənim adımı qoyun. Ancaq kunyəmi götürməyin!" sözü haqqında olan babı Ənəsin τ Peyğəmbərdən ρ rəvayəti ilə nəql etmişdir.

Cabirdən τ belə dediyi rəvayət olunur: "Bizdən bir nəfərin oğlu dünyaya gəldi. O, uşağın adını "Qasim" qoydu. Bu zaman ona dedilər ki, Peyğəmbərdən ρ bu barədə soruşana kimi ona bu cür kunyə vermə! Peyğəmbər ρ buyurdu: "Mənim adımı qoyun. Ancaq kunyəmi götürməyin!".[158]

İbn Munkədir demişdir: "Cabir ibn Abdullahın τ belə dediyini eşitdim: "Bizdən birinin övladı dünyaya gəldi. O, uşağın adını Qasim qoydu. Biz ona dedik: "Biz səni nə Əbu`l-Qasim deyə kunyə ilə çağıracağıq, nə də sənə göz aydınlığı verəcəyik". O, Peyğəmbərin ρ yanına gələrək olanları ona xəbər verdi. Peyğəmbər ρ buyurdu: "Oğlunun adı Abdu`r-Rahmandır".

Müslim Cabir ibn Abdullahdan τ belə dediyini rəvayət edir: "Bizdən birinin övladı dünyaya gəldi. Onun adını Muhəmməd qoydu. Qövmü ona "Sənin Allah Rəsulunun ρ adını qoymağına imkan vermərik" dedi. O da uşağı qucağına alıb onu Allah Rəsulunun ρ yanına gətirdi və dedi: "Ey Allah`ın

---

[158] Buxari: 6187.

Rəsulu! Mənim bir uşağım dünyaya gəldi. Mən də adını Muhəmməd qoydum. Qövmüm isə mənə "Sənin ona Allah Rəsulunun ρ adını verməyinə imkan vermərik" dedi. Allah Rəsulu ρ buyurdu: "Mənim adımı qoyun! Ancaq, mənim kunyəmi götürməyin. Çünki, Qasim (bölüşdürən) ancaq mənəm, sizin aranızda bölüşdürürəm".[159]

Muslimin Ənəsdən τ belə dediyini rəvayət etmişdir: "Allah Rəsulu ρ Baqi qəbiristanlığında olarkən bir kişi digərini "Ey Əbu`l-Qasim" – deyə çağırdı. Allah Rəsulu ρ ona tərəf çönüb baxdı. Bu zaman o dedi ki: "Ey Allah`ın Rəsulu! Mən səni qəsd etmədim. Mən filan adamı çağırdım. Allah Rəsulu ρ buyurdu: "Mənim adımı qoyun, ancaq mənim kunyəmi götürməyin".[160]

Elm əhli Peyğəmbərin ρ adını qoymağın caiz olması ilə bağlı icma etdikdən sonra bu babda ixtilaf ediblər. Bu barədə İmam Əhməddən iki rəvayət vardır. Bunlardan birincisi Peyğəmbərin ρ adı ilə kunyəsini bir yerdə qoymağın məkruh olması yönündədir. Ancaq adı və kunyəsi eyni anda bir adama verilməzsə, bu məkruh deyildir. İkinci görüş isə istər adı ilə bir yerdə olsun, istərsə də tək olsun onun kunyəsini götürməyin mütləq olaraq məkruh olması yönündədir.

Beyhaqi Rabi ibn Süleymanın belə dediyini bildirir: "Şafiinin belə dediyini eşitdim: "Heç bir kəsə "Əbu`l-Qasim" kunyəsini götürmək halal deyildir. Onun adı istər Muhəmməd olsun, istərsə də başqa ad olsun". Onun dediyi bu söz eyni

---

159 Müslim: 2133.

160 Müslim: 2131.

mənası ilə Tavusdan da rəvayət edilmişdir. əs-Suheyli demişdir: "İbn Sirin bir kəsin "Əbu`l-Qasim" deyə kunyə götürməsini məkruh görürdü. Onun adı istər Muhəmməd olsun, istərsə də olmasın".

Bir qrup alim  deyir ki, bu qadağa məsələnin haram deyil məkruh olmasını göstərir.

Vəkii, İbn Avnın belə dediyini rəvayət edir: "Muhəmməddən: "Bir adamın adı Muhəmməd olmasa belə onun Əbu`l-Qasim kunyəsini götürməsi məkruhdurmu?" – deyə soruşdum. O, dedi: "Bəli".

Süfyan bu barədə qadağa edən və izin verən hədisləri bir yerə cəm edərək bu qadağanın məkruh olduğu qərarına gəlmişdir.

Digər bir qrup alim isə demişdir: "Əksinə, bu mubahdır. Qadağa ifadə edən hədislər isə mənsuxdur (hökmü qaldırılmışdır). Aişədən G belə dediyi rəvayət edilmişdir: "Bir qadın Peyğəmbərin ρ yanına gələrək belə dedi: "Ey Allah`ın Rəsulu! Mən bir oğlan dünyaya gətirdim. Onun adını Muhəmməd, kunyəsini isə Əbu`l-Qasim qoydum. Mənə sənin bundan xoşunun gəlmədiyini dedilər. Peyğəmbər ρ buyurdu: "Mənim adımı qoymağı halal, kunyəmi qoymağı isə haram edən nədir?". Digər bir rəvayətdə isə onun belə buyurduğu bildirilir: "Mənim kunyəmi qoymağı haram, adımı isə halal edən nədir?"[161]

---

[161] Əbu Davud: 4968. Zəhəbi "əl-Mizan" kitabında hədisin ravisinin tərcümeyi-halı haqqında demişdir: "Muhəmməd ibn İmran əl-Həcəibinin munkər hədisləri vardır. Onun haqqında cərh (adına xələl gətirən) və tadil (əda-

İbn Əbu Şeybə demişdir: “İbrahimdən belə dediyi rəvayət olunur: “Muhəmməd ibn əl-Əşas Aişənin ɡ bacısı oğlu idi. Ona Əbu`l-Qasim kunyəsi verilmişdi. İbn Əbu Xaysəmə Rəşid ibn Hafsın belə dediyini rəvayət edir: “Allah Rəsulunun ρ səhabələrinin övladlarından dördünü gördüm. Onlardan hər birinin adı Muhəmməd, kunyələri isə Əbu`l-Qasim idi. Bu dörd şəxsin adları belədir: “Muhəmməd ibn Talha bin Übeydullah, Muhəmməd ibn Əbu Bəkr, Muhəmməd ibn Əli ibn Əbu Talib və Muhəmməd ibn Sad ibn Əbu Vaqqas”.

İbrahimdən belə dediyi rəvayət olunur: “Muhəmməd ibn Əliyə Əbu`l-Qasim kunyəsi verilmişdi. Muhəmməd ibn əl-Əşas da eyni kunyəni daşıyırdı və o, Aişənin ɡ yanına gedirdi. Aişə ɡ isə bunu inkar etməmişdir”.

əs-Suheyli demişdir: “Malikdən adı Muhəmməd olan bir adama Əbu`l-Qasim kunyəsi verilməsi haqqında soruşuldu. O, bunda bir problem görmədi. Ona deyildi: “Sənin oğlunun adı Muhəmməd olduğu halda ona Əbu`l-Qasim kunyəsini sən vermisənmi?”. O dedi: “Xeyr, Əbu`l-Qasim kunyəsini mən verməmişəm. Lakin öz ailəsi onu bu kunyə ilə çağırır. Mən bu barədə bir qadağa eşitməmişəm, bunda da bir qəbahət görmürəm”.

Başqa bir qrup alimin görüşünə görə isə kunyə ilə adı bir yerdə qoymaq caiz deyildir. İkisindən birini tək olaraq qoymaq icazəlidir. Bu firqə öz iddiasına Əbu Davudun “Sünən” kitabında Cabirdən τ rəvayət etdiyi bu hədisi dəlil gətirmişdir: “Peyğəmbər ρ buyurdu: “Kim mənim adımı götürərsə,

lətli olmağı, hədisi götürülən) olaraq birşey görmədim. Sonra da hədisi qeyd etmişdir.

kunyəmi götürməsin. Kim də mənim kunyəmi götürərsə, o zaman da adımı qoymasın”. [162]

Əbu Bəkr ibn Əbu Şeybə Abdu`r-Rahmən ibn Əbu Umradan, o da əmisindən Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət edir: “Mənim adımla kunyəmi bir yerdə qoymayın”.[163]

İbn Əbu Xaysəmə demişdir: “Muhəmməd ibn Talha dünyaya gəldiyi zaman Talha τ Peyğəmbərin ρ yanına gələrək dedi: “Onun adı Muhəmməddir. Ona Əbu`l-Qasim kunyəsi verə bilərəmmi? Peyğəmbər ρ buyurdu: “Hər ikisini ona bir yerdə qoymayın! O, Əbu Süleymandır”.

Başqa bir qrup alim isə bildirir ki, bu barədə mövcud olan qadağa Allah Rəsulunun ρ həyatda olduğu zamana aid idi. Onun qadağası müəyyən bir səbəbə bağlı idi. Bu da bir şəxs digərini çağırdığı zaman Peyğəmbərin ρ onu çağrdığını zənn etməsidir. Bu firqə öz görüşünə Əbu Davudun “Sünən”ində Muhəmməd əl-Hənəfiyyədən rəvayət olunan hədislə dəlil gətirir. O, Əlinin τ belə dediyini rəvayət edir: “Ey Alah`ın Rəsulu! Səndən sonra əgər mənim övladım olarsa, onun adını sənin adınla, kunyəsini də sənin kunyənlə qoya bilərəmmi?” Peyğəmbər ρ buyurdu: “Bəli”.[164]

Humeyd ibn Zəncəveyh “Kitabu`l-Ədəb”də demişdir: “İbn Əbu Uveysdən soruşdum ki, Malik Peyğəmbərin ρ adı ilə

---

[162] Əbu Davud: 4966. Bu hədisdə ravilərdən biri tədlisçidir (yəni hədisə gizli yalanlar qatan). Hədis müxtəlif kitablarda müxtəlif yollarla və mətnlərlə rəvayət olunmuşdur. Ancaq hamısında da ixtilaflı məsələlər vardır.
[163] Əhməd “əl-Musnəd”.Hədis səhihdir.
[164] Əbu Davud: 4967, Tirmizi: 2846. İstinadı səhihdir.

kunyəsini bir yerdə qoymağın hökmü barəsində nə deyirdi? Bu zaman o, bizimlə birlikdə oturan bir qocaya işarə etdi və dedi: “Bu, Malikin oğlu Muhəmməddir. Atası onun adını Muhəmməd, kunyəsini də Əbu`l-Qasim qoyub. O belə deyərdi: “Bu, ancaq onun adı və kunyəsi ilə çağırılmağın və Peyğəmbərin ρ də dönüb baxmağının xoş bir şey olmamasına görə, Peyğəmbər ρ həyatda ikən qadağan edilmişdir. Bu gün isə bunda heç bir qəbahət yoxdur”.

Humeyd ibn Zəncuveyh demişdir: “Bir kəsin, yalnız Peyğəmbər ρ həyatda ikən onun kunyəsi ilə çağırılması məkruhdur. Adı ilə çağırılmaq isə istənilən halda məkruh deyildir. Çünki az qala onu heç kim adı ilə çağırmırdı. Vəfat etdikdən sonra isə bu hökm qalxdı. Məgər görmədinmi Peyğəmbər ρ özü Əliyə τ əgər onun vəfatından sonra bir oğlu olarsa, onun adı ilə kunyəsini bir yerdə qoymağa izin verdi? Səhabələrin oğlanlarının adları arasında adı və kunyəsi onun adı və kunyəsi ilə eyni olanlar da vardır. Onlardan Muhəmməd ibn Əbu Bəkr, Muhəmməd ibn Cəfər ibn Əbu Talib, Muhəmməd ibn Səd ibn Əbu Vəqqas, Muhəmməd ibn Hatib və Muhəmməd ibn Munzir kimilərini misal vermək olar”.

İbn Əbu Xaysəmə “Tarix” kitabında yazır: “İbn Hənəfiyyənin rəvayət etdiyinə görə, Allah Rəsulu ρ Əliyə τ belə demişdir: “Məndən sonra sənin bir oğlun olacaqdır. Ona mənim adımı və mənim kunyəmi qoy”. Bu, Allah Rəsulu ρ tərəfindən Əliyə τ verilmiş bir rüsxət idi.[165]

[165] İsnadı həsəndir.

Onun məkruh olmağının üç illəti (səbəbi)vardır:

Birincisi, adın mənasını ona layiq olan insandan başqasına vermək. Peyğəmbər ρ özü bu sözü ilə həmin illətə (səbəbə) işarə etmişdir: “Mən Qasiməm (bölüşdürən). Sizin aranızda bölüşdürürəm”. O, Rəbbinin ona əmr etdiyi tərzdə qənimətləri onların arasında bölüşdürürdü. Peyğəmbər ρ istədiyinə bölüşdürüb verən, istədiyini isə məhrum buraxan padşahlar kimi deyildi.

İkincisi, müraciət və çağırılma əsnasında adların qarışdırılması qorxusu. Peyğəmbər ρ öncədən qeyd olunan Ənəs τ hədisində bu illətə də işarə etmişdir. O, çağıran kəsə dönüb baxdığı zaman həmin şəxs dedi: “Səni nəzərdə tutmadım”. Bundan sonra isə Allah Rəsulu ρ buyurdu: “Mənim adımı qoyun, ancaq kunyəmi götürməyin!”.

Üçüncüsü isə budur ki, kunyə ilə adın bir yerdə qoyulması adla kunyənin bir-birinə qarışıb onlardan qəsd edilən məsləhətin mənasının itməsinə gətirib çıxarır. Peyğəmbər ρ öz üzüyünə nəqş etdirdiyi ismini başqa bir kəsin öz üzüyünə nəqş etdirməsini də eynilə qadağan etmişdir.

Birinci illətə əsaslanan görüşdə bir insana Peyğəmbərin ρ həm sağlığında, həm də vəfatından sonra onun kunyəsini götürmək qadağandır. İkinci illətə əsaslanan görüşə görə, qadağa ancaq onun həyatda olduğu zamana məxsusdur. Üçüncü illətə əsaslanan görüşə görə isə, qadağa ancaq adla kunyəni ayrı-ayrı yox ikisinin bir yerdə qoyulduğu zaman tətbiq olunur. Bu babdakı bütün hədislər bu üç mənanı özündə əhatə etməkdədir. Ən doğrusunu Allah I bilir.

## Səkkizinci fəsil

### Birdən çox ad qoymağın caiz olması

Ad qoymaqda əsas məqsəd tanıtmaq və fərqləndirmək olduğu üçün bir ad insan üçün yetərlidir. Hətta, bir adla kifayətlənmək daha üstündür. Ad, ləqəb və kunyə qoyulmasında olduğu kimi birdən çox ada sahib olmaq da caizdir. Lakin Uca Rəbbin I, Onun kitabının və Rəsulunun ρ adlarına gəlincə bunlar vəsf etməyə, mədhə və tərifə dəlalət etdikləri üçün bu babdan deyillər. Əksinə bu adların çoxluğu adlandırılanın şərəf və üstünlüyünü ifadə etmək yönündəndir. Allah I buyurur:

وَلِلَّهِ ٱلۡأَسۡمَآءُ ٱلۡحُسۡنَىٰ فَٱدۡعُوهُ بِهَا

**Ən gözəl adlar Allah`ındır. Ona bu adlar vasitəsi ilə dua edin....** (Əraf 180)

Buxari və Müslimin Cübeyr ibn Mutimdən τ rəvayət etdikləri hədisdə deyilir: "Allah Rəsulu ρ buyurdu: "Mənim beş adım vardır. Mən Muhəmmədəm, mən Əhmədəm, mən Allah`ın I onunla küfrü məhv etdiyi Mahiyəm, mən insanların iki ayağımın altından həşr olunacaqları Haşirəm, mən özündən sonra heç bir Peyğəmbərin gəlməyəcəyi Aqibəm".

İmam Əhməd Hüzeyfənin τ belə dediyini rəvayət edir: "Allah Rəsulunun ρ belə buyurduğunu eşitdim: "Mən Muhəmmədəm. Mən Əhmədəm. Mən Rəhmət Peyğəmbəriyəm (Nəbiyyu`r-Rahmə). Mən tövbə Peyğəmbəriyəm (Nəbiyyu`t-Təubə). Mən Haşirəm. Mən Muqaffiyəm (bütün Peyğəmbərlə-

rin sonuncusu). Mən savaşlar Peyğəmbəriyəm (Nəbiyyu`l-Mələhim)".[166]

İmam Əhməd demişdir: "Əbu Musa τ deyir ki, Allah Rəsulu ρ öz adlarını bizə saydı. O adlardan bizim yadda saxladığımız adlar da var, unutduğumuz adlar da. O, belə buyurdu: "Mən Muhəmmədəm. Mən Əhmədəm. Mən Muqaffiyəm. Mən Haşirəm. Mən tövbə Peyğəmbəriyəm. Mən savaş Peyğəmbəriyəm".[167]

Əbu`l-Hüseyn ibn Faris Allah Rəsulunun ρ iyirmi üç adının olduğunu qeyd etmişdir: "Muhəmməd, Əhməd, Mahi, Aqib, Muqaffi, Nəbiyyu`r-Rahmə, Nəbiyyu`t-Təubə, Nəbiyyu`l-Mələhim, Şahid (şahid olan), Mubəşşir (müjdələyən), Nəzir (xəbərdar edən), Dahuk (möminlərə təbəssüm edən), Qattəl (kafirlərə, şirkə, küfrə qarşı çox savaşan), Mutəvəkkil (Allah`a təvəkkül edən), Fatih (fəth edən), Əmin (inanılan sadiq olan), Xatim (Peyğəmbərliyi tamamlayan), Mustafa (seçilən), Rəsul (elçi), Nəbi (xəbər verən Peyğəmbər), Ummi (yazıb oxuya bilməyən), Qasim (bölüşdürən), Haşir".

## Doqquzuncu fəsil

### Ad ilə ad qoyulan arasında olan məna bağlantısının açıqlaması

Buna dəlalət edən açıqlamalar artıq bir neçə yöndən qeyd olunmuşdur. Onlardan biri Səid ibn əl-Museyyibin sözüdür. O deyir ki, bu sərtlik bizdə hələ də davam etməkdədir. Bunun səbəbi onun babasının adının "Huzn" (sərt yer) olaraq qalması

[166] İmam Əhməd: 4/405. İsnadı həsəndir. Hədisi dəstəkləyən başqa rəvayətlər də mövcuddur.
[167] İmam Əhməd: 4/385, Müslim: 2355.

idi (o adı Peyğəmbərin ρ tövsiyəsinə baxmayaraq dəyişməməsi idi).

Ömərin τ Cəmra ibn Şihaba dediyi "Ailənə yetiş! Onlar artıq yandılar" sözünü də sizə təqdim etmişdik:.

Bildirdiyimiz kimi, Peyğəmbər ρ adı Hərb və Murrə olan şəxslərə dəvəni sağmağa icazə verməmişdi. Bu mənada olan rəvayətlər çoxdur. Yalnız nadir hallarda görmək olar ki, pis adı olan biri çirkin olmasın. Şeirlərin birində deyilir:

Az hallarda görməz gözün ləqəbi olan adamı,

ki, adının mənası ilə sən təsvir edəsən onu.

Allah I qəza və qədərində olan hikməti ilə, nəfslərə layiq olan adlar verməyi ilham edir. Səbəblər və onları ortaya çıxaran hadisələr arasında əlaqə olduğu kimi ad və adlandırılan arasındakı uyğunluq da Onun Hikmətindən xəbər verən bir amildir.

Əbu`l-Fəth ibn Cəni demişdir: "Mən bir ad eşidirəm və mənasını bilmirəm. Bunun üzərindən müəyyən bir müddət keçdikdən sonra onun mənasını həmin sözdən çıxarıram. O kəs ya tamamilə eyni bu mənada, ya da buna yaxın bir mənada özünü göstərir".

Mən bunu Şeyxu`l-İslam İbn Teymiyyədən soruşdum. O dedi ki, belə hallarla o da tez-tez qarşılaşır.

Bundan öncə Allah Rasulunun ρ buna bənzər sözünü təqdim etmişdik. Orada deyilirdi: "Allah I Ğifar (bağışlanma) qəbiləsini bağışlasın. Allah I Əsləm (salamatlıq) qəbiləsinə

əmin-amanlıq versin! Asiyyə (asi olan) qəbiləsi isə Allah`a I asi olmuşdur”.

Həmzənin τ qatili olan Vəhşi İslamı qəbul etdikdə Peyğəmbərin ρ qarşısında dayandı. Peyğəmbər ρ onun adınından və əməlindən[168] xoşu gəlmədiyi üçün ona belə buyurdu: “Üzünü məndən gizli tut!”.

Bir sözlə pis əxlaq, çirkin əməllər özünə uyğun bir adla adlandırıldığı kimi, onun əksi də özünə uyğun mənaya müvafiq olur. Bu, vəsf bildirən isimlərdə olduğu kimi xüsusi isimlərdə də belədir. Allah Rəsulu ρ yalnız onda adına layiq həmd və şükür xüsusiyyətlərinin çox olmasına görə Muhəmməd və Əhməd adlandırılmışdır. Buna görə də həmd bayrağı onun əlindədir. Onun ümməti də çoxca həmd edənlər sifətinə layiq görülmüşdür. O, yaradılmışlar içərisində Uca Rəbbinə ən çox həmd edəndir. Buna görə də Allah Rəsulu ρ ümmətinə gözəl adlar qoymağı əmr edərək belə demişdir: “Adlarınızı gözəlləşdirin”.

Həqiqətən də gözəl ad sahibi öz adından həya edər və adı da onu hər zaman özünə uyğun işlər görməyə təşviq edib, pis işlər görməkdən çəkindirər. Buna görə də sən alçaq insanların əksəriyyətinin adlarının özlərinə uyğun olduğunu, uca insanların çoxunun da adlarının özlərinə münasib olduğunu görürsən. Müvəffəqiyyət yalnız Allah`dandır I.

---

[168] O, Həzrəti Həmzəni τ öldürdüyü üçün Allah Rasulu ρ onu gördüyü zaman kədərlə əmisini xatırlayırdı. Belə deməsinin səbəbi digər hədislərdə bu cür izah olunur. (Tər.)

## Onuncu fəsil

**Yaradılanların qiyamət günü analarının deyil, atalarının adları ilə çağrılmasının açıqlaması**

Bu, ən doğru olan görüşdür ki, buna səhih və açıq aşkar olan sünnət dəlalət etməkdədir. Bununla yanaşı Buxari və digər imamlar onun haqqında naslar rəvayət etmişdirlər. Buxari özünün "Səhih" kitabının "İnsanlar qiyamət günündə analarının deyil, atalarının adları ilə çağırılacaqlar" babında yazır: "İbn Ömər τ demişdir: "Allah Rəsulu ρ buyurdu: "Allah I qiyamət günündə əvvəlkiləri və sonrakıları bir yerə topladığı zaman verdiyi sözü pozub vəfasızlıq edən hər bir xain üçün bir bayraq sancacaqdır və "bu filankəsin oğlu filankəsin xəyanətidir" deyiləcəkdir".[169]

Əbu Davudun "Sünən" kitabında yaxşı bir sənədlə Əbu Dərdadan τ Allah Rəsulunun ρ belə buyurduğu rəvayət olunur: "Həqiqətən siz qiyamət günündə öz adlarınız və atalarınızın adları ilə çağırılacaqsınız. Elə isə adlarınızı gözəlləşdirin".[170]

Bəziləri isə onların analarının adları ilə çağrılacaqlarını iddia etmişlər. Buna dəlil olaraq isə səhih olmayan bir hədisi gətirmişlər. Bu hədisi Təbərani "əl-Mucəm" kitabında Əbu Ümamə yolu ilə Peyğəmbərdən ρ rəvayət etmişdir. Hədisdə deyilir: "Qardaşlarınızdan biri ölüb, onun qəbrini torpaqla düz hala gətirdiyiniz zaman biriniz onun qəbrinin başı üzərində dursun. Sonra belə desin: "Ey filan qadının oğlu filankəs! (o,

---

[169] Buxari: 2177, Müslim: 1735, Əhməd, İbn Məcə.

[170] Əksinə, bu hədisin isnadı zəifdir və onun təxrici öncədən qeyd olunmuşdur.

onu eşidir, amma cavab vermir). Sonra o yenə "Ey filan qadının oğlu filankəs" deyir. O isə belə deyir: "Bizi doğru yola yönəlt! Allah I sənə rəhm etsin!". Bu zaman orada olan bir adam dedi: "Ey Allah`ın Rəsulu! Əgər anasının adını bilməsə, onda bəs nə etsin? Peyğəmbər ρ dedi: "O zaman onu anası Həvvaya nisbət edərək belə desin: "Ey Həvvanın oğlu filankəs".[171]

Onlar deyirlər ki, əgər bir insanın soyu atası tərəfdən sabit olmazsa necə olsun? Lənətləşmə yolu ilə atalıqdan çıxarılan, yaxud zina yolu ilə dünyaya gələn uşaq bəs atasının adı ilə necə çağırılacaq? Buna cavab belədir: Hədisə gəlincə bu hədis elm əhlinin ittifaqı ilə zəifdir. Lakin, atasının bilinməməsi yönündən soyu kəsilənə gəldikdə isə o, dünyada ikən nisbət edilərək çağırıldığı adla çağrılacaqdır. Qul axirətdə dünyada ikən atasının yaxud anasının adı ilə çağırıldığı kimi çağırılacaqdır. Allah I ən doğrusunu biləndir!

## DOQQUZUNCU BÖLÜM

## Uşağın sünnət olunması və onun hökmləri

### Birinci fəsil

### Xitan (sünnət) sözünün mənası və mənşəyi

"əl-Xitan"[172]-Xatin failinin ismidir. O, "nizal" və "qital" sözləri kimi məsdərdir. Sünnət edilən yer də bu kəlimə ilə adlandırılır. Buna hədis də dəlalət edir: "İki xitan (sünnət yeri) bir-

---

[171] əl-Heysəmi "əl-Məcmə", Tabərani "əl-Kəbir". Hədisin sənədi rəvayət olunduğu hər iki yoldan da çox zəifdir.

[172] Bizim uşağa sünnət etmək anlamında işlətiyimiz söz ərəbcə "xitan" adlanır.

birinə toxunduğu zaman[173] qüsl vacib olur".[174] Qadın haqında isə sünnət olunmaq "xafd" kəliməsi ilə ifadə edilir.

Xitan sözü ərəb dilində sünnət zamanı kəsilən dəridən qalan hissəyə deyilir. Xitan həm də sünnət münasibəti ilə verilən qonaqlığa verilən addır. Bu münasibətlə edilən qonaqlığa həm də əqiq deyilir.

## İkinci fəsil

### İbrahim-xəlil peyğəmbərin υ və ondan sonrakı peyğəmbərlərin sünnət olunması

Buxari və Muslim Əbu Hüreyrədən τ Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət edirlər: "İbrahim υ səksən yaşında ikən Qədum adlı yerdə sünnət olundu".[175]

Buxari hədisin şərhində demişdir: "(Hədisdə keçən) "Qədum" sözü yer adıdır".

əl-Mərvəzi demişdir: "İmam Əhməddən "İbrahim Qədumda sünnət oldumu deyə soruşdular?". O dedi: "Qədum deyilən yerə yaxın (sünnət oldu)".

Əbu Davud demişdir: "Abdullah ibn Əhməd və Hərb İmam Əhməddən "Qədumda sünnət oldu" sözünün mənasını soruşdular. O, bunun bir ərazinin adı olduğunu dedi. Bir başqası isə hədisdə keçən "qədum" sözünün ülgüc alətinin adı olduğunu demişdir. Başqa bir qrup isə deyirlər ki, bu kəlməni "qədum" kimi nəql edənlərə görə, o bir yer adı olur. Ancaq

---

[173] Cinsi əlaqə nəzərdə tutulur.

[174] Hədisi bu cür İbn Məcə: 607 rəvayət edib. Həmçinin Əhməd, Müslim, Tirmizi. Hədis səhihdir.

[175] Buxari: 3356, Müslim: 2370, İmam Əhməd.

"qəddum" kimi nəql edənlərə görə isə alətin adı olur. İbrahim Xəlilin υ sünnət olması hadisəsi ziddiyət doğuran rəvayətlərlə nəql olunmuşdur. Əslində isə Allah`a I həmd olsun ki, burada heç bir ziddiyət yoxdur. Biz onları qeyd edirik:

Buxari Əbu Hüreyrədən τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: "İbrahim υ səksən yaşında ikən "qəddum"la, digər bir rəvayətdə isə "qədum"la sünnət oldu". Yəhya ibn Səid də Əbu Hüreyrədən τ buna bənzər bir hədis rəvayət etmişdir. Yəhya deyir ki, "qədum" sözünün mənası "balta" deməkdir".

Nadr ibn Şumeyl demişdir: "Bu, "qədumla" – yəni kəsici alətlə sünnət oldu mənasındadır". Ona dedilər ki, insanlar "Qədum"un Şamda bir şəhər olduğunu söyləyirlər. O isə elə bir şəhər tanımadı və görüşündə qaldı. əl-Cövhəriyə görə, "Qəddum" kəsici bir alətdir. İbnu`s-Səkit ona dedi: "Onu "Qəddum" kimi tələffüz etmə! "əl-Qədum" sözünə gəldikdə isə o, yer adıdır".

Doğru olan görüş isə odur ki, "Qədum" sözü hədisdə alət anlamındadır. Beyhaqi Musa ibn Əlidən belə dediyini rəvayət etmişdir: "Atamın bu barədə belə dediyini eşitdim: "İbrahim Xəlil səksən yaşında ikən ona sünnət olunmaq əmr edildi. O, bu işdə tələsərək "qədumla" (kəsici alətlə) sünnət oldu. Ağrısı şiddətlənincə Rəbbinə dua etməyə başladı. Uca Allah I ona belə vəhy etdi: "Sən, biz sənə alətlə sünnət olma əmrini vermədən tələsdin". O isə belə dedi: "Ey Rəbbim! Mən Sənin əmrini yerinə yetirməyi gecikdirməyi xoşlamadım". Həmçinin, atam

qeyd edir ki, “ o, İsmayılı υ on üç yaşında, İshaqı υ isə yeddi günlüyündə sünnət etmişdi”.[176]

Hənbəl demişdir: “Əbu Hüreyrə τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: “İlk sünnət olunan şəxs İbrahimdir υ. Bu zaman onun yüz iyirmi yaşı var idi. O “qudumla” (kəsici alətlə” sünnət oldu. Bundan sonra da səksən il yaşadı”. Lakin bu hədis illətli (problemli) hədisdir. Çünki səhih kitablar onun səksən yaşında sünnət olduğunu rəvayət etmişdir və doğru olan da budur.

Bəziləri isə hər iki rəvayətin səhih olduğunu demişlər. Onlar bu rəvayətləri cəm edərək bildirirlər ki, hər iki hədisin arasını cəm etdikdə İbrahim Xəlilin υ yaşadığı zaman bilinir. O, iki yüz il yaşamışdır. Bu müddətin səksən ilini sünnətsiz, digər yüz iyirmi ilini isə sünnətli olaraq yaşamışdır. Peyğəmbərin ρ “Ömründən səksən il keçdikdə sünnət oldu” sözü ilə ikinci hədisdə olan “Omründən qalan yüz iyirmi ildə sünnət oldu” sözlərini cəm etməyin əsassız bir nəticə olması da heç kəsə gizlin deyil. Çünki o, belə buyurmuşdur: “İlk sünnət olunan şəxs İbrahimdir υ. Bu zaman o yüz iyirmi yaşında idi”. Peyğəmbər ρ demədi ki, o yüz iyirmi il sünnətli oldu”.

Yuxarıda qeyd olunan hədis ondan daha səhih olan hədisə müxalif olduğu üçün ən doğru görüş odur ki, İbrahim υ səksən yaşında ikən sünnət olmuşdur.[177]

---

[176] Bu hədis munqatidir (sənədi tam deyil).

Sünnət olunmaq Allah I Özünün xəlili (dostu) olan İbrahimi υ imtahan etdiyi bir xislətdir. Bu imtahanlarla Allah I onu kamil etmiş və mükəmməl bir şəxsiyyət edərək onu insanlara imam təyin etmişdir. Öncədən də rəvayətlərlə qeyd olundu ki, o, ilk sünnət olan şəxsdir. Buxari də qeyd edir ki, İbrahim υ sünnət olunduğu zaman səksən yaşında idi". Ondan sonra isə sünnət olmaq digər peyğəmbərlər və onların tərəfdarları tərəfindən davam etdirildi. İsa da sünnət olmuşdur. Xristianlar da bunu inkar etmədən qəbul edirlər. Onlar həmçinin qəbul edirlər ki, o donuz ətini, şənbə günü qazanc əldə etməyi haram etmişdir. O həmçinin torpaq üzərində namaz qılmış, ancaq xristianların "Böyük Oruc" adlandırdıqları əlli gün müddəti olan orucu tutmamışdır.

Tirmizinin "əl-Cami" kitabında və İmam Əhmədin "əl-Musnəd" kitabında Əbu Əyyubdan τ Allah Rəsulunun ρ belə buyurduğu rəvayət olunur: "Dörd şey peyğəmbərlərin sünnətindəndir. Həya etmək, ətirlənmək, misvakdan istifadə etmək və evlənmək".[178] Tirmizi deyir ki, bu hədis həsən-ğaribdir. Ancaq bu hədisin sözlərində ixtilaf var. Orada həya yox, həna (xına qoymaq) sözü olduğu qeyd edilir.

Şeyximiz Əbu`l-Həccac əl-Hafizin belə dediyini eşitdim: "Orada qeyd olunan hər iki söz də (həya və həna) yanlışdır.

---

177 Bu hissəni qısa olaraq tərcümə etməyi daha uyğun gördük. Çünki burada İbn Qayyim "yüz iyirmi yaşında ikən sünnət olunmuşdur" mənalı hədisin raviləri və sənədi haqqında bütün alimlərin görüşünü qeyd etmişdir. Ravilərin halları və onlar haqqında alimlərin sözləri hədis alimlərinin müzakirə mövzusu olduğu üçün və oxucu üçün bir o qədər də önəm kəsb etmədiyi üçün bunu qeyd etm ədik . (Tər.)

178 Albani hədisi zəif hesab etmişdir. Allah I daha doğrusunu bilir.

Əslində o, "xitan" (sünnət olunma) sözüdür. Çünki, Tirmizidən rəvayət olunan başqa bir hədisdə xitan sözü keçməkdədir. O deyir ki, "xitan" sözünün olması "həya", yaxud da "həna" sözlərindən daha uyğundur. Çünki, həya şəxsi keyfiyyətdir.

Xına qoymaq isə sünnətlərdən deyil. Belə ki, Peyğəmbər ρ fitri xüsusiyyətləri deyərkən "xitandan" (sünnət olunma) fərqli olaraq o ikisini orada qeyd etməmişdir. Həmçinin onları müstəhəb hesab etməmişdir.

**Fəsil**

**Kişinin özünü sünnət etməsi**

əl-Mərzəvi demişdir: "Əbu Abdullahdan kişinin özünü sünnət etməsinin mümkün olub-olmadığı haqqında soruşdular. O dedi: "Əgər buna gücü yetərsə, edə bilər".

əl-Xalləl demişdir: " Əbu Abdullahdan özünü sünnət edən kişi haqında soruşanda, o dedi: "Əgər buna gücü yetərsə, edə bilər".

Başqa bir rəvayətdə isə o deyir ki, bir insan özünü sünnət etmək iqtidarındadırsa, onu etməsi yaxşıdır. Bu, gözəl bir sünnətdir.

**Üçüncü fəsil**

**Sünnət etməyin şəri əsasları və onun fitri xislət olması haqqında**

Buxari və Müslimdə Əbu Hüreyrədən τ Allah Rəsulunun ρ belə buyurduğu rəvayət olunur: "Beş şey fitrətdəndir:

sünnət, övrət yerlərini (artıq tüklərdən) təmizləmək, bığları qı-saltmaq, dırnaqları tutmaq və qoltuqaltı tükləri yolmaq”.[179]

Allah Rəsulu ρ hədisdə sünnət olunmağı fitri əməllərin ilki olaraq zikr etmişdir. Çünki bu xüsusiyyətlər fitrətdəndir. Fitrət isə İbrahimin milləti olan həniflikdir. İbrahim υ isə bu fitri xislətləri yerinə yetirməklə əmr olunmuşdur. Bu, Rəbbinin İbrahimi υ onlar vasitəsi ilə imtahan etdiyi kəlmələrdir. İbn Abbasdan τ belə dediyi rəvayət olunur: “Allah I İbrahimi υ təmizliklə imtahan etdi. Onun beşi başda, beşi də bədəndədir. Başda olanlar; bığın qısaldılması, ağıza su alıb yumaq, buruna su çəkməklə yumaq, misvakla dişləri təmizləmək, saçı ortadan ayırmaq. Bədəndə olanlar; dırnaqları kəsmək, övrət yerlərini təmizləmək, sünnət olunmaq, qoltuqaltı tüklərini təmizləmək, qırxmaq, öndən və arxadan xaric olan nəcisin yerini su ilə yumaqdır”.

Fitrət iki qismdir. Birincisi, qəlblə bağlı olan fitrətdir. Bu, Uca Allah`ı I tanımaq, Onu sevmək və Ondan qaynaqlanan digər şeylərdir. İkincisi isə əmələ bağlı olan fitrətdir. Bu da yu-xarıda qeyd etdiyimiz fitri xüsusiyyətlərdir.

Bunlardan birincisi ruhun və qəlbin saflaşmasına, ikincisi isə bədənin təmiz qalmasına xidmət edir. Bunlardan hər biri digərinə yardım edərək bir-birini qüvvətləndirir. Bədənin başlıca fitrəti sünnət olunmaqdır. Bunu da inşəAllah yeddinci fəsildə qeyd edəcəyik.

İmam Əhməd “əl-Musnəd” kitabında Ammar ibn Yasirdən τ belə dediyni rəvayət edir: “Allah Rəsulu ρ buyurmuşdur:

---

[179] Buxari: 5889, Müslim: 257.

“Fitrətdən olan şeylər bunlardır: ağıza su alıb yumaq, buruna su çəkib yumaq, bığı qısaltmaq, misvakla dişləri təmizləmək, dırnaqları kəsmək, barmaqların arasına suyu çatdıraraq yumaq, qoltuqaltı tüklərini qırxmaq, övrət yerlərini təmizləmək, sünnət olunmaq, təharət əsnasında su ilə yuyunmaq”.[180]

Fitrəti xüsusiyyətlər özündə təmizlənmə və pak olmağı cəm edir. Bu da şeytanın insanın bədənində saxladığı və insana narahatlıq verən natəmiz şeylərin uzaqlaşdırılmasına xidmət edir. Onu inşəAllah yeddinci fəsildə daha da təfsilatı ilə açıqlayacağıq.

Sələfdən çoxları demişdir ki, kim namaz qılar, həcc edər və sünnət olunarsa, o hənifdir. Həcc və xitan hənifliyin şüarıdır. O isə Allah`ın I insanları onun üzərində yaratdığı bir fitrətidir.

## Dördüncü fəsil

### Sünnət olmanın vacibliyi yaxud müstəhəb olması barəsində olan ixtilaf

Fəqihlər bu məsələdə ixtilaf ediblər. Əş-Şabi, Rabia, əl-Əvzai, Yəhya bin Səid əl-Ənsari, Malik, Şafii və Əhməd sünnət olmağın vacibliyi görüşündədirlər. Hətta, Malik bu məsələdə daha şiddətli görüş sərgiləyərək demişdir: “Sünnəti olmayanın, imamlığı da caiz deyil və onun şahidliyi qəbul olunmaz”. Fəqihlərin əksəriyyəti isə İmam Malikin bu əmələ sünnət dediyini nəql etmişdir. Qazi İyad demişdir: “Sünnət olunmaq imam Malikə və əksəriyyət alimlərə görə sünnətdir”. Lakin onlara görə, sünnəti tərk etmək günahdır. Çünki onlar sünnəti

[180] İmam Əhməd “əl-Musnəd”: 4/264, İbn Məcə. Albani hədisin həsən olduğunu demişdir.

fərz ilə müstəhəbin arasında olan bir mərtəbədə qəbul edirlər. Ona görə ki, imam Malik sünnət olmayan adamın şəhadətinin qəbul olunmayacağını və onun imamlığının caiz olmayacağını açıqlamışdır.

Həsən əl-Bəsri və Əbu Hənifə onun vacib deyil, sünnət olduğunu deyiblər. İmam Əhmədin məzhəbində olan alimlərdən İbn Əbu Musa da bu əməlin müəkkəd (tərk edilməyən) bir sünnət olduğunu demişdir.

İmam Əhməddən gələn bir rəvayətdə o, sünnət edilməyin sadəcə qadınlara vacib olmadığını bildirmişdir. Sünnətin vacib olduğunu deyənlər buna bir neçə yöndən dəlillər gətirmişlər:

Birinci dəlil kimi, Allah I buyurur:

ثُمَّ أَوْحَيْنَآ إِلَيْكَ أَنِ ٱتَّبِعْ مِلَّةَ إِبْرَٰهِيمَ حَنِيفًا

**“Sonra sənə vəhy etdik ki, Hənif olaraq İbrahimin dininə tabe ol!”** (Nəhl 123)

Öncədən də qeyd edildiyi kimi, sünnət olmaq onun dinindəndir.

İkinci dəlil, İmam Əhmədin Asim ibn Kuleybdən onun atasından, onun da babasından rəvayət etdiyi hədisdir: O, Peyğəmbərin ρ yanına gələrək dedi: “Mən İslamı qəbul etdim”. Peyğəmbər ρ buyurdu: “Küfrdən qalan tüklərini təmizlə!”. Onunla birlikdə olan başqa birisi mənə belə xəbər verdi ki, Peyğəmbər ρ həmin şəxsə belə buyurdu: “Onun tükünü təmizlə və sünnət et!”.[181] Bunu Əbu Davud rəvayət etmişdir.

---

[181] Əhməd “əl-Musnəd”, Əbu Davud. Albani hədisin həsən olduğunu deyir.

Tüklərin təmizlənməsi müstəhəb olaraq qəbul edilmişdir. Onu başqa bir şeyə yozmağa lüzum da yoxdur.

Üçüncü dəlil: Hərb "Məsail" kitabında Zühridən belə dediyini rəvayət edir: "Allah Rəsulu ρ buyurdu: "Kim İslamı qəbul edərsə, yaşlı olsa belə sünnət olsun". Bu hədis mürsəldir. Ancaq bu görüşü dəstəkləməyə uyğundur.

Dördüncü dəlil: Beyhaqi Əlidən τ belə dediyini rəvayət edir: "Allah Rəsulunun ρ qılıncının dəstəyində olan səhifədə belə bir yazı tapdıq: "İslamda sünnət olunmamış kəs sünnət olanadək buraxılmaz. Hətta səksən yaşı olsa belə (o sünnət etdirilər)". Bu hədisi bu isnadla, ancaq əhli-beyt rəvayət etmişdir.

Beşinci dəlil: İbn Munzirin Əbu Bərzə yolu ilə sünnət olmayan şəxs haqqında Peyğəmbərdən ρ rəvayət etdiyinə görə, bu şəxs sünnət olana qədər Beytullahı (Kəbə) həcc edə bilməz. Başqa bir rəvayətdə isə deyilir: "Biz Allah Rəsulundan ρ sünnəti olmayan adamın Beytullahı həcc etməsi haqqında soruşanda o, buyurdu: "Sünnət olmayana qədər edə bilməz". İbn Munzir deyir ki, bu hədis sabit deyil. Çünki, isnadı məchuldur.

Altıncı dəlil: İbn Abbasdan τ belə dediyi rəvayət olunur: "Sünnət olmayan kəsin nə namazı qəbul olunar, nə də kəsdiyi yeyilər".

İmam Əhməd İbn Abbasın belə dediyini rəvayət edir: "Sünnət olmayan kəsin kəsdiyi yeyilməz".

Hənbəl "Məsəil" kitabında İkrimədən belə dediyini rəvayət edir: "Sünnət olmayanın kəsdiyi yeyilməz". Sonra o qeyd etdi

ki, Həsən əl-Bəsri İkrimənin görüşündə deyildi. O deyir ki, İkrimədən "Həmin insan həcc edə bilərmi?" – deyə soruşanda o, "xeyr" cavabını verib.

Hənbəl Əbu Abdullahın belə dediyini bildirir: "Təmizlənənə kimi onun nə kəsdiyi yeyilir, nə namazı yoxdur, nə də həcc edə bilməz. Bu isə İslamın bütünlüklə tərk edilməsi deməkdir". Başqa bir yerdə isə o demişdir: "Sünnəti olmayanın heyvan kəsməsi caiz deyil, kəsdiyi də yeyilməz. Onun namazı da yoxdur".

Abdullah ibn Əhməd İbn Abbasdan τ belə dediyini rəvayət edir: "Sünnət olmayana namaz halal deyildir. Onun kəsdiyi yeyilməz. Şahidliyi də keçərli deyildir". Qatədə deyir ki, Həsən əl-Bəsri bu görüşdə deyildi.

Yeddinci dəlil: Sünnət olunmaq müsəlmanla nəsraninin (xristian) arasını ayıran ən aşkar şüarlardan (əlamətlərdən) biridir. Onun vacib olması vitr namazı, atların zəkatını vermək, namazında qəhqəhə ilə gülüb dəstəmazı pozulanın dəstəmaz alması, qan aldıran, qusan və ya burnu qanayan kəsin dəstəmaz alması, dirsəklərə qədər təyəmmüm etmək, təyəmmüm əsnasında əlləri iki dəfə torpağa sürtmək və s. bu kimi vacib olan əməllərdən daha aşkar və daha güclüdür. Hətta müsəlmanlar az qala sünnət olmağı özlərinə xas olan əlamətlərdən sayıblar. Məhz bunun üçündür ki, fəqihlərdən bir qrupu tələf olmağa yol açsa belə yaşlı adamın sünnət olunmasının vacib olduğunu ifadə etmişlər. Biz bunu inşəAllah on ikinci fəsildə qeyd edəcəyik.

Səkkizinci dəlil: O Allah`ın I şəriətinin bir hissəsidir. Onun edilməsi qaçılmazdır. Oğurluq edənin əlinin kəsilməsi vacib olduğu kimi bu da vacib bir əməldir.

Doqquzuncu dəlil: Övrət yerini başqasının yanında açmaq yalnız müalicə və zəruriyyət anında caizdir. Əgər sünnət olmaq da vacib olan zəruriyyətlərdən olmasaydı övrət yerini açmaq icazəli olmazdı. Çünki haram olan bir əməli sünnədən olan əməlin önünə keçirmək lüzumsuzdur.

Onuncu dəlil: Sünnət edilərkən iki vacib əməl tərk edilir və qadağan olunmuş əməllər işlənir. Bunlardan birincisi sünnət olunanın övrət yerinin açılması, digəri isə övrət yerinin sünnət edən tərəfindən görülməsidir. Əgər sünnət olunmaq vacib olmasaydı, o zaman iki vacib əməl tərk edilərək, qadağan olunan əməllər də işlənməzdi.

On birinci dəlil: əl-Xattəbi aşağıdakı illətə əsaslanaraq demişdir: "Sünnət olmaq sünnədən olan əməllər arasında qeyd olunsa da alimlərin əksəriyyətinə görə, o, vaciblərdəndir. Çünki o dinin şüarıdır və onun vasitəsilə müsəlman şəxs kafirdən seçilir. Sünnətsiz ölülərin arasında sünnət edilmiş bir meyit tapıldığı zaman onun üçün cənazə namazı qılınır və müsəlmanların qəbirstanlığında dəfn edilir".

On ikinci dəlil: Uşağın vəlisi sünnət etdirməklə ona ağrı verir və əgər bu əsnada uşağa zərər verərsə, dəyən zərəri ödəmək ona düşür və onun malından sünnət edənin haqqı və dərmanın qiyməti çıxılır. Dəyən zərəri sünnəti edən ödəmir və o buna zamin deyildir. Əgər sünnət etmək vacib olmasaydı, belə olmazdı. Çünki insana əziyyət vermək, sonra da öz malını zay etmək, onu vacib olmayan bir şeydən dolayı zərərə məruz qoymaq caiz deyildir. Belə ki, əgər sünnət olunmaq müstəhəb olsaydı, bunları etmək icazəli olmazdı. Zahirdə olan da Allah`a I həmd olsun ki, budur.

On üçüncü dəlil: Əgər sünnət olunmaq vacib olmasaydı, o zaman sünnət edən şəxsə sünnət olunan və ya onun vəlisi bunu etməyə icazə versələr belə, bu işi etməsi caiz olmazdı. Allah I və Rəsulunun ρ kəsilməsini əmr etmədikləri və vacib buyurmadıqları bir üzvü kəsmək izin verilsə belə o şəxsin bunu etməsi qadağandır. Bu, birinin qulağının və ya barmağının kəsilməsi üçün izin verməsi və digər birinin də bunu etməsinin qadağan olmasına bənzəyir. Ona bunun üçün izin verilsə belə o, bu əməlin günahından qurtula bilməz. Lakin şəxs özü buna izin verərsə, onun dəyən zərəri ödəməkdə məsul olub olmamasında ixtilaf vardır.

On dördüncü: Sünnət olmayan şəxs namaz və dəstəmazının batil olması ilə üzləşir. Çünki həmin dəri cinsiyyət orqanının üzərini tam örtdüyünə görə, idrar edərkən ona sidiyin bulaşıb qalmasından dolayı bu təmizliyin və namazın fasid olmasına səbəb olur. Buna görə də, sələfdən və xələfdən bir çoxları sünnət olunmayan şəxsin üzrlü olsa belə imam durmasına icazə verməyiblər. O insan sidiyini saxlaya bilməyən və ya buna bənzər bir xəstəliyə məruz qalmış kəs kimidir.

Sünnət olmaqda məqsəd həmin dəri üzərindəki sidikdən qorunmaq, namaz və təharətin fasid olmamasının qarşısını almaqdır. Buna görə də, İmam Əhmədin və digərlərinin rəvayət etdiklərinə görə, İbn Abbas τ demişdir: "Onun namazı qəbul olunmaz". Bu səbəblə də sünnət olunmaqla bağlı mükəlləfiyyətlik yalnız ölümlə ortadan qalxır. Çünki ölümdən sonra artıq insan namaz və təmizlikdən mükəlləf deyildir.

On beşinci dəlil: Sünnət olmamaq xaça qul olanların və oda ibadət edənlərin "həniflər"dən fərqləndikləri şüarlarındandır. Sünnət olmaq isə əsli etibarilə "hənif"lərin şüarıdır. Məhz bu-

na görə də, ilk sünnət olan "Həniflərin İmamıdır". Ondan sonra sünnət olmaq hənifliyin şüarına çevrildi. İbrahim Xəlildən υ bu əməli İsmayıl və İsrail oğulları miras olaraq aldılar. Ona görə də sünnət olmağı tərk etməklə küfr və üç ilahlıq şüarlarında xaça ibadət edənlərə bənzəmək caiz deyildir.

**Fəsil**

Onun vacib olmadığını iddia edənlər isə belə dedilər: "Peyğəmbərin ρ sünnəti onun bir sünnət olduğuna dəlalət edir. Şəddad ibn Əvs τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət edir: "Sünnət olunmaq kişilər üçün sünnət, qadınlar üçün isə ikramdır". Bunu İmam Əhməd rəvayət etmişdir.[182]

Onlar deyirlər: "Peyğəmbər ρ sünnət olunmağı qeyd etdiyi zaman onu vacib olan yox, məhz sünnət olan əməllər arasında zikr etmişdir. Övrət yeri tüklərini qırxmaq, bığı qısaltmaq, dırnaqları kəsmək və qoltuqaltı tüklərini təmizləmək kimi".

Onlar Həsən əl-Bəsrinin belə dediyini deyirlər: "Allah Rəsulu ilə ρ birlikdə qara, ağ, rumlu, fars, həbəşli bir çox insan İslamı qəbul etdi. Onlardan heç birinin sünnətli olub olmadığı araşdırılmadı. Yaxud da onlardan birinin bu barədə araşdırıldığı xəbəri mənə çatmayıb".

İmam Əhməd rəvayət edir: "Səlim ibn Əbu əz-Ziyal demişdir: "Həsən əl-Bəsrinin belə dediyini eşitdim: "Mən bu kişiyə çox təəccüblənirəm (Bəsrənin əmirini qəsd edir). O, Kəykərdan olan bir dəstə yaşlı kişilərlə qarşılaşıb və onlara deyib ki, sizin dininiz nədir? Onlar deyiblər ki, biz müsəlmanlarıq. Bu zaman o, yanındakılara əmr edib ki, sünnət olub

[182] Albani hədisin zəif olduğunu demişdir.

olmadıqlarını yoxlasınlar. Baxdıqları zaman onların sünnət olunmadıqlarını görüblər. Bu qış fəslində onları sünnət etdilər. Mənə çatan xəbərə görə onların çoxu öldü. Lakin Peyğəmbərin ρ yanında rumlu, fars, həbəşli insanlar İslamı qəbul etdilər. Ancaq o onları buna görə yoxlamadı”.

Onlar deyirlər: “Sizin **“Sonra sənə vəhy etdik ki, Hənif olaraq İbrahimin millətinə (dininə) tabe ol!** (vacib görənlərə müraciətlə) dəlil gətirmənizə gəlincə isə bunları demək olar: Buradakı millət sözündəki məqsəd həniflikdir. O isə tövhid deməkdir. Bunun elə olmasını Allah I başqa ayələrdə açıqlamışdır.

وَمَا كَانَ مِنَ ٱلۡمُشۡرِكِينَ

“...hənif idi. O, müşriklərdən deyildi”. (Nəhl 123)

Yusif əs-Sıddıq demişdir:

إِنِّي تَرَكۡتُ مِلَّةَ قَوۡمٖ لَّا يُؤۡمِنُونَ بِٱللَّهِ وَهُم بِٱلۡأٓخِرَةِ هُمۡ
كَٰفِرُونَ ٣٧ وَٱتَّبَعۡتُ مِلَّةَ ءَابَآءِيٓ إِبۡرَٰهِيمَ وَإِسۡحَٰقَ وَيَعۡقُوبَۚ مَا
كَانَ لَنَآ أَن نُّشۡرِكَ بِٱللَّهِ مِن شَيۡءٖۚ ذَٰلِكَ مِن فَضۡلِ ٱللَّهِ عَلَيۡنَا
وَعَلَى ٱلنَّاسِ وَلَٰكِنَّ أَكۡثَرَ ٱلنَّاسِ لَا يَشۡكُرُونَ ٣٨

**Mən Allah`a iman gətirməyən, özləri də axirəti inkar edən adamların dinindən uzaqlaşmışam. Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allah`a şərik qoşmaq bizə yaraşmaz. Bu, Allah`ın bizə və bütün insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir.**(Yusif 37-38)

Həmçinin Allah I buyurur:

قُلۡ صَدَقَ ٱللَّهُۗ فَٱتَّبِعُواْ مِلَّةَ إِبۡرَٰهِيمَ حَنِيفٗاۖ وَمَا كَانَ مِنَ ٱلۡمُشۡرِكِينَ ٩٥

**De: "Allah doğru söylədi. Odur ki, İbrahimin hənif dininin ardınca gedin. O, müşriklərdən deyildi".** (Əli İmran 95)

"Millət" sözünün mənası bütün bu ayələrin hamısında tövhiddə imanın əsli, Allah`a I yönəlmək, Ona qarşı dində ixlaslı olmaqdır. Allah Rəsulu ρ səhabələrinə səhər açılan zaman belə deməyi öyrədirdi: "İslam fitrəti və ixlas kəliməsi üzərində, peyğəmbərimiz olan Muhəmmədin ρ dini, atamız-müsəlman və hənif olan İbrahimin υ milləti üzrə sabaha çıxdıq. O, müşriklərdən deyildi".

Onlar deyirlər: "Əgər əməllər "millət" sözünün məfhumuna daxil olsaydı, o zaman tabe olan kəsə də ona uyğun şəkildə əməl etməsi lazım idi. Əgər həmin əməli yerinə yetirmək vacibdirsə, tabe olanın da bu məqsədlə əməl etməsi lazımdır. Yox əgər müstəhəbdirsə, o zaman müstəhəblik yolu ilə əməl etməsi lazımdır. Bu zaman da sizin üçün mücərrəd olaraq İbrahimin əməli ilə əməl etməkdən başqa bir yol yoxdur. Bu əməlin vacib yaxud müstəhəb olması mövzusunda bilinən bir ixtilaf vardır. Ən qüvvətli olan görüş odur ki, əgər əməlin vacib olduğunu açıqlayan başqa bir şey yoxdursa, o əməl ancaq müstəhəbliyə dəlalət edir. Biz o əməli müstəhəb olma niyyəti ilə yerinə yetirdiyimiz zaman ona tabe olmuş hesab olunuruq".

Onlar həmçinin deyirlər: "Küfr tüklərindən təmizlən və sünnət olun" hədisinə gəldikdə isə, İmam Şafiidən başqa hədis əhli onun zəif olmasında ittifaq ediblər. Zührinin mürsəl olaraq nəql etdiyi "Sizdən kim müsəlman olarsa, yaşlı olsa belə

sünnət olunsun" hədisinə gəldikdə isə, onun mürsəl olaraq rəvayət etdiyi hədislər onların nəzdində ən zəif mürsəl hədislər kimi qəbul olunur. O, dəlil gətirmək üçün uyğun deyildir".

İbn Əbu Hatim demişdir: "Yəhya ibn Səid əl-Qattan Zührinin və Qatədənin mürsəl rəvayətlərini heç bir şey kimi görərək deyirdi ki, o zəif bir külək kimidir. Yəhya ibn Məin isə deyir ki, Zührinin mürsəl hədisləri heç bir şeyə dəlil deyil".

Əlidən ibn Əbu Talibdən τ onun nəvələri yolu ilə nəql edilən hədisə gəldikdə isə, o rəvayət hədis əhli tərəfindən bilinməyən və rəvayət edilməyən bir hədisdir.

Əbu Bərzənin rəvayət etdiyi hədis haqqında İbnu`l-Munzir demişdir: "Bu isnad məchuldur və sabit deyildir".

Onlar deyirlər: "Sizin İbn Abbasın τ "Sünnət olunmayanın kəsdiyi yeyilməz və onun namazı qəbul olunmaz" sözü ilə dəlil gətirməyinizə gəldikdə isə, bu, səhabənin tək başına söylədiyi bir sözdür. İmam Əhməd deyir ki, İbn Abbas τ bu məsələdə şiddətli davranmışdır. Həsən əl-Bəsri və başqaları isə ona müxalif olmuşlar.

Sizin "sünnət olunmaq İslamın şüarlarındandır" sözünüzə gəldikdə isə, bu doğrudur və bunda heç bir ixtilaf yoxdur. Lakin, şüarlardan olan şeylərin hamısı vacib deyildir. Bunlardan vacib olanları olduğu kimi, müstəhəb olanları da vardır. Beş vaxt namaz, həcc, oruc və dəstəmaz vaciblərdən olduğu halda, təlbiyə, qurban kəsmək müstəhəb, azan, iki bayram namazı, sünnət olmaq kimi şüarlar isə bu ikisi arasında ixtilaf edilən məsələlərdəndir. Sizin buna "o da vacib şüarlardandır" dediyinizdə dəliliniz nəyə əsaslanır?

Sizin “sünnət olmaq şəriətin bir hissəsidir və ona görə də oğrunun əlinin kəsilməsi qaçınılmazdır və bu da onun kimi vacibdir” sözünüz isə müqayisələrin ən zəifidir. Sünnət olunmaq oğrunun əlinin kəsilməsi ilə necə müqayisə oluna bilər ki? Bu ikisinin arasında nə qədər də uzaqlıq vardır. Onlar bu qiyası etməklə istənilən məqsəddən daha da uzaqlaşmış oldular. Sünnət olunmaq sünnət olan kəs üçün bir lütfdür. Oğrunun əlinin kəsilməsi isə onun üçün bir hədd cəzasıdır. Cəzaları əhatə edən bir mövzu ilə təharət və təmizlənmə mövzuları arasında əlaqə necə ola bilər ki?

Sizin “heç bir zərurət və müalicə etmə məqsədi olmadan əgər cinsiyyət üzvünün görülməsi sünnət olma əsnasında caizdirsə, deməli bu vacibdir” sözünüzə gəldikdə isə heç də övrət yerinin bu zaman açılmasının caiz olması sünnət olmağın vacibliyinə dəlalət etməz. Çünki övrət yerinin açılması icma ilə vacib olmayan işlərdə də caizdir. Məsələn, müalicə olunmağı tərk etmək caiz olsa belə həkimin baxması və müalicə etməsi məqsədilə onu açmaq icazəlidir. Həmçinin, qadının üzü də baxılması haram olan övrətdir. Lakin, üzünü vacib olmayan işlərdə açması caizdir. Ancaq əleyhinə şahidlik edildikdə belə üzünü açması vacib deyildir. Bundan başqa onlar ölünü yuyana onun övrət yerinin tüklərini təmizləməyə icazə verilər. Bu isə vacib olmadığı halda onun övrət yerinin açılmasını və ona toxunmağı lazım edir.

Sizin “müsəlman sünnət olunmaqla kafirdən seçilir, hətta ölmüş sünnətsiz insanların arasında sünnət olunmuş birisi tapılarsa, onun üçün cənazə namazı qılınaraq dəfn olunur” sözünüzə gəldikdə isə bu, heç də belə deyildir. Çünki, yəhudilər kimi bəzi kafirlər də sünnət olurlar. Sünnət olmaq isə müsəlmanla kafiri bir-birindən ayıran xüsusi bir əlamət deyildir.

Lakin yalnız müsəlmanların sünnət olduqları bir yer olması istisnadır. Bu zaman o, müsəlmanla kafirin arasını ayıran bir əlamət ola bilər. Bu cür olsa belə müsəlmanla kafirin arasını ayıran digər fərqləndirici əlamətlər də olduğu üçün bu sünnət olmağın vacibliyini lazım etmir.

Sizin "uşağın vəlisi sünnət etdirməklə ona ağrı verir və əgər bu əsnada uşağa zərər verərsə, dəyən zərəri ödəmək ona düşür və onun malından sünnət edənin haqqı və dərmanın qiyməti çıxılır" sözünüzə gəldikdə isə bu yenə də onun vacib olduğuna dəlil deyildir. Bu, eynilə tərbiyəçinin və müəllimin uşağı məsləhətə uyğun olaraq ədəbləndirmək məqsədilə döyməsi kimidir. Bu zaman da tərbiyəçi və müəllimin maaşı onun öz malından ödənir. Uşağın yerinə qurban kəsmək kimi.

əl-Xalləl "Yetimin əvəzinə qurban kəsmək" babında deyir: "Mənə Hərb ibn İsmayıl xəbər verib dedi ki, İmam Əhmədə "Yetimin yerinə qurban kəsmək olarmı?" – deyə sual verəndə o dedi: "Bəli, əgər onun malı varsa olar". Həmçinin Sufyan əs-Səvri də belə demişdir: "Cəfər ibn Muhəmməd ən-Neysəburi dedi: "Eşitdim ki, Əbu Abdullaha "yetimin vəlisi ona kəsməsi üçün qurban ala bilərmi" – deyə sual verirlər. O soruşdu: "Onun malı varmı?" Onlar dedilər: "Bəli". O dedi: "O zaman kəsmək üçün ona qurban ala bilər".

Sizin "əgər sünnət olunmaq vacib deyilsə, o zaman bəs nə üçün sünnət olunan şəxs bu işi görməyə can atır.. (zərər vermə ehtimalı olsa da)" sözünüzə gəldikdə isə bu da ziddiyyətli sözdür. Çünki, insan zobunu, tələf olmuş orqanını kəsdirdiyi, dişini çəkdirdiyi, qan aldırmaq üçün dərisini, damarını deşdirdiyi zaman da eyni şeyi edir. Buradan da belə nəticəyə gəlmək olar ki, insan təkcə vacib olduğu zaman deyil, sünnət və müs-

təhəb olduğu zaman da bu kəsmə əməliyyatını yerinə yetirə bilər. Əlbəttə burada açıq-aşkar bir məsləhət vardır.

Sizin “Sünnət olunmayan kəsin namazı və təharəti fasid olmaqla nəticələnir” sözünüzə gəldikdə isə, bu ancaq insanın öz ixtiyarı ilə olarsa belədir. Əgər insanın öz ixtiyarı və qüdrəti olmadan ondan bir şey xaric olarsa, o zaman bundan nə məsuliyət daşıyar, nə də dəstəmazı batil olar. Onun halı sidiyi, məzini tuta bilməmə, burnundan qeyri-ixtiyari qan gəlmə xəstəliyinə məruz qalan insanın halına bənzəyir. O, bacarığı daxilində su və digər təmizləyici vasitələrlə təmizlənərsə, bundan qalan şeylərə görə ondan aciz olduğu üçün məsuliyyət daşımaz.

Sizin “sünnət olmamaq xaçpərəstlərin, oda ibadət edənlərin şüarlarındandır və bu da onlara bənzəmək, onlarla dinlərində həmrəy olmaqdır” sözünüzə gəldikdə isə, bunun da cavabı budur ki, onlar həniflərdən təkcə sünnət olmağı tərk etmələri ilə deyil, öz batil dinlərindəki bütün hər şeylə ayrılırlar. Bir müsəlmanın sünnət olmağı tərk etməsi onun həniflərdən fərqləndikləri dini şüarlarında onlarla həmrəy olması mənasına gəlməz.

Sünnət olmağı vacib görənlər deyirlər: “Sünnət olmaq hənifliyin əlaməti, İslamın şüarı, fitrətin əsası və bu millətdən olmağın ünvanıdır. Belə ki, Peyğəmbər ρ buyurmuşdur: “Bığını qısaltmayan bizdən deyildir”.[183] O zaman sünnət olmağı necə heçə sayıb, xaçpərəstlərin şüarı olan sünnətsiz olmağa razı qalmaq olar? Rəhmanın qulları ilə xaçın qullarının arasını ayıran ən aşkar əlamət sünnət olmaqdır. Bütün hənif olanlar da özlərinin imamı olan İbrahimdən υ başlayaraq peyğəm-

[183] İmam Əhməd “əl-Musnəd”, Tirmizi, Nəsai. Albani hədisin səhih olduğunu demişdir.

bərlərin sonuncusunun zamanına qədər bu əməllərinə davam etmişdirlər. O isə hənifliyi dəyişmək və yox etmək üçün deyil, onu tamamlamaq və daha da sabit etmək üçün göndərilmişdir.

Uca Allah I öz xəlilinə sünnət olmağı əmr etdiyi, ona öz əmrinin itaət olunan bir əmr olduğunu öyrətdiyi və bu əmrin də tərk və zay edilməsinin caiz olmadığını bildirdiyi zaman İbrahim υ də əl-Hayy (yaşayan) və əl-Qəyyum (məxluqatını ayaqda tutan) olan, İzzət və Cəlal sahibi Allah`ın I əmrinə itaət edib, onu yerinə yetirmək üçün tələsdi və özünü kəsici bir alətlə sünnət etdi. O, bu əməlini yer üzərində özündən sonra gələnlər üçün qalıcı bir fitrət olaraq miras qoydu. Buna görə də onun zürriyyətindən olan bütün peyğəmbərlər öz ümmətlərini bunu etməyə çağırdılar. Hətta Allah`ın I qulu və elçisi, Onun kəlməsi bakirə Məryəmin oğlu da İbrahim Xəlilə υ tabe olaraq sünnət olundu. Nəsranilər (xristianlar) özləri də bunu etiraf edərək, İncilin hökmlərindən olduğunu qəbul edirlər. Lakin onlar (bu əməli tərk edərək) bundan öncə azmış və bir çoxlarını da doğru yoldan azdırmış bir qövmün həvasına tabe oldular.

Allah Rəsulunun ρ əhli-beytinin alimi olan Abdullah ibn Abbas τ ümumi və xüsusi olaraq hər kəsin eşidəcəyi səsdə car çəkdirərək "Kim sünnət olmazsa, onun namazı qəbul olunmaz və kəsdiyi də yeyilməz" deyərək həmin şəxsin İslam əhlindən çıxdığını elan etdirmişdir. Ancaq bunu bir işi yerinə yetirməklə tərk etmək arasında ixtiyar sahibi olan şəxs haqqında söyləmək olmaz. Onu ancaq vacibliyi zəruri olaraq bilinən bir şey barəsində söyləmək olar. Sünnət olmağın vacib olduğuna

Allah`ın I qullarını yaratdığı fitrət olan hənifliyin başlıca xislətlərindən olduğunu və bütün rəsulların da ona dəvət etdiklərini söyləmək kifayət edər. Onu tərk edən Allah`ın I elçilərini onu tamamlamaq üçün göndərdiyi fitrətdən çıxar, onu etməməklə ilk öncə etməli olduğu şeyi tərk edərək İbrahimin millətindən üz çevirər. Uca Allah I buyurur:

وَمَن يَرۡغَبُ عَن مِّلَّةِ إِبۡرَٰهِـۧمَ إِلَّا مَن سَفِهَ نَفۡسَهُۥۚ وَلَقَدِ ٱصۡطَفَيۡنَٰهُ فِي ٱلدُّنۡيَاۖ وَإِنَّهُۥ فِي ٱلۡأٓخِرَةِ لَمِنَ ٱلصَّٰلِحِينَ ١٣٠ إِذۡ قَالَ لَهُۥ رَبُّهُۥٓ أَسۡلِمۡۖ قَالَ أَسۡلَمۡتُ لِرَبِّ ٱلۡعَٰلَمِينَ ١٣١

**"Səfeh olanlardan başqa kim İbrahimin dinindən üz çevirər? Biz onu dünyada elçi seçdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdən olacaqdır. Rəbbi ona: "Təslim ol!" – dedikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum!" – demişdi."** (Bəqərə 130-131)

İslam dini hənif dinin əsası və özülü olduğu kimi, onun əmrlərinə tabe olmaq da onu tamamlamaq və kamillik həddinə çatdırmaqdır.

**Fəsil**

Allah Rəsulunun ρ hədisindəki "Sünnət olmaq kişilər üçün sünnət, qadınlar üçün isə ikramdır" sözünə gəlidikdə isə bu sözün açıqlaması belədir; Bu hədis İbn Abbasdan τ zəif bir sənədlə rəvayət olunmuşdur. Bilinən isə bu hissənin İbn Abbasın τ öz sözü (məvquf) olmasıdır. Bu hədis həmçinin Həccac ibn Artadan da rəvayət olunmuşdur. O isə hüccət sayılmayan ravilərdəndir. Beyhaqi də eyni şeyi söyləmiş sonra isə İbn Abbasın τ "Sünnəti olmayanın kəsdiyi yeyilməz, na-

mazı qəbul olunmaz və şəhadət etməsi də caiz deyildir" sözü-nü qeyd edərək belə demişdir: "İbn Abbasın τ bu görüşü sünnət edilməyi vacib gördüyü mənasına gəlir. Belə ki, "Xitan olmaq sünnətdir" sözü ilə o, bunun Peyğəmbərin ρ sünnəti olmasını qəsd etmişdir. Yəni, bu Allah Rəsulunun ρ sünnəti olmaqla yanaşı, həm də onun əmridir. Bununla da o vacib hökmündədir".

"Sünnət" yol deməkdir. Onun "Xitan kişilər üçün sünnətdir" sözünün mənası yəni onlar üçün məşrudur (şəriətlə buyurulandır) deməkdir. Bu, vacib olmayan müstəhəb bir əməldir mənasına gəlməz.

"Sünnət" vacib və ya müstəhəb olaraq tabe olunan yol deməkdir. Necə ki, Allah Rəsulu buyurmuşdur ρ: "Hər kim mənim sünnətimdən üz çevirərsə, o məndən deyildir",[184] "Sizə mənim və məndən sonrakı raşidi xəlifələrimin sünnətinə tabe olmağı əmr edirəm".[185] İbn Abbas τ demişdir: "Kim sünnətə müxalif olarsa, küfr etmişdir". Sünnət sözünü tərk edilməsi caiz olan bir şey anlamı ilə xüsusiləşdirmək sonradan ortaya çıxmış yeni bir termindir. Sünnət Peyğəmbərin ρ öz ümməti üçün vacib və ya müstəhəb olma qəbilindən təyin etdiyi yoldur. Sünnət yol, şəriət və minhəcdir. Sizin "hədisdə ifadə olunan sünnətlər vacibliyə dəlalət edir" görüşünüzə gəldikdə isə, bu gətirilən dəlilləri gücləndirən amil deyildir. Belə ki, hədisdə sayılan sünnətlər arasında vacib olan əməllərlə yanaşı, müstəhəb olanları da vardır. Bunlardan madmada (ağızı yaxalamaq), istinşaq (buruna su çəkmək) və istinca (təharətdə

---

184 Buxari, Müslim, Əhməd, Nəsai.

185 Əbu Davud, Tirmizi, İbn Hibban, İbn Məcə, Darimi. Hədis səhihdir.

təmizlənmək) vacib olan əməllərdən, dişləri misvakla sürtmək isə müstəhəb olan əməllərdəndir. Dırnaqları kəsməyə gəlincə isə dırnaqlar çox uzanıb, altında çirk yığıldığı zaman gigeynik təmizliyə zidd olduğu üçün onları kəsmək vacib olur. Digər dəlil isə bığ uzandığı zaman onun qısaldılmasını vacib edir. Bunun vacibliyi Peyğəmbərin ρ bu əmrinə əsasən müəyyən olunur: "Bığını qısaltmayan bizdən deyildir". Həsən əl-Bəsrinin dediyi "Peyğəmbərin ρ zamanında insanlar İslamı qəbul edərkən Peyğəmbər ρ onlardan kiminsə sünnət olub-olmadığını araşdırmadı" sözünə gəldikdə isə, bunun cavabı belədir ki, həmin vaxt buna ehtiyac yox idi. Çünki ərəblər hamılıqla sünnət olurdular. Yəhudilər də həmçinin ərəblər kimi sünnət olurdular. Bu zaman yalnız nəsranilər (xristianlar) qalırdılar ki, onlar da bu məsələdə iki qrupa ayrılırdılar; sünnəti olanlar və olmayanlar. Onlar və digərləri, ümumiyyətlə İslama daxil olanlar bilirdilər ki, sünnət edilmək İslamın şüarıdır. İslamı qəbul etdikdən sonra qüsl alıb yuyunmağa tələsdikləri kimi sünnət olmayanlar da dərhal bunu etməyə çalışırdılar. Yaşlı olanların üzərindən isə sünnət edilmək onlara ağır gəldiyində və müəyyən zərərə səbəb olduğunda vaciblik düşərdi.

İmam Əhməddən sünnətsiz adamın kəsdiyinin yeyilib-yeyilməməsi ilə bağlı soruşdular. Bu haqda ona İbn Abbasın τ "Onun kəsdiyi yeyilmir" dediyini dedilər. O dedi: "Mənə görə bu, ata və anası müsəlman olduğu halda doğulan sonra da həddi-büluğa çataraq sünnət olmayan şəxs barəsindədir. Lakin qoca yaşlı bir insan müsəlman olub, sünnət ediləcəyi təqdirdə özünə zərər gələcəyindən qorxarsa, fikrimcə ona bu məsələdə rüsxət vardır.

Sizin “millətdən məqsəd tövhiddir”, “millət dindir” sözünüzə gəldikdə isə heç şübhə yoxdur ki, bu kəlmə sözlər, əməllər və etiqad məcmusudur və əməllərin “millət, din” məfhumuna daxil olması, imanın bu məfhuma daxil olması kimidir. Bu zaman “millət” fitrət olur ki, fitrət də dindir. Uca Allah`ın I isə əməlsiz və fitrətin xislətləri olmadan mücərrəd bir kəlmə ilə İbrahimə tabe olmağı əmr etməsi qeyri mümkündür. Uca Allah I ona, ancaq Onun tövhidi, sözləri və əməlləri ilə tabe olmağı əmr edir. İbrahim υ də Rəbbinin ona əmr etdiyi və onu imtahan etdiyi şeyə əməl edib sünnət edilərək əmr olunduğu şeyləri tam bir şəkildə yerinə yetirdi. Əgər bizlər də onun əməl etdiyi kimi əməl etməsək, o zaman ona tabe olmuş sayılmarıq. Həmçinin, sizin yuxarıda qeyd etdiyimiz hədisləri və Zührinin mürsəl hədislərini zəif olaraq göstərməyinizə gəldikdə, təbii ki, bununla və yalnız Zührinin kəlamı ilə hüccət gətirilməz. Bununla yanaşı mərfu, məvquf və mürsəl olan hədis və xəbərlər bir yerə cəm edildikdə biri-birini gücləndirirlər. Sizin “heç şübhə yoxdur ki, İbn Abbas τ sünnət edilməyən şəxsin kəsdiyi yeyilməz, onun namazı da yoxdur sözündə tək qalmışdır” iddianıza gəldikdə isə bu səhabənin sözüdür. Dörd imam və digərləri səhabələrin sözləri ilə hüccət gətiriblər. Bunun hüccət olduğunu da qeyd ediblər. İmam Şafi isə bu məsələdə daha da irəli gedərək səhabəyə müxalif olmağı bidət adlandırmışdır. Bəs əgər səhabədən İbn Abbasın τ sözünə müxalif davrananın olduğu bilinmirsə, onda hal necə olur? Heç bir alim müstəhəb bir əməlin edilməsi, yaxud tərki arasında olan seçimə İbn Abbas τ qədər şiddətli və belə ağır tərzdə yanaşmamışdır. Sizin “(islami) şüarlar müstəhəb və vacib qismlərə bölünür” sözünüzə gəldikdə isə bu

doğrudur. Lakin xaçın qulları ilə Rəhmanın qullarının arasını ayıran və təharətin (təmizliyin) də ancaq onunla tamamlandığı, tərk edilməsi isə xaçın qullarına bənzəyən böyük fərqləndirici bir şüar ən böyük vaciblər hökmündədir. Sizin "cəza verməklə, sünnət edilməyi necə müqayisə edə bilərsiniz" sualınıza gəldikdə isə biz sünnət edilməyin vacib olunması üçün onu əsl olaraq götürmürük. Əksinə, biz hesab edirik ki, onlardan birinin vacib olması digərinin vacib olmasına səbəbdir. Həqiqətən də, bir müsəlmanın hədd cəzası və haqq olması müstəsna, bir üzvünü tələf etmək və qanını axıtmaq haramdır. Bu kimi cəzaların yerinə yetirilməsi vacibdir. Onları tərk etmək caiz deyildir. Ancaq övrət yerinin açılmasına gəldikdə isə əgər bunda övrət yerini açmağın, ona baxmağın və əllə toxunmağın fəsadından daha böyük bir məsləhət olmasaydı, o zaman tərk edilməsi və əməl edilməsi eyni anda caiz olan bir müstəhəb əməl üçün üç böyük fəsadı bir arada işləmək də caiz olmazdı. Müalicə etmək isə həyatın davam etməsi üçün lazım olan səbəblərə sarılmaqdır. Əgər sünnət edilmək məndub olan əməllər sırasından olsaydı, o zaman ehtiyac olmayan bir yerin açılması mövqeyində olardı. Bu isə caiz deyildir. Sizin "uşağın vəlisi onun malından müəllimin və tərbiyəçinin maaşını verir" sözünüzə gəldikdə isə heç şübhə yoxdur ki, uşağın təlim-tərbiyəsi vəlinin üzərində yerinə yetirilməsi haqq olan bir borcdur. Vəli bu malı ancaq onun dünya və axirətdəki xoşbəxtliyi üçün sərf etmişdir. Əgər sünnət olunmaq sadəcə olaraq məndub olsaydı bu malı sərf etmək nafilə bir sədəqə və başqasının yerinə nafilə həcc edən şəxs üçün bir cəhd olardı. Qurban kəsməyə gəldikdə isə onun vacib olub-olmamasında ixtilaf vardır. Bunu vacib qəbul edənlərə görə, bu mal vacib olan bir əməl üçün sərf olunmuş qəbul edilir. Sünnət qəbul edənlərə görə isə, bu malı xeyrə sərf

etməklə qəlblərdə sevinc yaradılır. Elə isə o yaxşılığın qarşılığında möminlərin qəlbinin sevindirilməsi mal sahibinin mülkündə qalmasından daha üstündür.

## ONUNCU BÖLÜM

### Oğlan və qız uşaqlarının qulaqlarının deşilməsi

Qız uşağına gəlincə, onun bəzək məqsədilə qulağının deşilməsi caizdir. Bu, İmam Əhməddən rəvayət olunmuşdur. Bununla yanaşı, o, oğlan uşağına bunu etməyin məkruh olduğunu demişdir. Bu ikisi arasında isə fərq odur ki, oğlanın əksinə olaraq, qızın bəzənməyə ehtiyacı vardır. Bu səbəbdən onun qulağının deşilməsi məsləhətdir. Peyğəmbər ρ Ummu Zər ɡ hədisində Aişəyə ɡ belə demişdi: “Əbu Zər Ummu Zərə əziz olduğu kimi, mən də sənə əzizəm”. O, bunu Aişənin ɡ “elələri vardır ki, qulaqları zinətlərlə doludur, hətta onlar qulaqda yellənirlər” sözünə cavab olaraq demişdir.

Buxari və Müslimin rəvayət etdiklərinə görə Peyğəmbər ρ qadınları sədəqə verməyə təşviq edərkən, onlardan bəziləri qulaqlarından asdıqları halqanı sədəqə verdilər. Sırğa taxmağın caiz olmasına Allah I və Rəsulunun ρ, insanların bunu etdiklərini bilməsinə baxmayaraq, bu əməlin qəbul edilməsi kifayətdir. Əgər bu qadağan edilən şeylərdən olsaydı, Quran və sünnət bunu qadağan edərdi.

Bəziləri deyə bilər ki, Allah I düşməni İblisin belə dediyini xəbər vermişdir:

وَلَأُضِلَّنَّهُمْ وَلَأُمَنِّيَنَّهُمْ وَلَآمُرَنَّهُمْ فَلَيُبَتِّكُنَّ ءَاذَانَ ٱلْأَنْعَٰمِ وَلَآمُرَنَّهُمْ فَلَيُغَيِّرُنَّ خَلْقَ ٱللَّهِ

**...onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allah`ın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm.** (Nisə 119) Bu onu göstərir ki, qulağın kəsilməsi, deşilməsi və yarılması şeytanın əmr etdiyi şeylərdəndir.

Bunun cavabı odur ki, bu qiyasın ən fəsadlı olanlarındandır. Burada şeytanın əmr etdiyi şey odur ki, onların dəvələri beş doğuşdan sonra, altıncısında da erkək bala doğsaydı, onlar dəvənın qulağını yarardılar. Onlar həmin dəvəni minməyi və ondan faydalanmağı haram görər, su içilən yerdən və otlaqdan qovulmaz və "Bəhirə" adlanırdı. Bu şeytanın şəriəti idi. Heyvana edilən bu zülm hara, qadına bəzənməsi üçün qulağına sırğa taxmasını Allah`ın I mübah qılması hara?! Oğlan uşağının qulağının deşilməsinə gəlincə, bu onun üçün məsləhət deyil. Bu davranış, onun üzvlərindən bir üzv kəsmək anlamına gəlir. Çünki bu nə dini, nə də dünyəvi baxımından bəyənilən bir əməl deyil. Bu mövzuda ən təəccüblü, qeyri-adi olan əl-Xatibin "ət-Tarix" əsərində Əli ibn İshaq ibn Rahaveyhdən rəvayət etdiyi hadisədir. O, belə demişdir: "Atam iki qulağı deşik olaraq doğuldu. Babam Rahaveyh Fadl ibn Musanın yanına gedərək bu məsələ haqqında soruşdu və dedi: "Mənim hər iki qulağı deşilmiş olan bir oğlum doğuldu". Fadl ibn Musa isə belə cavab verdi: "Sənin oğlun ya xeyirin, ya da şərin öndəri olacaq. Sanki, Fadl ibn Musa bunu (Allah`ın I ona verdiyi) fərasəti ilə demişdi. Həqiqətən də o, (İshaq ibn Rahaveyh), doğulanlar arasında bu xüsusiyyəti ilə fərqləndiyi kimi, zamanla din və dünya işlərində də seçilən bir öndər oldu".

Allah I ona rəhmət etsin! O, elmdə zəmanəsinin insanlarından öndə gedəni idi. Hədis, təfsir, sünnət, yaxşılığı əmr etmək və pislikdən çəkindirmək, cəhmiyyə firqəsini və Xorasan-

dakı bidət əhlini susdurmaq kimi işlərdə irəli gedənlərdən oldu. Xorasanda sünnət onun əliylə yayıldı və çoxaldı. Sultan yanında düşmənlərinə qarşı Allah`ın I zəfər qazandıracaq uca məqamı var idi. Onları sultanın öz əli ilə rəzil-rüsvay edərdi. Hətta sultanın özü və şahid olan hər kəs təəccüb edərdi. Muhəmməd ibn Əsləm ət-Tusi demişdir: "Əgər əs-Səvri sağ olsaydı, İshaqa ehtiyac duyardı". Eyni sözü Əhməd ibn Səid də söyləmişdir: "Vallahi, əgər əs-Səvri, İbn Üyeynə və Həmədani həyatda olsaydılar, İshaqa ehtiyacları olardı". Muhəmməd ibn Yəhya isə belə demişdir: "Vallahi, əgər Həsən əl-Bəsri yaşasaydı, bir çox şeylərdə İshaqa ehtiyac duyardı". İmam Əhməd onu Əmiru`l-Muminin adlandırırdı. Biz bu və bənzər misalları onun fəzilətləri ilə bağlı xüsusi olaraq yazdığımız kitabda inşəAllah qeyd edəcəyik.

İndi isə onun öz zəmanəsinin insanlarının öndəri olduğuna dəlalət edən maraqlı bir hekayəni qeyd edək. əl-Hakim Əbu Abdullah "Tərixu Nisabur" adlı kitabında yazır: "Əli ibn Sələmənin belə dediyini eşitdim: "İshaq Abdullah ibn Tahirin yanında idi. İbrahim ibn Saleh də onun yanında idi. Bu zaman Abdullah ibn Tahir İshaqdan bir məsələ barəsində soruşdu. İshaq dedi ki, bu məsələdə sünnət olan budur. Numan (Əbu Hənifə) və tərəfdarları isə, sünnətin əksini söyləyirlər". Bu zaman İbrahim dedi: "Numan bunun əksini söyləməmişdir." İshaq isə belə dedi: "Mən bunu sənin babanın kitabından əzbərləmişəm. Mən də, o da eyni kitabı oxumuşuq". İbrahim əmirin yanına gedərək belə dedi: "Allah I səni islah etsin! İshaq mənim babamın adına yalan isnad edir". İshaq dedi: "Qoy əmir həmin kitabın məlum cildini camidən göndərsin, özü də bura gəlsin". Kitab gətirildi. Əmir də kitabı əlində vərəqləyirdi. İshaq dedi: "Kitabın əvvəlindən iyirmi bir vərəq sayaraq

çevir! Sonrada doqquzuncu sətirə düş!" Əmir bunu etdikdə məsələnin İshaqın dediyi kimi olduğunu gördü". Abdullah ibn Tahir demişdir: "Təəccüblü olan sənin hifzin deyil, təəccüblü olan belə hadisəni müşahidə etməyimdir". İshaq dedi: "Bu Uca Allah`ın I mənim əlimlə sünnət düşmənini rüsvay etməsi üçündür. Abdullah ibn Tahir ona dedi: "Mənə dedilər ki, sən yüz min hədisi əzbər bilirsən". O isə dedi: "Yüz minin nə olduğunu bilmirəm. Lakin, mən eşitdiyim hər şeyi əzbərlədim. Əzbərlədiyim bir şeyi də əsla unutmadım".

Bu hekayəni qeyd etməkdə məqsəd Fadl ibn Musanın fərasəti sayəsində söylədiyi sözün doğruluğunun ortaya çıxdığını göstərməkdir. "O, xeyirdə öndər olacaqdır". Ən doğrusunu isə Allah I bilir!

## ON BİRİNCİ BÖLÜM

### Yemək yemə dövründən öncə qız və oğlan uşaqlarının sidiyinin hökmü

Buxari və Müslimdə, "Sünən" kitablarında və "Musnəd"-lərdə sabit olduğuna görə, Ummu Qeys binti Muhsin hələ yemək yeməyən, südəmər kiçik oğlunu Allah Rəsulunun ρ yanına gətirdi. Uşaq onun paltarını islatdı. O, bir qab su istəyərək paltarına səpdi və onu yumadı.

Əli ibn Əbi Talib τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət edir: "Südəmər oğlan uşağının sidiyinin üzərinə su səpilir, qız uşağının sidiyi isə yuyulur". Qatədə demişdir: "Bu yemək yeməyən uşaq haqqındadır. Əgər yemək yeyərsə, o zaman hər ikisinin sidiyinin dəydiyi yer yuyulur". Bunu İmam

Əhməd və Tirmizi rəvayət etmişlər. Tirmizi hədisin həsən-səhih olduğunu söyləmişdir. Hakim də onu səhih görərək Buxari və Müslimin şərtlərinə uyğun olduğunu demişdir.

Aişədən ɡ belə dediyi rəvayət edilir: "Xurma ilə mayalanması üçün Allah Rəsulunun ρ yanına bir oğlan uşağı gətirdilər. Bu zaman uşaq onun üzərini islatdı. O da üzərinə su səpdi". Bunu Buxari və Müslim rəvayət etmişdir. Müslim "və onu yumadı" sözünü də əlavə etmişdir.

Ummu Kurz əl-Xuzaidən belə dediyi rəvayət olunur: "Peyğəmbərin ρ yanına bir oğlan uşağı gətirildi. Körpə onun paltarını islatdı. O əmr edərək su gətizdirdi və həmin yerə su səpdi. Qız uşağı gətirildiyi və onun paltarını islatdığı zaman isə o, paltarı yumağı əmr etmişdi". Bunu İmam Əhməd rəvayət etmişdir. İbn Məcə Amr ibn Şueybin atasından, o babasından, o Ummu Kurzdan o da Peyğəmbərdən ρ belə buyurduğunu rəvayət etmişlər: "Oğlan uşağının sidiyinin düşdüyü geyimin üzərinə su səpilir. Qız uşağının sidiyi ilə islanan paltar isə yuyulur".

Ummu Fadldan belə dediyi rəvayət edilir: "Hüseyn ibn Əli τ Peyğəmbərin ρ qucağına sidik ifraz etdi. Mən dedim: "Ey Allah`ın Rəsulu! Paltarını mənə ver, başqa paltar geyin ki, onu yuyum". O buyurdu: "Oğlan uşağının sidiyinin üzərinə su səpmək kifayət edər. Qız uşağının sidiyinin dəydiyi yer isə yuyulur". Bunu İmam Əhməd, Əbu Davud rəvayət etmişlər. Hakim hədisin səhih olduğunu demişdir.

Hakimin "Səhih" kitabında Əbu`s-Səmhdən belə dediyi rəvayət olunur: "Mən Peyğəmbərin ρ xidmətçisi olduğum za-

man Həsən və Hüseyni ψ onun yanına gətirdilər. Onlar Peyğəmbərin ρ (qucağında ikən) onun sinəsinə sidik ifraz etdilər. Bu zaman ətrafdakılar paltarı yumaq istədilər. Peyğəmbər ρ isə buyurdu: "Üzərinə su çiləyin! Oğlan uşağının sidik ifrazının üzərinə su çiləmək lazımdır. Qız uşağının sidik ifrazı toxunan yer isə yuyulur". Hakim hədisin səhih olduğunu demişdir. Bu hədisi "Sünən" müəllifləri də rəvayət etmişlər.

Hədis və fiqh əhlindən olan alimlərin cumhuru bu hədislərin ifadə etdiyi hökm üzərində eyni rəydədirlər. Hətta, Davud oğlan uşağının sidik ifrazının təmiz olduğu görüşünü tutaraq demişdir: "Çünki dəlil onu yumadan üzərinə suyu səpmək və çiləmək haqqında gəlmişdir. Suyu səpmək və çiləmək onu isə ortadan qaldırmır".

İraqın fəqihləri isə deyirlər: "İstər oğlanolsun, istərsə də qız, fərq etməz. Hər ikisinin də sidik ifrazının toxunduğu yer yuyulmalıdır". Bu, ən-Nəxai, əs-Səvri, Əbu Hənifə və onun tərəfdarlarının görüşüdür. Bu, digər murdar olan şeylərə, həmçinin oğlan uşağının sidik ifrazının qız uşağının sidik ifrazı ilə müqayisə edilərək ifrazatın toxunduğu yerin  yuyulması barəsində gələn hədislərin əksər çoxluğuna görə belədir. Sünnət isə bu iki ifrazatın arasında açıq-aşkar fərq qoymuşdur. Sünnətin aralarında  belə dərəcədə açıq-aşkar fərqləndirdiyi şeyi isə eyni tutmaq əsla caiz deyildir. Vəlid ibn Müslimin rəvayətinə görə əl-Əvzai və Malik də daxil olmaqla bir qrup alim deyir ki, oğlan və qız uşaqlarının hər ikisinin sidik ifrazatının üzərinə ehtiyac və tərbiyənin gətirdiyi çətinlikdən qaynaqlanaraq, həmçinin onları qucaqda daşımağa görə su səpilir. Bu görüş "hər ikisinin də sidik ifrazının dəydiyi yer yuyulur" deyənlə-

rin rəylərinin əksidir. Lakin, doğru olan səhih və açıq sünnətin də dəlalət etdiyi kimi, bu ikisinin arasında fərq qoymaqdır.

Əbu`l-Bərəkət ibn Teymiyyə demişdir: "İki sidik ifrazatını ayıraraq fərqləndirmək səhabələrin icmasıdır. Bunu Əbu Davud Əli ibn Əbu Talibdən τ, Səid ibn Mənsur isə Ummu Sələmədən ɡ rəvayət etmişdir". İshaq ibn Rahaveyh demişdir: "Yemək yeməyən oğlan uşağının sidik ifrazının üzərinə su səpilməsi, qız uşağının isə ifrazının dəydiyi yerin istər yemək yeyən uşaq olsun, istərsə də olmasın, həmin yerin yuyulması Allah Rəsulunun ρ sünnəti olaraq gəlmişdir. Səhabələrdən elm əhli və onlardan sonrakılar bu görüşü mənimsəmişlər. Nə Peyğəmbərdən ρ, nə də ondan sonra tabiin zamanına qədər heç bir kəsin oğlan və qız uşağının sidik ifrazını eyni hökmdə gördüyünə rast gəlmək mümkün deyil. Sünnət müqabilində qiyas etmək isə rədd olunan görüşdür.

Oğlan uşağı ilə qız uşağının sidik ifrazı arasında məna etibarilə bəzi cəhətlərə əsasən fərqləri:

1. Oğlan uşağının sidiyi ora-bura çox dəydiyinə və yayıldığına görə onun dəydiyi yerləri hər dəfə yumaq çətin olur. Qız uşağının sidiyi isə bir yerə axdığına görə onun yuyulması əziyyət deyil.

2. Qız uşağının sidiyi oğlana nisbətdə daha murdar və daha pis qoxuludur. Çünki kişidə hərarət, qadından daha çoxdur. Ona görə də oğlan uşağındakı hərarət sidiyin tərkibindəki maddələrin bir qismini əridərək qoxusunu azaldır.

3. Oğlan uşağına qəlblər daha çox meyl etdiyinə görə qıza nisbətdə hər kəs onu daha çox oynadır. Buna apardığımız mü-

şahidələr dəlalət edir. (Daha çox qucaqda olduğu üçün də hər dəfə onu yumaq çətin gəlir)

Əgər bu fərqliliklər doğru deyilsə belə, sünnət bu ikisinin arasını ayırdığına görə buna əməl edilir.

Əshab və başqaları deyirdilər: "Səpmək suyu ovcuna alaraq üzərinə tökmək deməkdir. Bu zaman, o istənilən şeyi ortadan qaldırmasa da, o elədir". Bu əsas şərt deyildir. Səpmək, suyu çiləməkdir. Digər rəvayətin də onu açıqladığı kimi su içməklə sidik artır. Ona görə də uşağın su içməsi yaxud xurma ilə mayalanması sidiyinin üzərinə su tökmək rüxsətini ortadan qaldırmaz. Çünki, hər bir uşağa bu edilir. Həmçinin Peyğəmbərin ρ adətindən idi ki, doğulan uşağı xurma ilə mayalandırsın. Sidiyinin üzərinə su səpmək rüsxətini uşağın yeməyə davamlı başlaması, ona iştah çəkməsi və əsas qida olaraq istifadə etməsi ortadan qaldırır.

Allah I ən doğrusunu biləndir.

## ON İKİNCİ BÖLÜM

### Uşağın ağız suyunun və tüpürcəyinin hökmü

Bu məsələ, hər kəsin bilməsi vacib olan bir məsələdir. Şəriətin sahibi uşağın çox qusduğunu, hər dəfəsində də ağzını yumağın mümkün olmadığını bildirmişdir. Onun tüpürcəyi və qusuntusu onu daşıyanın və tərbiyə edənin üstünə bulaşır. Bundan ötrü şəriətin sahibi paltarı yumağı əmr etməmişdir və bunu da namaz qılmağa maneə saymamışdır. Həmçinin uşağın qusmağından çəkinib, qorunmağı da əmr etməmişdir. Fəqihlərdən bir qrupu deyirlər ki, bu, çətinlik olmasına və ehtiyac duyulduğuna görə küçənin palçığı təmizləndikdən sonra qalmış nəcisin izi kimi bağışlanmış nəcasətdəndir. Bu, həmçi-

nin məstliyin və ayaqqabıların altını yerə sürtəndən sonra üzərində qalan nəcisin ləkəsi kimidir.

Şeyximiz və məzhəbimizin alimlərindən bir qrupu deyirlər ki, əksinə uşağın tüpürcəyi pişiyin ağzının suyunun təmiz sayılması kimi ehtiyacdan ötrü təmizdir. Peyğəmbər ρ pişik haqqında onun siçan yediyini bildiyi halda buyurmuşdur: “Həqiqətən də o, murdar deyildir”. Əbu Qatədə də bu hədisdən pişiyin ağzının və tüpürcəyinin təmiz olduğunu anlamışdır. Buna görə də pişiyə qabdakı sudan doyunca içməsi üçün qabı qabağına uzatmışdır.[186]

Aişə ɡ xəbər vermişdir ki, Peyğəmbər ρ qabı, su içənə kimi pişiyə tərəf uzatdı və sonra da onun artığı ilə dəstəmaz aldı.[187] Burada ehtimal olunan budur ki, onun qarşısına qoyulan su 2 qullədən[188] çox olmuşdur. Səbəb isə suyun Mədinədə; uzaqda olması idi. Onun ağız suyunun nəcis olduğunu bilirsə, su çox olsa belə, onun təmizlənmə ehtimalı yoxdur. Pişiyin və uşağın ağız suyu məlum səbəblərə görə təmiz hesab olunur. Ancaq onun təmizlənməsi İmam Malik və Əhmədin məzhəbində olan bir görüşə görə yalın ayağın, ayaqqabının, xofun altının torpağının təmizlənməsindən, yaxud istismar olunan yerdə daşın təmizlənməsindən daha önəmlidir. Həmçinin öz paltarını sirkə və digər mayelərdən təmizlədiyin kimi ondan

---

186 Əbu Davud, Tirmizi, Nəsai, Malik, Darimi, İbn Məcə. Albani hədisin səhih olduğunu demişdir.

187 Əbu Davud. Sənədində məchul ravi vardır. Ancaq hədisin onun səhih olduğunu göstərən başqa rəvayətləri də vardır.

188 Bu ölçü vahidi günümüzdə istifadə olunan təqribən 80 litr 250 qrama bərabərdir. 2 qullə (qulləteyn) su isə ümumilikdə 160 litr 500 qram suyun miqdarıdır. Səhih bir hədisə əsasən suyun miqdarı bu ölçüdən yuxarı olduğu zaman ona qarışan murdar şeylər suyu natəmiz etmir. (Tər.)

da təmizləmək daha yaxşıdır. Qılınc, güzgü, bıçaq və bu kimi şeylər yumşaq əski parçaları ilə silinərək təmizlənir və bu zaman onun murdarlığı gedir. Necə ki, səhabələr öz qılınclarını yumadan silir və üzərlərində olduğu halda onunla namaz qılırdılar. Çünki, qılınc yuyulduğu zaman onun itiliyi gedir və faydası itir. Belə ki, Peyğəmbər ρ Afranın iki oğlunun qılınclarına baxdı və onun üzərində olan qan izlərindən bildi ki, onlar bununla Əbu Cəhli öldürmüşlər.[189] Bu zaman onların bu qılınclar üzərlərində olduğu halda namaz qıldıqlarını bildi, ancaq onlara onu yumağı əmr etmədi.

Ən doğrusunu bilən Allah`dır I!

## ON ÜÇÜNCÜ BÖLÜM

### Paltarlarının halından xəbərsiz olduqda uşaqları namazda qucağa almağın hökmü

Buxari və Müslimdə Qatədədən rəvayət olunur: "Allah Rəsulu ρ namaz qılarkən Zeynəbin qızı və peyğəmbərin nəvəsi olan Ümaməni ψ qucağına alardı. O, Əbu`l-As ibn ər-Rabinin qızıdır. Namazda qiyamda durduğu zaman onu qucağına alardı. Səcdə edəndə isə yerə qoyardı. Müslimin rəvayətində isə "onu boynuna alardı" kimi qeyd olunur.

Əbu Davudun rəvayətində isə deyilir: "Bir dəfə biz zöhr, ya da əsr namazını qılmaq üçün Allah Rəsulunu ρ gözləyirdik. Bilal τ namaza çağırdı. O, Zeynəbin ց və Əbu`l-Asın qızı Ümamə ց boynunda olduğu halda yanımıza gəldi. Allah Rəsulu ρ namaz qıldığı yerdə dayandı, biz də onun arxasında

[189] Buxari: 3141, Müslim: 1752.

durduq. O qız uşağı öz yerində durmuşdu (peyğəmbərin ρ boynunda) və biz təkbir aldıq. Allah Rəsulu ρ ruku edəndə onu götürüb yerə qoyurdu. Ruku və səcdəsini edəndən sonra qalxıb onu götürürdü. Allah Rəsulu ρ namazını bitirənə kimi hər rükətdə belə edirdi".[190]

Bu açıq-aşkar onu göstərir ki, o bunu fərz namazını qılarkən etmişdir. Orada vəsvəsə verənlərə rəddiyə vardır. Həmçinin, namaz qılarkən ehtiyacdan dolayı ondan kənar bir əməlin edilməsinin namazı batil etməyəcəyinə dəlil vardır. Yenə burada uşaqlara qarşı mərhəmətli davranmaq, təvazökarlığın və gözəl əxlaqın təlimi və kiçik uşağa toxunmağın dəstəmazı pozmadığına dair dəlil mövcuddur.

## ON DÖRDÜNCÜ BÖLÜM

**Uşaqları öpməyin müstəhəb olması**

Buxari və Müslimdə Əbu Hüreyrənin τ belə dediyi rəvayət olunur: "Allah Rəsulu ρ Həsən və Hüseyni ψ öpdüyü zaman Aqra ibn Habis ət-Təmimi onun yanında oturmuşdu. Aqra dedi: "Mənim on övladım var. Hələ də onlardan heç birini öpməmişəm. Allah Rəsulu ρ ona tərəf baxaraq buyurdu: "Kim mərhəmət etməzsə, ona mərhəmət olunmaz".[191]

Buxari və Müslim Aişədən ϑ belə dediyini rəvayət etmişlər: "Bədəvilərdən bir qrup insan Allah Rəsulunun ρ yanına gəldi və dedi: "Siz uşaqlarınızı öpürsünüzmü?" Onlar cavab

---

[190] Əbu Davud: 917, 918, 919, 920. Hədisin əsli Buxari və Müslimdə öncədən də təqdim edildiyi kimi mövcuddur.
[191] Buxari: 5997, Müslim: 2318 , Əbu Davud, Əhməd.

verdilər: "Bəli". Gələnlər dedilər: "Vallahi, biz onları öpmürük". Allah Rəsulu ρ buyurdu: "Əgər Allah I sizin qəlblərinizdən mərhəməti çıxarıbsa, mən nə edə bilərəm?"[192]

"əl-Musnəd" kitabında Ummu Sələmədən ɡ belə dediyi rəvayət olunur: "Bir gün Allah Rəsulu ρ mənim evimdə idi. Bu zaman xidmətçi dedi: "Əli və Fatimə ψ həyətdədirlər". Allah Rəsulu ρ dedi: "Qalx və mənim əhli-beytimi qarşılayıb içəri gətir!" Mən qalxdım və evin yaxınlığına getdim. Əli, Fatimə və onlarla birlikdə Həsən və Hüseyn ψ içəri daxil oldular. Onlar kiçik uşaq idilər. Allah Rəsulu ρ uşaqları götürərək qucağında otuzdurdu və onları öpdü. Bir əli ilə Əlini τ, bir əli ilə də Fatiməni ɡ qucaqlayaraq Əlini τ də, Fatiməni ɡ də öpdü. Qara xəz dəridən olan paltarını onların üzərinə salaraq buyurdu: "Allah`ım! Məni və əhli-beytimi oda tərəf deyil, Sənə tərəf yönəlt". Ummu Sələmə ɡ deyir ki, mən soruşdum: "Mən də həmçinin, ey Allah`ın Rəsulu?" O buyurdu: "Sən də".[193]

## ON BEŞİNCİ BÖLÜM

### Uşaqlara təlim-tərbiyə verməyin  və onlar arasında ədalətli davranmağın vacib olması

Allah I buyurur:

---

192 Buxari (5997),Müslim (2317),Əhməd,İbn Məcə.

193 Əhməd "əl-Musnəd": 6/296-305. Hədisin isnadı zəifdir.

👓□&☙⑨❒🕯✵🕔♦③
☎✂❑⬉☪⧫👌✂◆⬈ ⧫✖⇦🙰🔔⅄✏👓✂
⬀📪⬈▤❁❍→▩⚙❒📖 ☎✂☑❑➔🔔
✂✡❻👓⧫☼ ⬀📪⬈▤⓿🙵💾⬃♎❒📖◆❒
👓⮹♎←⑩❑➔🔔◆❒
↓□👓□☪✆👓✂
⬘🙰⬀ ⬈□◆❻👓⮹⬀🙰⧫⬂💻👓✂◆❒

**Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!** (Təhrim 6)

Əli ibn Əbu Talib τ demişdir: "Onları öyrədin və tərbiyə verin!". Həsən əl-Bəsri demişdir: "Onlara Allah`a I itaəti əmr edin və xeyirlə məşğul olmağı öyrədin.

İmam Əhmədin "əl-Müsnəd" və Əbu Davudun "əs-Sünən" kitabında Amr ibn Şueyb atasından, o da babasından Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət edir: "Övladlarınıza yeddi yaşında ikən namaz qılmağı əmr edin, on yaşında isə onları bunun üçün (namaz qılmasalar) vurun və yataqlarını ayırın". Bu hədisdə tərbiyə etməyin üç əsası vardır; Onlara namazı əmr etmək, qılmazlarsa onun üçün vurmaq, yataqlarını ayırmaq.

əl-Hakim İbn Abbasdan τ Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: "Övladlarınıza öyrətdiyiniz ilk kəlmə "Lə iləhə ilallah" olsun. Onlar ölüm yataqlarında ikən də onlara "Lə iləhə ilallah" kəlməsini təlqin edin".[194]

---

[194] Həkim: 4/263. Zəhəbi hədisin mürsəl və zəif olduğunu demişdir.

Buxari "Tarix" kitabında Əyyub ibn Musa əl-Qureyşidən o atasından, o da babasından Peyğəmbərin ρ belə buyurduğunu rəvayət etmişdir: "Heç bir ata öz övladına gözəl ədəbdən daha üstün bir miras qoymamışdır". Buxari deyir ki, onun babasının Peyğəmbərdən ρ eşitməsi doğru deyildir.

Tabəraninin "'əl-Mucəm" kitabında rəvayət olunan Cabir ibn Səmuranın hədisində Allah Rəsulunun ρ belə buyurduğu rəvayət olunur: "Sizdən birinin öz övladına tərbiyə verməsi hər gün kasıblara yarım saa[195] sədəqə verməsindən daha xeyirlidir".[196]

Beyhaqi İbn Abbasdan τ belə dediyini rəvayət edir: "Allah Rəsuluna ρ dedilər: "Ey Allah`ın elçisi! Atanın övladı üzərində olan haqqını bildik. Bəs, övladın ata üzərində olan haqqı nədir?" O buyurdu: "Onun övladına gözəl bir ad qoyması və onu tərbiyə etməsidir".

Sufyan əs-Səvri demişdir: "Hər kəs öz övladını hədis öyrənməyə məcbur etməlidir. Çünki o buna görə məsuliyyət daşıyır. Həqiqətən də bu hədisdə izzət vardır. Kim onunla dünyanı istəyərsə, əldə edər. Kim də onunla axirəti istəyərsə, ona nail olar". Abdullah ibn Ömər τ demişdir: "Övladına tərbiyə ver! Çünki bunlar səndən soruşulacaq. "Onu necə tərbiyə etdin? Ona nə öyrətdin?" O isə sənə necə itaət və yaxşılıq etməsi haqqında sorğu-sual olunacaqdır".

---

[195] 1 saa təqribən 2,5, yaxud da 3 kq-a bərabərdir.

[196] Tirmizi: 1952. Albani  hədisin zəif olduğunu bildirmişdir.

Beyhaqi Əbu Səid və İbn Abbasdan ψ Allah Rəsulunun ρ belə buyurduğunu rəvayət edir: "Kimin uşağı olarsa, ona yaxşı ad və gözəl tərbiyə versin. Həddi-büluğa çatanda isə onu evləndirsin. Əgər həddi-büluğa çatanda atası onu evləndirməz və bu səbəblə günah işləyərsə, onun bu günahı atasının da üzərinə yazılar".[197]

Səid ibn Mənsur demişdir: "Bizə Hazm rəvayət edib dedi: "Eşitdim ki, Kəsir ibn Ziyad Həsəndən Allah`ın I **"Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!** (Furqan 74)ayəsi haqqında soruşaraq dedi: "Ey Əbu Səid! Bu göz aydınlığı nə deməkdir? O, bu dünyaya ya axirətə aiddir?" O, belə cavab verdi: "Xeyr, vallahi axirətdə deyil, bu dünyadadır". O soruşdu: "Bəs bu nə deməkdir?" O dedi: "Vallahi, bunun mənası Allah`ın I quluna, zövcəsinin, qardaşının, dostunun Allah`a I itaətini göstərməsidir. Vallahi, müsəlman birinin öz övladını, atasını, dostunu və qardaşını Uca və Əziz olan Allah`a I itaətkar görməsindən daha sevimli bir şey yoxdur".

Buxari "Səhih" kitabında İbn Ömərdən τ belə dediyini rəvayət edir: "Allah Rəsulu ρ buyurdu: "Hamınız bir çobansınız və hamınız güddüklərinizdən (idarəniz altında olanlardan) cavabdehsiniz. Rəhbər bir çobandır və hakimiyyəti altında olan insanlara görə cavabdehdir. Kişi öz ailəsinin çobanıdır və onlara görə cavabdehdir. Qadın ərinin evində çobandır və idarəsi altında olanlardan cavabdehdir. Xidmətçi ağasının malının çobanıdır və buna görə cavabdehdir. Hamınız bir

[197] Hədisin sənədində qopuqluq vardır.

çobansınız və hamınız idarəsi altında olanlardan cavabdehsiniz”.[198]

**Fəsil**

**Övladarına bir şey verdikdə yaxud vermədikdə, aralarında ədalətli davranmaq onların haqlarındandır**

“Sünən” kitablarında, İmam Əhmədin “əl-Musnəd” əsərində və İbn Hibbanın “Səhih” kitabında Numan ibn Bəşirdən τ belə dediyi rəvayət olunur: “Allah Rəsulu ρ buyurdu: “Övladlarınız arasında ədalətli davranın! Övladlarınız arasında ədalətli davranın!”

Müslim Bəşirin zövcəsinin ona belə dediyini rəvayət etmişdir: “Köləni oğluma ver və Allah Rəsulunu ρ da mənim şahidim et”. Bəşir Allah Rəsulunun ρ yanın gələrək dedi: “Filankəsin qızı məndən oğluna kölәmi verməyimi istədi”. Allah Rəsulu ρ soruşdu: “Onun başqa qardaşları varmı?” Bəşir dedi: “Bəli”. O soruşdu: “Buna verdiyin kimi hər birinə də verdinmi?” Bəşir dedi: “Xeyr”. Allah Rəsulu ρ buyurdu: “Bu doğru deyildir. Mən yalnız haqq olana şahidlik edərəm”. İmam Əhmədin rəvayətində isə deyilir: “Məni zülmə şahid tutma! Övladların arasında ədalətli davranmağın onların sənin üzərində olan haqlarıdır”.

Buxari və Müslim Numan ibn Bəşirdən rəvayət edirlər ki, atası onu Peyğəmbərin ρ yanına apardı və dedi: “Mən bu oğluma öz kölәmi bağışladım”. Peyğəmbər ρ soruşdu: “Bütün övladlarına bunun eynisini bağışladınmı?” O dedi: “Xeyr”.

[198] Buxari: 2554, Müslim: 1829, Tirmizi, Əbu Davud, Əhməd.

Peyğəmbər ρ buyurdu: "Onu geri qaytar!" Muslimin rəvayətində isə deyilir: "Bunu oğlanlarının hər birinə etdinmi?" O dedi: "Xeyr". Peyğəmbər ρ buyurdu: "Allah`dan I qorxun! Övladlarınızın arasında ədalətli davranın!" Numan ibn Bəşir dedi: "Atam da bu sədəqəsini geri qaytardı". Bir rəvayətdə isə Peyğəmbərin ρ belə buyurduğu deyilir: "Buna məndən başqasını şahid tut!"

Bu söz onun mübahlığına deyil, təhdidə işarədir. Çünki bu şəkildə sədəqə vermək hədisin mənasına görə zülmdür. Belə ki, Allah Rəsulu ρ heç kimə zülmün lehinə şahidlik etməyə icazə verməzdi. Kim Allah Rəsulunun ρ şahid olmağı qəbul etmədiyi bir şeydə şahidliyi qəbul edə bilər? Üstəlik, o bunun doğru olmadığını, zülm olduğunu və ədalətə zidd olduğunu xəbər verdiyi halda.

Təəccüb doğuran məqam odur ki, bəziləri Allah Rəsulunun ρ "Övladlarınız arasında ədalətli davranın" sözünün hökmünün vacib olmadığını deyir. Halbuki, o, üç dəfə təkidlə deyilmiş mütləq bir əmrdir. Başqa bir yerdə isə o, bu əmrin əksinin zülm olduğunu və doğru olmadığını xəbər vermişdir. Bildirmişdir ki, o haqq deyildir. Haqq olmayan şey isə əlbəttə ki, batildir. Bütün hallarda ədaləti qorumaq vacibdir. Əgər əmr mütləq olaraq verilirsə, o vaciblik ifadə edir. Onun vacib olduğunu on şey daha da təkidləşdirdikdə necə? Əgər hədisin mətninə diqqət etsəz bunu görəcəksiniz.

Beyhaqi Ənəsdən τ rəvayət edir ki, bir kişi Peyğəmbərin ρ yanında oturduğu vaxt onun oğlu gəldi. O, oğlunu öpərək qucağında otuzdurdu. Sonra isə qızı gəldi. Onu da götürüb

yanında otuzdurdu. Peyğəmbər ρ buyurdu: “Sən onların arasında ədalətli davranmadın!” Sələf övladlarını öpüb, əzizləyərkən hər birinə qarşı eyni davranmağı müstəhəb sayırdı.

Elm əhlindən bəziləri deyirlər: “Allah I qiyamət günündə övladı atasına görə sorğu-sual etmədən öncə, atanı övladına görə sorğu-sual edəcəkdir. Çünki, atanın övlad, övladın da ata üzərində haqqı vardır”. Uca Allah Ibuyurur:

وَوَصَّيۡنَا ٱلۡإِنسَٰنَ بِوَٰلِدَيۡهِ حُسۡنٗاۖ

**Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq.** (Ənkəbut 8)

Həmçinin Uca Allah I buyurur:

يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ قُوٓاْ أَنفُسَكُمۡ وَأَهۡلِيكُمۡ نَارٗا وَقُودُهَا ٱلنَّاسُ
وَٱلۡحِجَارَةُ

**Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!** (Təhrim 6)

Əli ibn Əbu Talib τ demişdir: “Onlara elm öyrədin və tərbiyə verin”.

Allah I buyurur:

وَٱعۡبُدُواْ ٱللَّهَ وَلَا تُشۡرِكُواْ بِهِۦ شَيۡـٔٗاۖ وَبِٱلۡوَٰلِدَيۡنِ إِحۡسَٰنٗا وَبِذِي
ٱلۡقُرۡبَىٰ وَٱلۡيَتَٰمَىٰ وَٱلۡمَسَٰكِينِ وَٱلۡجَارِ ذِي ٱلۡقُرۡبَىٰ وَٱلۡجَارِ ٱلۡجُنُبِ
وَٱلصَّاحِبِ بِٱلۡجَنۢبِ وَٱبۡنِ ٱلسَّبِيلِ وَمَا مَلَكَتۡ أَيۡمَٰنُكُمۡۗ

**Allah\`a ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın**

**və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin!** (Nisə 36)

Peyğəmbər ρ buyurmuşdur: "Övladlarınız arasında ədalətli davranın". Allah`ın I atalara övladları barəsində nəsihət etməsi, övladların ataları üçün nəsihət etməsindən daha öndədir. Allah I buyurur:

وَلَا تَقْتُلُوٓاْ أَوْلَٰدَكُمْ خَشْيَةَ إِمْلَٰقٍۖ نَّحْنُ نَرْزُقُهُمْ وَإِيَّاكُمْۚ

**Yoxsulluq qorxusundan uşaqlarınızı öldürməyin. Axı onların da, sizin də ruzinizi Biz veririk.** (İsra 31)

Hər kim övladına ona fayda verən şeyləri öyrətməkdə səhlənkarlıq edib, onu başlı-başına buraxarsa, ona qarşı ən böyük pislik etmiş sayılar. Uşaqların əksəriyyətinin tərbiyəsinin pozulmasının səbəbi, yalnız atalarının onlara qarşı səhlankar davranması və onlara dinin fərzlərini və sünnətlərini öyrətmədiklərinə görədir. Onlar, kiçik olduqda ataları onlara önəm verməyib, faydalı şeyləri öyrətmədikləri kimi, onlar da böyüyəndə öz atalarına fayda vermirlər. Atalardan bir çoxu öz uşaqlarını danlayıb işkəncə verdikləri kimi, övlad da böyüyəndən sonra öz atasına əziyyət edərək deyir: "Ey ata! Sən uşaq ikən mənə əziyyət verdiyin kimi, indi də yaşlı vaxtında mən sənə əziyyət verirəm. Kiçik olduğumda məni önəmsəmədiyin kimi, sən qoca ikən mən də səni önəmsəmirəm".

## ON ALTINCI BÖLÜM

### Uşaqların tərbiyəsinin böyüdükdə onlara tərif gətirməsi haqqında faydalı fəsil

#### Fəsil

Uşaq dünyaya gəldikdən sonra onu iki-üç gün anasından başqasının əmizdirməsi daha yaxşıdır. Çünki, o zaman anasının südü uzun müddətli süd əmizdirən qadından fərqli olaraq qarışıq və qatı olur. Ərəblər buna çox önəm verdikləri üçün uşaqlarını əmzdirmək üçün bədəvi qadınlara verərdilər. Peyğəmbəri ρ də uşaq ikən əmizdirmələri üçün Bəni Səd qəbiləsinə vermişdilər.[199]

**Fəsil**

İlk üç ay müddətində onları çox qucağa almaqdan, qucaqda ikən təvaf etməkdən çəkinmək lazımdır.  Bu onların ana bətnindən yeni qurtulduqları üçün bədənlərinin zəif olması səbəbilədir.

**Fəsil**

Mədələri və yeməyi həzm etmə qüvvələri zəif olduğu üçün onların dişləri çıxana qədər yalnız süd verməklə kifayətlənmək lazımdır. Dişləri çıxıb, mədələri gücləndiyi zaman adi yeməklə bəslənə bilərlər. Çünki Allah I onun dişlərinin çıxmasını Öz lütfü və hikməti ilə yeməyə ehtiyacı olduğu müddətə qədər gecikdirmişdir. Həmçinin O, anaya olan rəhməti ilə uşaq süd əmdiyi müddətcə onun döşlərini dişləməsin deyə bunu təxirə salmışdır.

**Fəsil**

Uşaqları yedizdirməyə başlayarkən bunu tədricən etmək lazımdır. İlk öncə yumşaq olan yeməklərdən isti suda isladıl-

---

199 Peyğəmbərin ρ o qəbilədən olan analığının adı Həlimə bint Əbu Zueyb Abdullah əs-Sədiyyə ibn Bəni Səd ibn Bəkr idi. O, Peyğəmbəri ρ süd əmmə vaxtı tam bitənəcən əmizdirdi.

mış çörək, süd, qatıq kimi şeylərdən başlamaq lazımdır. Bundan sonra yaxşıca bişirilmiş yeməklər, ətsiz şorbalar verilir. Daha sonra isə ətin yumşaq hissəsindən götürüb onu yaxşıca çeynədikdən, yaxud kiçik yumşaq parçalara ayırdıqdan sonra ona yedizdirmək olar.

**Fəsil**

Uşağın yaşı danışma dönəminə yaxınlaşdıqda ona danışmağı asan öyrətmək üçün onun dilinə bal və ağappaq duz sürtmək faydalıdır. Çünki bal və duzda dilə rütubət verərək danışığı asanlaşdıran maddələr vardır. Artıq uşaq danışmağa başlayanda ona ilk olaraq "Lə iləhə illəllah Muhəmmədun rəsulullah" kəlməsini təlqin edin. Qoy qulaqlarının ilk olaraq eşitdiyi şey Uca Allah`ı I tanımaq və Onun tövhidi olsun. Ona öyrədilsin ki, Allah I Öz ərşi üzərindən onlara baxır, sözlərini eşidir və harada olursa olsunlar hər zaman onlarla bərabərdir. İsrail oğullarının öz övladlarına ən çox qoyduqları ad "İmanuyel" adı idi. Bu adın mənası "İlahımız bizimlədir" deməkdir. Buna görə də adların Allah`a I ən sevimli olanı "Abdullah" və "Abdu`r-Rahmandır". Uşaq həddi-büluğa çatıb ağlı kəsəndə bilir ki, o, Allah`ın I quludur və həqiqətən də Allah I onun Ağası və Mövlasıdır.

**Fəsil**

Dişlərinin çıxma vaxtı gələndə hər gün diş ətlərinə ərinmiş yağ və kərə yağı sürtülür. Boyun fəqərəsi də onunla çox yağlanır. Uşaqların dişləri çıxdığı əsnada tam çıxıb, güclənənə kimi onları bərk şeyləri ağzına almaqdan qorumaq lazımdır. Çünki bu kimi şeylər dişlərə zərər verib, onların əyri bitməsinə səbəb olur.

## Fəsil

Ata və ananı uşağın çox ağlaması cana doydurmamalı, xüsusilə də analar ona süd əmizdirməkdən bezməməlidirlər. Həqiqətən də uşağın ağlamağı ona çox fayda verir. Bu zaman onun əzaları inkişaf edir, bağırsağı və sinəsi genişlənir, beyni istilənir, müqaviməti güclənir, bədəninin istiliyi içinə təsir edərkən orqanizm bədəndə olan artıq xəstəliklərə qarşı mübarizə aparıb onları dəf edir və beyindəki bəlğəm kimi və s. artıq şeyləri yox edir.

## Fəsil

Uşağın bədəni güclənib əzaları qüvvətlənib, yerdə oturana kimi çətin olsa belə, onu beşiyində saxlamaq və bələmək işində səhlənkarlıq edilməməlidir. Oturmağı bacardıqda isə özü bunu etməyi bacarana qədər onu hərəkət etdirmək və qalxmağa yavaş-yavaş alışdırmaq lazımdır.

## Fəsil

Uşağı onun qorxmasına səbəb olan hər bir şeydən qorumaq lazımdır. Şiddətli və qorxulu səslərdən, qorxunc mənzərələrdən və narahatlığa səbəb olan hərəkətlərdən uzaq tutulmalıdır. Çünki bu kimi şeylər onun  zəif əqli qüvvəsinin fəsada uğramasına yol aça bilər. Böyüyəndən sonra da ağlından tam olaraq faydalana bilməz. Əgər bu kimi hallar baş verərsə, dərhal onu həmin şeylərin ziddi ilə unutdurmaq lazımdır. Belə ki, bu hal ondan keçsin deyə dərhal əmizdirilməlidir ki, bu uşağın psixologiyasına təsir etməsin. Əgər belə edilməzsə, o zaman bu halın ondan getməsi çətinləşər. Uşaq yatana kimi ona qarşı nəzakətli davranmaqla qorxduğu şeyi unutmasına zəmin yaratmaq lazımdır. Bu zaman səhlənkarlıq etmək olmaz. Çünki bu vəziyyətdə diqqətsiz davranmaq qorxu və diksinmənin

uşağın qəlbində yer etməsinə və bu hal üzərində də böyüməsinə səbəb ola bilər. Bundan sonra isə bu halı aradan qaldırmaq çətinləşər.

### Fəsil

Uşaqların dişləri çıxdığı ərəfədə onların psixoloji vəziyyətləri da dəyişir. Qusmaları çoxalır, qızdırmaları artır, davranışları isə xoşagəlməz istiqamətdə dəyişir. Xüsusən də bu hal qışın soyuğunda, yaxud yayın istisində daha da kəskinləşir. Ona görə də uşağın dişlərinin çıxmasının ən yaxşı vaxtı yaz yaxud payız fəslidir. Onun dişlərinin çıxma vaxtı yeddi aylığında başlayır. Bəzən buna beşinci ayda da rast gəlinir. Onun ən gec çıxma vaxtı onuncu ayına qədər davam edə bilər. Bu vaxt uşağa qarşı nəzakətlə davranmaq, onu tez-tez çimizdirmək, yüngül yeməklər yedizdirmək, qarnını yeməklə doldurmamaq, yumşaq papaq və rahat yun geyim geyindirmək lazımdır. Uşağa süd verən qadının da bu dönəmdə öz yeməyinə və içməyinə diqqət etməsi və zərərli qidalardan çəkinməsi vacibdir.

### Fəsil

**Uşağı süddən ayırma vaxtı**

Allah I buyurur:

وَٱلۡوَٰلِدَٰتُ يُرۡضِعۡنَ أَوۡلَٰدَهُنَّ حَوۡلَيۡنِ كَامِلَيۡنِۖ لِمَنۡ أَرَادَ أَن يُتِمَّ
ٱلرَّضَاعَةَۚ وَعَلَى ٱلۡمَوۡلُودِ لَهُۥ رِزۡقُهُنَّ وَكِسۡوَتُهُنَّ بِٱلۡمَعۡرُوفِۚ لَا
تُكَلَّفُ نَفۡسٌ إِلَّا وُسۡعَهَاۚ لَا تُضَآرَّ وَٰلِدَةُۢ بِوَلَدِهَا وَلَا مَوۡلُودٞ لَّهُۥ
بِوَلَدِهِۦۚ وَعَلَى ٱلۡوَارِثِ مِثۡلُ ذَٰلِكَۗ فَإِنۡ أَرَادَا فِصَالًا عَن تَرَاضٖ
مِّنۡهُمَا وَتَشَاوُرٖ فَلَا جُنَاحَ عَلَيۡهِمَاۗ وَإِنۡ أَرَدتُّمۡ أَن تَسۡتَرۡضِعُوٓاْ

أَوۡلَٰدَكُمۡ فَلَا جُنَاحَ عَلَيۡكُمۡ إِذَا سَلَّمۡتُم مَّآ ءَاتَيۡتُم بِٱلۡمَعۡرُوفِۗ
وَٱتَّقُواْ ٱللَّهَ وَٱعۡلَمُوٓاْ أَنَّ ٱللَّهَ بِمَا تَعۡمَلُونَ بَصِيرٞ ٢٣٣

**Analar öz övladlarını tam iki il əmizdirsinlər. Bu, əmizdirməni tamamlamaq istəyənlər üçündür. Anaların yeməyi və geyimi şəriətə müvafiq qaydada uşağın atasının üzərinə düşür. Heç kəs qüvvəsi çatdığından artıq yüklənməz. Nə anaya öz övladına görə, nə də ataya öz övladına görə zərər verilməməlidir. Bu vəzifə eynilə varisin üzərinə düşür. Əgər ata və ana özlərinin razılığı və məsləhəti ilə uşağı süddən kəsmək istəsələr, ikisinə də heç bir günah gəlməz. Əgər siz uşaqlarınızı süd anasına vermək istəsəniz və süd haqqını müvafiq qayda üzrə ödəsəniz, sizə heç bir günah gəlməz. Allah`dan qorxun və bilin ki, Allah sizin nə etdiklərinizi görür.** (Bəqərə 233)

Bu ayə bir neçə hökmə dəlalət etməkdədir:

Birinci: Süd əmizdirmək dövrü iki il müddətindədir. Bu ehtiyacı olduğu müddətcə uşağın haqqıdır. O, bundan məhrum edilə bilməz. Ayədə bu müddət “tam iki il” ifadəsi ilə işlənərək onu daha da təkidli etmiş və başqa mənalara; yəni bir il yaxud daha çox kimi fikirlərə imkan verməmişdir.

İkinci: Valideynlər öz aralarında uşağa zərər verməmək şərtilə, məsləhətləşib razılığa gələrək, əgər onu süddən ayırmaq istəsələr bunu edə bilərlər.

Üçüncü: Əgər ata öz övladının əmizdirilməsi üçün onu başqa bir qadına, süd anasına vermək istəsə,  ana istəməsə belə o, bunu edə bilər. Əgər bu uşağa və anaya zərər verərsə, o zaman bu məqbul sayılmaz. Həmçinin ana öz uşağını iki ildən sonra üç il yarım, yaxud da bundan daha çox müddətdə də əmizdirməyə davam edə bilər.

Uşağı süddən kəsməyin ən gözəl vaxtı isə havanın soyuq və isti arasında mötədil olduğu zamandır. Bu an artıq onun azı və digər dişləri çıxıb tamamlanır, qidanı dişləmə və çeynəməsi də güclənir. Ona görə də uşağın bu dövrdə süddən ayrılması onun üçün daha xeyirlidir. Payızın ortalarında süddən kəsmək, yazın ortalarında süddən kəsməkdən daha yaxşıdır. Çünki, o payızdan sonra qışı qarşılayacaq. Qışda isə havalar soyuduğu üçün bədənin daxili istiliyi artaraq həzm prosesinin yüksəlməsinə və iştahının artmasına səbəb olur.

**Fəsil**

Süd verən qadın uşağını süddən birbaşa kəsməməli, bu işi tədricən görməlidir. Onu buna öyrədərək və alışdıraraq yavaş -yavaş ayırmaq lazımdır ki, alışdığı və adət etdiyi bir şeydən birbaşa imtina ona zərərli olmasın. Hippokrat[200] "Fəsillər" kitabında bu haqda demişdir: "İnsanın qəfil bir şeydən istifadə edərək onu qəbul etməsi və ya birbaşa onun qəbulunu dayandırması və ya bədənini birandaca istiyə və ya soyuğa məruz qoyması və ya uzun müddət etmədiyi bir hərəkəti qəflətən çox etməsi onun üçün təhlükəlidir. Bir şeyi birdənbirə çox etmək insanın təbiətinə əks təsir göstərir, lakin bunu ona az-az alışdırdıqca mövcud təhlükədən xilas olur".

**Fəsil**

Uşaq tərbiyəsində xoşagəlməz davranışlardan biri də, onları tam doyana qədər yedizdirmək və çoxlu su içizdirməkdir. Onları yaxşı həzm etmələri və bədəndə olan maddələrin normal tənzimlənməsi üçün doymadan yeməkdən əl çəkməyə alışdırmaq, onlara qarşı ən yaxşı davranışdır. Belə olduğu hal-

---

[200] Tibb elminin banisi sayılan qədim yunan həkimi. (miladdan öncə 460-377)

da bədənlərində olan faydasız maddələr azalar, səhhətləri sağlam olar. Bədənlərində zərərli qida maddələrinin az olması səbəbilə çox az halda xəstələnərlər.

Həkimlərdən biri belə demişdir: "Mən o qövmü tərif edərəm ki, uşaqlarını doymamış yeməklərindən ayırarlar. Buna görə də onların qamətləri hündür, bədənləri şux olur. Başqalarında olan bəzi soyuqdəymə və ürək xəstəlikləri onlarda az hallarda rast gəlinir. Əgər sən uşağın gözəl bədənli, düz qamətli olmağını və qozbel olmamağını istəyirsənsə, onu tam doymaqdan qoru. Çünki, uşaq çox yeyib tam doyduğu zaman yatma saatı çoxalaraq tənbəllik yaranır və inkşafı gecikir. Bu həm də onun qarnında köpün və yelin çoxalmasına səbəb olur.

**Fəsil**

Qalen[201] demişdir: "Mən heç zaman uşaqlara soyuq su içməyi tamamilə qadağan etmirəm. Bunu onlara çox vaxt yemək yedikdən dərhal sonra və yayın isti vaxtlarında tənəffüsləri daraldığı zaman qəbul etməyə icazə verirəm. Çünki, bu zaman onların daxili hərarətləri yüksəlir. Bu isti vaxtlarda soyuq su içmək onlara zərər verməz. Xüsusilə də yeməkdən dərhal sonra daxili hərarətin qalxması ilə susuzluğa dözümlülükləri olmadığı üçün müəyyən qədər vermək olar.

**Fəsil**

Uşaqları vaxtından öncə yeritməyə calışmaqdan çəkinmək lazımdır. Onların ayaqları zəif olduğu üçün bu əyilməyə və s. fəsadlara səbəb ola bilər. Həmçinin onları qusmaq istədiyi zaman qusmağına, yatmaq istədiyi zaman yatmağına, yemək istədiyi zaman yeməyinə, asqırmaq istədikdə asqırmağına,

---

[201] Galenyus; Qədim Romanın məşhur həkim və filosofu olub. (129-216)

tualet ehtiyacını dəf etmək istəməsinə mane olma! Çünki bu kimi şeylərə mane olmaq həm uşaq, həm də böyük adam üçün çox zərərlidir.

**Fəsil**

**Süd əmizdirən qadınla cinsi əlaqədə olmaq**

Cuzamə bintu Vəhb əl-Əsədiyyədən belə dediyi rəvayət olunur: "Digər insanlarla birgə Allah Rəsulunun ρ yanında idim. O buyurdu: "Sizə süd əmizdirən qadınlarla cinsi əlaqəyə girməyi qadağan etməyə cəhd etdim. Ancaq baxdım gördüm ki, rumlular və farslar belə etdikləri halda bu onların uşaqlarına heç bir zərər vermir". Sonra ondan azl[202] (cinsi əlaqəni kənarda sonlandırmaq) barəsində soruşuldu. O buyurdu: "Bu uşağı diri-diri basdırmağın gizli şəklidir və bu ayətdə qəsd ediləndir:

وَإِذَا ٱلۡمَوۡءُۥدَةُ سُئِلَتۡ ٨

"**diri-diri torpağa basdırılmış qız uşağı soruşulacağı zaman"** (Təkvir 8) Hədisi Müslim rəvayət etmişdir.

Müslim Usəmə ibn Zeyddən τ belə dediyini rəvayət edir: "Bir kişi Allah Rəsulunun ρ yanına gələrək belə dedi: "Mən qadınımla azl edirəm. Allah Rəsulu ρ ona belə dedi: "Bunu nə üçün edirsən?" O dedi: "Onun uşağına və ya uşaqlarına şəfqətimdən dolayı". Allah Rəsulu ρ buyurdu: "Əgər bu zərərli bir şey olsaydı farslara və rumlulara zərər verərdi".

---

202 Elm əhlindən bəziləri bunu şiddətli məkruh görmüş bəziləri isə qadından icazə aldıqdan sonra belə etməkdə heç bir problemin olmadığını demişdir.

Əsma bint Yeziddən ℊ belə dediyi rəvayət olunur: "Allah Rəsulunun ρ belə buyurduğunu eşitdim: "Uşaqlarınızı gizli öldürməyin! Nəfsim əlində olana and olsun ki, bu cür etmək sanki, atlıya ardından yetişər və onu atdan salar". O dedi: "Mən soruşdum ki, bu nə deməkdir?" O buyurdu: "O qadın uşaq əmizdirdiyi halda onunla cinsi əlaqədə olmaqdan danışır". Bunu İmam Əhməd və Əbu Davud rəvayət etmişlər.[203]

Elm əhlindən bəziləri bu hədisləri cəm etməkdə çətinliyə düşmüşdür. Bir qrup demişdir: "Mən sizə süd əmizdirən qadınlarla cinsi əlaqəyə girməyi qadağan etməyə cəhd etdim". Yəni haram və ya qadağa etmək istədim hədisi ilə "Uşaqlarınızı gizli öldürməyin hədisi" arasında ziddiyyət yoxdur. Bu qadağa forması  sanki onlara məsləhət vermə və onları daha sağlam yola yönəltmə xarakteri daşıyır ki, bununla uşağı zəifləndən və onun ölməsinə yol aça biləcək əməli tərk etsinlər". Onlar həmçinin deyirlər: "Dəlil bunu göstərir ki, süd verən qadınla əri əlaqədə olanda qadının heyz qanı hərəkətlənir və xaric olmaq üçün zəmin yaranır. Bu zaman süd öz saflığını və gözəl ətrini itirir. Bəzən də qadın hamilə qalır. Bu isə ən zərərli prosesdir. Çünki bu südəmər uşağa zərər verir. Təmiz qan ananının rəhmində olan embrionun qidasına qarışaraq onun içinə daxil olur. Embrion da ağacın kökünün yerə birləşdiyi kimi anasına birləşib gecə və gündüz ondan ayrılmadığı üçün ona lazım olmayan artıq şeyi özünə çəkir. Bununla da hamilə qadının qanı azalır və çirklənərək sinəsində südü də təmizliyini itirir. Hər nə zaman süd əmizdirən qadın hamilə qalsa, uşağa onun südünü verməyib tədbirli davranmaq lazımdır. Çünki bu cür südü içməklə uşaq ya ölə bilər, ya da bu onun

[203] Şeyx Albani hədisin həsən olduğunu demişdir.

zəifləməsinə səbəb ola bilər. Hətta bunun zərərini böyüyəndən sonra da çəkər. Hədisdə təsvir edildiyi kimi o, atlını atından salar. Buna görə də Allah Rəsulu ρ bunu məsləhət xarakterli edərək, onları bunu tərk etməyə yönəltdi, lakin bunu onlara haram etmədi.

Qeyd olunan bu hal bütün doğulan uşaqların hər zaman üzləşəcəyi bir proses deyildir. Lakin buna bəzi uşaqlarda rast gəlinir. İnsanların çoxu öz qadınları ilə onlar süd verən dönəmlərində olduqları halda cinsi əlaqədə olurlar. Bu hər bir doğulan uşağın qarşılaşacağı zərərli bir hal olsaydı, o zaman bütün insanlar bunu tərk etməkdə müştərək olardılar. Ancaq bu iki böyük millət (farslar və rumlular) isə bunu edirlər. O isə onların övladlarının hamısına zərər vermir. Hər bir halda isə əgər süd verən qadın hamilə qalarsa ehtiyat olaraq onun südünü uşağa verməyib ona başqa bir süd anası tutmaq lazımdır. Ən doğrusunu Allah I bilir!

## Fəsil

Uşağın ən önəmli ehtiyac duyduğu şeylərdən biri də onun əxlaqlı yetişməsinə diqqət yetirməkdir. O, tərbiyəçisinin kiçik yaşlarında ikən onu alışdırdığı adətlər üzrə böyüyür. Hələ uşaq ikən qəzəb, hirs, səsini qaldırmaq, tələskənlik, nəfsi istəyinə uymaq, ağılsızlıq, hiddət və tamahkarlıq içində boya-başa çatarsa, artıq böyüdükdən sonra bu xüsusiyyətlərdən qurtulmaq onun üçün çətinləşəcək və bu keyfiyyətlər onun əxlaqının başlıca əlamətinə çeviriləcəkdir. Əgər bu hallardan qorunmazsa, bir gün bunlar onu rüsvay edəcəkdir. Buna görə də sən insanların çoxunun əxlaqının ona böyüdüyü müddətdə verilən pis tərbiyə nəticəsində pozulduğunu görərsən. Uşağın ağlı kəsdiyi zaman onu çirkin əyləncə məclislərindən, batil

şeylərdən, musiqi dinləməkdən, əxlaqsız söz eşitməkdən, bidətlərdən, zərərli ideologiyalardan uzaq tutmaq lazımdır. Çünki, belə şeyləri daim eşitdiyi zaman böyüyəndə artıq onlardan ayrılması çətin olur. Vəlisi də onu bundan döndərməkdə çətinlik çəkəcəkdir. Adətləri tərk etmək isə ən çətin işlərdəndir. Formalaşmış şəxsiyyətin təbiətinin təsirindən çıxması isə çox çətin bir şeydir.

Uşağın vəlisi onu başqalarından bir şey almaqdan bacardıqca çəkindirməlidir. Uşaq nə zaman ki, almağı adət halına gətirdi, bu onda vərdiş yaradar və xarakterinə çevrilər. O, hər zaman çaba sərf etmədən ancaq almaq haqqında düşünər. Onun təbiətində əta etmək, yaxşılıq və comərdlik kimi xüsusiyyətləri formalaşdırmaq lazımdır. Valideyn birinə bir şey vermək istədiyi zaman qoy bunu uşağın əliylə versin ki, uşaq verməyin ləzzətini dadsın. Uşağı yalançılıqdan və xainlikdən çəkindirmək onu öldürücü zəhərdən çəkindirməkdən daha əzəmətli işdir. Nə zaman yalanın və xəyanətin qapıları onun üzünə açılar, dünya və axirətdəki xoşbəxtliyi fəsada uğrayar və o, bütün xeyirlərdən məhrum olar.

Onu, həmçinin tənbəllikdən, müftəxorluqdan, rahatlıq, dəbdəbəli həyat tərzinə öyrəşməkdən çəkindirmək və bunların ziddi olan şeyləri öyrətmək lazımdır. Bədəni faydalı məşğuliyyətlərdən sonra yorulub dincəlmək istəmədikcə ona rahatlıq verməmək gərəklidir. Çünki tənbəllik, müftəxorluq ardınca pis aqibət və peşmançılıq gətirir. Ciddiyət və çalışqanlıq isə ardınca ya bu dünyada, ya axirətdə, ya da hər ikisində fəxr olunacaq şeylərə səbəb olur. İnsanların ən çox rahat olanı, onların ən çox çalışıb yorulanlarıdır. İnsanların ən çox yorulanları da onların ən çox rahat olanlarıdır. Dünya və axirətdəki xoşbəxtliyə də yalnız çətinlik körpüsünün üzərindən

keçməklə çatmaq mümkündür. Yəhya ibn Əbu Kəsir demişdir: "Elm cismin rahatlığı ilə əldə edilə bilməz".

Gecənin axırında oyanmağı uşaqda adət halına gətirmək lazımdır. Bu qənimətlərin bölüşdürüldüyü, mükafatların paylandığı zamandır ki, kimisi bundan çox, kimisi isə az əldə edər, kimisi də ondan məhrum olar. Uşaqlığında bu kimi şeylərə öyrəşərsə, böyüyəndə onun üçün çox asan olacaq.

**Fəsil**

Uşağı hər zaman çox yeməkdən, çox danışmaqdan, çox yatmaqdan və qarışıqlıq olan yerlərdən uzaq tutmaq lazımdır. Çünki xəsarətin başlanğıcı qeyd olunan şeylərin artıq olması ilə başlayır. Bütün bunlar onun dünya və axirət xeyirlərini itirməsinin əsas səbəbidir. Onu cinsi şəhvət və yeməklə bağlı zərərli istəklərdən uzaq tutmaq lazımdır. Uşaq bu məsələlərdə başlı-başına buraxılarsa, böyüdükdən sonra, ağır fəsadlarla qarşılaşması labüddür. Valideynlər vardır ki, onlar dünya və axirətdə ciyərparaları olan övladlarına ədəb və tərbiyə vermədikləri üçün bu, onların şəhvətlərinin ardınca getmələrinə yol açmış və onlar bədbəxt olmuşlar. O belə etməklə ona zərər verdiyi halda yaxşılıq etdiyini, zülm etdiyi halda rəhm etdiyini güman edir. Övladının mənfəətini, dünya və axirətdəki nəsibini puç edir. Övladların əksəriyyətinin fəsada uğramasının səbəbi əsasən atalar olmuşdur.

**Fəsil**

Uşağı onun ağlını başından alan sərxoşedici içkilərdən və ona bənzər şeylərdən uzaq tutmaq vacibdir. Fəsadı ona təsir edəcək insanlarla yoldaşlıqdan, onlarla ünsiyyətdən, onların yanında olmaqdan qoruyun. Çünki bunların hamısı həlak olmağa açılan yollardır. Bu şeylərə qarşı nə zaman yumşaq dav-

ranılsa, o zaman uşaq üçün dəyyusluğa yol açılmış olur. Hədisdə: "Dəyyus cənnətə daxil olmayacaqdır"[204] deyə keçir. Ataların uşaqlara qarşı səhlənkar davranıb zərər verməsi kimi, heç bir şey onlar üçün zərərli ola bilməz. Onların əksəriyyətinin öz uşaqlarına verdiyi zərər güclü bir düşmənin döyüş əsnasında öz düşməninə verdiyi zərərdən daha da böyükdür. Ancaq onlar bunu dərk etmirlər. Övladını dünya və axirətin xeyrindən məhrum edib, dünya və axirətin həlak çuxuruna sürükləyən neçə-neçə atalar vardır. Bunların hamısı ataların Allah`ın I onlar üçün təyin etdiyi hüquqlarını önəmsəməyib tərk etmələri, Allah`ın I onlara vacib buyurduğu faydalı elmdən və saleh əməldən üz çevirmələrinə görədir. Ona görə də Allah I onları övladlarından faydalanmaqdan məhrum etmiş, övladlarının onlar üçün xeyir və faydasını uzaq etmişdir. Bu, ataların etdiklərinin qarşılığı olan cəzalarıdır.

**Fəsil**

Oğlan uşağını şərabdan, oğurluqdan, yalandan, ipək paltar geyinməkdən çəkindirmək lazımdır. Çünki bu onun üçün zərərlidir. İpək paltar oğlan uşağının xarakterini lutilərdə (homoseksuallarda) olduğu kimi qadınlaşdırır. Peyğəmbər ρ buyurmuşdur: "Qızıl taxmaq və ipək paltar geyinmək ümmətimin kişilərinə haram, qadınlarına isə haladır".[205] Kiçik oğlan

---

[204] Hakim: 1/72, Beyhaqi: 10/226. İsnadı səhihdir. Hədisin tam məntni belədir: "Üç kəs cənnətə daxil olmayacaqdır. Valideyninə əziyyət edən, dəyyus və özünü kişiyə bənzədən qadın".

[205] Tirmizi: 1720. O hədisin həsən-səhih olduğunu demişdir. Molla Əli əl-Qari "əl-Mirqat" kitabında yazır: "Ümmətimin kişilərinə" sözü gəldikdə isə bu söz, həddi-büluğa çatmamış oğlan uşaqlarına da şamil edilir. Baxma-

uşağı mükəlləf olmasa da vəlisi ona görə mükəlləfdir və ona haram olan bir şeyi geyinməyə imkan verməsi halal deyildir. Çünki, uşaq vaxtı bunu geyinərsə, sonra adət halını alar, böyüyəndən sonra da onu tərk etməsi çətin olar. Bu alimlərin sözünün ən səhih olanıdır. Bunu uşaqlara haram görməyənlər isə dəlil olaraq uşaqların mükəlləf olmadıqlarını höccət gətirərək deyirlər ki, heyvan da mükəlləf olmadığı üçün ona ipək bir şeyə izn vermək haram deyildir. Bu isə qiyasların ən fasididir. Kiçik oğlan uşağı mükəlləf olmasa belə o, mükəlləf olmağa hazırlaşan şəxsdir. Buna görə də onun dəstəmazsız, çılpaq və ya nəcis olan bir yerdə namaz qılması mümkün deyildir. Həmçinin o, mükəlləf olmasa da, onun içki içməsi, qumar oynaması və lutilik etməsi də caiz olmayan bir şeydir.

## Fəsil

Uşağın tərbiyəsi zamanı onun halında diqqətə alınmalı məqamlardan biri də onun hansı əməlləri bacardığını və nəyə daha çox qabiliyyəti olduğunu müəyyən edərək, onun hansı peşə üçün yaradıldığını bilməkdir. Şərii olaraq icazə verilən iş olsa da onu bacarığından qeyrisinə yönəltməmək lazımdır. Çünki, əgər o bacarma imkanı olmayan bir əmələ yönləndirilərsə, o işdə uğur əldə edə bilməz və öz qabiliyyətini də puç etmiş olar. Əgər onun gözəl anlama qabiliyyəti, sağlam idrakı və analiz etmə bacarığına malik olduğu bilinərsə, o zaman bunlar onun elm üçün hazırlanıb onu qəbul edəcəyinin əlamətləridir. İmkan verilsin ki, bütün bunlar boş olduğu müddətcə qəlbinin lövhəsinə nəqş edilsin. Bununla da, o elmdə uğur qazanar, onda qərarlaşar və özünü bu sahədə inkşaf etdirər. Əgər uşaqda bütün yönüylə bunun tam əksi görülərsə,

---

yaraq ki, onlar hələ mükəlləf deyillər, ancaq haram olma hökmü onlara bu paltarı geyindirənlərə aiddir".

yəni məlum olar ki, o, at çapmaq, ox atmaq, nizə oynatmaqda qabiliyyət sahibidir, bil ki, o elmdə uğur əldə etməyəcək. Çünki, onun üçün yaradılmamışdır. Onun sahib olduğu bacarıq at çapmaq və onun mislində olan təlimlərdirsə, bununla məşğul olması özü və müsəlmanlar üçün daha faydalı olacaqdır. Əgər onda bunun da əksi görülərsə və məlum olarsa ki, o bunun üçün də yaradılmayıb o zaman buna təşviq etmək də lazım deyil. Bilinsə ki, o sənətdə, istehsalatda mahir bacarıq sahibidir və buna hazırdır, bu zaman onun sənətə, istehsalata yönləndirilməsi lazımdır. O, bunu asanlıqla öyrənəcək və istehsal etdiyi mübah şeylərlə özünə və insanlara faydalı olacaqdır. Ancaq bütün bu sayılan şeylərin hamısından öncə, uşağa dinində onun ehtiyac duyduğu şeylərin öyrədilməsi durur. Belə ki, Allah`ın I höccətini Onun qullarına çatdırmaq hər bir kəsin bacaracağı asan bir şeydir. Allah`ın I qulları üzərində nemətləri olduğu kimi, onun çatdırılması vacib olan höccəti də vardır. Allah I ən doğrusunu biləndir!

## ON YEDDİNCİ BÖLÜM

### **Adəm övladının nütfə olduğu dövrdən Cənnətdə, yaxud Cəhənnəmdə qərarlaşdığı zamana qədər keçdiyi mərhələlər**

Uca Allah I buyurur:

وَلَقَدۡ خَلَقۡنَا ٱلۡإِنسَٰنَ مِن سُلَٰلَةٖ مِّن طِينٖ ١٢ ثُمَّ جَعَلۡنَٰهُ نُطۡفَةٗ فِي
قَرَارٖ مَّكِينٖ ١٣ ثُمَّ خَلَقۡنَا ٱلنُّطۡفَةَ عَلَقَةٗ فَخَلَقۡنَا ٱلۡعَلَقَةَ مُضۡغَةٗ
فَخَلَقۡنَا ٱلۡمُضۡغَةَ عِظَٰمٗا فَكَسَوۡنَا ٱلۡعِظَٰمَ لَحۡمٗا ثُمَّ أَنشَأۡنَٰهُ خَلۡقًا ءَاخَرَۚ
فَتَبَارَكَ ٱللَّهُ أَحۡسَنُ ٱلۡخَٰلِقِينَ ١٤ ثُمَّ إِنَّكُم بَعۡدَ ذَٰلِكَ لَمَيِّتُونَ ١٥ ثُمَّ
إِنَّكُمۡ يَوۡمَ ٱلۡقِيَٰمَةِ تُبۡعَثُونَ ١٦

**Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır. Şübhəsiz ki, bundan sonra siz mütləq öləcəksiniz. Sonra da Qiyamət günü dirildiləcəksiniz.** (Muminun 12-16)

Allah I bu ayədə Adəm övladının nütfə halına gəlmədən öncə su və torpaq halında olduğu zamandan Qiyamət günündə diriləcəyi zamana kimi keçirdiyi dövrlərə diqqət çəkmişdir. İnsanın yaradılışının ilk mərhələsi xalis palçıqdandır. Bundan sonra isə zəif bir sudur ki, bu da bütün bədəni təşkil edən nütfədir. O bu halda qırx gün ana bətnində qalır. Sonra Allah I həmin nütfəni qan laxtasına çevirir. Qırx gün əlavə olaraq o da ana bətnində qalır. Bu dövrdə onun əzaları, surəti, şəkli və forması təqdir edilib yaradılır.

İnsanın ilk olaraq hansı əzasının yaradılmasında ixtilaf edilmişdir.

Bəzi alimlər deyirlər ki, ilk olaraq qəlb yaradılmışdır. Digər bir qrup isə ilk olaraq beyinin yarandığını söyləyirlər. Başqa bir qrup isə qara ciyərin, digəri ilk olaraq onurğa sümüyünün yarandığını qeyd etmişdir. Birinci iddia sahibləri, öz görüşlərinə gətirdikləri dəlildə deyirlər ki, qəlb həyatın tərkib hissəsini təşkil edən daxili istiliyin mənbəyi sayılan əsas üzvdür. Buna görə də yaradılışda onun önə keçməsi labüddür. Anatomiya alimlərinin xəbər verdiklərinə görə, onlar nütfə tamamlanıb kamilləşdikdən sonra onda qara bir nöqtə kəşf ediblər.

İlk olaraq yaradılan üzvün beyin olduğunu iddia edənlər isə bildirirlər ki, beyin canlılarda, xüsusən insanda ən başlıca üzvdür. O, bütün duyğuların mərkəzidir. Hissetmə, hərəkət və iradə isə canlılara xas olan bir şeydir və bunun mərkəzi də beyindir. Bütün bunlar beyindən qaynaqlanır. Hiss etmək, hərəkət və iradə canlılara məxsus olduğuna görə yaradılış da bu üzvdən başlanmışdır və o, yaradılışda ilk önə keçən üzvdür.

İlk yaradılan üzvün qara ciyər olduğunu söyləyənlər isə qeyd edirlər ki, qara ciyər canlıların var olduqları, həyat qazandıqları qidalanma və inkişafı təmin edən orqandır. Təbii nizamda yaradılan ilk üzvün qara ciyər olmasını gərəkli edir. Bundan sonra qəlb, daha sonra isə beyin gəlir. Çünki, canlı orqanizmin ilkin mövcudluq şərti onun inkişaf etməsi ilə başlayır. Bu müddət ərzində onun hissiyyata, hərəkətə, iradəyə ehtiyacı yoxdur. Həmin mərhələdə o bitki kimi olur. Belə olduqda isə onun inkişaf etməkdən başqa heç bir şeyə ehtiyacı qalmır. Buna görə də hissetmə və iradə qüvvəsi ruh verildiyi zaman meydana gəlir. Bu da onun yaradılış mərhələsinin dördüncü dövründə baş verir. Belə olduğuna görə də onun ilk yaradılan üzvü, inkişaf aləti sayılan qara ciyər olur. Bu anatomiya mütəxəssislərinin də təsdiq etdikləri məqamdır. Hətta onlar ittifaq ediblər ki, canlıların bədənində ilkin yaradılmış və görünən şey bir-birinə yaxın olan üç nöqtədir. Baxıldığı zaman bu nöqtələrin ardıcıllıqla qara ciyər, qəlb və beyin olma ehtimalı yaranır. Sonra hamiləlik müddətində böyüyərək bir-birindən uzaqlaşırlar. Anatomiya alimləri yalnız bu qədərini araşdıraraq bu nəzəriyyəni irəli sürmüşlər. Bu nöqtənin yaradılış yönündən ən birinci və daha ilkin olmasına gəldikdə isə, onların dəlilləri yalnız yaradılış baxımından irəli sürülmüş nəzəriyyəni, bunun məntiqə daha uyğun olmasını və müəyyən

elmi müqayisəni əhatə edir. Onun üçün bundan başqa açıq dəlil mövcud deyildir. Allah I ən doğrusunu biləndir!

**Fəsil**

Bundan sonra ayrı-ayrılıqda bədən üzvləri, sümüklər, damarlar öz ölçüsündə yaradılır. Sonra ona eşitmək, görmək və dadbilmə orqanları verilir. Sonra boğaz nahiyəsi yaradılaraq ona dil verilir. Şəkli və surət cizgiləri müəyyən edilir. Sümüklərinə ət geydirilərək möhkəm bağlantı ilə bir-birinə bağlanır. Uca Allah`ın I "xilqət" dediyi budur:

نَّحۡنُ خَلَقۡنَٰهُمۡ وَشَدَدۡنَآ أَسۡرَهُمۡۖ

**"Biz onları yaratdıq və xilqətini möhkəmlətdik." (İnsan 28)**

İmam Əhmədin Safvan ibn Məhrazdan rəvayət etdiyinə görə, o, belə demişdir: "Allah`ın Peyğəmbəri Davud U Allah`ın I əzabını xatırlayanda oynaqları az qala yerindən qopardı. Onu  yalnız xilqəti bundan qurtarardı. Allah`ın I rəhmətini xatırlayanda isə özünə gələrdi".

**Fəsil**

Hippokrat "Embrionlar kitabı"nın üçüncü məqaləsində belə qeyd etmişdir: "Mən sənə spermanın inkişafı haqqında gördüklərimi danışacam. Çox gözəl olan bir cariyə qadın var idi. O, qiyməti azalmasın deyə hamilə qalmaq istəmirdi. Həmin cariyə, qadınların belə dediyini eşitmişdi. Qadın hamilə olarsa, kişinin mənisi onun içindən çıxmaz, əksinə bətnində yığılıb qalar. O, bunu anladı və məninin içindən çıxmasını gözləməyə başladı. Bir neçə vaxtdan sonra məninin ondan xaric ol-

madığını hiss etdi. Bu xəbər mənə çatdı. Mən də ona arxa tərəfə yüksəkdən tullanmağı tövsiyyə etdim. O, yeddi dəfə tullandı və ondan sanki üst qabığı soyulmuş, bişirilməmiş yumurtaya bənzəyən nütfə çıxdı. Onun rütubətliliyi üst örtüyünün içərisində qorunub saxlanmışdı". O, sözünə davam edərək deyir: "Mən, həmçinin deyirəm ki, ananın uşaqlığında embrionun qidalanması üçün əlavə maddələr vardır. O görsənən şey isə ağ incə damarlar idi. Mən onu göbəyin ortasında görmüşəm. O göbəkdən başqa bir yerdə də olmur. Çünki ruh bədənə ancaq buradan yol tapır". Bundan sonra o, belə davam edir: "Mən daha bir şey söyləyəcəm ki, onu bu elmin ardınca gedən hər bir kəs bilir. Onu müqayisələrlə izah etməyə çalışacam. Sperma örtünün içərisində olur və o, qadının daxilində toplaşan qandan qidalanaraq uşaqlığa düşür. Sperma havanı soraraq bu örtünün içində tənəffüs edir. O, uşaqlıqdan gələn qan vasitəsi ilə inkşaf edir. Əgər qadının sağlam bir uşağı olacaqsa, o hamilə olub doğacağı zamana qədər ondan heyz qanı xaric olmur. Bu hal isə hamiləliyin birinci ayından doqquzuncu ayına kimi davam edir. Bətndəki qanın hamısı nəfəsi içəri ötürmək şərtilə embrionun ətrafında üst örtükdə toplaşır. Göbək, embrionun qidalanması üçün ona açılan yeganə yoldur ki, ondan qidalanaraq inkşafını saxlayır".

O həmçinin yazır: "Sperma bir müddət orada qaldıqdan sonra onun üzərinə başqa bir örtük yaradılır və daxildən birinci örtüyə tərəf genişlənir və müxtəlif formalara düşür. Onun mövcudluğu birinci örtükdə olduğu kimi qalır. Birinci örtükdən sonra ilk olaraq digəri ikinci aydan sonra, bir digəri də üçüncü ayda yaradılır. Bunların hamısının faydası isə dərhal gerçəkləşmir. Bəzisi axırda üzə çıxır. Buna görə də bəzisi birinci ayda, bəzisi ikinci, bəzisi də üçüncü ayda yaradılır. O gö-

bəkdə sanki bir-birinə bağlanmış kimidir. Örtüyün ortasında ondan tənəffüs edərək böyüyür.

Qan endikcə,embrion ondan qidalanır və hər dəfə də qanla onun arasına örtük daxil olur. Buna görə də Uca Allah I buyurur:

يَخۡلُقُكُمۡ فِي بُطُونِ أُمَّهَٰتِكُمۡ خَلۡقٗا مِّنۢ بَعۡدِ خَلۡقٖ فِي ظُلُمَٰتٖ ثَلَٰثٖۚ

**“O sizi analarınızın bətnlərində üç zülmət içərisində yaranış ardından yaranışa salaraq yaradır.”** (Zumər 6)

Bu örtüklərdən hər birinin özünəməxsus qaranlığı vardır. Allah I məxluqunun yaradılış dövrlərini və keçid mərhələlərini bildirmişdir.

Təfsir alimləri deyirlər ki, bu ayədəki üç qaranlıq deyildikdə bətndaxili qaranlıq, uşaqlığın qaranlığı və uşaqlıq pərdəsi olan ciftin[206] qaranlığı nəzərdə tutulur. Bu örtüklərin hər biri embrionun üzərindədir. Bəzi təfsirçilər isə deyirlər: “Bu ataların belində, anaların bətnində və uşaqlıq pərdəsinin içində olan qaranlıq anlamındadır. Bu görüşlərdən ən zəif olanı isə bu qaranlıqlar gecənin, ana bətninin və uşaqlığın qaranlığıdır deyənlərin rəyidir. Çünki, gecə və gündüz embriona nisbətdə eynidir.

Hippokrat deyir: “Qadın hamilə olduğu zaman uşaqlığa düşən və onun ətrafında toplanan qandan ağrı hiss etmir. Heyz vaxtında keçirdiyi zəifliyi də bu zaman hiss etmir. Çünki, qan ondan hər ay xaric olmur. Lakin o, hər gün az-az sakit şəkildə hərəkətlənərək heç bir ağrı hissi vermədən uşaqlığa

[206] Tibbi termin olaraq “plasenta” deyilir.

daxil olur. Uşaqlığa daxil olduğu zaman embrion ondan qidalanaraq inkişaf edib böyüyür. Bundan az bir müddət sonra isə embrionda ət və cəsəd yaradıldıqda üzərində örtük meydana gəlir. Rüşeym böyüdükcə həmin örtük də böyüyür və embrionun xaricini örtən bir oyuq halına gəlir. Ananın qanı uşaqlığa düşdüyü zaman embrion onu özünə çəkərək qidalanır və ətini artırır. Yararsız qanlar isə onun üzərində olan örtük kanallarına enir. Bununla da uşaqlıq ciftindən gələn qanı qarşılamaq üçün yaranan oyuq örtüyə çevrilir.

Embriounun inkişafı tamalandıqdan sonra şəkli kamilləşir və örtüyün genişliyi qədərində qidalanması üçün qanı daha çox qəbul edir, yuxarıda qeyd etdiyimiz uşaqlığın örtüyü üzə çıxmağa başlayır. Onun daxili genişləndikcə, xarici də genişlənir. Çünki xarici hissənin genişlənməsi daha önəmlidir. Məhz buna görə də hamilə qadın heyz olmur. Hamilə olduğu müddətcə o qan görərsə, bu adi damar xəstəliyi qanıdır, adətə bağlı heyz qanı deyildir". Bu rəy Aişədən ℊ nəql olunmuş iki rəvayətdən biridir. İmam Əhmədin də məzhəbində bu görüş məşhurdur. Həmçinin Əbu Hənifənin də məzhəbi budur. İmam Şafii isə Aişədən ℊ nəql edilən ikinci rəvayəti doğru qəbul etmiş və şeyximiz də İmam Əhməddən gələn ikinci rəvayətini doğru görüş olaraq seçmişdir. Yəni əgər hamilə qadından normal heyz olduğu günlərdəki kimi qan gələrsə, bu heyz qanı sayılır. Zahir olan görüşə görə, bu vəziyyətdəki qadın namaz, oruc və heyzə haram olan hər şeyi tərk etməlidir. Allah I və Onun Rasulu ρ heyz olma vaxtına istisna edilən bir zaman təyin etməmişdir. Uşağın qidasına sərf edilən qan isə məlumdur ki, bu qidalanma əsnasında artıq qalıb xaric ola bilməz. Belə olduğuna görə, uşağın qidası olan qanla ananın heyzi arasında heç bir qarışıqlıq yoxdur.

Digər görüşü müdafiə edənlər isə bu hədislə dəlil gətirirlər: "(Boşandıqdan sonra) Hamilə qadınla doğana kimi, qısır qadınla isə bir dəfə heyz olana kimi cinsi əlaqədə olmaq olmaz".[207] Burada heyz olmaq hamilə olmamağın dəlilidir. Əgər hamilə heyz olarsa, o zaman bu onun hamilə olmadığına dəlildir. Başqaları isə buna belə cavab verirlər: "Heyz olmaq zahiri əlamətdir. Hamiləlik üzə çıxdığı zaman isə o, dəlil olmur. Buna görə də zahirən iddətin bitməsinə heyz olmaqla hökm verilir. Sonra məlum oldu ki, qadın hamilədir. Peyğəmbər ρ qadınları iki qismə bölmüşdür. Birincisi, hamiləliyi bilinən qadın, ikincisi isə hamilə olması zənn edilən qadındır. Birincinin iddət müddəti hamiləliyin sona çatması, ikincisi isə heyz olması ilə bilinir. Hədisin dəlalət etdiyi məna da budur. O hamilə qadının, heyz qanı görərsə belə onun, oruc tutub, namaz qıla bilməsinə dəlil deyildir.

**Fəsil**

Hippokrat demişdir: "Sümüklər istilik səbəbi ilə möhkəmlənir. Çünki, hərarət onlara güc verərək möhkəmlədir və ağacların bir-birinə sarıldığı kimi onları bir-birinə bağlayır. Sinir lifləri həm xaricdə, həm də daxildə yaradılmışdır. Baş iki çiyin arasına, ayaqlar və əllər hər iki yandan, cinsiyyət üzvü isə iki ayağın arasında yaranaraq inkşafa başlayır. Oynaqlar arasında onları bir-birinə möhkəm bağlayan sinir lifləri qoyulur". Bu, insanın (ayədə qeyd olunan) möhkəm xilqətini təşkil edən quruluşudur. Bundan sonra Hippokrat sözünə davam edərək yazır: "Ağız da qidanı qəbul edən tərzdə, burun və qulaqlar

[207] İmam Əhməd "əl-Musnəd", Əbu Davud, Darimi. Albani hədisin səhih olduğunu demişdir.

da ətdən yaradılır. Sonra qulaq dəliyi və gözlər yaradılır və hər ikisi də saf, təmiz rütubətlə doldurulur".

Peyğəmbər ρ səcdədə ikən  belə dua edərdi: "Üzüm onu yaradana, ona şəkil verənə, qulağımı və gözümü var edənə səcdə etdi"[208] Buradakı "və" bağlayıcısı tərtibi ifadə etməsə də qulaq kəlməsinin sözdə önə keçirilməsi onun yaradılışda da öndə olduğuna uyğun gəlir. Bundan sonra bağırsaq genişlənir və oyuğu əmələ gəlir. Nəfəs ağıza və buruna yüksələrək onlara daxil olur. Qarın və bağırsaq açılır, nəfəs ağızdan göbək vasitəsilə xaric olur. Bu proseslər tamamlandıqdan sonra artıq embrionun xaric olma vaxtı gəlir. Mədəsindən və bağırsağından artıq olan şeylər sidiklik yoluna düşür. Mədə və bağırsağından sidikliyə yol olur. Oradan da sidiyin axarı ilə axır. Bunların hamısı isə oyuğun daxili sorması vasitəsilə inkişaf edərək genişlənir və onunla da bir-birindən öz formaları nisbətində ayrılır. Qarın genişləndiyi zaman bağırsağın oyuğu bəlli olur və orada zəruri olaraq sidiklik və sidik kanalına yol əmələ gəlir.

Məni (sperma) mürəkkəb formaya düşdüyü zaman onun bütün tərkibi öz yerində formalaşır. Sümük sümüyə, sinir lifləri bir-birlərinə keçirilir, həmçinin orqanlar da eynilə yaradılır. Bundan sonra isə embrion mürəkkəb forma alır. Biz bəzən qadınlarda embrionların fəsada uğradığını və otuz gündən sonra da ondan xaric olduğu hallarına rast gəlirik. Embrionun mürəkkəb formaya çevrildiyini görürük. Bu düşmüş olan embrionu müşahidə etməklə görülür. Çünki o düşdüyü zaman bizim təzyiqimizlə düşmür, əksinə öz-özünə düşür. Embrion mürəkkəb formaya düşdükdən sonra orqanla-

[208] Müslim: 771, Əbu Davud, İbn Hibban, Əhməd.

rı böyüyür, sümükləri bir-birinə birləşdiyi zaman hərəkətlənir. Bədəndən qidalandırıcı qanı və yağları soraraq ağacın başında olduğu kimi sümükləri hərəkətə keçir. Beləcə embrion müxtəlif formalara çevrilir.

### Fəsil

Hippokrat həmin kitabın ikinci məqaləsində belə yazır: "Bundan sonra embrion mürəkkəb hala gəlir. Kişi cinsini təmsil edən embrionun tam forma alması otuz iki gün, qadın cinsini təmsil edən emrionun formalaşması isə qırx iki günə tamamlanır. Bəzən bu günlərin sayı daha artıq və ya daha az ola bilər. Embrion əgər erkəkdirsə, otuz iki günə tamamilə öz formasını alır. Əgər dişidirsə, qırx iki günə tamamlanır. Biz bu hala qadının nifasdan təmizləndiyi zamanda da rast gəlirik. Çünki o qız doğarsa onun nifasdan təmizlənmə vaxtı adətən qırx iki gün çəkir. Bu isə qadın üçün nifasın ən uzun çəkən müddətidir. Ancaq nadir qadınlarda həmin müddət otuz beş gün ola bilər. Əgər oğlan dünyaya gətirərsə, qadın bu qandan otuz iki günə təmizlənir. Bu hal daha da çox uzana bilər. Bəzi qadınlar isə iyirmi beş gündən sonra nifas halından azad olur".

Hippokrat mövzunu davam etdirərək yazır: "Heyz qanı embrionun çıxdığı yerdən xaric olur. Oğlan uşağının embrionu otuz iki günə şəklini aldığı kimi, ananın da doğuşdan sonra nifas qanından təmizlənməsi otuz iki gün çəkir. Qadın qız dünyaya gətirdiyi zaman isə qırx iki günə təmizlənir. Nifaslı qadınlarda doğuşdan sonra bu günlərdə qanın gəlməsinin səbəbi budur ki, o hamilə olduğu zaman rüşeym yaradıldığı ilk gündən inkişafı tamamlanana qədər çox qidalanmağa möhtac deyildi. Qırx iki günü tamamlandıqda artıq lazım olduğu qədər qidalanır. Bu qırx gün ərzində toplaşıb, rüşeymə

düşən qan qadın doğana kimi onun bətnində qalır. Doğuşdan sonra qırx gün ərzində xaric olur".

Mən deyirəm ki, bu fəsildə Allah Rəsulundan ρ iki səhih hədis nəql olunmuşdur. Biz bu hədisləri və onların bir-birini necə təsdiq etdiyini qeyd edəcəyik. Bundan sonra yenə də Hippokratın dediklərini təqib edərək, Allah`ın I gücü və qüvvəti, müvəffəqiyyəti, öyrətməsi və irşadı ilə orada olanları bəyan edəcəyik.

Buxari və Müslimin İbn Məsudun τ rəvayət etdiyi hədisdə deyilir: "Doğru danışan və sadiqliyi təsdiq edilmiş Allah Rəsulu ρ bizə belə dedi: "Sizlərdən hər kəs anasının bətnində xəlq edilərkən ilk qırx gün ərzində nütfə halında, sonrakı qırx gündə qan laxtası, daha sonrakı qırx gündə isə ət parçası olur. Sonra Allah I (onun yanına) bir mələk göndərir. Bu mələyə dörd şey (yazmaq) əmr edilir və ona "(Bu uşağın) əməlini, ruzisini, əcəlini, bədbəxt və ya xoşbəxt olacağını yaz!"– deyilir. Sonra ona ruh üfürülür. Həqiqətən, içinizdən kimsə o qədər yaxşı işlər görə bilər ki, axırda onunla Cənnət arasında bir dirsək məsafə qalar. Lakin əzəldən yazılmış qədəri onu qabaqlayar və o, Cəhənnəm əhlinin əməlinə bənzər əməllər edərək oda düşər. (Həmçinin) biriniz o qədər pis işlər görər ki, axırda onunla Cəhənnəm arasında bir dirsək məsafə qalar. Lakin əzəldən yazılmış qədəri onu qabaqlayar və o, Cənnət əhlinin əməlinə bənzər əməllər edərək Cənnətə düşər".

Başqa bir rəvayətdə isə deyilir: "Adəm övladının yaradılışı öz anasının bətnində qırx günə tamamlanır". Başqa bir rəvayətdə: "Qırx gecədə" kimi qeyd olunur. Buxari demişdir: "Qırx gün, qırx gecəyə". Tam başqa bir yolla gələn rəvayətdə

isə belə keçir: “Sonra Allah I dörd kəlmə yazmaqla mükəlləf olan bir mələk göndərir. O isə əməlini, əcəlini, ruzisini və bədbəxt, yaxud xoşbəxt olacağını yazır. Sonra isə ona ruh üfürür”.[209]

Müslimin Hüzeyfə ibn Üseyddən τ rəvayət etdiyinə görə Peyğəmbər ρ buyurmuşdur: “Nütfə ana bətnində qırx yaxud qırx beş gecə qaldıqdan sonra mələk ora daxil olar və deyər: “Ey Rəbbim! Xoşbəxt olacaq ya bədbəxt?” və onu yazar. Sonra deyər: “Ey Rəbbim! Oğlan olacaq ya qız?” və onu yazar. Bundan sonra isə, onun əməlini, qoyacağı izləri, əcəlini və ruzisini yazar. Bundan sonra səhifələr bükülər və ora nə bir şey əlavə edilə bilər, nə də bir şey azaldılar”.[210]

İmam Əhməd Huzeyfə ibn Üseyd əl-Ğifaridən τ belə dediyini rəvayət edir: “Allah Rəsulunun ρ belə buyurduğunu eşitdim: “Nütfə ana bətnində qırx gecə qaldıqdan sonra mələk ora daxil olar və deyər: “Ey Rəbbim! Xoşbəxt olacaq ya bədbəxt?”. Allah I deyər və o yazar. Sonra deyər: “Ey Rəbbim! Oğlan olacaq ya qız?” Allah I deyər, o isə yazar. Bundan sonra isə, onun əməlini, qoyacağı izləri, müsibətini və ruzisini yazar. Bundan sonra səhifələr bükülər və ora nə bir şey əlavə edilə bilər nə də bir şey azaldılar”.[211]

Müslimin Amir ibn Vasilədən rəvayət etdiyinə görə, o İbn Məsudun τ belə dediyini eşidib: “Bədbəxt, anasının bətnində ikən bədbəxt olandır. Xoşbəxt olan başqasından ibrət alandır.

---

[209] Buxari: 3270, Müslim: 2643.
[210] Müslim: 2644.
[211] İmam Əhməd. Hədisin isnadı səhihdir.

O, Allah Rəsulunun ρ səhabələrindən birinin yanına gəldi. Onun adı Hüzeyfə ibn Üseyd əl-Ğifari τ idi. Həmin kişi ona İbn Məsudun τ belə dediyini danışdı. Sonra isə dedi: “Bir insan heç bir əməl etmədən necə bədbəxt ola bilər?” O isə cavabında dedi: “Sən buna təəccüblənirsən?, mən Allah Rəsulunun ρ belə buyurduğunu eşitdim: “Nütfə ana bətnində qırx iki gecə qaldıqdan sonra Allah I ona bir mələk göndərər. Ona şəkil verər və onun eşitməyini, görməyini, dərisini, ətini və sümüyünü yaradar. Sonra o: “Ey Rəbbim! Qadın yoxsa kişi?” – deyə soruşar. Rəbbin istədiyinə hökm edər, mələk isə onu yazar. Sonra: “Ey Rəbbim! Onun əcəli (necə olacaq)?” – deyə soruşar. Rəbbin istədiyini hökm edər və mələk yazar. Sonra: “Ey Rəbbim! Ruzisi (nədir)?” – deyə soruşar. Rəbbin istədiyini təqdir edər və mələk onu yazar. Bundan sonra mələk əlində səhifə ilə çıxar və oraya əmr olunduğu şeylərdən başqasını nə əlavə edər, nə də bir şey azaldar”.

Başqa bir rəvayətdə isə belə deyilir: “Bu iki qulağımla Allah Rəsulunun ρ belə buyurduğunu eşitdim: “Həqiqətən, nütfə ana bətnində qırx gün qaldığı zaman bir mələk onun üzərinə nazil olar....” Zuheyr dedi: “Hesab edirəm ki, o, belə dedi: “Hansı ki, onu yaradır. Sonra deyir: “Ey Rəbbim! Kişi yoxsa qadın?”. Allah I isə onu kişi və ya qadın olaraq xəlq edər. Sonra deyir: “ Sağlam olsun ya xəstə?”. Allah I onu sağlam və ya xəstə edir. Sonra deyir: “Ey Rəbbim! Ruzisi, əcəli və əxlaqı necə olacaq?” Sonra Allah I onu xoşbəxt və ya bədbəxt edir”.

Digər bir rəvayətdə isə deyilir: “Ana bətnləri ilə bağlı vəzifələndirilmiş mələk vardır. Allah I Öz izni ilə bir şey yaratmaq

istəyəndə, onu qırx və bir neçə gecə içərisində edir". Bundan sonra hədisin ardını rəvayət edir.[212] İbn Məsudun τ hədisi ilə, Hüzeyfə ibn Üseydin τ hədisləri bir-birinə uyğun gəlir. Hüzeyfə ibn Üseydin τ hədisi isə daha da müfəssəldir. Çünki orada bütün olanların ruh üfürülmədən öncə qırx günündən sonra nə baş verdiyindən söhbət gedir. Necə ki, Buxarinin bu haqda rəvayəti öncədən qeyd olunmuşdur.

İbn Məsudun τ hədisinə gəldikdə isə o, Hüzeyfənin τ hədisi ilə bir neçə yerdə demək olar ki, eynidir. Bu da qədərin qırx gündən sonra yazılmasının, bunun isə ruh üfürülməsindən öncə baş verməsinin açıqlamasıdır. Bu da həmçinin Buxarinin rəvayət etdiyi hədisdə də təqdim olunmuşdur. Onun rəvayəti belə idi: "(Bu uşağın) əməlini, ruzisini, əcəlini, bədbəxt və ya xoşbəxt olacağını yaz!"– deyilir. Sonra ona ruh üfürülür". Buradan da açıq görünür ki, qədərin yazılması və mələyin nə yazacağını soruşması ona ruh üfürülmədən öncə baş verir. Bu isə Hüzeyfənin τ rəvayət etidyi hədisə müvafiqdir.

Ancaq hədisin digər rəvayətinə gəlincə, orada əmr olunan kəlmələrin yazılmasının ruhun üfürülməsindən sonra baş verməsi açıq-aydın deyildir. Çünki, burada cümlə digərinə "və" (vav) bağlayıcısı ilə qoşulmuşdur. Onun özündən sonra gələn cümləyə də mənaca bağlanması (qrammatik olaraq) mümkündür. Həmçinin cümlənin özündən öncə gələn sözə mənaca bağlanması da mümkündür. Yəni oradan çıxan məna belədir: Onun yaradılışı bu mərhələlərdə inkşaf edir və mələk onun ruzisini, əcəlini və əməlini yazmaqla əmr olunur. İki cümlə arasında gələn "sonra ona ruh üfürülür" ifadəsi ruhun üfürül-

[212] Müslim: 2645.

məsinin nütfə, qan laxtası və ət parçası olma mərhələlərindən sonra olacağını bəyan edir. Diqqət etsək görərik ki, bu hədisdə də "sonra" sözü ilə ruh üfürülməyi, "dörd kəlmə ilə əmr edilər" sözündən ayrıdır. Bu isə Allah`a I həmd olsun ki, digər hədislərlə mənaca eyni mənaya gəlir.

Burada sual yaradacaq bir məsələ də mövcuddur. Hüzeyfənin τ rəvayət etdiyi hədis yaradılışın başlanığıcının ilk qırx gündən sonra olduğunu, İbn Məsudun τ hədisi isə üçüncü qırx gündən sonra başlandığını göstərir. Onları ortaq məxrəcə necə gətirmək olar? Buna cavab belə verilmişdir: Hüzeyfənin τ hədisinə gəldikdə isə orada yaradılışın ilk qırx gündən sonra olduğu açıqlanır. İbn Məsudun τ hədisində isə, yaradılma və şəkil verilmə (öz formasını alma) vaxtı haqqında məlumat verilmir. Sadəcə nütfənin hər qırx gündə mərhələli inkşafından və üçüncü qırx gündən sonra isə ona ruh üfürülməsindən söhbət gedir. Bu isə Hüzeyfənin τ hədisi ilə ziddiyyət təşkil etmir, əksinə o, digər məlumatları ilə xüsusiləşmişdir. Həmçinin iki hədis birlikdə ilk qırx gündən sonra baş verəcək işi birgə xəbər vermişdir.

Hüzeyfənin τ rəvayət etdiyi hədisdəki yaradılışın başlanğıcının və onun şəkil almasının qırx gündən sonra olduğunu bildirməsi məlumatı, İbn Məsudun τ hədisinə görə üçüncü qırx gündən sonra ruh üfürülməsi məlumatını verməklə özözlüyündə xüsusiləşmişdir. Ancaq iki hədis də mələyin qədəri yazdığı müddətdə öz Rəbbindən izin istəməsi barəsində müştərək olmaqla, Allah Rəsulunun ρ sözlərinin bir-birini təsdiq etdiyinə dəlalət edirlər.

İbn Məsudun τ hədisində iki önəmli məsələ vardır: Nütfənin halı ilə onun müxtəlif formalara çevrilməsi və mələyin Rəbbinin təqdir etdiklərini yazması. Peyğəmbər ρ Bu hədisdə əsasən bu iki məsələ haqqında xəbər vermişdir.

İmam Əhməd Abdullah ibn Məsuddan τ Allah Rəsulunun ρ belə buyurduğunu demişdir: "Nütfə ana bətnində qırx gün ərzində öz halında qalaraq dəyişikliyə uğramır. Onun üzərindən qırx gün keçdikdən sonra qan laxtası əmələ gəlir. Bundan sonra ət parçasına, daha sonra isə sümüyə çevrilir. Allah I quluna tam forma vermək istədikdə onun yanına mələk göndərər. Gələn mələk deyər: "Ey Rəbbim! Kişimi yoxsa qadınmı (olacaq)? Xoşbəxtmi yoxsa bədbəxtmi (olacaq)? Qısa boylumu yoxsa hündür boylumu (olacaq)? Naqismi yoxsa qüsursuzmu (olacaq)? Ruzisi və əcəli (necə olacaq)? Sağlammı yoxsa xəstəmi (olacaq)?" Sonra dedi: "Bundan sonra onların hamısını yazdı".[213] Bu hədisdə tam olaraq problemin həlli vardır. O, üçüncü qırx gündən sonra insanın formasının tamamlandığını və eyni zamanda da ona ruh verildiyini bəyan edir.

Şübhə yoxdur ki, hədis ruhun üfürlməsi ilə yanaşı ilk qırx gündən sonra yaradılışın baş verməsi ilə nələr olduğunu açıqlayır. İlk hədis yaradılışın başlanğıcını, bu isə ona şəkil verilməsindən və ona yazılan qədərin yazılıb tamamlanmasından bəhs edir. Bu, Allah`ın I göydən öncə yeri yaratmasına bənzəyir. O, göyü yaratmış bundan sonra isə yerə forma verərək onu döşəmiş, beşik edərək yaradılışını tamamlamışdır. Bu ya-

---

213 Əhməd. Hədisin sənədində bəzi zəiflik və kəsinti vardır.

radılış ardıcıllığı insanın sakin olduğu yerdə də, onun özündə də özünü göstərməktədir. Yer üzündə bitkilərin böyüməsi və formaya düşməsi tədricən baş verməsi kimi, insanın başlanğıc forması olan nütfədə də özünü göstərir və ilk qırx gündən sonra tədricən inkişaf etməyə başlayır. Bu təkcə bitkilərdə deyil, elə heyvanlarda da rast gəlinən haldır, yumurtanın ilk günündən sona qədər olan zamana diqqət etsək, bunu müşahidə etmək mümkündür. (İlk baxışda bir-birinə ziddiyyətli görünən hədisləri cəm etdikdən sonra) Bütün bunlardan o nəticəyə gəlmək olar ki, əslində problem nöqsansız olan Allah`ın I kəlamında, yaxud Allah Rəsulunun ρ sözündə deyil, fəhmsizlikdə və onu doğru-düzgün anlamamaqdadır. Allah I kömək olsun!

Allah`a I həmd olsun ki, bəyan etdiyimiz bu açıqlama kifayət edər. Müvəffəqiyyət Allah`dandır I.

**Fəsil**

**Hamiləlik müddəti və bu zaman ərzində rüşeymin fərqli hallara düşməsi**

Uca Allah I buyurur:

وَوَصَّيۡنَا ٱلۡإِنسَٰنَ بِوَٰلِدَيۡهِ إِحۡسَٰنًاۖ حَمَلَتۡهُ أُمُّهُۥ كُرۡهٗا وَوَضَعَتۡهُ كُرۡهٗاۖ وَحَمۡلُهُۥ وَفِصَٰلُهُۥ ثَلَٰثُونَ شَهۡرًاۚ

**Biz insana ata-anasının qayğısına qalmağı tövsiyə etdik. Anası onu bətnində əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun bətndə daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir.** (Əhqaf 15)

Allah I ayədə hamiləliyin və süd əmizdirmə müddətinin otuz ay ərzində davam etdiyini bildirir. Bəqərə surəsində isə ayrıca şəkildə süd əmizdirmənin tam iki il olduğunu xəbər vermişdir. Bilinən odur ki, qalan zaman müddəti hamiləliyin kamilləşməsi üçündür. Belə ki, hamiləliyin əsas müddəti altı aya bərabərdir. Ona görə də, bütün fəqihlər ittifaq etmişdir ki, hamilə qadın altı aydan tez bir müddətdə doğa bilməz. Əgər o baş verərsə bu hal uşaq düşürmə halı kimi qeyd olunur. Bu hökmü onlar səhabələrdən gələn elmlə əldə etmişdilər.

Beyhaqi və başqalarının rəvayətinə görə, Ömərin τ yanına (evliliyindən sonra) altı ay müddətində doğmuş bir qadın gətirdilər. Ömər τ onu rəcm etməyə qərar verdi.[214] Bu xəbər Əliyə τ çatdıqda o, belə dedi: "Ona rəcm düşmür". Ömər τ bunu eşitdikdə onun yanına adam göndərərək bunun səbəbini soruşdu. O cavabında dedi:

وَٱلْوَٰلِدَٰتُ يُرْضِعْنَ أَوْلَٰدَهُنَّ حَوْلَيْنِ كَامِلَيْنِ ۖ لِمَنْ أَرَادَ أَن يُتِمَّ ٱلرَّضَاعَةَ

**Analar öz övladlarını tam iki il əmizdirsinlər. Bu, əmizdirməni tamamlamaq istəyənlər üçündür.** (Bəqərə 233)

وَحَمْلُهُۥ وَفِصَٰلُهُۥ ثَلَٰثُونَ شَهْرًا

[214] Çünki o elə düşünürdü ki, qadın evlilikdən doqquz ay sonra doğmalıdır.

Altı aya doğarsa öncədən zina etmişdir anlamına gəlir. Ancaq həzrəti Əli τ bunu quranla isbat etdi ki, altı aylıq hamiləliyə Quranda dəlil vardır. Hamiləlik və süd əmizdirmə dövrü ümumilikdə 30 ay göstərildiyi halda, digər ayədə süd əmizdirmə dövrü 2 il göstərilmişdir. Yəni 30 ay-(2il=24ay) =30-24= 6

**Onun bətndə daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir.** (Əhqaf 15) Altı ay onun hamiləlik müddəti, tam iki il isə onun süd əmizdirmə müddəti olduğu üçün ona rəcm düşmür". Bundan sonra Ömər τ onu rəcm etdirmədi".[215]

İmam Malik "əl-Muvatta"da rəvayət edir ki, Osmanın τ xəlifəliyi zamanında onun da yanına (evliliyindən sonra) altı aya doğmuş bir qadın gətirdilər. Osman τ onun rəcm edilməsini əmr etdi. Xəbər Əliyə τ çatdı və o dedi: "Onu rəcm etmək olmaz. Çünki Uca Allah I buyurur:

وَحَمۡلُهُۥ وَفِصَٰلُهُۥ ثَلَٰثُونَ شَهۡرًا

**Onun bətndə daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir.** (Əhqaf15)

وَوَصَّيۡنَا ٱلۡإِنسَٰنَ بِوَٰلِدَيۡهِ حَمَلَتۡهُ أُمُّهُۥ وَهۡنًا عَلَىٰ وَهۡنٖ وَفِصَٰلُهُۥ فِي عَامَيۡنِ أَنِ ٱشۡكُرۡ لِي وَلِوَٰلِدَيۡكَ إِلَيَّ ٱلۡمَصِيرُ ١٤

**Onun süddən kəsilməsi isə iki il çəkir.** (Loğman 14) Osman τ bunu öyrənincə bu işdən çəkinməyi əmr etdi, lakin o artıq rəcm olunmuşdu.

İbn Abbasdan τ belə dediyi rəvayət edilmişdir: "Əgər qadın doqquz ayında doğarsa, ona uşağını iyirmi bir ay əmizdirməsi kifayət edər. Əgər yeddinci ayında doğarsa, ona uşağını iyirmi üç ay əmizdirməsi kifayət edər. Əgər altıncı ayda

---

[215] Bu hədisə Beyhaqinin "Sunənu`l-Kubra" kitabında rast gəlmədik. Ola bilsin o bunu "Şuəbu`l-İman" yaxud başqa kitabında rəvayət edib. Ancaq bu hədisi Suyuti, Abdu`r-Razzaq və s. rəvayət etmişdir. Hədisin isnadında qopuqluq vardır.

doğarsa, bu zaman da iyirmi dörd ay əmizdirməsi kifayət edər. Uca Allah I buyurur: **“Onun bətndə daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir...”**

Uca Allah I buyurur:

ٱللَّهُ يَعۡلَمُ مَا تَحۡمِلُ كُلُّ أُنثَىٰ وَمَا تَغِيضُ ٱلۡأَرۡحَامُ وَمَا تَزۡدَادُۖ وَكُلُّ شَيۡءٍ عِندَهُۥ بِمِقۡدَارٍ ٨

**Hər bir dişinin bətnində nə daşıdığını, bətnlərin nəyi əskildib, nəyi artıracağını Allah bilir. Onun yanında hər şeyin müəyyən ölçüsü vardır.** (Rad 8)

İbn Abbas τ ayənin təfsiri haqqında demişdir: “**Bətnlərin nəyi əskildib...”** – yəni doqquz aydan tez doğulacağını, “**nəyi artıracağını...”** – yəni doqquz aydan gec doğulacağını Allah I bilir. Onun bu təfsirini əshabından olan Mücahid, Səid ibn Cübeyr də təsdiqləmişdir. Həmçinin, Mücahid demişdir: “Əgər qadın uşağı bətnində ikən heyz olarsa bu ayədəki “**nəyi əksildəcəyini”** açıqlayan mənadır. Bu uşağın doğumunda baş verən naqislikdir. **“Nəyi artıracağını”** sözünün mənası isə əgər qadının doğuş vaxtı doqquz aydan sonraya gecikərsə, bu uşaqda baş verən naqisliyin tamamlanması üçün olması anlamındadır. Ayədə keçən “əl-Ğayd” sözünün mənası hamilə qadının bu müddətdə gördüyü heyz qanıdır ki, bu doğumda olan nöqsandır. Artırılma isə onun doqquz aydan bir az da gecikərək bu nöqsanın tamamlanması üçündür”.

Həsən demişdir: **“Bətnlərin nəyi əksiltdiyi...”** yəni vaxtından öncə düşmüş uşaq, **“Nəyi artırdığını...”** yəni on aylığında doğuşu olan qadın mənasındadır”. İkrimə demişdir: **“Bətnlərin əksiltdiyi”** hamiləlikdən sonrakı heyzdir. Hamilə olduğu

halda qadın hər gün qan görərsə, adi günlərdəki təmiz olduğu günlərin sayı artır. Hamiləlik müddətində heyz olduğu hər gün bərabərində hamiləliyin müddəti də uzanır".

Qatədə demişdir: "Ayədəki əl-Ğayd (əksiklik) vaxtından öncə düşən uşaq, artan isə doqquz aydan sonra doğulan uşaqdır".

Səid ibn Cübeyr demişdir: "Qadın hamilə olduğu müddət ərzində qan görərsə bu, uşağın əksikliyini və onun qidasının azaldığını, həmçinin hamiləliyin müddətinin artırıldığını ifadə edir".

Ayədən ortaya çıxan məna odur ki, Uca Allah I hamiləliyin müddətini, nəyin artıq və nəyin əksik olacağını biləndir. O, sizdən fərqli olaraq bunu biləndir. O hər bir canlının bətnində daşıdığının kişi və ya qadın cinsində olacağını da bilir. Bu Allah`dan başqa kimsənin bilmədiyi qeybi xəbərlərdən biridir. Səhih bir hədisdə Peyğəmbərin ρ belə buyurduğu rəvayət olunur: "Qeybin açarları beşdir. Onları Allah`dan I başqa heç kim bilməz. Qiyamətin nə vaxt qopacağını Allah`dan I başqa heç kim bilməz. Sabah nə olacağını Allah`dan I başqa heç kim bilməz. Yağışın nə vaxt yağacağını Allah`dan I başqa heç kim bilməz. Bətnlərdə olanı Allah`dan I başqa heç kim bilməz. Heç bir kəs özünün hansı yerdə öləcəyini bilməz, bunu yalnız Allah I bilər".[216]

[216] Buxari: 1039, Əhməd.

Beləliklə də, Allah I bətnlərdə olanın nə olacağını bilən vahid və təkdir. Onun bətndə nə qədər qalacağını, bədənindən nəyin artıb, nəyin azalacağını yalnız O bilir.[217]

**Fəsil**

İnsanın yaradılışından bəhs edən bir qrup iddia edir ki, eşitmə və görmə insana doğuşdan, anasının bətnindən çıxdıqdan sonra verilir. Bu görüşlərinə də aşağıdakı ayəni dəlil gətirirlər: **Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxardı, sizə qulaq, göz və ürək verdi ki, bəlkə şükür edəsiniz.** (Nəhl 18)

Onlar bu ayəni dəlil olaraq göstərib insanın ana bətnində heç bir şey görmədiyini və heç bir səsi eşitmədiyini deyirlər.

[217] Dövrümüzdə hava praqnozlarının verilməsi, yaxud müəyyən cihazlar vasitəsi ilə uşağın cinsiyyətinin təyin edilməsi bu hədisə heç bir ziddiyyət təşkil etmir. Çünki onlar müəyyən əlamətlər yaxud hesablamalar vasitəsilə nəticəsi gözlənilən hadisələr haqqında öncədən proqnozlar verirlər. Bu müəyyən sürətlə gələn avtomobilin müəyyən bir məsafəni hesablama yolu ilə bəlli bir zamana qət edəcəyini elan etməyə bənzəyir. Çünki sürət və məkan bəlli olduğu zaman, onları hesablayaraq tapmaq mümkündür. Ancaq Allah`ın I qeybi bilməsi hələ öncədən uşağın cinsiyyətinin təyin edilməsi, onun xoşbəxt və ya bədbəxt olması, ruzisini, əcəlini və s. bilməsidir ki, bunu Ondan başqa heç kim bilə bilməz. Həmçinin yağışın öncədən bilinməsi əlamətlərsiz yalnız Allah`a I məxsusdur. Təcrübə onu göstərir ki, zamanımızda verilən proqnozlar bəzən yanlış nəticə ilə də sonlanır. Məsələn cihazın oğlan dediyi halda qız, qız dediyi halda oğlan doğulma faktları dəfələrlə baş vermişdir. Yaxud havanın vəziyyəti verilən proqnozun tam əksi ilə özünü göstərmişdir. Bu isə qeybin mütləq olaraq Allah`ın I bilməsinə və insanların yalnız müəyyən təcrübəyə, əlamətlərə və hesablamalara dayalı proqnozlarının qeybdən xəbər deyil, əsaslı ehtimal olmasına açıq-aşkar dəlildir. (Tər.)

Çünki, ana bətnində ona eşitmə və görmə orqanının faydası yoxdur.

Əlbətdə bu deyilənlər doğru deyil. Ayədə də bunu dəstəkləyən heç bir dəlil yoxdur. Çünki, buradakı "vav" tərtib üçün deyil, əksinə bu ayə yuxarıda deyilənlərin əleyhinə dəlildir. İnsanın ürəyi anasının bətnində olduğu zaman yaradılır. Bu barədə Hüzeyfə ibn Üseydin τ rəvayət etdiyi hədis öncədən təqdim olunmuşdu. Doğru olan odur ki, nütfənin üzərindən qırx iki gün keçdikdən sonra Allah I ora bir mələk göndərir və ona surət verərək qulağını, gözünü, dərisini və ətini yaradır. Eşitmə və görmə qabiliyyəti bətndə verilir. Feillə idrak etmə qabiliyyətinə gəldikdə isə o, üzərindəki maneə örtüyünün yox olmasına bağlıdır. Bətndən çıxdıqdan sonra isə əməlinə hökm edildiyi şəkildə əməl edir. Ən doğrusunu Allah I bilir!

**Fəsil**

Uşağın ata-anasına və ya onlardan birinə oxşamasının, oğlan ya da qız olaraq doğulmasının səbəbi nədir? Bununla yanaşı, onun oğlan və ya qız olmasının hamiləlik zamanında bir əlaməti varmı? Allah I buyurur:

هُوَ ٱلَّذِي يُصَوِّرُكُمۡ فِي ٱلۡأَرۡحَامِ كَيۡفَ يَشَآءُۚ

**Bətnlərdə sizə istədiyi surəti verən Odur.** (Əl İmran 6)

Buxari və Müslim Ənəs ibn Malikdən τ belə dediyini rəvayət etmişlər: "Ummu Süleym Peyğəmbərdən ρ yuxusunda kişinin gördüyü şeyi (cünub olmağı) görən qadın barəsində soruşdu. Peyğəmbər ρ buyurdu: "Qadın bunu görəndə qüsl alsın". O zaman Ummu Süleym τ bundan utanaraq dedi:

“Belə şey ola bilərmi?” Peyğəmbər ρ buyurdu: “Bəli, bəs uşağın ana-ataya oxşaması necə olur? Kişinin sperması qalın və ağ, qadının sperması isə incə və sarı olur. Bu iki spermadan hansı biri digərinə üstün gəlib və ya birinci xaric olarsa, uşaq da ona oxşayır”.

Müslim Aişə ϑ anamızdan belə dediyini rəvayət etmişdir: “Bir qadın Allah Rəsulundan ρ soruşdu: “Əgər qadın cünub olub özündə sperma görərsə, qüsl edərmi?” Allah Rəsulu ρ “Bəli” deyə cavab verdi. Aişə ϑ o qadına dedi ki, Allah sənə bərəkət versin. (Yəni belə bir şey ola bilərmi?) Allah Rəsulu ρ buyurdu: “Onu rahat burax! Oxşarlıq başqa şeyə görə olurmu? Onun (qadının) sperması kişinin spermasını üstələyərsə, uşaq dayılarına (ana tərəfinə) oxşayar. Kişinin sperması onun spermasını üstələyərsə, uşaq əmilərinə (ata tərəfinə) oxşayar”.[218]

Müslim Sövbandan τ belə dediyini rəvayət etmişdir: “Allah Rəsulunun ρ yanında durmuşdum. Bu vaxt yəhudi rahiblərindən bir rahib gələrək: “Əssələmu aleykə, yə Muhəmməd” dedi. Bu zaman mən onu elə itələdim ki, az qala yıxılacaqdı. O dedi: “Məni niyə itələyirsən?” Mən dedim: “Sən ona Allah`ın Rəsulu demirsənmi?!” Yəhudi dedi: “Biz onu ancaq ailəsinin ona verdiyi adla çağırırıq”. Allah Rəsulu ρ buyurdu: “Həqiqətən də adım Muhəmməddir. Ailəmin mənə verdiyi ad budur”. Yəhudi dedi: “Mən sənə sual vermək üçün gəldim”. Allah Rəsulu ρ buyurdu: “Əgər səninlə danışsam bunun sənə

---

[218] Müslim: 314.

bir faydası olacaqmı?” Yəhudi dedi: “İki qulağımla eşidərəm. Allah Rəsulu ρ yanındakı çubuq ilə yerə cızıqlar çəkərək “soruş” deyə buyurdu. Yəhudi dedi: “Yer və göylər başqa bir şeylə dəyişdiriləcəyi gündə insanlar harada olcacaqlar? Allah Rəsulu ρ buyurdu: “Körpünün önündə zülmət içində olacaqlar”. Yəhudi dedi: “İnsanlardan körpünü ilk keçən kim olacaq? Allah Rəsulu ρ buyurdu: “Muhacirlərin kasıbları”. Yəhudi dedi: “Cənnətə girərkən onların hədiyyəsi nə olacaq?” Allah Rəsulu ρ buyurdu: “Balina ciyərinin artığı”. Yəhudi dedi: “Bəs onun ardınca nə yeyəcəklər?” Peyğəmbər ρ buyurdu: “Onlar üçün Cənnətin ətrafında otlayan cənnət öküzü kəsiləcək”. Yəhudi soruşdu: “Onun üstündən nə içəcəklər?” Allah Rəsulu ρ buyurdu: “Orada “Səlsəbil” adlanan bir bulaqdan içəcəklər”. Yəhudi dedi: “Doğru söylədin. Səndən elə bir şey soruşmaq istəyirəm ki, onu yer üzündə yaşayanlardan Peyğəmbər olan və bir-iki nəfərdən başqa heç kim bilməz. Allah Rəsulu ρ buyurdu: “Əgər onu sənə desəm, onun sənə bir faydası olacaqmı?” Yəhudi dedi: “İki qulağımla eşidərəm. Sənə uşağın necə yarandığını soruşmağa gəldim”. Allah Rəsulu ρ buyurdu: “Kişinin sperması ağ, qadının sperması isə sarıdır. Bunlar birləşəndən sonra kişinin sperması qadının spermasına üstün gələrsə, Allah`ın I izni ilə oğlan uşağı doğular. Əgər qadının sperması kişinin spermasına üstün gələrsə, Allah`ın I izni ilə qız doğular”. Yəhudi dedi: “Sən doğru söylədin. Həqiqətən də haqq olan peyğəmbərsən”. Sonra da çıxıb getdi. Allah Rəsulu ρ dedi: “Bu adam məndən soruşacağını soruşdu.

Ancaq, mən onun soruşduqlarından heç bir şey bilmirdim. O zamana qədər ki, Allah I onu mənə bildirdi".[219]

İmam Əhmədin "əl-Musnəd" kitabında İbn Məsuddan τ belə dediyi rəvayət olunur: "Allah Rəsulu ρ səhabələri ilə söhbət etdiyi vaxt bir yəhudi onun yanından keçirdi. Qureyşdən bir kişi belə dedi: "Ey yəhudi! Bu kişi özünün peyğəmbər olduğunu iddia edir". Yəhudi dedi: "Ona elə bir şey haqqında sual verəcəm ki, onu peyğəmbər olmayandan başqası bilməz. Bu zaman o gəldi və oturdu, sonra isə sual verdi: "Ey Muhəmməd! İnsan nədən yaradılır?" Allah Rəsulu ρ buyurdu: "Ey yəhudi! Hər ikisindən – qadın və kişinin nütfəsindən. Kişinin nütfəsi qalındır, sümüklər və damarlar ondan yaradılır. Qadının nütfəsi isə incədir. Ət və qan da ondan yaradılır". Yəhudi ayağa qalxaraq belə dedi: "Səndən öncəkilər də belə demişdi". [220]

Bu hədis bir neçə məsələni əhatə edir. Onlardan biri də budur ki, rüşeym (o zamanda yaşayan) materialistərin dediklərinin əksinə olaraq kişi ilə qadının suyundan yaradılır. Onlar isə rüşeymin yalnız kişinin suyundan yarandığını iddia edirlər. Allah I buyurur:

فَلۡيَنظُرِ ٱلۡإِنسَٰنُ مِمَّ خُلِقَ ٥ خُلِقَ مِن مَّآءٖ دَافِقٖ ٦ يَخۡرُجُ مِنۢ
بَيۡنِ ٱلصُّلۡبِ وَٱلتَّرَآئِبِ ٧

**Qoy insan nədən yaradıldığına bir baxsın! O, süzülüb tökülən bir mayedən yaradılmışdır. Bu maye bel və köks sümükləri arasından çıxır.** (Tariq 5-7)

---

[219] Müslim: 315.

[220] Hədis zəifdir.

Zuccəc demişdir: "Dilçi alimlər deyirlər ki, ayədə keçən "tərbiyə" sözünün mənası qadının boyunbağı asdığı yer, yəni köks sümüklərinin arasıdır. Bu bütün dilçilərin ümumi rəyidir. İbn Abbas τ ayənin təfsirində demişdir: "Burada kişinin beli ilə qadının köksü qəsd edilmişdir. Həmin yer isə boyunbağı asılan yerdir". Bu Kəlibnin, Muqatilin, Süfyanın və təfsir alimlərinin əksəriyyətinin görüşüdür. Bu görüş yuxarıdakı hədisə də müvafiqdir. Uca Allah`ın I yaratma metodu da iki əsl olandan (kişi və qadın cinsinin cütləşməsindən) törəməklə heyvanlarda, bitkilərdə və digər məxluqatda da belə davam etmişdir. Heyvanlar da erkək və dişinin suyundan yaradılırlar. Bitkilər də su, torpaq və hava ünsürlərindən, erkəkcik və dişicikdən yaranır. Buna görə də Allah I buyurmuşdur:

بَدِيعُ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِۖ أَنَّىٰ يَكُونُ لَهُۥ وَلَدٞ وَلَمۡ تَكُن لَّهُۥ صَٰحِبَةٞۖ وَخَلَقَ كُلَّ شَيۡءٖۖ وَهُوَ بِكُلِّ شَيۡءٍ عَلِيمٞ ١٠١

**O, göyləri və yeri icad edəndir. Onun zövcəsi olmadığı halda övladı necə ola bilər? Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir.** (Ənam 101)

Şübhəsiz ki, uşaq da yalnız kişi ilə qadının nütfəsindən yaranır. Bu hal ilk ata və anamız olan Adəm υ ilə Həvvanın yaradılışına ziddiyyət təşkil etmir. Həmçinin İsa Məsihin υ də yaradılışına əks deyildir. (Bunlar istisna hallardır) Allah I Adəmin υ torpağını palçıq olana qədər su ilə qarışdırdı. Sonra bişmiş gilə çevrilənə qədər hava və günəşin şüası ilə təmas etdirdi. Sonra ona ruh verdi. Həvva isə ondan yaradıldı və o Adəmin υ bir cüzündən törədi. İsa Məsih υ isə Məryəmin

nütfəsindən və mələyin üfürməsindən yaranmışdır. Bu üfürmə başqalarına nisbətdə bir ata rolunu ifa etmişdir.

**Fəsil**

İkinci məsələ odur ki, iki spermadan hansının önə keçməsi, övladın həmin spermanın sahibinə bənzəməsinə səbəbdir. Bununla yanaşı üstün olan sperma öz sahibinə uyğun uşağın cinsini müəyyən etməkdədir. Burada iki məsələ vardır: Birincisi spermanın önə keçməsi, ikincisi isə onun üstün olması. Bunlar bəzən eyni olur, bəzən də fərqli olur. Əgər kişinin sperması önə keçib qadının spermasını üstələyərsə, doğulan uşaq oğlan olub atasına bənzəyər. Əgər qadının sperması önə keçib kişinin spermasını üstələyərsə, doğulan uşaq qız olar və anasına oxşayar. Əgər onlardan birinin sperması önə keçər, digərininki də onu üstələyərsə, doğulan uşaq sperması önə keçənə oxşayar. Qız və ya oğlan olması isə sperması üstün olana nisbət edilir.

Bundan başqa orada anlaşılmaz iki məsələ vardır. Birincisi budur ki, uşağın oğlan və ya qız olması təbii bir səbəbə bağlı deyildir. Bu, yalnız Uca Yaradanın istəyinə bağlıdır. Buna görə də səhih bir hədisdə deyilir: "Mələk deyər: "Ey Rəbbim, oğlanmı yoxsa qızmı (olacaq)? Onun ruzisi nədir? Əcəli nə qədərdir? Xoşbəxtdirmi, yoxsa bədbəxt? Allah I istədiyi kimi hökm verər və mələk də onu yazar". Xoşbəxtlik, bədbəxtlik, ruzi və əcəlin təyin olunması kimi, uşağın oğlan və ya qız olması da hər şeyi bilən (əl-Alim) və hər bir şeyin yaradıcısı (əl-Xaliq) olan Allah`ın I təqdir etdiyi qədərə bağlıdır. Sövbanın hədisinə gəlincə isə, Muslim bu hədisi təklikdə rəvayət etmişdir. Buxarinin rəvayətində isə hədis belədir: "Onlardan hansının nütfəsi üstün olsa və ya önə keçsə, uşaq da ona bənzəyir".

Sonraki məsələ uşağın iki kişi arasında mənsəbcə kimə məxsus olduğunu aydınlaşdırmaq lazım gəldiyi zaman, bənzətmə anaya deyil, ataya oxşar vəsflərinə görə seçilir. Buna görə də Peyğəmbər ρ öz qadınını zinada ittiham edən və uşağın özünə deyil qarşı tərəfə məxsus olduğunu iddia edən, bu zaman isə qarşılıqlı lənətləşənlər haqqında demişdir: "Ona baxın, əgər uşaqda bu kimi vəsflər varsa o, Şərik ibn Səmhəyə (yəni ittiham olunan tərəfə), bu kimi vəsflər varsa da o, Hilal ibn Umeyyəyə məxsudur".[221] Burada vəsf olunan oxşarlıq anaya deyil, ataya nisbətdə etibara alınmışdır.

Bu iki anlaşılmaz görünən məsələyə cavab isə belədir: Birinciyə gəlincə, Allah I nütfənin ana bətninə düşməsindən son halına qədər səbəbləri təqdir etmişdir. Bədbəxt, xoşbəxt olmaq, ruzi, əcəl və müsibət kimi şeylər Allah`ın I təqdir etdiyi səbəblərə bağlıdır. Ata-anaya bənzərliyin səbəbi olduğu kimi doğulan uşağın oğlan və ya qız olmasının da səbəbi olması inkar olunmaz həqiqətdir. Bu birbaşa səbəbin özünə bağlı məsələ deyildir. Əksinə Allah I istədiyi zaman Öz hökmü ilə bunu edir. Bununla yanaşı əgər o səbəbin əksinin olmasını istəyirsə bunu da edir. Allah I bəzən o cür, bəzən də başqa cür edərək, yalnız Öz istədiyi şeyi həyata keçirir. Vacib olan Allah`ın I istəməsidir. Səbəb isə, onun üzərində işin həyata keçməsidir. Olmasına hökm edilmiş şeyin həyata keçməsi birbaşa olaraq ondan asılı deyildir. Səbəb idarə edən bir hakim deyil, idarə ediləndir. Uşağın oğlan və ya qız doğulması səbəbinin olması ilə mələyin Rəbbindən mövcud embrionun qədərini soruşması arasında bir ziddiyyət yoxdur. Buna görə də

[221] Müslim: 1497. Nəsai.

Allah I uşağın oğlan və ya qız olaraq dünyaya gəlməsinin sırf Öz istəyi, elmi və qüdrətinə bağlı olmasından xəbər vermişdir.

Əgər deyilsə ki, mələyin "Ey Rəbbim! Oğlandır, yoxsa qız? Ruzisi nədir? Əcəli nə vaxtdır?" sözləri nə mənadadır? Bu suala belə cavab vermək olar ki, o, birbaşa atanın özünə bağlı səbəb deyildir. Hətta başqa səbəblərlə də əldə edilməsi mümkündür. Bəli, uşağın oğlan və ya qız olması sırf cinsi münasibətdən qaynaqlanan səbəblə olur. Burada izah edilməsi nəzərdə tutulan məqsəd, mövcud ümumi səbəblərdən bir səbəbi bildirməkdir. Ancaq mütləq səbəbin özü həmin cütlüyün imkanı xaricindədir. Allah`ın I səbəb olacaq şeyə izin verməməsi nəticənin hasil olmamasına kifayətdir. Uşağın oğlan və ya qız olmasının Allah`ın I istəyindən asılılığı, səbəbin hasil olması ilə ziddiyyət təşkil etmir. Yaxud o ikisinin (oğlan və ya qız uşağının) bir səbəbə bağlı olması isə Allah`ın I istəyinə istinad edilməsinə zidd deyil. Bütün bunlarda məqsəd təkcə səbəblə kifayətlənməməyi izah etməkdir. Ən doğrusunu bilən isə Allah`dır I.

**Fəsil**

Üçüncü məsələyə gəldikdə isə, uşağın nəsəbini təyin edən mütəxəssisin onun anaya deyil, ataya oxşarlığına etibar etməsidir. Bu ona görədir ki, uşağın anaya aid olması məlum bir şeydir, bunun üçün də oxşarlıqda o, nəzərə alınmır. Bu zaman (nəsəbini təyin etmək lazım olduqda) onun anaya bənzəməsinin bir o qədər də fərqi yoxdur. Uşağın nəsəbini təyin edən mütəxəssisə, bir uşağın üzərində birdən artıq şəxs atalıq iddiası etdiyi zaman müraciət edilir və onun sözü dəlil olaraq götürülür. Buna görə də Allah Rəsulunun ρ səhabələ-

rinə və fəqihlərin əksəriyyətinə görə bu məsələdə analar deyil, atalar nəzərə alınır. Əgər iki şəxs uşağın özünə aid olduğunu iddia edərsə, bu zaman  həmin mütəxəssis ona baxıb oxşarlığa əsaslanaraq uşağın həqiqi atasını təyin edir. Bu o zaman edilir ki, uşağın anası həmin vaxtda o iki kişidən heç biri ilə evli  deyil. Lakin uşaq doğulduğu müddətdə həmin qadın o kişilərdən biri ilə evli olarsa uşağın evli olmayan tərəfə oxşaması nəzərə alınmır. Bu isə o anlama gəlir ki, nəsəb təyinində oxşarlıq özündən güclü bir dəlilin (evliliyin və s.) olmaması halında dəlil olaraq götürülür.

Eyni zamanda əgər iki qadın uşağın özlərinə məxsus olduğunu iddia edərlərsə, uşaq nəsəb təyin edən mütəxəssisə göstərilir və kimə oxşayırsa, onun olduğuna hökm verilir. Ancaq bu halda da oxşarlıq yuxarıda qeyd etdiyimiz kimi, iki halda uşağın kimə məxsus olduğunu öyrənmək üçün keçərli olur.

İmam Əhmədin iki iddiaçı qadının arasında nəsəb təyin edən mütəxəssisin hökmü haqqında açıqlaması vardır. Ondan yəhudi və müsəlman qadının uşaq iddiasında olmağın hökmü barəsində soruşdular: “Əgər yəhudi qadın iddia etsə ki, müsəlman qadının uşağı onundur. Burada nəsəb təyin edən mütəxəssisin hökmü etibara alınırmı?” O dedi: “Bu necə də gözəldir”. Həmin görüş Şafii məzhəbinin də iki görüşündən ən səhih olanıdır. Ancaq onlar başqa bir görüşdə belə deyirlər: “Burada atanın əksinə olaraq uşağın anasının yəqinliklə bilinmə imkanı olduğu üçün nəsəb təyin edən mütəxəssisin görüşünə etibar olunmaz.” Lakin səhih olan görüş odur ki, iki qadının arasında həmin mütəxəssisin rəyi etibara alınır. Çünki o anaya bənzərliyi nəzərə alır (əsas götürür). Uşaq isə bəzən anaya, bəzən də ataya bənzəyir. Ananın yəqin olaraq bilinməsi mümkün olduğu hal, heç vaxt onun yəqinliklə bilinməməsi

halında mütəxəssisin rəyindən istifadə etməyə mane ola bilməz. Bu qadının ərdə olmasının məchul olduğu zamanda hökm verərkən oxşarlığın etibara alınması ilə eynidir.

Muhəmməd ibn Sirin belə rəvayət edir: "əl-Valid və Sirinin yeddi oğlu ilə birlikdə həcc etdik. Biz onunla birgə Mədinədən keçdik. Orada biz Zeyd ibn Sabitin τ yanına daxil olduqda ona dedilər ki, bunlar Sirinin oğlanlarıdır. Bu vaxt Zeyd τ dedi: "Bu ikisi bir ananın, bu ikisi başqa ananın, bu ikisi isə bir başqa anadan olan oğullardır". Bunları dediyi zaman o, xəta etmədən doğru söylədi".

Hippokrat özünün "Embrionlar" kitabında yazır: "Əgər kişinin sperması qadının spermasından çox olarsa, uşaq atasına oxşayır. Qadının sperması kişinin spermasından çox olduğu zaman isə, uşaq anasına bənzəyir. Sperma bədənin bütün orqanlarından süzülərək gəlir. Sağlam olandan sağlam, xəstədən də xəstə hasil olur. Genetik olaraq keçəl olanın uşağı keçəl, ala gözlününkü ala gözlü, çəpgözünkü də çəpgöz olur. Bədənin əti isə ətlə inkişaf edərək artır və bununla da onun oynaqları yaradılır. Embrionda olan bənzərliklər adətən sahiblərinin əlamətləri ilə eyni olur. Bu zaman kor olanlardan kor, bədənində iz yaxud xal olanlardan da xallı uşaq doğulur. Bununla yanaşı digər əlamətlər də onda özünü göstərir. Bəzən doğulan uşaqlar ulu babalarına, bəzən də atalarına oxşayırlar. Bir çox hallarda isə oğlan uşaqları atalarına, qız uşaqları isə analarına bənzəyirlər".

## Fəsil

**Uşaqların bəzən gözəl bəzən isə çirkin olması onlara digər kənar səbəblərin təsir etməsi ilə də olur**

Ona təsir edən səbəblərdən valideynlərin xüsusilə də ananın spermasının ananın bətninə düşdüyü vaxtdan embriona çevrildiyi vaxta qədər onun düşündüyü fikirlər, gördüyü, müşahidə etdiyi, sevdiyi, arzuladığı və darıxdığı şəxsləri düşünməsi kimi şeylərdir. Bu zaman fikirləri və istəyi onlar haqqında davamlı olarsa rüşeym də həmin düşündüklərinin şəklinə bənzəyir. Çünki onun təbiətində bir keçiricilik xarakteri vardır. Onun bunu qəbul etməsi və onun üçün hazırlanması hamıya məlumdur.

Mənə Qahirədə baş həkim olan bir şəxs belə bir hadisə danışdı: "Qardaşımın oğlunu gözünə sürmə çəkən insanların yanında otuzdurmuşdum. Bir az oturandan sonra yanıma gözü iltihablı halda gəldi. Gözü sağalanda təkrar yenə də iltihablanırdı. Bildim ki, onun gözləri bu xəstəliyə yoluxmağa meyillidir. İnsanın təbiəti keçirici olanları qəbul etməyə açıqdır".

Həkimlər qeyd edirlər ki, hamilə qadının daimi heyva və alma yeməyi adət etməsi uşağın üzünü gözəlləşdirir və rəngini saflaşdırır. Bununla yanaşı onlar məsləhət görürlər ki, hamilə qadın çirkin sürətlərə, qorxulu mənzərələrə baxmaqdan, insana pis təsir edən rənglərdən, dar və sıxıntı gətirən evlərdən uzaq olsunlar. Çünki bütün bunlar bir başa ana bətnində olan uşağa təsir edir.

**Fəsil**

Hippokrat özünün "Embrionlar" kitabında yazır: "Cinsi əlaqə zamanı kişinin sperması qadının cinsiyyət orqanına yığılıb xaricə çıxmır. Bu zaman o, vaginanın ağzında toplaşır vaginanın ağzı onu içəri çəkərək qadının hamilə qalmasına zəmin yaradır. Vaginanın ağzı spermanı içəri uşaqlıq yoluna sovurduğu zaman onun içərisində hər iki sperma qarışaraq hamiləlik prosesinin ilkin mərhələsi tamamlanır. Qadınla kişinin

spermasının xaric olma prosesi eyni vaxtda olanda, hər ikisinin suyu qarışaraq uşaqlıqda yığılır, qadın hamilə qalır. Bunun baş verməsi isə üç vaxtda olur. Cinsi münasibətdən öncə, onunla eyni zamanda və ondan sonra uşaqlığın spermanı qəbul edəcəyi hala gəldiyi zaman. Yəni sperma uşaqlıqda qərar tapır, hər iki sperma birləşir, ondan sonra da sperma bətnə yapışır. Bətn onu düşməkdən və zərərə uğramaqdan qoruyur". Onu da nəzərə çatdırım ki, qeyd olunan səbəblər uşağın dünyaya gəlməsi üçün tək yetərli səbəb deyildir. İlk öncə və tək lüzumlu şey yuxarıda da qeyd etdiyimiz kimi yalnız Allah`ın I istəyidir. Allah I ən doğrusunu biləndir.

**Fəsil**

Embrionun yaranma prosesi tamamlandığı zaman hər şeyə sürət verən (əl-Musavvir), hər bir şeyə forma verən (əl-Bəri), hər şeyin yaradıcısı (əl-Xaliq) olan Allah I ona şəkil verdiyi zaman ilk öncə onun üzərində başı, aşağı hissəsində ayağı yaradılır. Bundan sonra isə Allah I onun doğulmasına izin verdiyi vaxtda uşaq çevrilir və başı aşağıya doğru hərəkətlənərək çıxmağa başlayır və sonra isə digər üzvləri onun ardınca xaric olur. Prosesin bu cür olmasında bütün həkimlər və cərrahlar eyni fikir üzərində ittifaq etmişdir. Bu İlahi yardımın körpəyə və anasına olan mükəmməlliyindəndir. Əgər onun başı birinci xaric olarsa, digər bədən üzvləri də ikinci bir əziyyətə ehtiyac duyulmadan asanlıqla xaric olar. Əgər birinci körpənin ayaqları xaric olarsa, onun əli çıxdığı zaman əlinin uşaqlıqda dolaşıq qalmasına kimsə təminat verə bilməzdi. Əgər bir ayağı xaric olarsa, o zaman da uşağın əlinin digər ayağının orada dolaşıb qalmasına təminat vermək olmaz. Əgər birinci iki əli xaric olarsa,başının çevrilib qalmasına təminat verilməz. Bu

zaman onun göbəyi ya arxasına dolanar, ya boynuna, ya da çiyninə dolanar. Çünki bu zaman onun göbəyi uzun olduğu halda digər orqanlarına dolaşıb qala bilər. Belə olduqda isə göbəyin elə oradaca kəsilərək yaxud içəridən dolaşığı açılaraq çıxarılması lazım gələr ki, bu da uşaqla yanaşı anaya böyük əziyyət verər. Yaxud da bu uşağın əlil və xəstə doğulmasına səbəb olar. Beləcə də hakimlərin Hakimi olan Uca Allah I Öz hikməti ilə onun ana bətnində çevrilərək ilk öncə başının sonra isə digər üzvlərinin çıxmasına hökm vermişdir.

**Fəsil**

**Uşağın ancaq yeddi, doqquz və ya on aylığında doğulduğu zaman yaşamasının, səkkiz aylığında doğulduğu zaman isə yaşamamasının səbəbi**

Embrion yeddi ayını tamamladığı zaman ona hərəkət edib çevrilməsi və xaric olması üçün təbii hərəkət qüvvəsi verilir. Əgər embrion tərkibi və quruluşu baxımından təbiətcə digər uşaqlardan daha güclü-qüvvətli olarsa, o zaman hərəkət etməsilə o bətni əhatə edən və uşaqlığa bitişik olan örtüyü yırtaraq oradan çıxar. Uşaq yeddinci aylığında doğulduğu zaman, sağlam, güclü və qüsursuz olaraq doğular və bu zaman onun hərəkəti heç bir ağrıya səbəb olmaz. Erkən çevrilməsi səbəbilə xəstəliyə də məruz qalmaz. Ancaq embrion zəif olduğu zaman, ana bətnində çevrildiyi əsnada ona zərər toxunar, güclü ağrıya səbəb olar və bu da onun həlak olmasına və ölü olaraq doğulmasına yol açar. Yaxud da o, bu minvalla bətndə qalmağa davam edər və qırx gün içərisində sağalar və gücü özünə qayıdar. Əgər səkkizinci ayın sonlarında doğularsa, xəs-

tə olaraq doğular və xəstəliyindən qurtula bilməz. O bu səbəblə tələf olar, sağalmaz və inkişafdan dayanar. Əgər qırx gündən doqquzuncu aya qədər bətndə qalarsa, özündə qüvvət toplayar və sağlam olar. Xəstə olduğu vaxtdan sonra da sağalması üçün fürsət yaranar. Embrionun bətndə ən sağlam olanı çevriləndən sonra rəhmdə ən çox qalanıdır. Onlar isə onuncu ayda doğulan uşaqlardır. Onuncu və doqquzuncu aylar arasında doğulan uşaqların sağlamlıq halı hansı aya daha yaxın olmasına nisbətdə dəyişir.

Digər qrup həkimlər isə belə demişlər: "Səkkiz aylıq doğulan uşağın yaşamasının mümkün olmamasının əsas səbəbi ona ard-arda iki tərəfli zərərin toxunması səbəbilədir. Birincisi, onun uşaqlığın daxilində doğulmaq üçün yeddinci ayda çevrilmə prosesi, ikincisi isə onun uşaqlıqdakı yeri ilə ümumi mühitin dəyişməsidir. Ümumi mühitin dəyişməsi halı bütün embrionların qarşılaşdığı bir prosesdir. Dəyişilmə rüşeymlərin hamısında olur. Ancaq uşaq yeddi aylığında doğulduğu zaman uşaqlığın daxilində onun çevrilməsi ilə mühit dəyişikliyinin gətirdiyi xəstəlik və zərərlərlə qarşılaşmaqdan qurtulur və yuxarıda qeyd olunan iki davamlı zərbə ilə qarşılaşmır. Doqquz və on aylığında doğulan uşaq isə ana bətnində bu xəstəliklərdən qorunmuş olur və yuxarıda qeyd olunan iki müxtəlif zərər ard-arda ona təsir etmir. Səkkiz aylığında doğulan körpə isə hər iki zərbəyə davamlı olaraq məruz qalır. Buna görə də yaşaması mümkün olmur. Uşaqların hamısı səkkizinci aylığında doğulduqda xəstəliklərə məruz qalır. Bunu göstərən bir fakt da odur ki, hamilə qadınların halları səkkizinci ayda digər öncəki və sonrakı aylara nisbətdə daha da ağırlaşır və pis vəziyyətə düşür. Bu ona görədir ki, anaların hallarına bətnlərində olan körpələrin halları birbaşa təsir edir".

**Fəsil**

Uşağın doğulduğu andaca ağlaması onun sağlam və güclü olmasına dəlalət edir. Əgər uşaq o anlarda əlini, baş barmağını, yaxud digər barmağını bədən üzvlərindən hansınınsa üstünə qoyarsa bu həmin yerin ağrıdığına işarədir. Çünki bütün canlılar təbii olaraq öz əlləri, ağızları, başları quyruqları ilə bədənlərində ağrıyan nöqtələrə işarə edirlər. Uşaq da danışa bilmədiyi üçün digər canlılar kimi öz əli və ya barmağı ilə ağrıyan üzvünə işarə etməkdədir.

**Fəsil**

Uşaqlar ana bətnində xəstəliklərə qarşı doğulduqdan sonrakı hallarına nisbətdə daha güclü olurlar. Bununla yanaşı onlar xəstəliyə qarşı daha dözümlü və səbirli olub daha çox müqavimət göstərirlər. Baxmayaraq ki, doğulandan sonra onlara göstərilən qayğı və diqqət də daha çox olur. Budaqların və şaxələrinin ağaca  bitişik və əlaqəli olduğu müddətcə güclü küləyin, tufanın onu yerindən qopara bilməməsinə, ancaq onu ağacdan kəsib, sonra ayrıca bir qələm çiliyi kimi əkdikdə zəifləməsinə və hətta ən zəif küləyin belə, ona təsir etməsinə bənzəyir. Ana bətnindəki embrionun halı da buna bənzəyir. O, ana bətnində olduğu müddət ərzində üz verəcək əziyyət və çətinliklərə qarşı, doğuşdan sonrakı dönəmə nisbətdə daha güclü və səbirli olur. Ana bətnindən ayrıldıqdan sonra ən kiçik çətinliklərə qarşı belə səbirsiz və zəif olur. Bu meyvənin ağacın üzərində olduqda oradan düşdükdən sonrakı vəziyyətindən daha güclü olmasına bənzəyir.

Alışdığı və asılı olduğu bir mühitdən digər bir mühitə keçən hər bir şey təbii olaraq şiddətlə qarşılanır. Xüsusən də digər mühitə birbaşa keçid olduğu zaman bu özünü daha da qabarıq şəkildə büruzə verir. Eləcə də uşaq ana bətnində alışdığı

və bütün halları ilə bağlı qaldığı bir mühitdən ayrıldığı və başqa bir mühitə bir dəfəyə keçdiyi zaman bu, onun üçün daha da çətinlik yaradır. Belə ki, tədrici olaraq mühit dəyişmək bir başa dəyişməkdən daha yüngül bir prosesdir.

Bu isə onun dünyaya gəldiyi zaman qarşılaşdığı ilk şiddət olur. Sonra isə ardınca biri digərindən daha çox şiddətli olan çətinliklərlə qarşılaşır. Bu çətinliklər isə ya böyük çətinliklə (Cəhənnəm) – hansı ki, ondan daha çətini yoxdur, – ya da böyük rahatlıqla (Cənnət) – hansı ki, orada heç bir sıxıntı və yorğunluq yoxdur – sona çatır.

**Fəsil**

Embrion ana bətnində özünə uyğun olan qidalarla qidalanır. Doğulduqdan sonra anasının südündən özünə lazım olanı əldə etdiyi kimi, ana bətnində də uyğun olan qandan təbii olaraq qida maddələrini özünə cəlb edir. Doğulduqdan sonra öz iştahası və istəyi qədər bunu edir və ehtiyacı olan miqdardan daha artıq alır. Bu zaman uşağın qidalandığı süd tam sağlam və ya pis tərkibli ola bilər. İlk günlərdə daha çox uşağın qusması, ürək bulanması kimi halları da baş verir. O, bədənindəki qarışıq maddələri cəzb edərək ana bətnində görmədiyi ağrıacılara və sıxıntılara məruz qalır. Uşaq bətndə ikən onu əziyyətlərdən, ağrılardan qoruyan uşaqlıq örtüyü ilə örtülü idi. Doğulduğu zaman isə o, adət etmədiyi və öyrəşmədiyi başqa örtüklərlə örtünməyə başladı. Uşaq bunu soyuğu, istini və havanı duyduğu zaman hiss etməyə başlayır. Bir zaman o hər bir ehtiyacını göbəyi vastəsi ilə mötədil və düzgün bölgü ilə alırdı. Sonra isə birdən-birə hər şey dəyişdi. Bu, hamamın içərisində

normal temperaturda müəyyən müddət qaldıqdan sonra dərhal tufanlı havaya çıxmaqla əziyyət çəkənin halına bənzəyir.

Bir sözlə, öyrəşdiyi və və adət etdiyi yerdən anidən onun üçün ən şiddətli və ən çətin olan bir mühitə çıxır. Bu hər şeyi bilən (əl-Alim) və Xaliq olan Allah`ın I kamil hikmətindən biridir. Uca Allah I bununla qulunu onun üçün daha faydalı və daha müvafiq olan yerə çıxarmaq üçün alışdığı və öyrəşdiyi yerindən ayırır. Allah I buna bu kəlamında işarə edir:

لَتَرۡكَبُنَّ طَبَقًا عَن طَبَقٍ ١٩

**Siz mütləq haldan-hala keçib dəyişəcəksiniz.** (İnşiqaq 19)

İnsanın ilkin halı onun nütfə olduğu haldır. Sonra o qan laxtası, sonra ət parçası, sonra rüşeym halını alır, daha sonra isə insan şəklində dünyaya gəlir. Bundan sonra süd əmən dövrü, süddən kəsilmə zamanı, sağlamlıq, xəstəlik, varlılıq, kasıblıq, rahatlıq və sıxıntı kimi hallardan başqa bir hala düşür. İnsan ölənə kimi bütün bu halları keçir. Öldükdən sonra yenidən dirilir. Sonra da Allah I qarşısında hesab üçün dayanır. Bundan sonra isə ya Cənnətə, ya da Cəhənnəmə daxil olur. Ayədə qeyd olunan haldan hala keçməyin də mənası elə budur. O həm də "bir mənzildən başqa bir mənzilə, bir əmrdən başqa bir əmrə keçiriləcəksiniz" deməkdir.

Ayənin təfsirində Səid ibn Cübeyr və İbn Yezid demişdir: "İlk həyatınız olan dünyadan sonra axirətdə olacaqsınız, kasıblıqdan sonra zənginləşəcəksiniz, zənginlikdən sonra da kasıb olacaqsınız".

Əta isə demişdir: "Şiddətdən sonra şiddətə, təbəqədən təbəqəyə yəni, haldan-hala düşəcəksiniz. Buna görə də filankəs

müxtəlif hallara düşdü deyilir”. Amr ibn As τ demişdir: “Mən üç təbəqədə olmuşam. Yəni üç halda olmuşam”.

İbn əl-Ərabi demişdir : “Təbəqə müxtəlif hallar deməkdir”.

Biz rüşeymin ana bətnində nütfə olduğu zamandan doğulana kimi keçirdiyi halları qeyd etdik. Bundan sonra isə onun doğulduğu andan ən sonuna kimi keçirdiyi dövrləri qeyd edərək belə deyirik: “Rüşeym ana rəhmində ağaca möhkəm və qüvvətli şəkildə yapışan bir meyvəyə bənzəyir. Onun vaxtı gəlib çatdıqda ağırlığı, yetişməsi və ana bətninə yapışan damarların oradan qopması səbəbilə artıq orada qalmayaraq ayrılır. Embrion üzərini əhatə edən örtüyü yırtır və orada yaranan yapışqanlı maye rütubət yaradaraq onun ana bətnindən və üzərində olan örtüklərdən ayrılaraq xaric olmasına kömək edir. Bu zaman cinsiyyət orqanı da böyüyərək genişlənir. Bundan sonra böyük orqanlarla birgə onun oradan xaric olması labüd olur. Daha sonra o, tez bir zamanda tam olaraq bayıra çıxır”. Cərrahlar və öz işlərində mahir olan təbiblər həmin prosesi bu cür izah etmişdir. Bu, yalnız insanların keyfiyyətini idrak etmələrindən aciz qaldıqları ilahi bir yardımın və tədbirin sayəsində baş verir.

فَتَبَارَكَ ٱللَّهُ أَحۡسَنُ ٱلۡخَٰلِقِينَ ١٤

**Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır!** (Muminun 14)

Körpə ana bətnindən ayrıldığı zaman, oradan ayrılma səbəbilə fitri olaraq ağlayır. Çünki o yetişdiyi və öyrəşdiyi məkandan ayrılır. Uşaq ana bətnindən ayrıldığı və bu iş tamamlandığı zaman şeytan əlini ona tərəf uzadır. Uşağın qırx günü başa çatdıqda isə ana bətnindən fərqli yeniliklərlə qarşılaşır. Əsasən o, qırx gündən sonra gülməyə başlayır. Bu onun özünü ilk

dəfə olaraq hiss etdiyi zamandır. Onun iki ayı tamam olduqda isə yuxular görməyə başlayır. Sonra da tədricən və yavaş-yavaş ayırd etmə və dərk etmə qabiliyyətləri artır. Bu mərhələnin müəyyən bir yaş həddi yoxdur. İnsanlardan elələri vardır ki, artıq beş yaşından fərqləndirmə prosesi başlayır. Mahmud ibn Rabi rəvayət edərək demişidir: "Yadıma gəlir ki, bir dəfə Peyğəmbər ρ quyularında olan vedrənin dibində qalan suyu üzümə çilədi. O zaman mənim hələ beş yaşım var idi".[222] Bu hədisə əsasən təmyiz (fərqləndirmə) yaşını beş yaş hesab edirlər.

Bəziləri isə bundan daha aşağı yaş həddini qeyd edərək yaşanmış bir sıra hadisələri qeyd etmişlər. İyas ibn Muaviyə demişdir: "Anamın məni doğduğu günü xatırlayıram. Mən qaranlıqdan aydınlığa çıxdım. Sonra yenə təkrar qaranlığa büründüm". Anasından bu haqda soruşduqda o bunun doğru olduğunu demişdir. Anası demişdir: "O, doğulduğu zaman onu bükməyim üçün bir şey yox idi. Buna görə də üstünə böyük bir ləyən qoydum". Qeyd olunan bu hadisə olduqca təəccüblü və nadir hallarda rast gəlinən bir işdir.

Uşaq yeddi yaşına çatdığı zaman fərqləndirmə yaşına qədəm qoyur. "əl-Musnəd" və "əs-Sünən"də də qeyd olunduğu kimi bu vaxt ona namaz qılması əmr olunur. Allah Rəsulu ρ buyurmuşdur: "Övladlarınıza yeddi yaşında ikən namaz qılmağı əmr edin, on yaşında isə onları bunun üçün (namaz qılmasalar) vurun və yataqlarını ayırın".

Peyğəmbər ρ südəmər qız uşağına ata və anası arasında seçim etməyə ixtiyar vermişdir. Bu haqda Əbu Davud "əs-

---

[222] Buxari: 77, Müslim: 33.

Sünən" kitabında rəvayət belə edir: "Rafi ibn Sinan τ İslamı qəbul etdi. Onun yoldaşı isə İslamı qəbul etmədi və Peyğəmbərin ρ yanına gələrək belə dedi: "Qızım mənimlə qalmalıdır. Çünki, mənə daha çox oxşayır və hələ də südəmərdir". Rafi τ isə dedi: "Qızım mənimlə qalmalıdır". Bu zaman Allah Rəsulu ρ buyurdu: "Sən bu tərəfdə otur". Sonra isə qadına dedi: "Sən də bu tərəfdə otur". Sonra uşağı onların ikisinin arasına qoyaraq dedi: "İndi də onu yanınıza çağırın!" Hər ikisi uşağı öz yanına çağırmağa başladı. Uşaq əvvəlcə anasına tərəf meyl etdi. Peyğəmbər ρ dua edərək dedi: "Allah`ım! Onu doğru yola yönəlt!" Bundan sonra uşaq atasına tərəf üz tutdu və atası onu götürdü".[223] Bu yanaşma hökmlərin ən yaxşısı, ağıla və ədalətə ən uyğun olanıdır.

Nəsai Abdu`l-Həmid ibn Cəfər əl-Ənsaridən o, da atasından rəvayət edir ki, babası müsəlman olduğu zaman zövcəsi İslamı qəbul etmədi. O, həddi-büluğa çatmamış oğlunun əlindən tutaraq onu Peyğəmbərin ρ yanına gətirdi. Peyğəmbər ρ atanı bir tərəfdə, ananı da bir tərəfdə oturtdu və uşağa ikisindən birini seçməkdə ixtiyar verərək, belə bir dua etdi: "Allah`ım! Ona doğru yolu göstər!". Uşaq atasına tərəf getdi.[224]

"Musnəd"də Əbu Hüreyrənin τ rəvayət etdiyi hədisdə də qeyd olunur ki, Allah Rəsulu ρ oğlan uşağına atasını və ya anasını seçməkdə ixtiyar verdi."[225]

---

[223] Əbu Davud: 2244. Hədisin isnadı həsəndir. Hakim səhih olduğunu demiş, Zəhəbi də onunla razılaşmışdır.
[224] Əhməd, Nəsai. Hədis həsən hədisdir.
[225] Albani hədisin səhih olduğunu demişdir.

Ata-ana arasında seçimin yaş həddini yeddi ilə məhdudlaşdırmağa gəlincə isə onun Allah Rəsuluna ρ aid olan hədislərdə heç bir əsası yoxdur. Bu barədə ancaq Əli, Əbu Hüreyrə τ kimi səhabələrdən xəbərlər vardır. Üməra əl-Cərmi demişdir: "Əli mənə əmim ilə anamın arasında seçim etmək üçün ixtiyar verdi. O zaman mənim yeddi və ya səkkiz yaşım var idi".[226] Bu, başqa yaşda olan uşağın seçmə haqqının olmayacağına dəlalət etmir. Əksinə, seçim haqqı verilən uşağın yaşının həmin vaxtda da ola biləcəyinə ittifaq edilmişdir.

"əs-Sünən" kitablarında Əbu Hüreyrədən τ rəvayət olunduğuna görə o, belə demişdir: "Bir qadın Peyğəmbərin ρ yanına gəldi və dedi: "Ey Allah`ın Rəsulu! Mənim ərim oğlumu məndən alıb aparmaq istəyir. O, mənə Əbu Anbə quyusundan su gətirir və mənə başqa köməkliyi də dəyir". Peyğəmbər ρ uşağa dedi: "Bu sənin anan, bu da atan. Onlardan hansını istəyirsənsə onun əlindən tut!" Uşaq anasının əlindən tutdu, o da onu götürüb getdi".[227]

Hədisdən aydın olur ki, Allah Rəsulu ρ uşağa seçim haqqı vermək üçün onun yaşını soruşmadı. Sadəcə uşağın quyudan su gətirə bilməsi ona bu haqqı verməyin əsası kimi görünür. Valideynlərdən birini seçməklə bağlı olan mərfu[228] və məvquf[229] hədislərin heç birində seçmə haqqını yeddi yaşla məh-

---

[226] Beyhaqi "əl-Kubra": 418. Albani ravinin məçhul olması səbəbilə hədisin zəif olduğunu demişdir.

[227] Əbu Davud: 2277. Nəsai: 6/185. Hakim hədisin səhih olduğunu demiş, Zəhəbi onunla razılaşmışdır. Albani də hədisi səhih hesab etmişdir.

[228] Sənədi Peyğəmbərə ρ çatan hədis.

[229] Sənədi səhabəyə çatan hədis.

dudlaşdırmağa əsas verəcək bir şey yoxdur. Əksinə dəlillər onu göstərir ki, uşaq nə zaman ata və anasını ayrıd edə bilərsə, o zaman ona seçim haqqı verilir. Allah I ən doğrusunu bilir!

Bununla yanaşı uşağın İslamı qəbul etməsi yeddi yaşdan yuxarı olanlar üçün təyin edilə bilməz. Əksinə nə vaxt İslamı dərk edib, vəsf edə bilərsə, o zaman da onun İslamı səhih olar. əl-Xiraqi bunun üçün uşağın on yaşı olmasını şərt qoşmuşdur. İmam Əhməd də vəsiyyət edə biləcəyi yaşı on yaş kimi qeyd etmişdir. Oğlanları Saleh və Abdullahın, əmisi Əbu Talibin, İshaq ibn İbrahimin, Əbu Davudun və İbn Mənsurun rəvayətlərinə görə, o, uşağın vəsiyyətinin səhih olması üçün on yaşı olmasını şərt qoymuşdur. Əbu Talib ondan "əgər yaşı ondan az olarsa, onda necə?" – deyə soruşduğu zaman onun cavabı "xeyr, olmaz!" olmuşdur. Bu zaman ona İshaq ibn İbrahimin uşağın on yaşında namazı tərk etdiyinə görə döyülməsi rəvayətini dəlil gətirmişdir. Onun on yaşından öncə İslamına hökm etməyə gəldikdə isə, (İbn Qudamə) "əl-Muğni"də belə yazır: "Alimlərin əksəriyyəti uşağın İslamının səhih olması üçün on yaşı şərt qoşmamış və onun üçün bir hədd qoymamışlar. Bunu İbn Munzir İmam Əhməddən rəvayət etmişdir. Çünki əsas məqsəd aydın olduğu halda onun üzərinə artıq bir şey əlavə etməyə ehtiyac yoxdur".

İmam Əhməddən rəvayət olunduğuna görə, o demişdir: "Uşağın yeddi yaşı olanda onun İslamı doğru hesab olunur. Çünki Peyğəmbər ρ buyurmuşdur: "Onlara yeddi yaşlarında namaz qılmağı əmr edin!" Bu, onların həmin yaşda ibadət etməyə əmr olunduqlarına və ibadətlərinin də səhih olduğuna dəlalət edir. Bununla da həmin yaşda dini doğru hesab olunur".

İbn Əbu Şeybə demişdir: "Uşaq beş yaşında müsəlman olsa, onun İslamı doğru hesab olunur. Çünki Əli beş yaşında İslama gəlmişdir". Əbu Əyyub demişdir: "Üç yaşındakı uşağın İslamını doğru hesab edirəm. İstər böyük olsun, istərsə də kiçik, kim haqqa uyğun davranarsa, onun haqq olduğunu təsdiq edərik". Ancaq bu yaşdakı uşaq İslamı anlamaz və nə dediyini də dərk etməz. Onun sözü ilə hökm də sabit olmaz. Burada şeyx üç yaşındakı uşağın İslamının etibara alınması üçün onun İslamı anlamasını şərt qoşmuşdur.

əl-Meymuni demişdir: "Əbu Abdullahdan soruşdum ki, on yaşındakı həddi-büluğa çatmamış uşaq İslamı qəbul edə bilərmi? O dedi: "Onun İslamı qəbul etməsi mötəbərdir". Ona dedim: "Sən buna nəyi dəlil gətirirsən?" O dedi: "Mən onu on yaşına gəlib namaz qılmayanda döyürəm və onların yataqlarını ayırıram".

Fadl ibn Ziyad demişdir: "İmam Əhməddən soruşdum: "Xristian bir uşaq İslamı qəbul edərsə, onunla necə rəftar etmək lazımdır?". O dedi: "On yaşına çatanda onu İslamı qəbul etməyə sövq edirsən. Çünki Peyğəmbər ρ buyurmuşdur: "Övladlarınıza yeddi yaşında ikən namaz qılmağı əmr edin, on yaşında isə onları bunun üçün (namaz qılmasalar) vurun və yataqlarını ayırın". Bu İmam Əhməddən bir rəvayətdir. Ondan gələn başqa bir rəvayətə görə isə, yeddi yaşındakı uşağın İslamı məqbul hesab olunur.

Əbu`l-Haris demişdir: "Əbu Abdullahdan soruşdular ki, kiçik bir oğlan uşağı İslamı iqrar edər və "Lə iləhə illəllah, Muhəmmədən rəsulullah" deyər, kiçik olduğu halda idrak etmədən namaz qılar, sonra da İslamdan dönərsə, az yaşlı olmasına baxmayaraq yenə də onun İslamı səhih hesab olunurmu? O: "bəli" – deyə cavab verdi. Əgər o yeddi yaşına çatarsa, bundan

sonra İslamı qəbul edərsə, ibadətləri yerinə yetirməyə sövq edilir. Çünki Peyğəmbər ρ buyurmuşdur: "Onlara yeddi yaşında ikən namazı öyrədin!". Bu da o deməkdir ki, əgər onu öyrətmək əmr edilmişdirsə bu namazın hökmünü vacib etmişdir.

İmam Əhmədin oğlu Saleh atasının belə dediyini rəvayət edir: "Əgər yəhudi və ya xristian bir uşaq yeddi yaşında ikən İslamı qəbul edərsə, ibadətlərə sövq edilər. Çünki o yeddi yaşında ikən namazla əmr olunmuşdur". Mən "uşaq altı yaşında olsa da?" – deyə soruşdum. O, "Xeyr" – deyə cavab verdi.

**Fəsil**

Uşaq artıq on yaşına çatdığı zaman onun fiziki və əqli qüvvəsi artır, ibadətlərə qarşı dözümlülük formalaşır. Peyğəmbərin ρ əmrinə uyğun olaraq da əgər namazı tərk edərsə, vurula bilər. Onu vurmaqda məqsəd ədəbləndirmək və onu namaza sövq etməkdir. Uşaq on yaşında ikən onda tam başqa bir hal-vəziyyət formalaşır və bu zaman onun fərqləndirmə qabiliyyəti və məlumat imkanları artır. Buna görə də fəqihlərin əksəriyyəti bu halda onun üzərinə iman etməyin vacib olduğu görüşündədirlər. İbadəti tərk etməsi isə onun cəzalanmasına səbəb olar. Bu, Əbu-Xəttabın və digərlərinin görüşüdür. Qeyd olunan görüş, çox güclü bir görüşdür. Baxmayaraq ki, o həddi-büluğa çatmadığı müddətcə dinin əsli olmayan tələbləri etmək mükəlləfiyyətindən azaddır və o zamana qədər onun üzərindən qələm qaldırılmışdır uşaq ona verilən ağlı ilə öz Yaradanını tanımalı və Onun birliyini, peyğəmbərlərinin doğruluğunu

təsdiq etməlidir. Bu zaman onda bu kimi dəlillərə baxma qabiliyyəti vardır. Necə ki, o, elmləri və sənətləri qavrayıb, onları anlama imkanına sahib olmuş və öz dünyasının işlərini dərk etməyə başlamışdır. Bu halda Allah`a I və Onun Rəsuluna küfr etməsində heç bir üzr yoxdur. Çünki, Allah`a I və Onun Rəsuluna ρ olan imanın dəlilləri öyrəndiyi elm və sənətin dəlillərindən daha açıq-aydındır. Allah I buyurur:

وَأُوحِيَ إِلَيَّ هَٰذَا ٱلْقُرْءَانُ لِأُنذِرَكُم بِهِۦ وَمَنۢ بَلَغَ

**Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim.** (Ənam 19)

"Onun çatacağı hər kəsi" yəni "Quranın çatacağı hər kəsi xəbərdar edim" deməkdir. Hər kimə Quran çatıb və onu başa düşübsə, həmin şəxs Quranla xəbərdar edilmiş sayılır. Uşaqların, ruhi xəstələrin və fitrət[230] dönəmində yaşayıb vəfat etmiş kəslərin imtahan olunmaları ilə bağlı nəql olunan hədislər isə, yalnız İslamı qavraya bilməyən kəslərin imtahan olunacaqlarına dəlalət edir. Onlar qiyamət günündə özlərinə dəvətin çatmadığını və İslamı dərk etmədiklərini höccət olaraq gətirəcəklər. Dünyada ikən özünə İslam yetişən, sənətlərin və digər elmi sahələrin incəliklərini anladığı halda İslama qarşı laqeyid

[230] Fitrət əhli dedikdə İslam dəvəti çatmadan dünyasını dəyişən şəxslər nəzərdə tutulur. Buna əsasən İslam dəvəti çatmayan ölkələrin əhalisi, kafirlərin uşaq ikən ölən övladları, kafirlərin dəli olan övladları, İslam dəvəti ona çox qoca olduğu zaman çatan və bununla da nəyə dəvət olunduğunu anlamayan şəxslər aiddir. Onlar axirətdə özlərinə göndərilən peyğəmbər vasitəsilə imtahan olunacaq, yalnız bundan sonra Cənnətə və ya Cəhənnəmə gedəcəkləri bəlli olacaq. Bu, onların axirət hökmünə aiddir. Dünyəvi hökmlərinə gəldikdə isə onlarla küfür əhli kimi rəftar olunur. (Tər.)

qalanlar isə bu bəhanələrlə Allah`ın I qarşısına çıxa bilməyəcək. Həmçinin həddi-büluğa çatmadıqları üçün dünyəvi hökmlərin tətbiq edilməməsi axirətdə onlara layiq olduqları hökmlərin tətbiq edilməyəcəyinə dəlalət etməz. Bu görüş Əbu Hənifə və onun davamçıları tərəfindən nəql olunmuş görüşdür ki, onun da çox güclü əsasları vardır.

**Fəsil**

Uşaq artıq on yaşından sonra həddi-büluğ vaxtına yetişdiyi zaman o, yeniyetmə və ya gənc adlanır. On beş yaşına çatdığı zaman isə artıq ihtilam olmağa (yuxu görməyə) başlayır və onda öncəkindən daha fərqli hallar yaranır. Övrət yerlərində cod tüklər bitir və səsi qalınlaşır, burnunun pərələri genişlənir. Onun həddi-büluğa yetişmə vaxtı şəriət tərəfindən iki əlamətlə təyin olunur. Birincisi ihtilam olması, ikincisi isə müəyyən yerlərdə tüklərin bitməsi. İhtilam olmağa gəldikdə isə Allah I buyurur:

يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لِيَسۡتَـٔۡذِنكُمُ ٱلَّذِينَ مَلَكَتۡ أَيۡمَٰنُكُمۡ وَٱلَّذِينَ لَمۡ يَبۡلُغُواْ ٱلۡحُلُمَ مِنكُمۡ ثَلَٰثَ مَرَّٰتٖ

**Ey iman gətirənlər! Sahib olduğunuz kölələr və həddi-büluğa çatmayanlar yanınıza girmək istədikdə qoy üç vaxtda sizdən izin istəsinlər**. (Nur 58)

Sonra isə Uca Allah I buyurur:

وَإِذَا بَلَغَ ٱلۡأَطۡفَٰلُ مِنكُمُ ٱلۡحُلُمَ فَلۡيَسۡتَـٔۡذِنُواْ كَمَا ٱسۡتَـٔۡذَنَ ٱلَّذِينَ مِن قَبۡلِهِمۡۚ

**Sizin uşaqlar da həddi-büluğa çatanda qoy özlərindən əvvəlkilər yanınıza girmək üçün izin istədikləri kimi izin istəsinlər.** (Nur 59)

Peyğəmbər ρ buyurmuşdur: "Üç nəfərdən qələm qaldırılmışdır. Yatan adam oyanana qədər, uşaq həddi-büluğa çatana qədər və dəli ağlı başına gələnə qədər".[231] Həmçinin o, Muazı τ Yəmənə göndərərkən ona belə buyurmuşdu: "Hər həddi-büluğa çatan kəsdən bir dirhəm cizyə[232] al!" Hədisi Əbu Davud və İmam Əhməd rəvayət etmişlər.

Həddi-büluğa çatmağın müəyyən bir yaş həddi yoxdur. Belə ki, oğlan uşaqlarından bəziləri on iki yaşında, bəziləri on beş yaşında, bəziləri də on altı yaşında həddi-büluğa çatır. Fəqihlərdən Əvzəi, Əhməd, Şafii, Əbu Yusuf və Muhəmməd deyirlər ki, uşaq on beş yaşını tamamladığı zaman onun həddi-büluğa çatdığına hökm edilir. Maliki alimlərinin isə bu məsələdə üç görüşü vardır. Birinci görüşə görə, həddi-büluğa çatmağın yaş həddi on yeddi, ikinci görüşə görə, on iki, üçüncü görüşə görə isə, on beş yaşdır. Bu görüşlər imam Malikdən rəvayət olunmuşdur. Əbu Hənifədən isə bu barədə iki rəvayət vardır. Birinci rəyə görə, bu yaş həddi on yeddi, ikinci rəyə əsasən isə bu yaş həddi on səkkiz yaşdır. Qız uşaqlarında isə bu yaş on yeddidir.

Davud və onun tərəfdarları isə deyirlər ki, həddi-büluğa çatmağın müəyyən bir yaş həddi yoxdur. Bu, ancaq ihtilam olmaqla bilinir. Bu isə güclü bir görüşdür və qəti olaraq Allah

---

231 ƏbuDavud, Nəsai, İbn Hibban, Əhməd. Hakim hədisin səhih olduğunu demiş, Zəhəbi də onunla razılaşmışdır.

232 Cizyə kitab əhlinin (yəhudi və xristianların) müsəlman ölkələrində yaşadıqları halda ödədikləri verginin adıdır. (Tər.)

Rəsulundan ρ həddi-büluğa çatmağın hansı yaşda olduğunu bildirən hədis nəql olunmamışdır. Ancaq həmin yaşı on beş yaşla məhdudlaşdıranların gətirdikləri dəlil İbn Ömərin ψ on dörd yaşında döyüşmək üçün Peyğəmbərdən ρ icazə istədiyi zaman ona icazə verməməsini, on beş yaşında döyüş üçün icazə istəyəndə isə bu dəfə ona icazə verdiyini bildirən hadisədir. Bu hədisin səhih olmasında ittifaq edilməsinə baxmayaraq, orada məhz ona büluğa çatmadığı üçün icazə vermədiyinə dəlil yoxdur. Ola bilsin ki, Allah Rəsulu ρ azyaşlı, zəif olduğu və buna görə də döyüşə güc yetirə bilməyəcəyi səbəbilə icazə verməmişdi. On beş yaşına çatdığı zaman isə onun döyüşə gücü yetəcəyini görərək getməyə icazə vermiş və bu zaman ondan ihtilam olub-olmadığını soruşmamışdır. Çünki, Allah I hökmləri, onların ihtilam olub-olmamasına bağlamışdır. Bununla yanaşı Allah Rəsulundan ρ büluğa çatmağı təyin edən yaş barəsində hədis nəql olunmamışdır. Bu mövzuda yalnız ibn Ömərin ψ hədisi yaşına görə savaşa qəbul edilmədikdən sonra, növbəti ildə rüsxət verilməsini göstərir. Ona görə də fəqihlər arasında büluğa çatma yaşının təyin edilməsində rəy qarşıdurmaları vardır. İmam Əhməddən sabit olan rəy isə uşağın qadına məhrəm olması üçün şərt olan onun ihtilam olmasıdır. Bu isə onun həddi-büluğ vaxtının ihtilamla təyin etdiyini göstərir.

**Fəsil**

Tük bitməsi ilə büluğ vaxtının təyin edilməsinə gəlincə isə o, oğlan və qız uşaqlarının müəyyən yerlərində cod tüklərin çıxmasına əsasən bilinir. Bu zaman həmin yerlərdə yumşaq, zəif və kiçik tüklərin bitməsi etibara alınmır. Bu Əhmədin, Ma-

likin məzhəbi, Şafidən isə nəql olunan görüşlərdən biridir. Başqa bir görüşə görə isə, tüklərin çıxması ilə büluğ vaxtının təyin edilməsi müsəlmanlara deyil, kafirlərə aiddir. Çünki, müsəlmanın büluğ vaxtına çatması kafirdən fərqli olaraq daha açıq-aydındır və bu onun bu haqda məlumat verməsi ilə də qəbul olunur.

Əbu Hənifə səsin qalınlığı və burunun ucunun böyüməsi ilə büluğ vaxtına hökm etmədiyi kimi, tüklərin bitməsinin də burada etibara alınmadığını demişdir. Ancaq tükün bitməsini büluğa dəlalət etdiyinə hökm edən alimlər bu hədisi dəlil olaraq qeyd etmişlərdir. Buxari və Müslimin rəvayətinə görə, Peyğəmbər ρ, Bəni Qureyza (yəhudi qəbiləsi) qəbiləsinə hökm vermək üçün Səd ibn Muazı τ hakim təyin etdiyi zaman, o yəhudiləri döyüşlərdə öldürmək, qadın və uşaqlarını isə əsir almaq hökmünü verdi. Bu zaman gənclərdən döyüşçüləri ayırd etmək üçün, paltarlarını qaldırmalarını cod tükləri çıxanları döyüşçülər sırasına, cıxmayanları isə qadın və uşaqlar sırasına qoşmağı əmr etdi. Atiyyə[233] rəvayət edir ki, mənim döyüşçü və ya uşaq olmağımda şübhə etdilər. Peyğəmbər ρ əmr etdi ki, məndə tüklər çıxmasına baxsınlar. Beləliklə məni qadın və uşaqların sırasına qoşdular. Hökm verməyin bu halı Peyğəmbərin ρ ölümündən sonra səhabələr tərəfindən də davam etdirilmişdi. Ömər τ öz işçisinə əhli kitabdan cizyə alması üçün baxmasını, cizyəni yalnız ülgüc istifadə edənlərdən (cod tükləri cıxanlardan) almasını yazaraq tələb etmişdir. Beyhaqi rəvayət edir ki, bir oğlan uşağı yazdığı şeirdə bir qız haqqında yalan-böhtan iddia etmişdi. Ömər τ ona baxılmasını əmr etdi.

[233] Atiyyə həmin vaxt yəhudilərlə idi.

Baxaraq heç bir tükün çıxmadığını gördüyü zaman ondan hədd cəzasını qaldırdı. Əbu Ubeydullah bildirir ki, onun iftirası həmin qızla zina etdiyini iddia etməsindən ibarət idi.

Osmandan τ rəvayət olunur ki, onun yanına oğurluq ittihamı ilə bir oğlan gətirdilər. O, onun paltarının qaldırılmasını və baxılmasını əmr etdi. Həmin oğlana baxdılar və heç bir tükün çıxmadığını gördükdə, oğurluğa görə əl kəsilmə cəzasını tətbiq etmədilər. İbn Ömərdən τ isə belə dediyi rəvayət olunur: "Əgər həddi-büluğa çatıb çatmaması şübhə altında olan bir uşağa hədd təyini edilməsi lazım gələrsə, bu zaman onun qasığının tüklü olub olmamasına baxmaq lazımdır".

Yuxarıda qeyd olunan dəlillərdən bizə aydın olur ki, cod tüklərin çıxması həddi-büluğa çatmağın əlamətidir. Bu isə istər müsəlman, istərsə də kafirlər haqqında keçərlidir. Digər əldə edəcəyimiz fayda isə büluğu təyin etmək və ya digər zəruri səbəblərdən doğaraq başqa şəxsin övrət yerinə baxmağın caiz olmasıdır.

Ancaq son zamanda yaşayan bəzi alimlərin "onun övrət yerinə baxmaq üçün hər ikisi güzgüyə tərəf çevrilir və ora güzgü vasitəsi ilə baxılır" sözünə gəlincə isə bunun heç bir əsası yoxdur. Çünki bunu nə Allah Rəsulu ρ, nə səhabələr etmiş, nə də öncəki imamlar bu haqda bir söz demişdir.

**Fəsil**

Artıq yetkinlik yaşına çatdığı bilindikdən sonra gənc mükəlləfiyyətlik məsuliyyətini daşımağa başlayır və digər insanların haqqında sabit olan hökmlər ona da tətbiq olunur. Bundan sonra isə onun orta yaş dövrü və ya kamil yetkinlik dövrü başlayır. Zucəc kamil yetkinlik dövrünün on yeddi yaşdan

qırx yaşadək davam etdiyini demişdir. Ətanın İbn Abbasdan τ rəvayətinə görə o da, Yəhya və əs-Suddi də bu görüşdə olmuşlar. Mücahid rəvayət edir ki, o, otuz altı yaş, digər rəvayətə görə isə otuz yaş olduğunu demişdir. əd-Dahhak iyirmi yaş, Muqatil on səkkiz yaş görüşünü dəstəkləmişdir. əz-Zuhri isə tam yetkinlik çağının büluğa çatmaq vaxtından qırx yaşına qədər olduğuna hökm etmişdir.

## Fəsil

İnsan tədricən gücləndiyi və qüvvəsinin artdığı kimi qırx yaşından sonra, yenə də tədricən zəifləməyə və gücünü itirməyə doğru gedir. Uca Allah I buyurur:

ٱللَّهُ ٱلَّذِي خَلَقَكُم مِّن ضَعۡفٖ ثُمَّ جَعَلَ مِنۢ بَعۡدِ ضَعۡفٖ قُوَّةٗ ثُمَّ جَعَلَ مِنۢ بَعۡدِ قُوَّةٖ ضَعۡفٗا وَشَيۡبَةٗۚ يَخۡلُقُ مَا يَشَآءُۖ وَهُوَ ٱلۡعَلِيمُ ٱلۡقَدِيرُ ٥٤

**Sizi zəif bir şeydən (nütfədən) yaradan, zəiflikdən sonra sizə qüvvət verən, qüvvətli olduqdan sonra zəiflik və qocalıq verən Allah`dır. O, istədiyini yaradır. O, Biləndir, Qadirdir.** (Rum 54)

İnsanın qüvvət əldə etmə mərhələsi özündən əvvəl və sonra olan iki zəiflik mərhələsi arasındadır. Onun həyatı da özündən əvvəlki və sonrakı iki ölüm arasındadır. Bir zamanlar o bir nütfə idi, sonra qan laxtası, sonra ət parçası sonra isə ana bətnində olduğu müddətdə rüşeym olaraq qaldı. Doğulduqdan sonra zəif bir körpə, süd əmdiyi müddətdə südəmər uşaq, süddən kəsildikdən sonra isə ilkin uşaqlıq dövrünü yaşayır.

Bu zaman iməkləyərək, yavaş-yavaş yeriyərək, yıxılaraq böyüyür.

Bundan sonra inkşaf mərhələsi getdikcə sürətlənir, dişləri çıxır, yenidən tökülüb daha güclüləri ilə əvəz olunur. Yeddi yaşında fərqləndirmə, on yaşında isə bəzi mükəlləfiyyətlər dövrü başlayır. Yetkinliyə çatdıqdan sonra gənclik dövrünə qədəm qoyur. Bu zaman onun güc-qüvvəti daha da çoxalmağa başlayır. Onun bığları çıxmayıncaya qədər ğuləm (oğlan uşağı) adlanır. Bığları çıxmağa başlayandan saqqalı tamam öz yerini tutduqdan sonra artıq gənc adlanır ki, bu dövr də sürətlə boyunun uzandığı vaxtdır.

Saqqalı çıxdıqdan qırx yaşına qədər dövrü gənclik dövrü adlanır. Qırx yaşından sonra ahıllıq, altmış yaşından sonra isə qocalıq dövrü başlayır. Gücü tamamı ilə tükəndiyi zaman, bel əyilib halı dəyişdikdə artıq qocalığın düşkün çağında olur ki, ölümlə onun arasında əl ilə ağız qədər məsafə qalmışdır.

**Fəsil**

Ona təqdir olunmuş əcəl vaxtı gəldiyində vəfat edər. Uca Rəbbinin elçiləri gələrək onu fanilik evindən baqi – əbədi qalacağı evinə aparar. Mələklər gözün son görmə həddi məsafəsində ölən adamdan aralı otururlar. Sonra isə ölüm mələyi yaxınlaşaraq ruhu onun cismindən geriyə çağırır. Əgər yaxşı biridirsə ona "ey təmiz nəfs" deyə müraciət edər. O, təmiz nəfs təmiz bir cismdə idi. "Sevinərək, təriflə çıx. Müjdələr olsun! Təmiz ruhunla və qəzəblənməyən Rəbbinin rəhmət və reyhanına qovuş". Bu zaman ruh bədəndən su damcısı qabın ağzından axıb töküldüyü kimi (asanlıqla) çıxır. Onun ruhunu aldqdan sonra Allah`ın I elçiləri bir göz qırpımındaca onu Cənnətdən olan kəfur və ətirlə ətirləyər, yenə Cənnətdən olan kəfənlə kəfənlə-

yərlər. Bundan sonra isə onun üçün cənazə namazı qılır, onu ən tez hesab çəkənlər hesaba aparmaq üçün səmanın ilk qatından sonuncu qatına qədər qaldırırlar. Hər qatdan digərinə keçdikcə onun üçün icazə alınar, sonra isə onun üzünə qapılar açılar. Mələklər onun üçün cənazə namazı qılarlar və onu qısa bir yolla ikinci qata çatdırarlar. Eyni şeyi üçüncü qatda da edərlər, sonra isə dördüncü qatda və nəhayət sonuncu səmaya çatarlar. O səmaya ki, Allah I onun üzərindədir. Bu zaman qul öz Rəbbinə rəbbani salamla müraciət edərək deyər: "Allahummə Əntə`s-sələm va minkə`s-sələm, Təbəraktə yə zə`l-cələli va ikram". (Allah`ım əs-Sələm sənsən, salamatlıq səndəndir. Ey Ucalıq və ikram sahibi, Sən ən Ulu və ən Ucasan) Bundan sonra isə Uca Allah Iistəsə ona səcdə etməyə icazə verəcək, onun üçün Cənnətdən adının yazıldığı səhifə çıxarılar və Uca Rəbbi buyurar: "Qulumun adını İlliyin Cənnətinə yazın, sonra isə onu torpağa geri göndərin. Həqiqətən, Mən onları ondan yaratdım, sonra yenidən ora göndərirəm və daha sonra isə oradan onları dirildib çıxaracam". Bütün bunlardan sonra onun ruhu yer üzərinə qayıdaraq cisminin yuyulmasını, kəfənlənməsini, daşınmasını və basdırılmasını müşahidə edər. Bu zaman o "məni tez aparın, məni tez aparın" deyər və yaxınları onu qəbrinə qoyub getdikdən sonra isə ruhu onun bədəninə geri qayıdar ki, bu səbəblə də onların ayaq səslərini eşitməyə başlayar.[234] Sonra isə onun yanına iki imtahan mələ-

---

[234] Bu hədis ölünün yalnız basdırıldıqdan sonra eşidə biləcəyinə dəlildir. Çünki hədisdə qeyd olunan yalnız o haldır. Həmin məsələ qeybi bir məsələ olduğu üçün ölünün mütləq olaraq hər zaman eşidəcəyinə qiyas edilə bilməz. Çünki, qeybi məsələlərdə yalnız nasslarla sabit olan dəlil olaraq götürülür, qiyas etmək isə batildir. Belə ki, ölünün eşitməyəcəyinə dair Qurani Kərimdə və digər hədislərdə bir çox dəlillər vardır. Uca Rəbbimiz buyurur: **"Dirilərlə ölülər də eyni deyillər. Şübhəsiz ki, Allah istədiyinə haqqı**

yi[235] gələr və ondan Rəbbinin kim olduğunu, dininin nə olduğunu və peyğəmbərinin kim olduğunu soruşar. O isə cavabında "Rəbbim Allah I, dinim İslam, peyğəmbərim isə Muhəmməddir ρ deyər. O, bu cavabları verdikdə mələklər onun dediyini təsdiq edər və onu müjdələyərək deyərlər: "Sən bu dediklərin üzərinə yaşadın, onun üzərinə öldün və onun üzərinə də diriləcəksən".

Bundan sonra, onun qəbirdəki yeri yaşıllıqla döşənərək gözünün görəcəyi yerə qədər genişlənir. Onun yanına gözəl üzlü, xoş ətirli gənc gələrək deyər: "Səni sevindirən şeylərlə sənə müjdələr olsun". Həmin şəxs gəncdən: "Sən kimsən? Üzündə bir xeyir vardır" – deyə soruşar. O isə deyər: "Mən sənin saleh əməllərinəm". Bundan sonra ona Cəhənnəmdən bir yer göstərilərək deyilər: "Bax, bu sənin Cəhənnəmdəki yerin idi, Allah I səni ondan uzaqlaşdırdı". Sonra isə Cənnətdən bir yer göstərilərək deyilər: "Bu isə sənin Cənnətdəki yerindir.

---

**eşitdirir. Sən isə qəbirlərdə olanlara eşitdirə bilməzsən".** (Fatir 22) Başqa bir ayədə isə deyilir: "**Şübhəsiz ki, sən nə ölülərə haqqı, nə də üz çevirib gedən karlara çağırışı eşitdirə bilməzsən**". (Rum 52) Bu ayədə Allah I kafirləri eşitməməkdə ölülərə bənzədir. Bu da o deməkdir ki, ölülər eşitmədiyi kimi kafirlər də eşitmir. Deməli ölülərdə eşitməmək sifəti vardır ki, Allah I da kafirlərin bu halını onlara bənzətdi. Ayənin (Rum 52) davamında onlar həm də eşitməməklə karlara bənzədilir. Allah Rəsulu ρ ona salam verənin salamını harada olursa olsun, mələklərin ona çatdıracağını demişdir. Bu da dəlildir ki, Allah Rəsulu ρ özü eşitmir. Sadəcə mələklər ona salamı çatdırır. Harada olursa olsun sözü isə onun qəbrinin yanını da əhatə edir. Bundan başqa bir çox dəlillər ölülərin eşitmədiyini göstərməkdədir. (Tər.)

[235] Münkər və Nəkir adlı mələklər.

Bax, Uca Allah I orada sənə nələr hazırlamışdır". O, bütün orada olanları öz gözləri ilə görər.

Ancaq asi və günahkar nəfs isə yuxarıda qeyd olunanların tam əksi ilə qarşılaşar. Ölüm hökmü gəldiyi zaman, qara üzlü, qorxulu sifətli mələklər nazil olar və özləri ilə oddan olan kəfur və kəfən gətirərlər. Gözünün gördüyü son nöqtəyə qədər məsafədə oturarlar. Canları almaqla mükəlləf olan ölüm mələyi yaxınlaşar "Xəbis nəfs, çıx!" – deyə, onu çağırar və daha sonra belə deyər: "Sən həm də xəbis bir cəsəddə idin və səni gözləyən yanar odlu qaynar su və Cəhənnəm əhlinin yaralarından axan irinlə sənə "müjdə" olsun!" Ruhu bədənin dərinliyindən damarları və sinirləri kəsilərək tikanın yaş yundan çıxarıldığı kimi əziyyətlə çıxar. Onun canı alındığı zaman bir göz qırpımında alınmaz.

Ondan yer üzərində olan çürümüş leş iyi gəlməyə başlayar. O, oddan olan hənuta (kəfur və ya başqa qoxu maddəsi) və oddan olan kəfənə bükülər. Yer və göy arasında olan bütün mələklər ona lənətlər yağdırmağa başlayar. Sonra o, dünya səmasına qaldırılar və səmanın qapısı açılması üçün izin istənilər, ancaq onun üzünə qapı açılmaz. Sonra aləmlərin Rəbbindən bir çağırış gələr: "Onun kitabını dar bir məhbəsə göndərin və onu yerə qaytarın. Onun ruhu qovularaq yerə atılar. Bu zaman o yuyulmasını, kəfənlənməsini, daşınmasını müşahidə edər, bədəninə baxaraq deyər: "Vay olsun onun halına! Vay olsun onun halına! Onu haraya aparırlar axı belə?"

Qəbrinə qoyulduqdan sonra, ruhu geriyə qaytarılar və iki mələk gələrək ondan Rəbbinin kim olduğunu, dininin nə olduğunu və peyğəmbərinin kim olduğunu soruşmağa başlayar. Ancaq, o dili dolaşa-dolaşa "Bilmirəm, bilmirəm" deyər. Bundan sonra mələklər ona elə bir zərbə ilə vurarlar ki, qışqırıq sə-

sini insanlardan və cinlərdən başqa hər kəs eşidər. Qəbri onun üçün daha da dar hala gələrək onu elə sıxar ki, qabırğaları bir-birinin içinə girər və yeri odla döşənər. Cənnətə bir qapı açılaraq: "Oraya bax, Allah I onu səndən uzaq etdi" deyilər. Sonra isə Cəhənnəmdən bir qapı açılaraq deyilər: "Oddan olan oturacağına bax!". O isə hamısını görər. Bundan sonra onun yanına çox çirkin şəkildə biri gətirilər. Həmin şəxs onu görcək: "Sən kimsən? Sənin üzündən şər yağır" deyir. O isə: "Mən sənin pis əməllərinəm" – deyərək cavab verər.

Mömin öz əməli qarşılığında, bərzəx[236] həyatında nemətlər içərisində olur. Facir, günahkar birisi isə, öz günahı qarşılığında qəbir əzabı çəkməyə başlayır. Hər bir bədən üzvü öz etdiyi cinayətin qarşılığında əzabını dadır. İnsanların ətlərini yeyərək[237] onların irz və namuslarını müzakirə edənlərin dodaqları oddan olan qayçı ilə doğranacaqdır. Yetimlərin mallarını yeyənlərin yedikləri qarınlarında oda dönərək qaynayacaqdır, riba (faiz) yeyənlərin ətləri daşlarla çeynənəcək, xəbis yolla qazandıqları var-dövlət içində üzdükləri kimi qan çaylarında üzəcəklər. Fərz namazlarına yatıb qalanların başları böyük daşlarla əziləcəkdir. Böyük yalançıların dodaqları başlarına qədər dəmir kəlbətinlərlə cırılacaq, burun deşikləri və göz pərdələri də yarılaraq başlarına qədər qaldırılacaqdır. Necə ki, onlar, yalanları ilə dünyada başqalarını məhv etdilər. Zinakar qadınlar öz döşlərindən asılacaq, zinakar kişilərlə birgə odlanan təndirlərdə həbs olunacaqlar. Onların asilik etdikləri yerləri yəni aşağı hissələri bu əzabı dadacaqdır.

---

236 Qəbir həyatı, dünya və axirət arasında olan keçid mərhələsi.

237 Qeybətçilərin.

Ağrılar, hüznlər, qəm və kədər bir-birinin ardınca ömürlərini boşa keçirən nəfslər üzərində hakim oldu. Çünki ömürlərini yalnız oyun və əyləncə ilə, boş işlərlə keçirirdilər. İndi isə ağrı və acılar canlarına, qurdlar və zəhərli həşaratlar isə ətlərinə daraşacaq. Allah I, izni ilə dünya aləminin sonunu gətirənə qədər bu beləcə davam edəcək. O zaman ki, qırx gün ard-arda kişilərin spermalarına bənzəyən ağ qalın yağış yağacaq, insanlar ağacların və otların yerdən bitərək çıxdıqları kimi qəbirlərindən qalxacaqlar. Allah I İsrafilə onların dirilməsi üçün surunu çalmağı əmr edəcək. Bu surun üçüncü çağrışı olacaq. Çünki ondan öncə, ölüm və qorxu çağırışları vardır. Yer onların üzərindən aralanacaq, onlar qəbirlərindən qalxıb baxacaqlar. Mömin isə deyəcəkdir: "Əlhəmdulilləhi`l-ləzi əhyənə bə`də mə əmətənə va ileyhi`n-nuşur".[238] (Bizi ölürdükdən sonra diriłdən Allah`a I həmd olsun. Dönüş Onadır.)

Kafir isə belə deyəcək:

قَالُواْ يَٰوَيۡلَنَا مَنۢ بَعَثَنَا مِن مَّرۡقَدِنَاۜۗ هَٰذَا مَا وَعَدَ ٱلرَّحۡمَٰنُ وَصَدَقَ ٱلۡمُرۡسَلُونَ ٥٢

**Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu, Mərhəmətli Allah`ın vəd etdiyi qiyamətdir. Elçilər doğru deyirlərmiş.** (Yasin 52)

İnsanlar yalın ayaqlarla, lüt və sünnətsiz məhşər meydanına yönləndiriləcəklər. Hər bir kəsin onu məhşərə aparacaq və ona şahidlik edəcək bir şahidi olacaqdır. Onlardan kimisi

---

[238] Yuxu da kiçik ölüm hesab edildiyi üçün yuxudan oyandıqdan sonra da bu dua oxunur. (Tər.)

sevinc içərisində, kimisi isə üzüntüdən boğulacaqdır. Bəziləri güləcək, bəziləri isə ağlayacaqdır.

وُجُوهٌ يَوْمَئِذٍ مُّسْفِرَةٌ ٣٨ ضَاحِكَةٌ مُّسْتَبْشِرَةٌ ٣٩ وَوُجُوهٌ
يَوْمَئِذٍ عَلَيْهَا غَبَرَةٌ ٤٠ تَرْهَقُهَا قَتَرَةٌ ٤١

**O gün neçə-neçə üzlər parlayacaq, güləcək və fərəhlənəcəkdir. O gün neçə-neçə üzlərə toz-torpaq hopacaq, onları zülmət bürüyəcəkdir**. (Əbəsə 38-41)

Vaxtları tamam olana qədər hər kəs yer üzündə duracaq. Göy yarılıb-parçalanacaq, ulduzlar səpələnəcək, səmanın mələkləri yer üzünə enərək onları əhatəsinə alacaq. Sonra ikinci səmanın mələkləri yer üzünə enəcək və mələklər dünya səmasını bürüyəcək, ard-arda bütün səmalardakı mələklər də bu şəkildə enəcək. Onlar bu halda ikən, bütün eyblərdən münəzzəh olan aləmlərin Rəbbi onların arasında hökm etmək üçün gələcək. Yer Onun Nuru ilə parlayacaq. Möminlər günahkarlardan ayırd ediləcək, tərəzi qoyulacaq və məhkəmə divanı qurulacaq. Şahidlər çağrılacaq və o gün əllər, dillər, ayaqlar və dərilər şahidlik edəcək. Allah I qarşısında onlar bir-biri ilə çəkişərək, biri digərini günahlandıracaq. Hətta ruh ilə cism belə çəkişəcək. Cəsəd deyəcəkdir: "Mən sadəcə bir cisim idim. Nə dərk edir, nə eşidir, nə də görürdüm. Sən ki, ey ruh! Həm eşidirdin, həm görürdün və həm də ağlınla dərk edirdin. Məni istədiyin kimi istədiyin işlərdə yönləndirirdin". Ruh isə deyəcək: "Məni günah işləməyə sən sövq etdin və sən bütün günahları etdin".

Allah I onların arasında hökm etmək üçün bir mələk göndərəcək. Mələk onlara deyəcək: "Sizin ikinizin misalı gözü görən şikəstlə, sağlam olan korun misalına bənzəyir. Onların ikisi birgə bir bostana daxil olur və şikəst belə deyir: "Mən mey-

vələri görürəm, lakin onları dərməyə gücüm çatmır”. Kor isə ona deyir: “Mən də ayağa dura bilirəm, ancaq heç nə görmürəm”. Şikəst deyir: “Meyvəni dərməyim üçün məni onun yanına apar!” O da ona kömək edir və meyvəni dərirlər. Mələk onlardan soruşacaq: “O zaman cəza bunlardan hansına düşür?” Onlar deyəcəklər: “Hər ikisinə də”. Mələk deyəcək: “Bax, sizin də halınız belədir”.

Allah I qullarının arasında elə hökm verəcək ki, bütün yer və göy əhli, bütün yaxşılıq sahibləri və günahkarlar, möminlər və kafirlər Ona bunun üçün həmd edəcəklər.

وَتُوَفَّىٰ كُلُّ نَفۡسٖ مَّا عَمِلَتۡ وَهُمۡ لَا يُظۡلَمُونَ ١١١

**Hər kəsə etdiyi əməllərin əvəzi tam veriləcək və onlara zülüm edilməyəcək.** (Nəhl 111)

فَمَن يَعۡمَلۡ مِثۡقَالَ ذَرَّةٍ خَيۡرٗا يَرَهُۥ ٧ وَمَن يَعۡمَلۡ مِثۡقَالَ ذَرَّةٖ
شَرّٗا يَرَهُۥ ٨

**Zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır. Zərrə qədər pislik edən də əvəzini alacaqdır.** (Zilzəl 7-8)

Bundan sonra bir carçı səslənərək deyəcək: “Hər bir ümmət özünün ibadət etdiyi şey ilə gəlsin!” Bütpərəstlər öz bütləri, xaçpərəstlər öz xaçları, bütün müşriklər öz ibadət etdikləri məbudları ilə toplanacaq. Onlardan qaçıb qurtula bilməyəcəklər və beləcə birlikdə Cəhənnəmə atılacaqlar.

Bu zaman yalnız muvahhidlər[239] qalacaq və onlara deyiləcək: “İnsanların axınla getdiyi yerə getmirsinizmi?” Onlar deyəcəklər: “Biz insanlara ən çox ehtiyac duyduğumuz anlarda

---

[239] Tövhid əhli yalnız Allah`a ibadət edib, Ona heç bir şeyi şərik qoşmayanlardır.

belə onlardan ayrılmışdıq. Bizim bir Rəbbimiz var və biz Onu gözləyirik. Onlardan soruşacaqlar: "Sizinlə Onun arasında elə bir əlamət varmı ki, Onu gördüyünüz zaman tanıyasınız?" Onlar deyəcəklər: "Bəli, şübhəsiz ki, Onun heç bir bənzəri, tayı-bərabəri yoxdur. Həmin an Allah I onlara Onu tanımadıqları bir surətdə təcəlli edəcək və belə deyəcək: "Mən Sizin Rəbbinizəm". Onlar isə deyəcəkdir: "Biz səndən Allah`a I sığınırıq. Bizim yerimiz buradır və biz burada Rəbbimiz gələnə kimi gözləyəcəyik. Rəbbimiz gəldiyi zaman isə biz Onu tanıyacağıq. Bu zaman Uca Allah I, Onu ilk dəfə gülən halda gördükləri surətdə onlara təcəlli edəcək və "Mən sizin Rəbbinizəm" deyəcək. Onlar da deyəcəklər: "Bəli, sən bizim Rəbbimizsən". Ona səcdə etmək üçün yerə qapanacaqlar. Lakin, dünyada ikən namaz qılmayan və ya riyakarlıqla namaz qılan kəslər səcdə edə bilməyəcəklər. Onlar səcdə etməyə çalışdıqları zaman maneə ilə qarılaşacaqlar". Sonra Allah I oradan ayrılacaq[240] və onlar da Onu təqib edəcəklər. Körpü qurulacaq və insanlar ona tərəf yönləndiriləcəklər. O körpü zəif, ensiz və zülmətlər içindədir. Oranı nur olmadan keçmək mümkün deyildir. Onlar oraya çatdıqları zaman aralarında nur bölgüsü qurulacaq və hər bir kəs dünyada ikən imanlarının, ixlaslarının və əməllərinin nisbətində nur əldə edəcəkdir. Orada nurlardan bəziləri günəş kimidir, bəzisi ulduzların nuru, bəzisi də öz güc və işıqlılığında çıraq kimidir.

---

[240] Uca Allah`a I olan sifət və feillərə keyfiyyət vermədən, heç bir şeyə bənzətmədən, təvil və inkar etmədən iman edirik. Çünki biz Onun feillərini və sifətlərini dərk edəcək və təsəvvür edəcək gücdə deyilik. Onun bənzəri yoxdur və O eşidən və görəndir. (Tər.)

Əmanət və qohumluq əlaqəsi "Sirat" körpüsünün yanına göndəriləcək. Xainlər və qohumluq əlaqəsini kəsənlər onu keçə bilməyəcəklər. İnsanların körpünü keçməkləri dünyada ikən doğru yolda (siratə`l-mustəqim) olduqları nisbətə görə dəyişəcəkdir. Bəziləri şimşək sürəti, bəziləri külək sürəti, bəziləri atlı sürəti, bəziləri piyada sürətilə, bəziləri sürünərək, bəziləri də iməkləyərək körpünü keçəcək.

Körpünün ətrafında böyüklüyünü yalnız Uca və İzzət sahibi olan Allah`ın I bildiyi qarmaqlar asılmışdır. Onlar körpüdən keçənlərə onu keçməyə mane olurlar. Bu, dünyaya bağlılığın onlara Allah`a I itaət və ibadət etməyə, Onun razılığını qazanmağa mane olmasına bənzəyir. Müsəlmanlardan kimisi ondan qurtulacaq, kimisinə isə bu qarmaqlar ilişərək üzərində iz buraxacaq, kimisini kəsəcək, kimisini də dartıb oda atacaqdır.

Münafiqlərə verilən nur isə körpüyə çatdıqları zaman sönəcək. Halbuki, ona çox möhtac idilər. Dünyada ikən də onların qəlblərinin nuru artıq sönmüşdü. Onlara küfürləri bəlli olan kafirlərdən fərqli olaraq zahirdə nur verilmişdir. Ancaq dünyada imanları zahirdə olduğu kimi, axirətdə də nur onlara zahirdə verildi. Ehtiyacları olduğu zaman isə onlara fayda vermədi. Bu zaman onlar möminlərə deyəcəklər.

ٱنظُرُونَا نَقۡتَبِسۡ مِن نُّورِكُمۡ

**Bir az gözləyin ki, biz də sizin nurunuzdan alaq...** (Hədid 13) Sonra möminlər və mələklər onlara deyəcək:

ٱرۡجِعُواْ وَرَآءَكُمۡ فَٱلۡتَمِسُواْ نُورٗاۖ

**Geriyə qayıdıb nur axtarın!** (Hədid 13)

Təfsir alimlərindən bəziləri deyirlər ki, onun mənası "dünyaya qayıdın möminlərin etdiyi kimi siz də iman edərək nur qazanıb, körpünü keçin" deməkdir. Digərləri isə belə demişlər: "Ayənin mənası belədir: "Geriyə, yəni nurların paylandığı yerə qayıdın və körpünü keçməyiniz üçün nuru oradan alın".

Sonra isə

فَضُرِبَ بَيْنَهُم بِسُورٍ لَّهُۥ بَابٌۢ بَاطِنُهُۥ فِيهِ ٱلرَّحْمَةُ وَظَٰهِرُهُۥ
مِن قِبَلِهِ ٱلْعَذَابُ ١٣ يُنَادُونَهُمْ أَلَمْ نَكُن مَّعَكُمْ ۖ قَالُوا۟ بَلَىٰ وَلَٰكِنَّكُمْ
فَتَنتُمْ أَنفُسَكُمْ وَتَرَبَّصْتُمْ وَٱرْتَبْتُمْ وَغَرَّتْكُمُ ٱلْأَمَانِىُّ حَتَّىٰ جَآءَ
أَمْرُ ٱللَّهِ وَغَرَّكُم بِٱللَّهِ ٱلْغَرُورُ ١٤ فَٱلْيَوْمَ لَا يُؤْخَذُ مِنكُمْ فِدْيَةٌ وَلَا
مِنَ ٱلَّذِينَ كَفَرُوا۟ ۚ مَأْوَىٰكُمُ ٱلنَّارُ ۖ هِىَ مَوْلَىٰكُمْ ۖ وَبِئْسَ ٱلْمَصِيرُ
١٥

**Onların arasına içərisində mərhəmət, çölündə əzab olan qapılı bir sədd çəkiləcəkdir. Münafiqlər onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?" Möminlər deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allah`ın əmri gələnədək xülyalar sizi yoldan çıxardı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı. Bu gün nə sizdən, nə də kafirlərdən heç bir fidyə qəbul olunmaz. Sığınacağınız yer də oddur. Sizə layiq olan elə odur. Ora nə pis dönüş yeridir!** (Hədid 13-15)

O zaman yalnız möminlərə Sirat körpüsündən keçməyə icazə veriləcək, onlardan başqaları isə oradan keçə bilməyəcək. Onlar artıq Cəhənnəm odunun təhlükəsindən qurtulmuşlar. Bəziləri isə, Cənnət və Cəhhənnəm arasında olan körpüdə saxlanılacaq, dünyada ikən öz aralarında kimlər zülmə məruz

qalmışdısa qisası alınacaq, bütün pisliklərdən təmizləndikdən sonra Cənnətə daxil olacaqlar.

Cənnət əhli Cənnətdə, Cəhənnəm əhli də cəhənnəmdə yerləşəndən sonra "ölüm" başında ağ təpəl olan qara bir qoç şəklində gətirilərək Cənnət və Cəhənnəm arasında durdurulacaq. Sonra deyiləcək: "Ey Cənnət əhli!". Onlar buna narahatlıqla baxacaqlar. Sonra belə deyiləcək: "Ey Cəhənnəm əhli!". Onlar bundan ümidə düşəcəklər. Onlara deyiləcək: "Siz bunu tanıyırsınızmı? Onlar "bəli" – deyə cavab verəcəklər. Hər biri onu tanıyacaq. Sonra deyiləcək: "Bu ölümdür". O, Cənnət ilə Cəhənnəmin arasında kəsildikdən sonra deyiləcək: "Ey Cənnət əhli, bundan sonra siz orada əbədi qalacaqsınız, artıq sizə ölüm yoxdur. Ey Cəhənnəm əhli! Bundan sonra siz orada əbədi qalacaqsınız, artıq sizə ölüm yoxdur!"

Bax, bir zaman nütfə olanın sonuncu halı budur. O nütfə ki, insanın yaradılışının başlanğıcı onunla başlayır. O başlanğıcla bu son qayənin arasında insan haldan-hala, formadan-formaya düşərək, hər şeyi bilən əl-Əlim və izzət sahibi əl-Əziz olan Allah`ın I təqdiri ilə bir haldan başqa bir duruma keçidlər etmişdir. Sonda isə son qayə olan ya əbədi səadətə qovuşmuş, ya da əbədi bədbəxtlik və zillətə məhkum olmuşdur.

قُتِلَ ٱلۡإِنسَٰنُ مَآ أَكۡفَرَهُۥ ١٧ مِنۡ أَيِّ شَيۡءٍ خَلَقَهُۥ ١٨ مِن
نُّطۡفَةٍ خَلَقَهُۥ فَقَدَّرَهُۥ ١٩ ثُمَّ ٱلسَّبِيلَ يَسَّرَهُۥ ٢٠ ثُمَّ أَمَاتَهُۥ فَأَقۡبَرَهُۥ
٢١ ثُمَّ إِذَا شَآءَ أَنشَرَهُۥ ٢٢ كَلَّا لَمَّا يَقۡضِ مَآ أَمَرَهُۥ ٢٣

**Qoy ölsün kafir insan! O, necə də nankordur! Qoy baxıb görsün Allah onu nədən yaradıb? Allah onu nütfədən yaratdı və müəyyən şəkildə formalaşdırdı. Sonra da onun yolunu asanlaşdırdı. Sonra onu öldürüb qəbirə yerləşdirdi. İstədiyi**

**bir zaman onu dirildəcəkdir. Xeyr! O, hələ də Allah`ın ona buyurduğunu yerinə yetirməmişdir.** (Əbəsə 17-23)

**Əzəmət sahibi olan Uca Allah`dan istəyimiz odur ki, O, bizi saleh əməl sahiblərindən etsin! Bədbəxtliyin qələbə çaldığı dünya və axirətində ziyana uğrayanlardan etməsin! Həqiqətən də O, duaları eşidəndir. O, bizə yetər. O nə gözəl Vəkildir!**

**Amin! Amin! Amin!**

**Valhəmdu lilləhi rabil Aləmin.**

**Həmd aləmlərin Rəbbi olan Allah`a I, Onun salamı və duası, yaradılmışların ən xeyirlisi və peyğəmbərlərin sonuncusu Muhəmmədin ρ, onun ailəsinin, səhabələrinin üzərinə olsun!**

**Güc və qüvvət sahibi yalnız Uca və Əzəmətli Allah`dır!**

**Mündəricat**

Tərcüməçinin müqəddiməsi.....................................................3
Tədqiqatçının müqəddiməsi....................................................6
Müəllifin müqəddiməsi...........................................................11
Birinci bölüm: Övlad istəməyin müstəhəbliyi (bəyənilməsi)..15
İkinci bölüm: Qız uşağının doğulmasına narazılıq etməyin (qəzəblənməyin) məkruhluğu ..................................................27

Üçüncü bölüm: Uşağı dünyaya gələn kəsi müjdələməyin və onu təbrik etməyin müstəhəb olması........................................34

Dördüncü bölüm: Yeni doğulan uşağın sağ qulağına azan, sol qulağına isə iqamə oxumağın müstəhəb olması.......................39

Beşinci bölüm: Uşağı mayalandırmağın müstəhəb olması......41

Altıncı bölüm: Əqiq və onun hökmləri......................................43
Birinci fəsil: Əqiqin şərii əsaslarının bəyanı.............................43
İkinci fəsil: Əqiqi məkruh görənlərin əsaslandığı dəlillər........44
Üçüncü fəsil: Əqiqin müstəhəb olduğunu bildirən dəlillər.....46
Dördüncü fəsil: Əqiqi məkruh görənlərin dəlillərinə verilən rəddiyə..........................................................................................52
Beşinci fəsil: "Əqiq" sözünün mənşəyi və bu sözlə adlandırılmasının səbəbi...........................................................................54
Altıncı fəsil: Kəsilən qurbanı "əqiq" adlandırmaq məkruhdurmu?..............................................................................................59
Yeddinci fəsil: Əqiqin vacib yaxud müstəhəb olması barədə alimlərin görüşləri və əsaslandıqları dəlillər.............................61
Səkkizinci fəsil: Əqiq kəsməyin müstəhəb olduğu vaxt...........67
Doqquzuncu fəsil: Əqiq qurbanını kəsməyin, onun əvəzinə məbləğcə daha çox olsa belə sədəqə verməkdən daha üstün olmasının bəyanı..............................................................................70

Onuncu fəsil: Oğlan və qız uşaqları üçün kəsilən qurbanın sayı və möv-cud ixtilafların qeyd olunması....................................72
On birinci fəsil: Əqiq kəsməkdə məqsəd, onun hikmət və faydaları.....................................................................................75
On ikinci fəsil: Əqiq qurbanının ətinin bişirilməsinin çiy olaraq paylan-masından üstün olması................................................83
On üçüncü fəsil: Əqiq qurbanlığının sümüklərinin sındırılmasının məkruh olması....................................................................85
On dördüncü fəsil: Əqiq qurbanının kəsim yaşı......................88
On beşinci fəsil: Əqiq qurbanında ortaqlığın doğru olmaması...........................................................................................90
On altıncı fəsil: Əqiq qurbanı üçün qoyunun əvəzinə dəvə, inək kimi heyvanları kəsmək məşrudur (şəriətlə icazəlidir), yoxsa yox?...................................................................................91
On yeddinci fəsil: Əqiq qurbanının ətinin sərf olunmasının açıqlanması...............................................................................92
On səkkizinci fəsil: Əqiq və qurbanlığın bir yerdə kəsilməsinin hökmü.....................................................................................94
On doqquzuncu fəsil: Validеynləri əqiqini kəsməyən övladın büluğa çatdığı zaman özü üçün əqiq kəsməsinin hökmü.............................................................................................96
İyirminci fəsil: Əqiq qurbanının dərisinin və içalatının hökmü.............................................................................................98
İyirmi birinci fəsil: Əqiq qurbanı kəsilərkən nə deyilir?.........103
İyirmi ikinci fəsil: Əqiq kəsməyi ilk həftələr üçün xüsusiləşdirməyin hökmü...........................................................................105
Yeddinci bölüm: Uşağın saçının qırxılması və onun çəkisi qədərində sədəqə verilməsi....................................................107
Səkkizinci bölüm: Uşağa ad verməyin vaxtı və hökmləri......112
Birinci fəsil: Uşağa ad verməyin vaxtı....................................112
İkinci fəsil: Adlardan müstəhəb və məkruh olanlar...............123

Üçüncü fəsil: Müəyyən lazımı səbəbə görə adı başqa bir adla dəyişmək......143
Dördüncü fəsil: Uşağa "Əbu Filan" deyə kunyə qoymağın caiz olması......148
Beşinci fəsil: Uşağa ad vermək ananın deyil, atanın haqqıdır......149
Altıncı fəsil: Ad, kunyə və ləqəb arasında olan fərqlər......150
Yeddinci fəsil: Peyğəmbərimizin adını qoymağın, onun kunyəsini götürməyin və yaxud ayrı-ayrılıqda və birlikdə onlardan istifa-də etməyin hökmü......151
Səkkizinci fəsil: Birdən çox ad qoymağın caiz olması......158
Doqquzuncu fəsil: Ad ilə ad qoyulan arasında olan məna bağlantısının açıqlaması......160
Onuncu fəsil: Yaradılanların qiyamət günü analarının deyil, atalarının adları ilə çağırılmasının açıqlaması......163
Doqquzuncu bölüm: Uşağın sünnət olunması və onun hökmləri......164
Birinci fəsil: Xitan (sünnət) sözünün mənası və mənşəyi......164
İkinci fəsil: İbrahim-xəlil peyğəmbərin və ondan sonrakı pey¬ğəmbərlərin sünnət olunması......165
Üçüncü fəsil: Sünnət etməyin şəri əsasları və onun fitri xislət olması haqqında......169
Dördüncü fəsil: Sünnət olmanın vacibliyi yaxud müstəhəb olması barə-sində olan ixtilaf......171
Onuncu bölüm: Oğlan və qız uşaqlarının qulaqlarının deşilməsi......190
On birinci bölüm: Yemək yemə dövründən öncə qız və oğlan uşaqlarının sidiyinin hökmü......193
On ikinci bölüm: Uşağın ağız suyunun və tüpürcəyinin hökmü......197

On üçüncü bölüm: Paltarlarının halından xəbərsiz olduqda uşaqları namaz-da qucağa almağın hökmü............................199
On dördüncü bölüm: Uşaqları öpməyin müstəhəb olması....200
On beşinci bölüm: Uşaqlara təlim-tərbiyə verməyin və onlar arasında əda-lətli davranmağın vacib olması.........................201
Fəsil: Övladarına bir şey verdikdə yaxud vermədikdə, araların-da ədalətli davranmaq onların haqlarındandır........204
On altıncı bölüm: Uşaqların tərbiyəsinin böyüdükdə onlara tərif gətirməsi haqqında faydalı fəsil.......................................208
Fəsil: Uşağı süddən ayırma vaxtı.............................................212
Fəsil: Süd əmizdirən qadınla cinsi əlaqədə olmaq.................215
On yeddinci bölüm: Adəm övladının nütfə olduğu dövrdən Cənnətdə, yaxud Cəhənnəmdə qərarlaşdığı zamana qədər keçdiyi mərhələlər.................................................................223
Fəsil: Hamiləlik müddəti və bu zaman ərzində rüşeymin fərqli hallara düşməsi...............................................................239
Fəsil: Uşaqların bəzən gözəl bəzən isə çirkin olması onlara digər kənar səbəblərin təsir etməsi ilə də olur........................254
Fəsil: Uşağın ancaq yeddi, doqquz və ya on aylığında doğulduğu zaman yaşamasının, səkkiz aylığında doğulduğu zaman isə yaşamamasının səbəbi............................................257